بسم الله الرحمن الرحيم

T.C. DİYANƏT İŞLƏRİ BAŞQANLIĞI

GENEL YAYIN NUMARASI: 1998
XALQ KİTABLARI: 534

**Kitabın orijinal adı:**
O`NUN GİBİ YAŞAMAK

**Nəşriyyat Direktoru:**
Doç. Dr. Fatih KURT

**Nəşr Koordinasiyası:**
Yunus YÜKSEL

**Editör:**
Prof. Dr. Huriye MARTI

**Dizayner:**
Uğur ALTUNTOP, Ali YÜCEER

Əsər Tədqiqat Komissiyasının Qərarı: **08.06.2021/37**

2023-06-Y-0003-1998
ISBN: 978-625-435-487-8
Sertifika No: 12930

**Çap:**
Epa-Mat Bas. Yay. Prom. San. ve Tic. Ltd. Şti.
+90 312 394 48 63

Əlaqə
Dini Yayınlar Genel Müdürlüğü
Yabancı Dil ve Lehçelerde Yayınlar Daire Başkanlığı
Üniversiteler Mah. Dumlupınar Bulvarı No: 147/A
06800 Çankaya – ANKARA / TÜRKİYE
Tel.: +90 312 295 72 81 • Fax: +90 312 284 72 88
e-posta: yabancidiller@diyanet.gov.tr

# محمد’nun Kimi Yaşamaq

Diyanət İşləri Başqanlığı; Türkiyədə bütün dini xidmətləri həyata keçirməkdən məsul olan yeganə rəsmi qurumdur.



Türkiyə Cümhuriyyəti 1923-cü ildə qədim sivilizasiyanın davamı olaraq qurulmuş bir ölkədir. Sivilizasiyaların kəsişmə nöqtəsi olan Türkiyə əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edir.

# İÇİNDƏKİLƏR


ADI GÖZƏL, ÖZÜ GÖZƏL MUHAMMƏD ....................7

HİLYƏYİ ŞƏRİF:
AY ÜZLÜ, GÜL ÜZLÜ PEYĞƏMBƏR ............................21

ALLAHIN SEÇİLMİŞ BƏNDƏSİ....................................39

O, YAŞAYAN QUR'ANDI .....................................................51

HÖRMƏTƏ VƏ SEVGİYƏ ƏN LAYİQ İNSAN ...........65

HƏZRƏT PEYĞƏMBƏRİN ÜSTÜN CƏHƏTLƏRİ . 77

"MƏNƏ ALLAHIN QULU VƏ RƏSULU DEYİN".......87

"MƏN DƏ SİZİN KİMİ BİR İNSANAM!".......................103

HÖKMÜN QAYNAĞI OLARAQ
PEYĞƏMBƏRİMİZ.............................................................121

DUYĞULU VƏ HƏSSAS PEYĞƏMBƏR...................135

ŞÜKÜR EDƏN BİR QUL OLMAYIMMI?......................149

TƏMİZ, SADƏ VƏ ZƏRİF PEYĞƏMBƏR.................. 171

HƏZRƏT PEYĞƏMBƏRİN ƏŞYALARI .......................181

PEYĞƏMBƏR SÜFRƏSİNDƏ YEMƏK ƏDƏBİ......193

MƏNƏ SÖZÜN ƏSLİ VERİLDİ ....................................207

"MƏN MÜƏLLİM OLARAQ GÖNDƏRİLDİM"........219

PEYĞƏMBƏR NÜMUNƏSİNDƏ TƏSİREDİCİ ÜNSİYYƏT ..... 241
UŞAQLARA VƏ GƏNCLƏRƏ DOST PEYĞƏMBƏR ..... 259
QADINLARIN HÜQUQLARI VƏ ŞƏRƏFİ PEYĞƏMBƏRİMİZİN ZƏMANƏTİNDƏ ..... 271
XANEYİ SƏADƏT: XOŞBƏXTLİK DOLU BİR YUVA ..... 289
YEGANƏ NARAHATLIĞI ÜMMƏTİYDİ ..... 305

# ADI GÖZƏL, ÖZÜ GÖZƏL MUHAMMƏD

Məkkənin hörmətli sakinlərindən olan Əbdülmüttəlib bir neçə ay əvvəl evləndirdiyi oğlu Abdullahın mürüvvətini görməyi arzulayırdı. Ancaq ilahi qədər gənc Abdullahın dünyaya gələcək olan oğlunu görməyə icazə vermir. Əbdülmüttəlib övlad həsrətilə yanıb qovrulan ürəyini oğlunun yadigarı olaraq dünyaya gələn nəvəsilə soyudacaq, onunla təsəlli tapacaqdı.

Gözəllər gözəli nəvəsi üçün əqiqə qurbanı olaraq bir qoç kəsdi. Hamı onun bu sevimli yetimə nə ad verdiyini bilmək istəyirdi. Dərhal soruşdular: “Doğumu münasibətilə bizə ziyafət verdiyin bu oğlunun adını nə qoydun?” “Adını Muhamməd qoydum” – dedi Əbdülmüttəlib.

Bu ad orada olanların eşitdiyi bildiyi adlardan deyildi. Buna görə də yenə də soruşdular Əbdülmüttəlibdən: “Ey Əbul-Haris,

bu uşağa niyə babalarından birinin adını deyil, Muhammməd adını qoydun?" Belə nurlu bir nəvəyə sahib olmağın sevinci ilə aşağıdakı hikmətli cavabı verdi babası: "İstədim ki, onu Uca Allah göylərdə, insanlar da yer üzündə ucaltsın!"[1]

Bəzi alimlərin dediyi kimi əslində nəvəsinə bu adı qoymağı ona Uca Allah ilham etmişdi. Çünki "ucaldılan, şərəfləndirilən, tərifə layiq" mənasına gələn "Muhamməd" adı bütün xeyirli xüsusiyyətləri ehtiva edən bir mənaya sahib idi. Ad ilə adın sahibi arasındakı uyğunluq çox keçməmiş günəş işığı kimi aydın olacaqdı. Fərasət və bəsirət sahibi olan bu baba gözlədiyindən və ümid etdiyindən daha çox şeyə sahib olacaq, elə tam olaraq onun istədiyi baş verəcəkdi. Uca Allah bu sevimli yetimi özü himayə edəcək, ona doğru yolu göstərəcəkdi. Bu qiymətli körpəni son peyğəmbər olaraq seçəcək və onu vəhylə şərəfləndirəcəkdi. Onu yalnız sonuncu kitabında deyil, əvvəlki kitablarda da müxtəlif təriflərlə xatırlayacaqdı. Belə ki, Uca Allah Rəsulunun gələcəyini İncildə həzrət İsanın ağzı ilə müjdələmiş, üstəlik onun gözəl adlarından birini də qeyd etmişdi:

*"Onu da xatırla ki, bir vaxt Məryəm oğlu İsa belə demişdi: "Ey İsrail oğulları! Həqiqətən mən, özümdən əvvəl nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə (sizə) müjdə verən Allahın*

[1] TD3/32 İbn Əsakir, Tarixu Diməşq, III, 32.

*elçisiyəm!"*[2] Həzrət Əlidən rəvayət edilən bir hədisə görə Allah Rəsulu da bir şəkildə ehtimal ki, bu ayəyə istinad etmiş və əvvəlki peyğəmbərlərə verilmədiyi halda ona verilən bu imtiyazlar içərisində "Əhməd" olaraq adlardırıldığına da diqqət çəkmişdir.[3]

Qur'ani-Kərimdə isə Uca Allah onu dörd yerdə "Muhamməd" adıyla yad etmişdi: *"Muhamməd, Allahın Rəsuludur",*[4] *"Muhamməd yalnız bir elçidir...*[5] *İman gətirib yaxşı əməllər edənlərin, Rəbbindən Muhamməddə haqq olaraq nazil edilənə (Qur'ana) inananların günahlarının üstünü örtəcək, onların əhvalını (dünyada və axirətdə) düzəldəcəkdir (yaxşılaşdıracaqdır)".*[6] *"Muhamməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Rəsulu (elçisi) və peyğəmbərlərin sonuncusudur".*[7]

Bu ayənin sonuncu ifadəsində yer alan *"xatəmun-nəbiyyin"*, yəni "peyğəmbərlərin sonuncusu" ifadəsi həm Allah Rəsulunun öz hədislərində,[8] həm də səhabələrin dilində təkrarlanan[9] mühüm bir kəlmə idi.

Bəzi hallarda Muhamməd adını həzrət Peyğəmbər (s.ə.s.) özü də çəkərdi.

Əbu Hüreyrənin rəvayət etdiyinə görə Rəsulullah (s.ə.s.) Qüreyşin ona olan bəzi mənfi münasibətləri

[2] əs-Saff, 61/6.
[3] HM763 İbn Hənbəl, I, 98.
[4] əl-Fəth, 48/29.
[5] Ali-İmran, 3/144.
[6] Muhammәd, 47/2.
[7] əl-Əhzab, 33/40.
[8] B3535 Buxari, Mənaqib 18; T2219 Tirmizi, Fitən, 43.
[9] M3376 Müslim, Həcc, 507.

və davranışları qarşısında belə demişdi: *"Qüreyşin söyməsini və lənətini Allahın məndən necə sovuşdurduğuna təəccüblənmirsiniz? Onlar məni pisləyib söysələr də mən (ucaldılmış) Muhammədəm!"*[10]

Səhabələrdən Bəra ibn Azib Allah Rəsulu ilə Məkkə müşrikləri arasında baş verən Hüdeybiyə müqaviləsində Peyğəmbərimizin adı ilə əlaqədar mübahisəni belə rəvayət edir:

"Peyğəmbər (s.ə.s.) hicrətin altıncı ili Zilqədə ayında ümrə etmək üçün yola çıxdı. Peyğəmbərin Məkkəyə daxil olmasını qəbul etməyən məkkəlilər buna icazə vermədilər. Nəhayət, Allah Rəsulu (növbəti il Məkkədə) üç gün qalmaq üzrə məkkəlilərlə bir sülh müqaviləsi bağladı. Müqaviləni yazdıqları vaxt 'Bu, Allah Rəsulu Muhammədin (s.ə.s.) müqavilə bağladığı yazıdır' başlığını qoyanda məkkəlilərin təmsilçiləri: 'Biz sənin Allah Rəsulu olduğunu qəbul etmirik. Əgər biz sənin Allah Rəsulu olduğunu bilsəydik sənin Məkkəyə daxil olmağına mane olmazdıq. Sən Abdullah oğlu Muhammədsən!' – dedilər. Bunun cavabında Rəsulullah: *"Mən həm Allahın Rəsuluyam, həm də Abdullahın oğlu Muhammədəm!"* – dedi. Sonra da Əliyə 'Rəsulullah' kəlməsini silməsini söylədi. Ancaq həzrət Əli: 'Xeyr, vallah, mən Rəsulullah ifadəsini qətiyyən silmərəm!' – dedi. Bundan sonra Rəsulullah yazını aldı və *'Bu, Muhamməd ibn Abdullahın bağladığı müqavilədir'* şəklində yazdırdı".[11]

[10] B3533 Buxari, Mənaqib, 17; N3468 Nəsai, Təlaq, 25.
[11] B2699 Buxari, Sülh, 6; HM19136 İbn Hənbəl, IV, 329.

Öz soyu ilə əlaqədar bir söhbətində isə Allah Rəsulu özünü *“Mən Əbdülmüttəlib oğlu Abdullah oğlu Muhammədəm”* şəklində təqdim etmişdi.[12]

Məlum olduğu kimi ərəblərdə demək olar ki, hamının bir adı, bir ləqəbi, birdə künyəsi var idi. Ata ilk doğulan oğulun adı ilə çağırılır və “filankəsin atası” şəklində künyə verilirdi. Allah Rəsulunun künyəsi də ilk oğlunun adına bağlı olaraq “Qasımın atası” mənasına gələn “Əbul-Qasım” idi. Bir cəmiyyətdə eyni ad və künyələrin qoyulması isə bəzi qarışıqlığa səbəb olurdu. Bu hal Allah Rəsulu üçün də belə idi.

Cabir ibn Abdullah belə rəvayət edir: “Bizim adamlardan birinin bir oğlu oldu və adını Muhamməd qoydu. Ətrafındakı insanlar bunu eşidəndə ona: “Rəsulullahın (s.ə.s.) adını qoymağına icazə verə bilmərik” – dedilər. O da övladını kürəyinə alıb onu Peyğəmbərin (s.ə.s.) yanına gətirərək belə dedi: “Ya Rəsulullah! Bir oğlum dünyaya gəldi və adını Muhamməd qoydum. Amma qövmün mənə Rəsulullahın (s.ə.s.) adını qoymağa icazə verə bilmərik” – dedilər.’ Bunu eşidən Rəsulullah (s.ə.s.): *“Mənim adımı (övladlarınıza) qoyun, ancaq künyəmi heç kimə verməyin! Çünki mən yalnız Qasım (bölüşdürən) olaraq göndərildim və (bölüşdürmək lazım olan hər şeyi) aranızda bölüşdürürəm”*[13] – buyurdu”.

Cabir, həzrət Peyğəmbərin adını qoymaqla əlaqədar yaşadığı başqa bir hadisəni isə belə rəvayət edir: “Ənsardan bir nəfərin oğlu dünyaya gəldi və adını

[12] T3608 Tirmizi, Mənaqib, 1; HM1788 İbn Hənbəl, I, 209.
[13] B6196 Buxari, Ədəb, 109; M5588, M5591 Müslim, Adab, 3-5.

Qasım qoydu. Biz: 'Sənə Əbul-Qasım ləqəbini verməyəcəyik. Hətta 'gözün aydın' deyərək səni təbrik də etməyəcəyik! (Sənə eyni gözlə baxmayacağıq, eyni hörməti göstərməyəcəyik)' dedik. Bu hadisəni Peyğəmbərimizə (s.ə.s.) danışanda: *"Sən oğlunun adını Abdurrahman qoy!"* – buyurdu".[14]

Ənəs ibn Malikin rəvayət etdiyi bu hadisə Rəsuli-Əkrəmin nə üçün belə bir qadağa qoymaq ehtiyacı hiss etdiyini izah edir: "Həzrət Peyğəmbər bir gün Baqi məzarlığı yaxınlığındakı bazarda idi. Bir nəfər arxadan: 'Ey Qasımın atası!' – deyərək çağırdı. Peyğəmbər dərhal dönüb o adama baxdı. Lakin o adam (başqa birini göstərərək) 'Mən səni çağırmırdım, onu çağırırdım' – dedi. Bu hadisədən sonra Peyğəmbərimiz (s.ə.s.): *'Mənim adımı qoyun ancaq, künyəmi heç kimə verməyin!'* – buyurdu."[15]

Bu hədisdən belə başa düşülür ki, həzrət Peyğəmbər (s.ə.s.) yalnız ona aid olan "Əbul-Qasım" künyəsini öz həyatı boyunca istifadə edilməsini münasib görməmişdi. Peyğəmbərimizdən (s.ə.s.) sonra isə bir insanın oğlunun adını Qasım qoyması və ərəb adətinə görə də "Əbul-Qasım" künyəsinin istifadə edilməsində heç bir problem yox idi. Belə ki, bir dəfə həzrət Əli: "Ey Allahın Rəsulu, səndən sonra övladım olarsa ona sənin adını qoyub, sənin künyəni verə bilərəmmi?", – deyə soruşanda Rəsulullah (s.ə.s.): *"Bəli"* cavabını vermişdi. Həzrət Əliyə görə bu ona verilən xüsusi bir icazə idi.[16]

[14] M5595 Müslim, Adab, 7; B6186 Buxari, Ədəb, 105.
[15] B2120, B2121 Buxari, Büyu', 49.
[16] T2843 Tirmizi, Ədəb, 68; HM730 İbn Hənbəl, I, 95.

Cabirin rəvayət etdiyi başqa bir hədisdə Peyğəmbərimiz (s.ə.s.): *"Mənim adımla adlandırılan insan künyəmi, künyəmi götürən şəxs isə adımı almasın!"* – buyurmuşdu.[17] Buradan belə başa düşülür ki, heç kim həzrət Peyğəmbərin həm adını, həm də künyəsini istifadə edərək hər hansı bir qarışıqlığa səbəb olmamalıdır. Həzrət Peyğəmbərin (s.ə.s.) elə bu barədəki qadağası da bu qarışıqlığın qarşısını almaq üçün idi, onun yaşadığı müddətə aid idi. Vəfatından sonra təkcə həzrət Əli deyil, həzrət Əbu Bəkr, Səd ibn Əbu Vəqqas kimi çox saydakı səhabələr oğullarına, nəvələrinə Muhamməd və Qasım adını qoymuşdular.[18]

Uca Allah bir ayədə sevimli bəndəsini öz adlarından bəziləri ilə yad etmişdi: *"Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə (məşəqqətə) düşməyiniz ona ağır gəlir, o sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir, möminlərlə şəfqətli, mərhəmətlidir!"*[19] Allah-Təalanın iki gözəl adı olan Rauf və Rəhim çox şəfqətli, çox mərhəmətli deməkdir.

Uca Allah Qur'ani-Kərimdə həzrət Peyğəmbərə bəzən *"Ey Rəsul!"*[20], bəzən də *"Ey Peyğəmbər!"*[21] şəklində xitab edir. Yenə Elçisindən söz edərkən onu *"ən-nəbiyyul-ümmiyyu"* (ümmi peyğəmbər)[22] və *"rahmətun lil-aləmin"* (aləmlərə rəhmət)[23] şəklində vəsf

[17] D4966 Əbu Davud, Ədəb, 67; HM9863 İbn Hənbəl, II, 454.
[18] BS19874 Beyhəqi, əs-Sünənul-kübra, IX, 511.
[19] ət-Tovbə, 9/128.
[20] əl-Maidə, 5/41, 67.
[21] əl-Əhzab, 33/45; ət-Təlaq, 65/1; ət-Təhrim, 66/1.
[22] əl-Əraf, 7/157-158.
[23] əl-Ənbiya, 21/107.

edir. Buna əsaslanaraq Allah Rəsulu da özünü "Rəhmət Peyğəmbəri" adlandırır.[24] Yenə ayələrin çoxunda *"Rəsul", "ər-Rəsul", "Rəsulullah", "Rəsuluhu", "Rəsuluna"* kəlmələrinin Peyğəmbərimiz üçün istifadə edildiyini görürük. Yenə Rəbbimiz onu bəzən *"abdinə"* (qulumuz)[25], bəzən isə *"biabdihi"* (öz qulu)[26] adlandırır. Uca Allahın Peyğəmbərimizi özünə aid edərək bu cür adlandırması, şübhəsiz Rəsuluna qarşı bir təltif və şərəfləndirmə xarakteri daşıyır. Bəzi surələrdə isə Uca Allah Elçisinə *"Ey əl-Müzzəmmil!"*[27], *"Ey əl-Müddəssir!"* (Ey örtüsünə bürünən!)[28] şəklində xitab edir. Bu cür xitablar ilk vəhy təcrübəsi əsnasında narahatlıq və həyəcandan yatağına girib örtüsünə bürünən həzrət Peyğəmbərin o ankı halını xarakterizə edir.

Qur'ani-Kərimdə açıq şəkildə qeyd edilən bu adların bir qismi isim, çoxu isə sifətdir. Bütün bu sifətlərin Peyğəmbərimizə aid olub olmadığı isə ixtilaflıdır. Məsələn: *"(Elə bir elçi ki, mələklər arasında) itaət ediləndir, həm də (Allah yanında vəhyə) etibarlı müvəkkildir"*[29] – ayəsində bəhs edilən "əmin" alimlərimizin çoxuna görə Cəbrail, bəzilərinə görə isə həzrət Peyğəmbərdir.[30] Təfsir alimlərimiz: *"Ey insanlar! (Bu Muhamməd) sizə Rəbbiniz tərəfindən dəlil gəlmişdir. Biz sizə aydın bir nur (Qur'an) endirdik"*[31] – ayəsində bəhs

[24] M6108 Müslim, Fəzail, 126.
[25] əl-Bəqərə, 2/23; əl-Ənfal, 8/41.
[26] əl-İsra, 17/1.
[27] əl-Müzzəmmil, 73/1.
[28] əl-Müddəssir, 74/1.
[29] ət-Təkvir, 81/21.
[30] TT24/259 Təbəri, Cami'ul-bəyan, XXIV, 259; KC19/240 Qürtübi, Təfsir, XIX, 240.
[31] ən-Nisa, 4/174.

edilən *"burhan"* kəlməsi ilə Peyğəmbərimiz (s.ə.s.),[32] *"nur"* kəlməsi ilə isə Qur'anın nəzərdə tutulduğunu qeyd ediblər.[33]

Allah Rəsulu yeri gəldikcə öz isim və vəsflərindən özü də bəhs etmişdir. Əbu Musa əl-Əşəridən gələn bir rəvayətə görə Rəsulullah (s.ə.s.) bir dəfə öz adlarını belə sıralamışdır: *"Mən, Muhamməddəm, Əhmədəm (peyğəmbərlərin arxasınca gələn) əl-Muqaffiyəm, (insanların arxamda toplandığı) əl-Haşirəm, Tövbə Peyğəmbəriyəm, Rəhmət Peyğəmbəriyəm"*.[34]

Cübeyr ibn Mutimin rəvayət etdiyi bir hədisdə isə Allah Rəsulu: *"Mən Muhamməddəm, Mən Əhmədəm. Mən küfrün mənimlə məhv edildiyi əl-Mahiyəm. Mən insanların arxamda toplandığı əl-Haşirəm. Mən əl-Aqibəm"* – buyurur.[35] Bəzi rəvayətlərdə *"Və ənə nəbiyyul-məlhamə"* ifadəsi mövcuddur.[36] Böyük dilçi İbn Mənzurun verdiyi məlumatlara görə "məlhəmə" ifadəsi həm "müharibə", həm də "sülh və razılaşma" mənasına gəlir.[37] Ancaq nə üçünsə heç bir vaxt ilk mənası təqdim edilməmiş və bu ifadə daha çox "müharibə peyğəmbəri" şəklində başa düşülmüşdür. Halbuki ikinci mənası nəzərə alınanda ifadə: *"Mən sülh peyğəmbəriyəm, insanların münasibətlərini düzəldirəm"* – mənasına gəlir. Allah Rəsulunun

[32] TT9/427 Təbəri, Cami'ul-bəyan, IX, 427; FM11/95 Razi, Təfsir, XI, 95; KC6/27 Qürtübi, Təfsir, VI, 27.

[33] TT9/427 Təbəri, Cami'ul-bəyan, IX, 427-428; FM11/95 Razi, Təfsir, XI, 95; KC6/27 Qürtübi, Təfsir, VI, 27.

[34] M6108 Müslim, Fəzail, 126.

[35] M6105 Müslim, Fəzail, 124; B3532 Buxari, Mənaqib, 17.

[36] MŞ31684 İbn Əbu Şeybə, əl-Müsənnəf, Fəzail, 1; HM19850 İbn Hənbəl, IV, 405.

[37] LA44/4012 İbn Mənzur, Lisanul-ərəb, XXXX, 4012.

Mədinə dövründə ancaq Allah ona icazə verdikdən sonra[38] müşriklərə qarşı müharibə etmək məcburiyyətində qaldığı isə tarixi bir həqiqətdir. Buna əsaslanaraq həzrət Peyğəmbər "Müharibə Peyğəmbəri" şəklində xarakterizə edilə bilsə də Rəhmət və Mərhəmət Peyğəmbərinin bu müharibələri belə yenə sülh naminə etdiyi, müharibə və sülhdə mərhəmətinin üstünlük təşkil etdiyi unudulmamalıdır. Bütün araşdırmalara görə bu müharibələrin hamısı onun iyirmi üç illik nübüvvət həyatının yalnız yüzdə ikisini əhatə edir. Buna görə həyatının demək olar ki, çoxunu sülhə həsr edən, anlaşma və razılıq naminə çalışan Peyğəmbərimizi (s.ə.s.) "Sülh Peyğəmbəri" olaraq xatırlamaq daha münasib olacaqdır. Beləliklə, yuxarıdakı hədisin "Tövbə Peyğəmbəriyəm, Rəhmət Peyğəmbəriyəm, Sülh Peyğəmbəriyəm" şəklində başa düşülməsi həm sirət (Peyğəmbərimizin (s.ə.s.) həyatı) baxımından, həm də "tövbə, rəhmət və barış" terminlərinin bir-birini tamamlayan kəlmələr və ünsürlər olması baxımından daha münasibdir.

Bəzi rəvayətlərdə həzrət Peyğəmbərin Tövratdakı ad və xüsusiyyətlərindən bəhs edildiyi qeyd edilir. Əhli-kitabı yaxşı bilən səhabələrdən Abdullah ibn Əmr ibn Asa Rəsulullahın (s.ə.s.) Tövratda yazılı olan xüsusiyyətləri haqqında sual veriləndə o belə cavab vermişdir: "Vallah, o, Qur'andakı bəzi xüsusiyyətləri ilə Tövratda da anılmışdır: *"Ey Peyğəmbər! Biz səni şahid, müjdə verən, xəbərdar edən və ümmiləri qoruyan olaraq göndərdik. Sən mənim qulum və rəsulumsan.*

[38] əl-Həcc, 22/39.

*Mən sənə "əl-Mütəvəkkil" adını verdim. (Bu peyğəmbər) Pis xarakterli, qatı qəlbli biri olmadığı kimi, bazar-dükanda qışqırıb-bağıran biri də deyildir. O, pisliyə pisliklə cavab verməz. Əksinə, bağışlayar, əfv edər..."*.[39]

Allah Rəsulunun bu rəvayətdə qeyd edilən xüsusiyyətləri ilə aşağıdakı ayədə sadalananların çoxu eynidir: *"(Ey Rəsulum!) Allahın mərhəməti səbəbinə sən onlarla (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün (Allahdan) bağışlanmaq dilə, işdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən Allah (Ona) təvəkkül edənləri sevər!"*[40]

Peyğəmbərimizin (s.ə.s.) Qur'anda və hədislərdə qeyd edilən adları zənn edildiyi qədər də çox deyil. Bir-birindən gözəl bir neçə ad onun Uca Allahın yanındakı yerini, üstünlüyünü göstərir. Sonrakı dövrlərdə mədəniyyət tariximizdə ayələr və hədislər araşdırılaraq Allah Rəsulu haqqındakı xitab ifadələri və davranışların hər biri sifət-isim kimi bir yerə toplanmışdır. Bir qismi hələ də əlyazma halında, bir qismi isə nəşr edilən əsərlərdə yaxud "Dəlailul-Xayrat" mahiyyətli əsərlərdə olan və Allahın doxsan doqquz gözəl adına, yəni Əsmai-Hüsnanın sayına çatdırmaq üçün Peyğəmbərimizin isim və sifətlərini də doxsan doqquz olaraq təsbit edənlərlə yanaşı onu dörd yüzə, hətta minə qədər çatdıranlar da olmuşdur.

[39] B2125 Buxari, Büyu', 50.
[40] Ali-İmran, 3/159.

Peyğəmbər sevgisinə əsaslanan belə bir axtarışın məhsulu olan bu məcmuələrdəki məlumatları ad olaraq deyil, həzrət Peyğəmbərin müxtəlif sifət və vəsfləri kimi oxumaq lazımdır.

Sevimli Peyğəmbərimizin adlarını toplayan qədim və müasir araşdırmalarda bəzən ayələrdə keçən Beşir (Müjdəçi), Nəzir (Xəbərdar edən),[41] Dai (Dəvətçi), Sirac (Qəndil) və Münir (İşıqlandırıcı)[42] kimi vəsflər də yer tutur. Bəzən də Peyğəmbərimizdən bəhs edən ayələrdəki feillər nəzərə alınaraq Mustafa, Müctəba, Hadi kimi adlar düzəldilmiş və beləliklə, sayı xeyli artırılmışdır. Bundan başqa Qur'andakı Ta-Ha, Ya-Sin, Ha-Mim kimi müxtəlif surələrin başındakı ifadələrlə Peyğəmbərimizə müraciət olunduğu təfsirinə əsasən onlar da adlar siyahısına daxil edilmişdir. Başqa təfsirlərə görə isə bu cür hərflərin nə mənaya gəldiyini yalnız Uca Allah bilir.

Peyğəmbərimizin (s.ə.s.) adlarına qarşı tarix boyu millət olaraq bizim sonsuz həssaslığımız və misilsiz hörmətimiz var. Övladlarına onun adını qoyanlar bu ada lazımi hörmətin göstərilməsinə qarşı tədbirli olmaq üçün Muhammədi köhnə əlifbada olduğu kimi yazmış, lakin "Məhməd" olaraq tələffüz etmişlər. Yenə bu həssaslığın bir nəticəsi olaraq Osmanlı ədəbiyyat ənənəsində Peyğəmbərimizin adı heç vaxt tək olaraq deyil, müxtəlif təzim və hörmət ifadələri ilə yanaşı çəkilirdi. Məsələn, "Fəxri-Aləm, Fəxri-Kainat, Seyyidi-Kainat, Xaceyi-Kainat, Rəsuli-Kibriya,

41 əl-Bəqərə, 2/119.
42 əl-Əhzab, 33/45-46.

Rəsulus-Səqaleyn, Rəsuli-Əkrəm, Xatəmul-Ənbiya, Sərvəri-Ənbiya, Seyyidul-Mursəlin, Rahmətun lil-aləmin, Risalət-Məab, Risalət-Pənah, Zatı-Risalət, Nəbiyyi-Möhtərəm, Sultanul-Ənbiya, Mahbubi-Aləm, Mahbubi-Kibriya" kimi çox sayda mədh sifətləri "Cənab, Əfəndimiz, həzrət" kimi hörmətkar ifadələrlə birlikdə zikr edilir və kitablarda da beləcə yazılırdı.

Əsri-səadətdə müşahidə edilməyən bu davranışın dini bir vacibiyyət deyil, bizə xas ənənəvi və ədəbi və zərif bir davranış olduğunu etiraf etməliyik. Ancaq hər mövzuda olduğu kimi bu mövzuda da ifrata varmamaq lazımdır. Belə ki, həzrət Ömər Peyğəmbərimizin (s.ə.s.) belə dediyini eşitmişdir: *"Xristianların Məryəm oğlunu (İsanı) mədh etməkdə ifrata vardıqları kimi siz də məni mədh etməkdə ifrata varmayın. Şübhəsiz ki, mən Allahın quluyam. Onun üçün mənə 'Allah'ın qulu və rəsulu' deyin"*.[43]

Yenə bu təvəccöh ədəbiyyat və mədəniyyətimizdə onun gözəl adlarını çox sayda şeirlərə, ilahilərə, nətlərə, qəsidələrə, melodiyalara daşımışdır. Onun eşqi ilə yanıb-tutuşan şairlər hisslərini çox vaxt onun adlarını zikr edərək ifadə etmişlər. Ürəkləri peyğəmbər sevgisi ilə dolu neçə-neçə xəttatlar ən gözəl xəttatlıq nümunələri ilə onun adlarını yazmışlar. Məsələn, Şeyx Qalib Rəsul əleyhissalama belə səslənmişdir:

"Sən Ahmədu Mahmudu Muhamməddsən Əfəndim,

Haqdan bizə Sultanı-Müəyyədsən Əfəndim!"

[43] B3445 Buxari, Ənbiya, 48.

Ənənəmizə görə Peyğəmbərimizin mübarək adının zikr edildiyi yerdə ayağı ayağın üstünə atmaq olmaz, atılmışsa dərhal endirilir, uzadılmışsa yığılır. Onun adı eşidilən kimi sağ əl qəlbin üzərinə qoyulur və salavat gətirilərək ona salam və hörmət göndərilir. Bütün bunlar Sevimli Rəsula olan hörmətin, sayğının fərqli şəkildə təzahürüdür. Bu düşüncə Rəsuli-Əkrəmin adını eşitdiyi halda salavat gətirməyənləri qınayan müxtəlif hədislərə əsaslandırılır.[44]

Müsəlmanlar onun gözəl adlarını övladlarına verərkən Muhammməd yaxud Əhməd adlarını qoymağın fəzilətinə dair müxtəlif uydurma rəvayətlərə əsasən deyil[45], bunu yalnız Rəsuli-Əkrəmə olan dərin sevgi və hörmətlərinə görə edirdilər. Əlbəttə, bu seçimin əsas məqsədi övladının adını qoyduğu Rəhmət Peyğəmbərinə oxşaması, onun yolundan getməsi arzusudur. Bu məqamda ata-ananın vəzifəsi gözəl adlar qoymaqla yanaşı övladlarını qoyduqları ada münasib şəkildə böyütmək olmalıdır. Onlar övladlarına Müqəddəs Elçinin mübarək adını daşımağın məsuliyyət və şüurunu da öyrətməlidirlər. Onun adını bir ömür boyu daşıyanlar Sevimli Elçinin əxlaqını nümunə götürməli və onun təlimlərinə uyğun yaşamalıdırlar.

44 T3545 Tirmizi, Də'əvat, 100; EM644 Buxari, əl-Ədəbul-müfrəd, 224.
45 CM1/157 İbnul-Cövzi, Mövzuat, 157; MM80, MM93, MM94, MM95 İbnul-Qəyyim, əl-Mənarul-münif, 57-61.

# HİLYƏYİ ŞƏRİF: AY ÜZLÜ, GÜL ÜZLÜ PEYĞƏMBƏR

Ümmü Mabəd Sevimli Peyğəmbərimizi (s.ə.s.) belə təsvir etdi: "O, tərtəmiz görünüşlü və zərif biri idi. Üzü parlaq idi. Vücudu gözəl idi. Gülərüzlü idi. Nə kök, nə də zəif idi. Çox uzun boylu və qara dərili deyildi. Ağ dərili idi. Gözəl və ahəngli bir görünüşə sahib idi. Təmkinli idi. Gözlərinin qarası və ağı aydın və parlaq idi. Kirpikləri uzun idi."[1] Səsi gözəl idi. Qaşları nazik, uzun və bitişik idi. Saçları qapqara idi. Hündür boylu idi. Saqqalı gur idi. Susanda vüqarlı görünürdü. Danışanda isə bu görünüşünü qoruyur və bir daha vüqarlılığını təsdiqləyirdi. Kəlmə-kəlmə danışırdı. Danışığı o qədər şirin idi ki, kəlmələri ağzından inci dənəsi kimi tökülürdü. Danışığı aydın və açıq idi, sözü nə uzadar və də qısa danışardı. Uzaqdan baxanda

[1] ŞM3485 Əbu Bəkr əş-Şeybani, əl-Ahad vəl-məsani, V, 631.

da insanların ən gözəli və ən sevimlisi idi. Yaxından baxanda da şirin və xoş bir görünüşü var idi. Orta boylu idi. Diqqət çəkəçək və narahat edəcək qədər uzun yaxud qısa deyildi. Belə ki, iki budaq arasındakı bir budaq kimi idi.

Həzrət Peyğəmbəri görən, onunla uzun müddət birlikdə yaşayan bir çox səhabə onun fiziki xüsusiyyətləri, şəxsiyyəti və xarakteri haqqında sonrakı nəsillərə çox məlumat ötürmüşdür. Ancaq bu səhabələrdən biri var ki, Əfəndimizin şəxsiyyətini və xarici görünüşünü onu ilk dəfə görən kimi vəciz, yəni yığcam şəkildə təsvir etmişdir. Əsl adı Atikə bint Xalid olan bu xanım səhabə, daha çox ləqəbi ilə Ümmü Mabəd əl-Hüzaiyyə olaraq tanınır. Məkkənin fəthi əsnasında şəhid olan səhabə Hübeyş (və ya Hüneys) ibn Xalidin bacısı[2] olan Ümmü Mabəd Məkkə və Mədinə arasındakı bir yerdə qövmündən bir az uzaqda yaşayardı. Kamil şəxsiyyəti ilə tanınan, sözünə etimad edilən, ağıllı və iffətli bir xanım idi. Həm də çox səxavətli idi. Uzun illər boyu "Ümmü Mabədin çadırı" olaraq ad-san qazanmışdı.[3] O, səhradan gəlib keçənlərin yemək və su ehtiyaclarını təmin etmək üçün çadırının kənarında oturub gözləyərdi. Belə günlərin birində Rəsulullah (s.ə.s.) dostu həzrət Əbu Bəkr ilə onun qulluqçusu Amir ibn Füheyrə və yola bələdçilik edən Abdullah ibn Ureykit Məkkədən

[2] İBS190 İbn Əbdülbərr, İstiab, s. 190.
[3] İBS924 İbn Əbdülbərr, İstiab, s. 924.

Mədinəyə hicrət edərkən yemək ehtiyaclarını təmin etmək üçün Ümmü Mabədin çadırına getdilər. Allah Rəsulu ondan *"Ət var?"*, – deyə soruşanda Ümmü Mabəd ona südü bol olan bir qoyun gətirdi. Ancaq həzrət Peyğəmbər (s.ə.s.) bunu qəbul etmədi. Rəsulullah (s.ə.s.) çadırın ətrafında çəlimsiz bir qoyun gördü və onun nə vəziyyətdə olduğunu soruşdu. Ümmü Mabəd də "O, çobanın sürüyə qarışdırmadığı, süd verməyən, sısqa bir qoyundur" – dedi. Allahın Elçisi onu sağıb südünü içmək istədiyini bildirdi. Qoyunu onun yanına gətirdilər. *"Ey Allahım! Bu qoyunu bərəkətli elə!"* – deyərək dua edən Rəsulullah (s.ə.s.) südü sağmağa başladı və orada olan kim varsa o süddən doyunca içdi. Nəhayət həzrət Peyğəmbər (s.ə.s.) yol yoldaşları ilə birlikdə çıxıb getdilər. Bir az sonra Ümmü Mabədin həyat yoldaşı Əbu Mabəd gəldi. Süd ilə dolu qabı görüb təəccübləndi və bu südün haradan gəldiyini soruşdu. Ümmü Mabəd: "Müdrik bir adam gəldi və..." – deyərək başına gələnləri danışdı. Əbu Mabəd: "Vallah, o, Qüreyşin hər yerdə axtardığı adamdır" – dedi və onu təfsilatlı şəkildə təsvir etməsini istədi. Ümmü Mabəd Sevimli Peyğəmbərimizi (s.ə.s.) belə təsvir etdi: "O, tərtəmiz görünüşlü və zərif biri idi. Üzü parlaq idi. Vücudu gözəl idi. Gülərüzlü idi. Nə kök, nə də zəif idi. Çox uzun boylu və qara dərili deyildi. Ağ dərili idi. Gözəl və ahəngli bir görünüşə sahib idi. Təmkinli idi. Gözlərinin qarası və ağı aydın və parlaq idi. Kirpikləri uzun idi."[4] Səsi gözəl idi. Qaşları nazik, uzun və bitişik idi. Saçları qapqara idi. Hündür boylu idi. Saqqalı gur idi.

[4] ŞM3485 Əbu Bəkr əş-Şeybani, əl-Ahad vəl-məsani, V, 631.

Susanda vüqarlı görünürdü. Danışanda isə bu görünüşünü qoruyur və bir daha vüqarlılığını təsdiqləyirdi. Kəlmə-kəlmə danışırdı. Danışığı o qədər şirin idi ki, kəlmələri ağzından inci dənəsi kimi tökülürdü. Danışığı aydın və açıq idi, sözü nə uzadar və də qısa danışardı. Uzaqdan baxanda da insanların ən gözəli və ən sevimlisi idi. Yaxından baxanda da şirin və xoş bir görünüşü var idi. Orta boylu idi. Diqqət çəkəçək və narahat edəcək qədər uzun yaxud qısa deyildi. Belə ki, iki budaq arasındakı bir budaq kimi idi. Orada olan üç nəfərdən ən parlaq üzlü və ən qiymətlisi idi. Ətrafında pərvanə kimi dönən dostları var idi. O bir söz deyəndə, sözünə qulaq asır, bir iş buyuranda dərhal yerinə yetirirdilər. (Belə məlum olurdu ki) İnsanların ətrafından ayrılmadığı və qulluq etdikləri biri idi. Onun etdikləri də dedikləri də boş və mənasız deyildi.[5]

Şübhəsiz ki, Əziz Peyğəmbərimizi (s.ə.s.) ən yaxşı təsvir edənlərdən biri də onun ögey oğlu Hind ibn Əbu Halə idi. Hind həzrət Xədicənin əvvəlki həyat yoldaşı Əbu Halə Malik ibn Zürarədən olan oğlu idi.[6] Abdullah ibn Abbas bir gün ona: “Rəsulullahı bizə təsvir et, çünki yəqin ki, onu bizdən daha yaxşı tanıyan sənsən” – deyəndə Hind: “Anam-atam ona fəda olsun!” – dedikdən sonra belə davam etmişdi: “Rəsulullah (s.ə.s.) səssiz biri idi, daima fikirli və kədərli idi. Qısa və əsaslı danışardı. Sözü uzatmazdı, qısa

5 ŞM3485 Əbu Bəkr əş-Şeybani, *əl-Ahad vəl-məsani*, V, 631; ST1/230 İbn Səd, *Təbəqat*, I, 230-231; MK3605 Təbərani, *əl-Mü’cəmul-kəbir*, IV, 48; NM4274 Hakim, *Müstədrək*, V, 1604 (3/10).

6 BM6553 Əbu Nüeym, *Mə’rifətus-səhabə*, V, 2751.

da danışmazdı. Danışdıqlarını (yeri gələndə) təkrar edərdi. Nəsihət verəndə ciddi olurdu, kədərlənirdi. Ona etiraz edəndə üzünü çevirib gedər, səhabələri ilə danışıb sakitləşərdi. Ruzi az olanda da ona hörmətlə yanaşardı. Heç bir yeməyi pisləməzdi. Təbəssüm edərək gülər və güləndə (ağappaq dişləri) dolu dənələri kimi (görünərdi)".[7]

Abdullah ibn Abbasla yanaşı həzrət Xədicənin oğlu Hinddən həzrət Peyğəmbəri təsvir etməsini istəyən başqa bir səhabə də həzrət Həsəndir. O, Allah Rəsulunu ən yaxşı şəkildə təsvir edən şəxs (vassaf) olaraq tanınan dayısı Hinddən həzrət Peyğəmbərin (s.ə.s.) xilqətini, şəkil və şəmailini (hilyəsini) təsvir etməsini istədikdə belə cavab almışdır: "Rəsulullah (s.ə.s.) baxışları və dolğun üzü ilə heybətli bir görünüşə sahib idi. Üzü bədrlənmiş ay kimi parlayırdı... Saçı açıq olanda onu ayıraraq (yan tərəflərə darayar)dı. Saçları açıq olmayanda isə qulağın yumşaq yerindən aşağı keçməzdi... Alnı geniş idi.

Qaşları hilal kimi idi, gur və bir-birinə yaxın idi, iki qaşının arasında bir damar var idi ki, qəzəblənəndə qabarır, normal vaxtlarda isə görünməzdi. Burnu kəmərli və incə idi... Saqqalı sıx və gur, yanaqları isə düz idi. Ağzı geniş və dişlərinin arası seyrək idi... Boynu (saf mərmərdən düzəldilmiş) heykəllərin boynu və gümüş kimi parlaq idi. Vücudunun bütün üzvləri bir-biri ilə mütənasib idi. Bərk ətli idi. Qarnı ilə sinəsi eyni səviyyədə idi... Ovucları və ayaqları iri və qısa idi. Ayaqlarının üstü elə hamar idi ki, üstünə su

[7] ŞM1231 Əbu Bəkr əş-Şeybani, *əl-Ahad vəl-məsani*, II, 418.

töküləndə axıb gedərdi… Yeriyərkən sağlam addımlarla bir az qabağa əyilərək yeriyərdi. Addımlarını iri və sürətlə atardı. Sakit və vüqarlı şəkildə yeriyərdi… Bir tərəfə dönüb baxanda bütün vücudu ilə birlikdə dönərdi. Baxarkən qısa müddətli baxardı. Yuxarıya deyil, daha çox yerə, aşağıya baxardı. Çox vaxt gözucu baxardı. Səhabələri ilə birlikdə gedərkən onları qabağa salar özü arxadan gələrdi. Yolda rast gəldiyi insanlara onlardan əvvəl dərhal salam verərdi."[8]

Həzrət Həsən bir dəfə də dayısı Hinddən Rəsulullahın danışıq tərzi haqqında bildiklərini nəql etməsini istədi. Hind İbn Abbasa dediklərinin oxşarlarını ona da nəql etdi. Rəsulullahın danışıq tərzi ilə əlaqədar dayısından təfsilatlı məlumatlar əldə edən həzrət Həsən öyrəndiklərini qardaşı həzrət Hüseynlə də bölüşmək istədi. Ancaq qardaşının bu məlumatları ondan əvvəl öyrəndiyini görəndə ondan başqa nələr bildiyini soruşdu. Həzrət Hüseyn də Rəsulullahın evin içərisində və çölündəki davranışlarını və səhabələri ilə münasibətləri haqqında atası həzrət Əli vasitəsilə öyrəndiyi bu məlumatları rəvayət etdi: "Rəsulullah (s.ə.s.) evinə gələndə evdə keçirəcəyi vaxtı üç yerə ayırardı. Bir qismini ibadətə, bir qismini ailəsinə, bir qismini isə özünə ayırardı. Özünə ayırdığı vaxtı da iki yerə ayırar, bu vaxtın bir qismində dincələr, geri qalan qismində isə qonaq qəbul edərdi. O, bunu yanına gələn seçilmiş insanlara (havas) görə edərdi. Çünki onlar ondan öyrəndiklərini xalqa çatdırırdılar. Rəsulullah (s.ə.s.) ümmətindən heç bir

[8] TŞ8 Tirmizi, Şəmail, 11.

şeyi gizlətməzdi. İcazəli şəkildə qonaq qəbul edərkən fəzilət və təqva əhli olan ziyarətçilərinə üstünlük verirdi. Ziyarətçilərə ayırdığı vaxt onların nəsil-nəcabətlərinə görə deyil, din baxımından üstünlüklərinə görə olurdu. Evinə gələnlərin müxtəlif ehtiyacları olurdu. Bir vasitəçi yaxud birbaşa soruşulan suallara sual verənlərin və ümmətin ictimai mənfəətinə münasib şəkildə cavablar verir və arxasınca da belə xəbərdarlıq edirdi: *"Burada görüb eşitdiklərinizi burada olmayanlara çatdırın. Ehtiyaclarını mənə xəbər verməyə imkan və fürsət tapmayanların istəklərini də mənə çatdırın. Hər kim ehtiyacını xəbər verə bilməyənlərin istəklərini məsuliyyətli və səlahiyyətli şəxslərə çatdırarsa Allah onun qiyamət günü (sıratı) sərrast addımlarla keçməsinə kömək edər"*. Həzrət Peyğəmbərin hüzurunda qətiyyən bundan başqa heç bir şey danışılmaz və heç kimə bundan başqa nə isə danışmağa icazə verilməzdi. Onun yanına gələnlər elm və hikmətə susamış olaraq gələr, doymuş olaraq çıxıb gedər və xeyirə yol göstərən olaraq ömür sürərdilər".

Rəsulullah (s.ə.s.) lazımsız və mənasız danışmazdı. Ətrafındakılar ilə həmişə mehriban olar, onları narahat edən hər hansı bir davranışı olmazdı. Hər cəmiyyətin seçilmiş fərdinə xüsusi qayğı göstərər və onları başçı təyin edərdi. İnsanları qoruyar, onların üstündə əsər, heç birindən gülərüz və şirin dilini əsirgəməzdi. Səhabələrini görməyəndə soruşub maraqlanar, hal-əhvallarını, vəziyyətlərini öyrənərdi. Qarşısına çıxan insanlara: *"Nə var, nə yox?"* – deyərək ətrafda baş verənləri soruşub öyrənərdi. Gözəl olan hər şeyi bəyəndiyini ifadə edər və onu dəstəkləyərdi.

Pis olan işə etirazını bildirər və onu düzəltməyə çalışırdı. Bütün işləri nizamlı və ahəngli idi. Əlaqəsiz, əsassız və ziddiyyətli davranışı yox idi. Səhabələrinin öz işlərində səhlənkarlıq göstərmələri və diqqətsizlik etmələri yaxud bezmələrindən narahat olaraq həmişə onların yerinə özü tədbirli davranırdı. O, hər cür vəziyyət qarşısında hazır və tədarüklü idi (hər problemin çarəsini tapırdı). Ona görə insanların ən fəzilətlisi başqalarına yaxşılığı ən çox edənlər, mərtəbəsi ən yüksək olanlar isə xalqın problemlərinə ən yaxşı şəkildə şərik olan və onlara kömək əlini uzadan insanlardı.

Rəsulullahın oturub durması da zikr ilə idi. Yığılıb söhbət edən bir qrup insanın yanına gələndə baş tərəfə keçməz, məclisdə boş qalan ən axırıncı yerə oturar, başqalarının da belə etməsini tövsiyə edərdi. Oturub durduğu insanların səviyyələrinə görə hər birinin hal-əhvalını soruşub onlara iltifat edərdi. Ətrafındakılarla elə səmimi rəftar edərdi ki, oturub-durduğu insanların hər biri Rəsulullahın (s.ə.s.) gözündə ən qiymətli insanın özü olduğunu zənn edərdi. Kimsə yanında çox oturanda yaxud hər hansı bir ehtiyacını ərz etmək məqsədilə onun yanına gələndə həmin şəxs özü durub gedənə qədər səbir edərdi. Ondan bir şey istəyən insanın ya istədiyini yerinə yetirər, şirin bir dillə yola salar və heç vaxt əli boş göndərməzdi. Onun səxavətliliyi, şirin dilliliyi və gözəl əxlaqı insanlar arasında elə yayılmışdı ki, sanki xalqın atası olmuşdu. Onun nəzərində bütün insanlar heç biri arasında haqq-hüquq fərqi qoyulmayan eyni səviyyədəki övladlar kimi idi. Onun

yığıncaqları elm, həya, əmanət və səbr kimi əxlaqi dəyərlərin öyrədildiyi məkan idi. Onun hüzurunda yüksək səslə danışılmaz, heç kimin şəxsi və məhrəm olan işlərindən bəhs edilməz, orada baş verən qüsurlar və xətalar kənara sızdırılmazdı. Onun məclisində hamı bərabər səviyyədə idi. Bir insan yalnız təqvası ilə başqa birindən üstün ola bilərdi. Hamı təvazökarlıq halı içərisində idi. Orada yaşca böyük olanlara hörmət, kiçiklərə isə mərhəmət edərdilər. Məclisdəki ehtiyac sahiblərinə daha çox diqqət yetirir, xüsusən də kimsəsizlərlə ayrıca maraqlanırdılar.[9]

Həzrət Əli oğlu Hüseynin Rəsulullahın dost və yoldaşları ilə olan münasibətləri haqqında ondan soruşanda ona bunları nəql etmişdi: "Allah Rəsulu (s.ə.s.) həmişə gülərüzlü, həlim xasiyyətli və nəzakətli idi. Qətiyyən pis xarakterli, daş qəlbli, qışqırıb-bağıran, pis söz danışan, nöqsan axtaran və xəsis deyildi. Xoşuna gəlməyən işləri görməməzliyə vurar, ondan bir şey uman insanların ümidlərini puça çıxarmazdı. Üç işə həssas yanaşar və onlardan uzaq durardı: "Ağız davası, boşboğazlıq və faydasız iş və söz." Bu üç işdən də həssaslıqla uzaq dururdu, heç kəsi pisləməz, qınamaz və heç kimin ayıbını və gizli işlərini öyrənməyə çalışmazdı. Yalnız faydası olacağını düşündüyü mövzularda danışardı. O danışarkən məclisindəki dinləyicilər başlarının üstünə quş qonmuş kimi heç tərpənmədən ona qulaq asardılar. Sözünü bitirəndə isə söz demək istəyənlər danışmaq üçün söz istəyərdilər. Səhabələr onun (s.ə.s.) hüzurunda danışarkən

[9] TŞ226 Tirmizi, *Şəmail*, 97; TŞ337 Tirmizi, *Şəmail*, 151; TŞ352 Tirmizi, *Şəmail*, 160; MK18934 Təbərani, *əl-Mü'cəmul-kəbir*, XXII, 155.

bir-biri ilə qətiyyən ağız davası etməzdilər. Onlardan biri Rəsulullahın hüzurunda danışarkən o, sözünü qurtarana qədər hamı diqqətlə danışana qulaq asardı. Allah Rəsulunun hüzurunda onların hamısının sözünə birinci danışanın sözü kimi diqqətlə qulaq asılırdı. Səhabələrinin güldüyünə O (s.ə.s.) da gülər, onların təəccübləndiyinə O (s.ə.s.) da heyrətlənərdi. Yanına gələn yad insanların kobud danışıqları ilə yersiz suallarının yaratdığı narahatlıqlara səbir edərdi. Hətta səhabələri o cür insanları onun yanından uzaq tutmaq istəsələr də (buna icazə verməz yenə səbir edərdi). Həzrət Peyğəmbər (s.ə.s.) belə deyərdi: *"Bir ehtiyacı olub kömək istəyən birinə rast gəldinizsə ona kömək edin"*. O (s.ə.s.) yalnız yaxşılığın miqdarınca və çox yaltaqlıq dərəcəsində olmayan tərifləri qəbul edər və həddini aşmayan heç kimin sözünü kəsməzdi. Əgər hüzurunda kimsə həddini aşan tərzdə danışarsa o zaman ya danışanı susdurmaq, ya da o məclisdən durub getməklə buna mane olurdu".[10]

Həzrət Peyğəmbərin siması, bədən quruluşu, bəşəri xüsusiyyətləri haqqında hədis və siyər mənbələrində çox geniş məlumat mövcuddur. "Sifətun-Nəbi", "Sifətu Rəsulillah", "Mənaqib", "Fəzail" sərlövhələri altında yet tutmaqla yanaşı "Şəml" kəlməsinin cəmi olan və "təbiət, xarakter, xasiyyət və fitrət" mənalarında işlənən[11] "Şəmail" kəlməsi həzrət Peyğəmbərin bəşəri cəhətini, həyat tərzini və şəxsi həyatını ifadə edən termin kimi məşhurlaşmışdır. Həzrət Peyğəmbərin bəşəri və fiziki xüsusiyyətləri

[10] TŞ352 Tirmizi, Şəmail, 160.
[11] LA26/2332 İbn Mənzur, Lisənul-ərəb, XVI, 2332.

İslam mənbələrində "Şəmail"lə yanaşı "Hilyə" başlığı altında da qeyd edilmişdir. Hilyə "bəzək və zinyət" mənaları ilə yanaşı "xilqət, vəsf və surət, bir şəxsi fiziki cəhətləri ilə təsvir etmək" mənalarına gəlir.[12] Əsasən həzrət Peyğəmbərin fiziki xüsusiyyətləri, bunlardan bəhs edən ədəbi əsərlər və eyni mövzuda hüsnxətlə yazılmış lövhələrin adı olan "hilyə" kəlməsi Osmanlıda Rəsulullahın vəsflərini, bu vəsflərdən bəhs edən kitab və lövhələrə verilən ad olmuşdur.[13]

Həzrət Peyğəmbərin rəsmini çəkmək İslam ictimaiyyətində heç bir vaxt müsbət qəbul edilməmişdir. Bunun əvəzinə hədis və sirət mənbələrindəki Rəsulullahı vəsf və təsvir edən rəvayət mətnlərindən hərəkət edərək Kainatın Əfəndisini tanımağa və tanıtmağa çalışıblar. Yuxarıdakı təfsilatlı rəvayətlərdən başqa hədis mənbələrimizdə başda Ənəs ibn Malik olmaqla həzrət Əli, Əbu Hüreyrə və Bəra ibn Azib kimi səhabələrin nəql etdiyi Rəsulullahın bədəni, yəni fiziki xüsusiyyətləri və şəxsiyyəti haqqındakı təsvirləri ümumi şəkildə burada qeyd etmək faydalı olacaqdır:

Sevimli Peyğəmbərimizin (s.ə.s.)

*Adı:*

Muhamməd, Əhməd, Mahi, Haşir, Aqib/Muqaffi, Nəbiyyut-tövbə, Nəbiyyur-rahmə.[14]

[12] LA12/985 İbn Mənzur, Lisənul-ərəb, XII, 985.
[13] "Hilye", DİA, XVIII, 44.
[14] M6105, M6108 Müslim, Fəzail, 124-126.

*Üzü:*

Üzü çox gözəl, gülərüzlü, mehriban çöhrəli idi.[15]

*Boyu:*

Boyu nə uzun, nə də qısa idi.[16]

*Saçı:*

Saçları qıvırcıq deyildi, düz də deyildi, dalğalı idi, bəzən qulağının yumşaq hissəsindən bir az aşağı, bəzən də çiyinlərinə qədər uzanardı.[17] Saçlarını bəzən dağınıq saxlayar, bəzən də ortadan ikiyə ayıraraq yığardı.[18] Saçında və saqqalında az miqdarda ağ tük vardı.[19]

*Əlləri:*

Əlləri ipək kimi yumşaq və çox gözəl qoxulu idi. Yolda qarşılaşdığı uşaqların yanaqlarını sığallayar və əlinin qoxusu günlərcə getməzdi.[20]

*Gülüşü:*

Ağız dolusu/qəhqəhəylə güldüyünü heç kim görməmişdi. Abdullah ibn Haris "Rəsulullahın (s.ə.s.) gülüşü yalnız təbəssüm şəklində idi" – demişdir.[21] Sədəqə olaraq adlandırdığı təbəssüm[22] üzündən heç əskik olmazdı. Belə ki, Cərir ibn Abdullah: "Müsəlman olduğum andan etibarən Allah Rəsulu (s.ə.s.) mənə

[15] M6071 Müslim, Fəzail, 98; M6066 Müslim, Fəzail, 93.
[16] M6066 Müslim, Fəzail, 93; TŞ26 Tirmizi, Şəmail, 17.
[17] M6067, M6069 Müslim, Fəzail, 94-96.
[18] M6062 Müslim, Fəzail, 90.
[19] B3548 Buxari, Mənaqib, 23; M6073 Müslim, Fəzail, 100.
[20] M6052 Müslim, Fəzail, 80.
[21] T3642 Tirmizi, Mənaqib, 10; TŞ229 Tirmizi, Şəmail, 99.
[22] T1956 Tirmizi, Birr, 36.

evinə girmək üçün həmişə icazə vermiş və məni harada görsə gülümsəmişdir" – demişdi.[23]

*Oturuşu:*

Oturanda bəzən yanı üstə oturaraq dizlərini dayayıb əllərini qarşısında bağlayar,[24] bəzən də bardaş qurub otururdu.[25] (Məsciddə istirahət edərkən) ayaqlarından birini digərinin üzərinə qoyub arxası üstə uzandığına rastlanmışdır.[26]

*Yerişi:*

Tez-tez yeriyərdi. Belə ki, arxasınca gələnlər ona çata bilmirdilər. Yerişi bazara tələsən bir insanın yerişi kimi idi. Tənbəlcəsinə deyildi. Yeriyəndə arxasına baxmazdı.[27] Sanki yoxuşdan aşağı düşərcəsinə addımlarını sərt şəkildə götürüb qoyardı. (Təkəbbürlü bir əda ilə) sağına və soluna meyl edərək deyil, bir yoxuşdan enərcəsinə bir az qabağa doğru meyilli yeriyərdi.[28]

*Geyimi:*

Ən sevimli geyimi qamis (köynək) idi.[29] Köynəklərinin qollarının ucları biləklərinə qədər idi.[30] Bəra ibn Azib ən çox qırmızı bəzəkli paltarların ona yaraşdığını deyirdi.[31]

[23] B3035 Buxari, Cihad, 162; TŞ231 Tirmizi, Şəmail, 100.
[24] D4846 Əbu Davud, Ədəb, 22.
[25] D4850 Əbu Davud, Ədəb, 26.
[26] EM1185 Buxari, əl-Ədəbul-müfrəd, 405.
[27] ST1/379 İbn Səd, Təbəqat, I, 379.
[28] TŞ124, TŞ125, TŞ126 Tirmizi, Şəmail, 55.
[29] TŞ56 Tirmizi, Şəmail, 29; İM3575 İbn Macə, Libas, 8.
[30] TŞ58 Tirmizi, Şəmail, 30.
[31] TŞ65 Tirmizi, Şəmail, 32.

O, adi bir insan kimi hərəkət edər, məsələn, paltarlarını tikər, qoyunun südünü sağar və öz işini özü görərdi.[32] Geyimində sadə idi və belə deyirdi:

*"Hər kim dünyada şöhrət libası geyərsə, Allah da ona qiyamət günündə onun oxşarını geydirər".*[33]

*Danışığı:*

O, sözlərin ən lətifini, ən bəlağətlisini deyərdi. Danışarkən dedikləri rahat başa düşülsün deyə kəlmə-kəlmə danışardı.[34]

Sözlərinin mənası dərin, sünilikdən uzaq idi.

O, ağız dolusu və şişirdərək danışmağı qınayar, ovurdlarını şişirdə-şişirdə söz danışanlardan uzaq durardı. Uzun danışmaq lazım olduqda uzun, qısa danışmaq lazım olduqda isə qısa danışardı. Bilinməyən və yadırğanan ifadə və kəlmələrdən uzaq durar, həyəcanlandırıb hiddətə gətirən üslubdan xüsusən çəkinərdi.

Həmişə hikmətlə danışmış, ilahi lütflə qorunmuş, başa düşülməsi asan sözlərdən istifadə etmişdir. Onun sözlərinə Allah sevgi bəxş etmiş, qəbul edilməsini lütf etmiş, həm asan başa düşülən, həm də şirinlik və əzəmət ihsan etmişdir.

Təkrar etməyə ehtiyac olmamaqla yanaşı qulaq asanların təkrar dinləməsinə də ehtiyac olmurdu. Nə bir söz əskikdir, nə də onu danışdıran və qulaq asan

[32] TŞ343 Tirmiz, Şəmail, 154.
[33] D4029 Əbu Davud, Libas, 4; İM3606 İbn Macə, Libas, 24.
[34] T3639 Tirmizi, Mənaqib, 9; TŞ224 Tirmizi, Şəmail, 97.

bir şəxs doğru yoldan ayrılmışdır. Nə təsdiq edilməyə ehtiyacı vardı, nə də ona etiraz etmək mümkün idi.

Heç bir söz ustası onu utandıra bilməmişdir.

O, çox qısa cümlələrlə uzun ifadələr və mənalar söyləyə bilmiş, müxaliflərini ancaq onların tanıyıb etiraf edəcəyi bir üslubla məğlub etmiş, yalnız həqiqəti dəlil gətirmiş və yalnız doğru danışaraq zəfər əldə etməyə çalışmışdır. Hiyləyə bel bağlamamış, aldatmağa həvəslənməmiş, qaş-göz hərəkəti etməyə meyl etməmişdir.

Danışarkən nə yavaş danışmış, nə də tələsmişdir. Nə uzun, nə də qısa danışmışdır. Bəşəriyyət onun sözlərindən, nitqindən daha faydalı, daha düzgün, daha nizamlı, daha axıcı, daha həyəcanverici, daha təsirli, daha səlis, daha başa düşülən və daha açıq bir söz/nitq eşitməmişdir.[35]

*Yeyib-içməsi:*

Yemək yeyərkən bir yerə söykənməzdi, (heç durmayacaqmış kimi) yaxşıca yerini rahatlamazdı.[36] O (s.ə.s.), belə deyərdi: *"Mən adi bir insanın yediyi kimi yeyər, adi bir insanın oturduğu kimi oturaram..."*[37] Zəmzəm suyunu ayaq üstə durub içərdi.[38] Normal suyu həm ayaq üstə, həm də oturaraq içdiyi müşahidə edilmişdir.[39] Su içərkən üç dəfə nəfəs alar[40] və belə

[35] CBS221 Cahiz, əl-Bəyan vət-təbyin, s. 221.
[36] D3769 Əbu Davud, Ətimə, 16; MA5247 Əbdürrəzzaq, əl-Müsənnəf, III, 184.
[37] MA19543 Əbdürrəzzaq, əl-Müsənnəf, X, 415.
[38] B1637 Buxari, Həcc, 76; M5280 Müslim, Əşribə, 117.
[39] T1883 Tirmizi, Əşribə, 12; HM1140 İbn Hənbəl, I, 136.
[40] B5631 Buxari, Əşribə, 26.

deyərdi: *"Bu həm həzmi asanlaşdırır, həm də susuzluğu kəsər"*.[41]

*Əxlaqı:*

Rəsulullah (s.ə.s.) əxlaqı ən gözəl insan idi.[42] Qadınlara qarşı çox kübar və nəzakətli[43], ailə fərdlərinə qarşı çox şəfqətli idi. Oğlu İbrahim Mədinənin yaylağında bir süd anasına verilmişdi. Rəsulullah (s.ə.s.) da bəzən o evə gedərdi. Ev şənlik edərdi. İbrahimin süd atası dəmirçi idi. Allah Rəsulu oğlunu qucaqlayar, öpər sonra isə geri qayıdardı.[44]

Övladlarını öpüb qucaqlamayanların qəlblərindən rəhmət duyğusunun sökülüb atıldığını ifadə edər, insanlara mərhəmət etməyənə Allahın da mərhəmət etməyəcəyini xatırladardı.[45]

Örtüsünə bürünmüş bakirə bir qızdan daha utancaq idi.[46] Kobud və pis söz danışan deyildi.[47] Allah yolunda cihad etmək xaric olmaqla nə hər hansı bir qulluqçuya, nə hər hansı bir qadına, nə də hər hansı bir şəxsə vurmuşdu.[48]

Asan olanı seçər, günahdan qətiyyətlə uzaq durar, öz nəfsi üçün qətiyyən intiqam almazdı.[49]

[41] M5287 Müslim, Əşribə, 123; TŞ211 Tirmizi, Şəmail, 91.
[42] M6017 Müslim, Fəzail, 55.
[43] M6036 Müslim, Fəzail, 70.
[44] M6026 Müslim, Fəzail, 63.
[45] M6027, M6028 Müslim, Fəzail, 64-65.
[46] M6032 Müslim, Fəzail, 67.
[47] M6033 Müslim, Fəzail, 68.
[48] M6050 Müslim, Fəzail, 79.
[49] M6045 Müslim, Fəzail, 77.

İnsanların ən gözəli, ən səxavətlisi və ən cəsuru idi.[50]

Ondan xahiş edilən hər hansı bir işə "xeyr" deməzdi.[51]

Qövmünü hücum etmək üzrə olan bir ordunun gəldiyindən xəbər verən bir insan kimi o da açıq-aşkar bir xəbər verən idi.[52]

Pərvanələri alovdan qorumağa çalışan adam kimi bəşəriyyəti dəhşətli günün təhlükələrindən qorumağa könül verən bir xəbərdaredici kimi[53] nübüvvət binasının sonuncu daşı kimi[54] bərəkət gətirən yağış kimi bəşəriyyətə faydalı idi.[55]

Əgər xoşgörü və təvazökarlığı ilə əlaqədar olaraq təkcə Məkkənin fəthi günü olan davranışına baxılsa belə bu, onun mükəmməl şəxsiyyətinin və nübüvvətinin ən açıq dəlili olaraq kifayət edər. Çünki o, Məkkəyə böyük bir ordu ilə daxil olmuşdu və bir vaxtlar məkkəlilər onları Məkkənin küçələrində mühasirə altında tutduqdan sonra əmilərini, əmi uşaqlarını, dostlarını və onu himayə edənləri öldürmüş, yoldaşlarına işgəncənin hər növünü rəva bilmişdilər. Onu yaralamış, ona hər cür təzyiq göstərmiş, təhqir etmiş, sui-qəsd hazırlamaq üçün əlbir olmuşdular. Arzularının əksinə Məkkəyə girəndə onlar zəlil vəziyyətdə alçaldılarkən oraya hakim olduğu vaxt onlara

[50] M6006 Müslim, Fəzail, 48.
[51] M6018 Müslim, Fəzail, 56.
[52] M5954 Müslim, Fəazil, 16.
[53] M5955 Müslim, Fəzail, 17.
[54] M5959 Müslim, Fəzail, 20.
[55] M5953 Müslim, Fəzail, 15.

bir nitq söyləmiş və Allaha şükür etdikdən sonra belə demiş: *"Qardaşım Yusufun dediyi kimi deyirəm, bu gün sizə qınaq yoxdur, Allah sizi bağışlasın, çünki O, mərhəmət edənlərin ən mərhəmətlisidir"*.[56]

[56] CBS227 Cahiz, əl-Bəyan vət-təbyin, s. 227.

# ALLAHIN SEÇİLMİŞ BƏNDƏSİ

Ənsardan bir nəfər ilə Zübeyr ibn Əvvam arasında Harrə yaxınlığındakı xurmalıqları sulamaq üçün kanallardan istifadə edilməsi məsələsində narazılıq meydana çıxmışdı. Bu kanallardan axan su əvvəlcə Zübeyrin bağçasını, sonra isə mədinəli adamın bağçasını sulayırdı. O adam Zübeyrə: "Suyu aç, gəlsin" – dedi. Lakin Zübeyr bunu qəbul etmədi. Bu məsələ həzrət Peyğəmbərə (s.ə.s.) çatdırıldı. Həzrət Peyğəmbər: *"Zübeyr, əvvəlcə sən sula, sonra suyu qonşuna göndər"* – buyurdu. Bunu eşidən adam: "Zübeyr sənin bibinin oğlu olduğu üçün (onu qabağa saldın)!" – deyərək əsəbi şəkildə cavab verdi. Adamın bu sözünü eşidən Allah Rəsulunun üzünün rəngi dəyişdi və: *"Zübeyr, sən sula, suyu (xurma ağaclarının köklərindən meydana gələn) divarın səviyyəsinə gələnə qədər saxla (sonra bağla)"* – dedi. Zübeyr bu hadisədən sonra aşağıdakı ayənin nazil olduğunu söyləmişdi:

*“Amma, xeyr! (Ey Rəsulum!) Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim (münsif) təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə, (həqiqi surətdə) iman gətirmiş olmazlar”.*[1]

Bu hadisəyə əsasən aydın olur ki, insanlar arasında çıxan narazılıqlar Peyğəmbərimizə xəbər verilir, onun verdiyi qərarlara əsasən də məsələ həll edilirdi. Zübeyr ilə mədinəli şəxsin arasındakı suvarma məsələsində meydana çıxan narazılıqda Allah Rəsulu Zübeyrin daha kamil davranaraq suyu haqqı olan səviyyəyə qədər gətirməmiş qonşusunun bağına axmasına icazə verməsini istəmişdi. Ancaq ənsardan olan şəxsin verdiyi cavabdan tutulmuş və Zübeyrə haqqını lazımlı şəkildə istifadə etməsini istəmişdi. Bu hadisədən sonra nazil olan ayə həmin cavabın hörmətsizlik olmaqla yanaşı Peyğəmbərə iman və itaətlə əlaqədar olduğunu göstərirdi. Çünki verdiyi qərarın ədalətli olmadığını düşünərək etiraz edilən insan adi bir insan deyil, Allahın ən sonuncu elçisi idi.

Ayələrin çoxunda həzrət Peyğəmbərə iman Allaha iman ilə birlikdə zikr edilir.[2] Şübhəsiz, Allaha iman Peyğəmbərinə imanı zəruri hala gətirir və bu imanı təsdiq ifadəsi Peyğəmbərinin adını

1 ən-Nisa, 4/65; B2359 Buxari, Müsaqat, 6.
2 Ali-İmran, 3/179; ən-Nisa, 4/136; əl-Fəth, 48/9.

da ehtiva edir. Allah Rəsulu da sevimli əmisi həzrət Abbasın rəvayət etdiyi bu sözündə imanın yalnız peyğəmbəri təsdiq etməklə tamamlanacağını bildirir: *“Allahı Rəbb, İslamı din və həzrət Muhamməddi də rəsul olaraq qəbul edən şəxs imanın ləzzətini alar”*.[3]

Həzrət Muhammədin (s.ə.s.) peyğəmbərliyini ürəkdən mənimsəmək və onu hər şeydən daha çox sevmək həqiqi mənada iman etməyin bir şərtidir. Ənəs ibn Malikin rəvayət etdiyinə görə Əziz Peyğəmbərimiz bunu vurğulamışdır: *“Hər hansı biriniz məni atasından, övladından və bütün insanlardan daha çox sevmədikcə iman etmiş sayılmaz”*.[4]

Uca Allah möminlərə həzrət Peyğəmbərə sevgi və təzim göstərilməsini əmr etmiş, özünün də ona nə qədər qiymət verdiyini, onun mövqeyini nə qədər ucaltdığını vurğulamışdır: “*Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər. Ey iman gətirənlər! Siz də ona salavat göndərib (onun üçün salavat deyib) layiqincə salamlayın! (Allahümmə səlli əla Muhəmmədin və ali Muhamməd; əssəlamu əleykə əyyuhənnəbi və rəhmətullahi və bərəkətuhu–deyin!)*”[5] Peyğəmbərə salət, mələklərin dua, təbrik və mədhlərini ifadə edərkən, Allahın salət etməsi, həqiqi mahiyyət və keyfiyyətini tam olaraq dərk edə bilmədiyimiz, sərhədlərini təxmin edə bilmədiyimiz bir iltifat, rəhmət və şərəf olmalıdır.[6] Allah Peyğəmbərinə salət və səlam gətirməyin möminlərin vəzifəsi olduğunu xəbər

[3] HM1778 İbn Hənbəl, I, 208.
[4] B15 Buxari, İman, 8.
[5] əl-Əhzab, 33/56.
[6] Kuran Yolu, IV, 359.

vermiş və onu ucaltmağı və mədh etməyi imanın bir şərti saymışdır. Belə ki, Qur'ani-Kərimdə Allahı zikr etməklə Rəsuluna hörmət etmək yanaşı qeyd edilmişdir.[7]

Beləcə, Allah öz Elçisinə verdiyi bu dəyərə görə ona qarşı edilən hörmətsizliyi özünə edilən hörmətsizliklə bir tutmuş və belə buyurmuşdur: *"(Ey Rəsulum!) Onlardan (Təbuk döyüşünə gedərkən səni lağa qoyan münafiqlərdən nə üçün belə etdiklərini) soruşsan: "Biz ancaq söhbət edib zarafatlaşırdıq (əylənirdik)", – deyə cavab verərlər. De: "Allaha, Onun ayələrinə və Peyğəmbərinə istehzamı edirsiniz?!""*[8] Buna oxşar olaraq Allah-Təala hər hansı bir köməyə möhtac olmadığı, bütün qüdrət və hakimiyyət əlində olduğu halda Peyğəmbərinə edilən köməyi Allaha edilmiş hesab edərək onun qiymətinə diqqət çəkmişdir: "*Ey iman gətirənlər! Əgər siz Allaha (Allahın dininə və Peyğəmbərinə) yardım göstərsəniz, O da sizə yardım göstərər və sizi sabitqədəm (cihadda möhkəm, qüvvətli) edər*".[9] Bu ayədəki "Allaha kömək" ifadəsi Onun dininə və Peyğəmbərinə kömək şəklində təfsir edilmişdir.[10]

Həzrət Peyğəmbərə verilən bu dəyər ona itaətin Allaha itaətdən, ona tabe olmağın Allaha tabe olmaqdan fərqli olmadığını, Allaha imanın ayrılmaz bir parçası olduğunu isbat edir. Belə ki, Əbu Hüreyrənin rəvayət etdiyi bir sözündə həzrət Peyğəmbər (s.ə.s.) belə buyurmuşdur: *"Mənə itaət edən Allaha*

[7] əl-Fəth, 48/9.
[8] ət-Tovbə, 9/65.
[9] Muhammməd, 47/7.
[10] BL7/281 Bəğavi, Məalimut-tənzil, VII, 281.

*itaət etmişdir. Mənə üsyan edən Allaha üsyan etmişdir".*[11] Allaha aparan yol Rəsuluna tabe olmaqdan, onun sözlərini dinləməkdən və dediklərinə səmimi şəkildə boyun əyməkdən keçir. *"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, mərhəmətlidir!"*[12] ayəsi Peyğəmbərimizə (s.ə.s.) tabe olmağın Allahı sevməyin bir göstəricisi və isbatı olduğu kimi bağışlanmağın, günahlardan təmizlənməyin və Allahın sevgisini qazanmağın da şərti olduğunu bildirir. Uca Yaradanın qullarına olan sevgisini və mərhəmətini onların Peyğəmbərinin yolundan getmələrinə bağlaması, ona verdiyi dəyərin böyüklüyünü və dərgahındakı yeri və dəyərini aşkar şəkildə ortaya qoyur. Peyğəmbərə itaətin həm də Allahın qoyduğu məhdudiyyətlərə riayət və beləliklə, Allaha itaət mənasına gəldiyini bildirən başqa bir ayədə də belə buyurulur: *"Bunlar Allahın hədləridir (hökmləridir). Hər kəs Allaha və Peyğəmbərinə itaət edərsə, Allah onu (ağacları) altından çaylar axan cənnətlərə əbədi olaraq daxil edər ki, bu da (möminlər üçün) böyük qurtuluşdur (uğurdur)!"*[13] Buna görə də Qur'ani-Kərimin ayələrinə əsasən Onun (c.c.) Peyğəmbərinə üsyan etmək bir mənada Allahın qoyduğu həddi aşmaqdır.[14] Peyğəmbərə qarşı çıxmaq, həm də Allaha qarşı çıxmaqdır.[15] Peyğəmbərə qarşı vuruşmaq, Allaha

[11] M4749 Müslim, İmarə, 33; B2957 Buxari, Cihad, 110.
[12] Ali-İmran, 3/31.
[13] ən-Nisa, 4/13.
[14] ən-Nisa, 4/14.
[15] əl-Ənfal, 8/13.

qarşı vuruşmaqdır.[16] Peyğəmbərin bəyanatı, Allahın bəyanatıdır.[17] Peyğəmbərin haram buyurması Allahın haram buyurması kimidir.[18] Peyğəmbərin Allahın bəxş etdiklərindən verməsi, Allahın verməsi kimidir.[19] Peyğəmbərə beyət etmək, Allaha beyət etməkdir.[20] Deməli, əslində *"Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur"*.[21] Çünki o, öz arzusuna görə danışmırdı, dedikləri ya Allahdan gələn bir vəhydir[22], ya da vəhyin idarəsindədir.[23] Əlbəttə ki, belə bir elçinin əmr etdiklərinə riayət etmək, qadağan etdiklərindən də çəkinmək[24] inananlar üçün imanın bir zərurətidir. O, aranızdan heç kimin atası deyil, peyğəmbərlərin sonuncusu, "xatəmul-ənbiya" idi.[25] Uca Allah həzrət Muhamməd (s.ə.s.) peyğəmbər olaraq göndərəndə ona mühüm vəzifələr verəndə onu yüksək səlahiyyətlər də vermişdir. Bundan sonra o yalnız tənha/kimsəsiz mağaralarda inzivaya çəkilib gecələr boyu təfəkkürə dalan,[26] könlünü təmizləyən bir adam deyil, həm də bütün bəşəriyyətə ilahi vəhyi çatdıran, onları arındıran, fərdi və ictimai həyata dair məsələlərdə onlara bilmədiklərini öyrədən bir dəvətçi olmuşdu.[27]

[16] əl-Maidə 5/33.
[17] ət-Tovbə, 9/3.
[18] ət-Tovbə, 9/29.
[19] ət-Tovbə, 9/59.
[20] ət-Fəth, 48/10.
[21] ən-Nisa, 4/80.
[22] ən-Nəcm, 53/2-4.
[23] D3586 Əbu Davud, Qəza (Əqziyə), 7.
[24] əl-Həşr, 59/7.
[25] əl-Əhzab, 33/40.
[26] B3 Buxari, Bədul-vəhy, 1.
[27] əl-Bəqərə, 2/151.

Birinci və əsas vəzifəsi ona göndərilən vəhyi insanlara çatdırmaq və izah etmək idi. Allah Rəsulu ümmətinə ibadətlərlə yanaşı evlilik, boşanma, miras, haramlar, halallar və ticarət kimi daha bir çox mövzuya dair ayələrlə əlaqəli geniş məlumatlar vermişdi. Məsələn: *"Allah ticarəti halal, faizi isə haram buyurdu."*[28] – ayəsindən hər növ ticarətin halal olduğu başa düşülürsə də Peyğəmbərimiz (s.ə.s.) məsələn, donuz və spirtli içkilərin satışını qadağan edərək[29] buna bəzi məhdudiyyətlər qoymuşdur.

Allah öz Elçisinə Qur'anda mövcud olan əmr və qadağaları izah etmək vəzifəsi və səlahiyyəti ilə yanaşı Qur'anda olmayan bəzi məsələlərdə də qanun qoymaq səlahiyyətini vermişdi: *"(O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (napak) şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar (şəriətin çətin hökmlərini götürər)"*[30] ayəsi onun həm məsuliyyətlərinə, həm də səlahiyyətlərinə diqqət çəkir. Uca Allah: "*Sən öz Rəbbinin hökmünə səbir et! Şübhəsiz ki, sən Bizim gözümüzün qabağındasan (himayəmiz altındasan). (Namaza) qalxdıqda Rəbbini həmd-səna ilə zikr et!*"[31] buyurarkən Rəsulu-Əkrəmin birbaşa ilahi iradənin nəzarəti altında olduğunu bildirirdi.

Həzrət Peyğəmbər vəhylə idarə edilmədiyi məsələlərdə əlbəttə şəxsi görüşü ilə hərəkət edirdi.

[28] əl-Bəqərə, 2/275.
[29] M4048 Müslim, Müsaqat, 71.
[30] əl-Əraf, 7/157.
[31] ət-Tur, 52/48.

Ümmü Sələmənin rəvayət etdiyinə görə iki nəfər miras və itmiş malları barəsində razılığa gələ bilməmiş və Peyğəmbərin (s.ə.s.) yanına gələndə Allah Rəsulu onlara belə cavab vermişdi: "*Mənə (vəhy) gəlməyən məsələlərdə aranızda öz qənaətimə görə hökm verirəm*".[32] Peyğəmbərimizin şəxsi mühakimələrinin doğruluğu əlbəttə ki, hər hansı bir şəxsin mühakiməsi ilə eyni deyildi. Belə ki, həzrət Ömər bir gün minbərdə xitab edərkən bu həqiqəti belə ifadə etmişdir: "*Ey insanlar, rəy (şəxsi görüş və qənaət) ancaq Rəsulullaha aid olarsa doğrudur. Çünki Allah ona (həqiqəti şəxsən birbaşa) göstərmişdir. Bizim rəylərimiz isə (doğru olanı tapmaq üçün gücümüz çatdığı qədər ortaya atılan) dərin düşüncə və şübhədən ibarətdir.*"[33]

Uca Allah həzrət Peyğəmbəri həm fərdlərin daxili aləmini işıqlandırmaq, onları günahlardan təmizləmək həm də cəmiyyətə yaxşılıq etmək, yaxşılığın hakimiyyətini qurmağı öyrətmək üçün göndərdi. O, bütün bu cəhətləri ilə aləmlərə rəhmət idi.[34] İnsanlara mərhəmətə nail olmağın yollarını öyrədərkən o, rəhmət və mərhəmətin özü idi. Bu rəhmət əzabı açıq şəkildə dəvət edənləri belə ehtiva etmişdi. Peyğəmbərimizin danışdıqlarını eşidən Əbu Cəhl "Allahım, əgər bu sənin dərgahından gələn bir həqiqət isə göydən başımıza daş yağdır yaxud bizi dəhşətli bir əzaba uğrat " – demişdi və bunun üzərinə aşağıdakı ayələr nazil olmuşdu: *"Halbuki sən onların arasında ola-ola Allah (sənə hörmət əlaməti olaraq) onlara əzab verən*

[32] D3585 Əbu Davud, Qəza (Əqziyə), 7.
[33] D3586 Əbu Davud, Qəza (Əqziyə), 7.
[34] əl-Ənbiya, 21/107.

*deyildir. (Tövbə edib) bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz! Lakin onlar (müşriklər) Məscidül həramın sahibləri (və ya ona xidmət etməyə layiq) olmadıqları halda, (möminlərə onu təvaf etməyə) mane olduqda Allah nə üçün onlara əzab verməsin! Onun sahibləri (və ya Allahın dostları) yalnız Allahdan qorxub pis əməllərdən (küfrdən, şirkdən, bütpərəstlikdən) çəkinənlərdir. Lakin onların (müşriklərin) əksəriyyəti bunu bilməz!"*[35] Ayədəki məğfirət diləyənlər ifadəsi isə Peyğəmbərimiz Mədinəyə gələndə hələ də Məkkədə müşriklərin arasında olan möminlərə aid idi. Rəbbi onu daim himayəsi altında tutmuşdu.

Bu, əvvəldən etibarən belə idi. Rəbbi onu yetim ikən qorumuş, axtarış içərisində olanda ona yol göstərmiş, yoxsul olanda onu zənginləşdirmişdi.[36] Hələ anasının bətnində altı aylıq ikən atası vəfat etmiş və yetim qalmışdı. Altı yaşında da anasını itirəndə tənha idi. *"O, sən bir yetim ikən sığınacaq vermədimi?"* – buyurularkən onun "dürrü-yetim" (misilsiz inci) kimi saf oluşuna da bir işarə var idi.[37] Böyüdülən yalnız bir uşaq deyil, həm də böyük bir əxlaq nümunəsi[38] və bəşəriyyəti xilasa çağıracaq olan bir dəvətçi və müjdələyici idi.[39] Buna görə daim Allahın nəzarəti altında idi və Allah Peyğəmbərini insanların zərər və xəsarətindən daima qorudu. Yardım və mərhəməti ilə insanların azdırmalarından onu

[35] əl-Ənfal, 8/33-34; M7064 Müslim, Sifatul-münafiqin, 37.
[36] əz-Zuha, 93/6-8.
[37] Elmalılı, Hak Dini, VIII, 5898.
[38] əl-Qələm, 68/4.
[39] əl-Əhzab, 33/45-46.

qorudu.[40] Ona və onun timsalında bütün insanlara daim ilahi iradəyə təslim olmaq məsləhət görülürdü. *"Sən öz Rəbbinin hökmünə səbir et! Şübhəsiz ki, sən Bizim gözümüzün qabağındasan (himayəmiz altındasan). (Namaza) qalxdıqda Rəbbini həmd-səna ilə zikr et!"*[41] – ayəsi bu təlqinlərdən yalnız biri idi.

Allah Rəsulu bütün məxluqat içərisindəki özünəməxsus yerini başqa bir vaxt belə ifadə etmişdi: *"Mən ilk dirildilən və sonra cənnət libaslarından geydirilən ilk insan olacağam. Sonra ərşin sağında duracam. Yaradılanlar arasında məndən başqa bu mövqeyə sahib heç kimsə yoxdur"*.[42] Ərşin sağında durmaq ilə simvollaşdırılan əslində Peyğəmbərin (s.ə.s.) Allaha yaxınlığıdır. Bu məkana bağlı bir yaxınlıq deyil, Onun dərgahındakı etibarı və dəyəridir. Bu, şübhəsiz ki, məqamların ən ucası olan "məqamı-mahmud"dur. Bu, həzrət Peyğəmbərin qulluğu/ibadəti seçməsinin əvəzində qovuşmuş olduğu bir lütf, qulluq/ibadətə olan şövqü və arzusunun bir bəhrəsidir. *"Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə (təhəccüd) namazı qıl. Ola bilsin ki, Rəbbin səni (qiyamət günü hamı tərəfindən) bəyənilib təriflənən bir məqama (axirətdə ən böyük şəfaət məqamına) göndərsin!"*[43] – ayəsində bu həqiqətin açıq-aşkar ifadə edildiyi müşahidə edilir.

Allah Sevimli Peyğəmbərimizdən dünya nemətləri ilə öz dərgahındakılar arasında bir seçim etməsini istəyəndə o, Allah qatındakıları tərcih etməkdə heç

[40] ən-Nisa, 4/113.
[41] ət-Tur, 52/48.
[42] T3611 Tirmizi, Mənaqib, 1.
[43] əl-İsra, 17/79.

tərəddüd etməmişdi.[44] Vəfatına beş gün qalmışdı. *"Sizin hər hansı birinizin mənim dostum olub (beləcə, Allahın dostluğu yanında ikinci bir dostluq olmasından) çəkinirəm. Çünki Uca Allah İbrahimi dost qəbul etdiyi kimi məni də özünün dostu qəbul etmişdir."* – buyurdu.[45] Onun son sözləri də: *"Allahım, Rəfiqi-alaya (Ən Uca Dosta)!"* olmuşdur.[46] Allah-Təala onu Əhməd olaraq adlandırmış, gələcəyini həzrət İsanın dili ilə İsrail oğullarına bildirmişdi.[47] Peyğəmbər şairi olan Hassan ibn Sabitin dili ilə desək adını adıyla söyləmişdir.[48] Allah Sonuncu Elçisinin adını və şanını ucaltmışdır. Onunla bağlı olan bu ilahi dəstək və qayğı heyrətamiz şəkildə belə vurğulanır: *"Məgər Biz sənin köksünü (qəlbini) açıb genişlətmədikmi?! Ağır yükünü səndən götürmədikmi?! (Sənin peyğəmbərlik yükünü yüngülləşdirmədikmi?!) (Elə bir yük ki) sənin belini bükürdü. Sənin ad-sanını (şan-şöhrətini) ucaltmadıqmı?!"*[49]

Peyğəmbər (s.ə.s.) yolundan dönmədi və özündən əvvəl göndərilən peyğəmbərlər kimi o da verilən risalət vəzifəsini ən gözəl şəkildə yerinə yetirdi. Şübhəsiz Allahın bütün elçiləri peyğəmbərlik vəsfinə görə bərabər səviyyədə idi. *"...Onun peyğəmbərlərindən heç birini (digərindən) fərqləndirmərik..."*[50] ayəsi möminlərin imanlarını təsdiq etmək üçün təkrarlanması zəruri olan sözə işarə edirdi. Peyğəmbərlər zəncirinin

[44] M6170 Müslim, Fəzailus-səhabə, 2.
[45] M1188 Müslim, Məsacid, 23.
[46] M6297 Müslim, Fəzailus-səhabə, 87.
[47] əs- Saff, 61/6.
[48] KC20/106 Qürtübi, Təfsir, XX, 106.
[49] əl-İnşirah, 94/1-4.
[50] əl-Bəqərə, 2/285.

son halqası olan Sevimli Peyğəmbərimiz bütün bəşəriyyətə göndərilmişdir. Yalnız öz cəmiyyətlərinə göndərilən digər peyğəmbərlərdən fərqləndiyinə diqqət çəkərkən: *"Heç bir bəndəyə 'Mən Yunus ibn Məttadan (Yunus Peyğəmbərdən) daha xeyirliyəm'demək yaraşmaz"*[51] – sözü ilə peyğəmbərlik vəsfinə görə bütün elçilərin Allah qatında bərabər səviyyədə olduğunu ifadə edirdi. Bununla yanaşı Qur'ani-Kərimdə *"səbirli və dözümlü (ulul-azm)"* peyğəmbərlərdən danışılır: *"(Ey Muhamməd!) Elə isə yüksək əzm sahibi peyğəmbərlərin səbir etməsi kimi sən də səbir et..."*[52] Bu ayə Allah Rəsulunun da mədh edilərək adı çəkilən peyğəmbərlərdən biri olduğuna diqqət çəkir.

Rəsuli-Əkrəm böyük bir səy və əzmlə vəzifəsini yerinə yetirdi. Vida Xütbəsində buna insanların şahid olmağını istədi.[53] Allah ondan razı idi. O da Rəbbindən razı olacaqdı.[54]

[51] B4631 Buxari, Təfsir, (Maidə) 4.
[52] əl-Əhqaf, 46/35.
[53] M4386 Müslim, Qəsamə, 31.
[54] əz-Zuha, 93/5.

# O, YAŞAYAN QUR'ANDI

Həzrət Peyğəmbərin öz dilindən eşidən həzrət Aişə onun o günlərdəki vəziyyətini belə nəql edir: "Allah Rəsuluna (s.ə.s.) vəhyin gəlməsi yatarkən gördüyü sadiq yuxularla başlamışdı. Gördüyü hər yuxu səhərin aydınlığı kimi həqiqətə çevrilirdi. Sonra ona tənhalıq sevdirildi. Hira dağındakı mağarada inzivaya çəkildi. Orada gecələr boyunca evinə qayıtmadan ibadət edərdi. Buna görə də oraya gedərkən özü ilə yemək aparırdı. Azuqəsi qurtaranda Xədicənin yanına qayıdıb yenə bir müddətlik azuqə götürüb gedərdi. Bu hal Hira dağındakı mağarada ikən ona vəhy gələnə qədər davam etdi. Nəhayət ona mələk gəldi və 'İqra!' (Oxu) dedi. O '*Mən oxuya bilmirəm!*' cavabını verdi. Peyğəmbərimiz (s.ə.s.) hadisəni belə nəql edir: '*Mələk məni alıb taqətim kəsilənə qədər sıxdı. Sonra məni yerə qoyub yenə 'İqra!' (Oxu) dedi. Mən ona 'Oxumağı bacarmıram!' dedim. Məni alıb ikinci dəfə taqətim kəsilənə qədər sıxdı. Sonra məni yerə*

*qoydu və təkrar 'İqra!' (Oxu) dedi. Mən yenə 'Oxumağı bacarmıram!' dedim. Nəhayət məni götürüb üçüncü dəfə sıxdı. Sonra məni yerə qoyub (Qur'anın ilk vəhy edilən ayələrini oxuyaraq) 'Yaradan Rəbbinin adıyla oxu! O, insanı laxtalanmış qandan (ələqdən) yaratdı. Oxu! Rəbbin böyük kərəm sahibidir. O, qələmlə yazmağı öyrətdi. İnsana bilmədiyini O öyrətdi'*[1] dedi'. Bundan sonra Rəsulullah başına gələn bu ilk vəhy təcrübəsinin verdiyi qorxu və həyəcan ilə qəlbi titrəyərək xanımı Xədicə bint Xüveylidin yanına qayıtdı..."[2]

O günə qədər keçən qırx illik ömrü boyunca hamı ondan razı idi. "Muhammədul-Əmin", yəni "Etibarlı Muhamməd" deyirdilər ona. Lakin onun məkkəlilərin bütlərə sitayiş etməsini, zülm, zorbalıq və müxtəlif əxlaqsızlıqlarını bəyəndiyini söyləmək mümkün deyildi. Heç vaxt təsdiqləmədiyi, razılaşmadığı, dünyanın yemək-içmək, oyun və əyləncədən ibarət olduğunu düşünən Məkkədəki dəbdəbəli həyatdan tamamilə bezmişdi. Onların əcdadlarından qalma adət-ənənələri, cahiliyyə adətləri həyatın demək olar ki, bütün sahələrinə təsir edən şirk inancı dözülməz olmuşdu. Yaşının kamillik dövründə və axtarış içərisində idi. Lakin nə edəcəyini, haraya gedəcəyini də bilmirdi. Bununla yanaşı o, nə axtardığı yolu, nə də bir rahatlıq tapa bilmişdi.[3] Hər nə qədər ağlı və təfəkkürü ilə bütlərə inanmağın

[1] əl-Ələq, 96/1-5.
[2] M403 Müslim, İman, 252; B3 Buxari, Bədul-vəhy, 1.
[3] əz-Zuha, 93/7.

cəfəngiyyat və axmaqlıq olduğunu hiss edir və Məkkə cəmiyyətində bildiyi və gördüyü ilə həzrət İbrahimin dininə meyl edirdisə də hələ dan yeri tam ağarmamışdı. Nə edəcəyini, necə edəcəyini bilməməyin əziyyətini çəkirdi.[4]

Axtarış müddətində Ramazan ayı boyunca yaşanan bu inziva həyatı əsasən mağarada təfəkkür edərək varlıq aləmindən, yaşanan həyatdan dərs və ibrət almaq şəklində olurdu.[5] Belə ki, bəzi alimlərimiz bu ibadət tərzini ifadə etmək üçün yuxarıdakı hədisdə keçən "təhannüs" kəlməsini, "təhannüf" yəni "hənəfiləşmə" kimi başa düşmüşdü.[6]

Uca Allahın ifadə etdiyi kimi Onun (c.c.) Müqəddəs Elçisi nə əvvəllər hər hansı bir kitabdan oxumuş-öyrənmiş, nə də əli ilə yazmışdı.[7] O, kitab nədi, iman nədi bilmirdi.[8] Bundan başqa ona belə bir ilahi kitab veriləcəyini də ümid etmirdi. Ancaq rəhməti ilə Rəbbi ona belə bir kitabı-Qur'anı vəhy etmişdi.[9] Belə ki, həzrət Peyğəmbər bu Uca Kitab haqqında belə buyurmuşdu: "*Elə bir peyğəmbər yoxdur ki, insanların inanması üçün ona möcüzələr verilməmiş olsun. Mənə verilən isə Allahın vəhy etdiyi vəhy (Qur'ani-Kərim)dir. Beləcə, mən qiyamət günü ümməti ən çox olan peyğəmbər olacağımı ümid edirəm*".[10]

4 "Muhammed", DİA, XXX, 410.
5 B3 Buxari, Bədul-vəhy, 1.
6 HS2/68 İbn Hişam, Sirət, II, 68.
7 əl-Ənkəbut, 29/48.
8 əş-Şura, 42/52.
9 əl-Qəsəs, 28/86.
10 B7274 Buxari, İtisam, 1; M385 Müslim, İman, 239.

Beləliklə, Hira dağındakı bu təcrübə Rəsuli-Əkrəmin Qur'an ilə ilk tanışlıq səhnəsi idi. Ələq surəsinin ilk beş ayəsi ilə başlayan vəhy müddəti iyirmi üç ildə tamamlanacaq idi. Müxtəlif zaman və məkanlarda fərqli səbəblərlə nazil olan Qur'an ayələri həm Allah Rəsulunu (s.ə.s.), həm də onun ətrafında yığılan müsəlmanları öyrədəcək yeni bir cəmiyyət inşa edəcəkdi. Belə ki, Məkkədə nazil olan ayələr və surələr eniş sırasına görə oxunanda bütpərəst bir cəmiyyətin cahiliyyədən qoparılıb necə mərhələ-mərhələ maarifləndirildiyi və vəhyin işığında tərtəmiz bir cəmiyyətə çevrildiyi açıq-aşkar şəkildə görüləcəkdir.

Əslində bu risalət vəzifəsinin əsas məqsədi idi və uca Allah Elçisini bu vəzifəni yerinə yetirmək üçün göndərmişdi: "*Allah möminlərə lütf etdi. Çünki onların öz içərisindən özlərinə (Allahın) ayələrini oxuyan, onları (pis əməllərdən) təmizləyən, onlara Kitabı (Qur'anı) və hikməti öyrədən bir peyğəmbər göndərdi. Halbuki, bundan əvvəl onlar açıq-aydın zəlalət içərisində idilər.*"[11]

Bu ayədə dilə gətirilən "təmizləmə" (təzkiyə) həm maddi, həm də mənəvi təmizlənməyi və saflaşmağı nəzərdə tuturdu. Həzrət Peyğəmbər bu vəzifə sayəsində cahiliyyə insanlarını mədəniyyətə qovuşdurmuşdu. Qız uşağını diri-diri torpağa basdıran bu qəddar insanlardan can sahibi olan hər varlığa, hətta əşyaya şəfqət və mərhəmətli davranan bir Mədinə cəmiyyəti meydana gətirə bilmişdi. Başqa sözlə desək təzkiyə təmiz fərdlərdən təşkil olunan "təmiz bir cəmiyyət" qurmaq idi və Rəhmət Elçisi bunu

[11] Ali-İmran, 3/164.

reallaşdırmışdı. Nəhayət o, əcdadların ənənələrinə əsaslanan bir cahiliyyə ictimaiyyətini iyirmi üç illik risaləti müddətində fəzilətli bir cəmiyyətə çevirməyi bacarmışdı. Allahın hidayəti və həzrət Peyğəmbərin təzkiyəsi nəticəsində cahiliyyə dövrünün kobud, zorba və müşrik insanlarının qısa müddət ərzində reallaşan bir ictimai dəyişmə ilə necə nümunəvi bir nəsil olduqlarına tarix şahid olmuşdu. Bəzi alimlərimizin dedikləri kimi “Əgər Rəsulullahın (s.ə.s.) səhabələrindən başqa bir möcüzəsi olmasaydı bu, onun peyğəmbərliyini isbat etmək üçün kifayət idi”.[12] Allah Rəsulu (s.ə.s.) bütün bu sosial dəyişməni Qur’an ilə reallaşdırmış və özündən sonra ümmətinə rəhbər olaraq yenə onu qoyub getmişdi. Belə ki, Vida həccində verdiyi xütbəsində belə buyurmuşdu: “*Sizə elə bir şey qoyub gedirəm ki, ona möhkəm sarılsanız yolunuzu azmazsınız: Allahın Kitabı*”.[13]

Rəbbindən gələn vəhyi ayə və surələri insanlara oxuyaraq çatdırması həzrət Peyğəmbərin təbliğ vəzifəsinin ən mühüm qismini təşkil edirdi.[14] Belə ki, Uca Allah “*Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni (Qur’anı) təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə edilən elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan!*” buyurmuşdu.[15] Bu ayəyə əsaslanaraq həzrət Aişə Rəsulullahın (s.ə.s.) Allahın Kitabından hər hansı bir şeyi gizlədiyini iddia edənlərin yalan söyləyib Allaha böhtan

[12] FH4/305 Qərafi, Füruq, IV, 305.
[13] M2950 Müslim, Həcc, 147.
[14] əl-İsra, 17/106; əl-Kəhf, 18/27; əl-Ankəbut, 29/45.
[15] əl-Maidə, 5/67.

etmiş olacaqlarını[16] xatırlatmışdı.[17] Beləliklə, nə olursa olsun həzrət Peyğəmbərin nazil olan vəhyləri gizlədiyini, dəyişdirdiyini[18] yaxud onlara əlavələr etdiyini[19] söyləmək mümkün deyildir.[20] Belə ki, Vida həccində ona qulaq asan səhabələr də onun təbliğ və nəsihət vəzifələrini layiqincə yerinə yetirdiyinə şahidlik etmişdilər.[21]

Həzrət Peyğəmbərə yalnız ona nazil edilən vəhyə tabe olmaq əmr edilmişdi.[22] O, nə olursa olsun insanların hidayət və itaət edib etməməsinə görə o, (s.ə.s.) məsuliyyət daşımırdı. Onun vəzifəsi ancaq təbliğ etmək idi.[23] Bunu dərk edən Müqəddəs Elçi: "*Mənim vəzifəm yalnız təbliğ etməkdən ibarətdir, hidayət edən isə Allahdır*",[24] "*Allah məni yalnız təbliğ etmək üçün göndərdi, məcbur etmək üçün deyil*"[25] – deyirdi. Həqiqətən də o, nə insanların üstündə bir nəzarətçi, yaxud bir məcburedici[26] idi, nə də onların vəkili.[27] Buna baxmayaraq Rəhmət Peyğəmbəri ətrafındakıların hidayətə qovuşması və nicat tapması üçün dəvət vəzifəsində o qədər təkid və əzmlə çalışmışdır ki, nəhayət buna görə "*Ey Muhammməd (s.ə.s.) ! İman gətirməyəcəklər deyə*

16 M439 Müslim, İman, 287.
17 B4612 Buxari, Təfsir, (Maidə) 7.
18 Yunus, 10/15.
19 əl-Haqqa, 69/44-47.
20 əl-Ankəbut, 29/48; əl-Qiyamə, 75/16-9.
21 M2950 Müslim, Həcc, 147.
22 əl-Ənam, 6/50, 106; Yunus, 10/109; əl-Əraf, 7/203.
23 Ali-İmran, 3/20; əl-Maidə, 5/92, 99; ən-Nəhl, 16/35, 82.
24 HM17060 İbn Hənbəl, IV, 100.
25 M3696 Müslim, Təlaq, 35; T3318 Tirmizi, Təfsirul-Qur'an, 66.
26 əl-Gaşiyə, 88/21-22.
27 əl-Ənam, 6/66, 104-107.

*özünü həlak mı edəcəksən?!"*[28] ayəsində olduğu kimi digər zamanlarda da Allah tərəfindən xəbərdarlıq almışdı.[29] Əslində xəbərdarlıqların əsas səbəbi Rəsulullahın əngin mərhəməti idi. Əmisinin hidayətini yaxud bağışlanmasını çox istəməsi,[30] münafiqlərin rəisinin cənazə namazını belə qıldırmağa təşəbbüs etməsi[31] onun çox mərhəmətli olması ilə əlaqəli idi.

Həzrət Peyğəmbərin nazil olan vəhyləri təbliğ və tilavət etməklə yanaşı inananlara Kitabı, hikməti və onlara bilmədiklərini öyrətmək[32] kimi mühüm bir vəzifəsi də var idi.[33] Allahın Kitabını öyrətməsi ən çox əməl və əxlaq mövzuları və gündəlik həyatdakı işlərlə əlaqədar idi. Ayələrdə ifadə edildiyi üzrə o, Qur'anla yanaşı hikməti də öyrədirdi. Çünki o, vəhylə təchiz edilmiş, hikmətlə bəzənmiş müdrik bir müəllim idi. Bəzi rəvayətlərdə özünün də buyurduğu kimi o müəllim yəni öyrədən olaraq göndərilmişdi.[34]

Həzrət Peyğəmbərin nazil olan ayələri izah etməsi də onun əsas vəzifələrindən biri idi. Çünki Uca Allah: "*...Sənə də Qur'anı nazil etdik ki, insanlara onlara göndəriləni (hökmləri, halal-haramı) izah edəsən*"[35] – buyururdu. Onun Qur'anı bəyan etməsi isə müxtəlif şəkillərdə olurdu. Nəbəvi bəyan bəzən Qur'an hökmlərindən mənası bilinməyən yaxud başa düşülməsi

[28] əş-Şuəra, 26/3-4.
[29] Abəsə, 80/1-2; əl-Kəhf, 18/6; əl-Fatir, 35/8.
[30] əl-Qəsəs, 28/56; ət-Tovbə, 9/113.
[31] ət-Tovbə, 9/84.
[32] əl-Bəqərə, 2/129, 151.
[33] Ali-İmran, 3/164; Cuma, 62/2.
[34] M3690 Müslim, Təlaq, 29; İM229 İbn Macə, Sünnə, 17.
[35] ən-Nəhl, 16/44.

çətin olan ayələrə, bəzən də ümumi hökmlərin necə başa düşüləcəyinə dair verdiyi izahlar şəklində olurdu. Məsələn, imsaq vaxtı haqqında məlumat verən: *"...Sübh açılınca, ağ sap qara sapdan seçilənə qədər yeyib için..."*[36] ayəsində olan sapları səhabədən Ədiy ibn Xatim həqiqi mənada başa düşərək yastığının altına sap qoymuş, onlara baxaraq imsaq vaxtını təyin etməyə çalışmışdı. Bu metodla heç bir nəticə əldə edə bilməyəndə Allah Rəsulunun yanına gəlmiş, həzrət Peyğəmbər də ayədə keçən iki sapı "*Bu (yalnız) gecənin qaranlığı və səhərin aydınlığı deməkdir*" sözlərilə izah etmişdi.[37]

*"İman gətirib imanlarını zülmə qatışdırmayanlar..."*[38] ayəsi nazil olanda narahat olan səhabələr həzrət Peyğəmbərin yanına gələrək "Hansımız imanımıza zülm qarışdırmırıq ki?" demiş, bunun eşidəndə o: "*Siz Loğmanın oğluna dediyi 'Həqiqətən şirk böyük bir zülmdür'*[39] *sözünü eşitməmisiniz?*" – deyərək burada nəzərdə tutulan zülmü "şirk" olaraq izah etmişdi.[40]

Vəhyin nazil olmasına şahidlik edən səhabə Qur'an ayələrinin çoxunu başa düşürdü və təfsirə çox da ehtiyacları yox idi. Buna görə də həzrət Peyğəmbər Qur'anın kiçik bir hissəsini təfsir etmişdi. İyirmi üç il nazil olmağa davam edən vəhy müddətinin ən mühüm məsələsi olan Qur'an, onları maraqlandıran hər mövzuda həyatla iç-içə idi və başa düşülməyən

[36] əl-Bəqərə, 2/187.
[37] B4510 Buxari, Təfsir, (Bəqərə) 28; M2533 Müslim, Siyam, 33.
[38] əl-Ənam, 6/82.
[39] Loğman, 31/13.
[40] B4776 Buxari, Təfsir, (Loğman) 1.

heç nə yox idi. Buna görə də heç bir ayəsi təfsir edilməyən surələrlə yanaşı bir çox surənin də yalnız bir neçə ayəsi hədislərlə izah edilmişdi.

Həzrət Peyğəmbərin Qur'an təfsiri ən çox onun həyat tərzində və əxlaqi davranışlarında təzahür edirdi. Başqa sözlə desək Allah Rəsulu Qur'anı izah edərək deyil, yaşayaraq öyrətməyi seçmişdi. İnancdan ibadətə, təhsildən əxlaqa qədər həyatın hər sahəsinə aid sünnə əslində Qur'anın həyata tətbiq edilməsi demək idi. Beləliklə, həzrət Peyğəmbərin təfsiri təkcə hədis mənbələrinin təfsir bölümlərindəki bir neçə rəvayətdən ibarət deyil onun bütün sünnə və sirətində axtarılmalıdır. Belə də deyə bilərik ki, Qur'an ilahi iradənin yazılı bir əsəri, həzrət Peyğəmbər və onun Qur'anı həyata keçirməsi isə bu əsərin nümayiş etdirilməsi idi.

Allah Rəsulu ilahi mesajı o qədər mənimsəmişdi ki, gecələr boyu göz yaşları içərisində ibadət edərdi. Bəzən ayaqları şişənə qədər[41] qiyamda Qur'an oxuyardı. Oxuduğu hər bir ayənin təsiri ilə gah kədərlənər, gah da sevincə qərq olardı. Dua ayələrini oxuyanda dua edər, istiazə ayələri gələndə Allaha sığınardı.[42] Son Peyğəmbər olduğuna görə Xatəmul-Ənbiyanın öz ümməti, hətta bəşəriyyət üçün nigarançılığı daha çox idi. Səhabələrin bəzilərinin səsindən qulaq asmağı xoşladığı Qur'an ayələrini təfəkkür edərkən vəhyin ecazkar sehrinə elə qapılırdı ki, müəyyən yerdə artıq dözə bilmirdi. Bir dəfə sevimli

[41] M7124-M7126 Müslim, Sifatul-munafiqin, 79-81; B1130 Buxari, Təhəccüd, 6.
[42] M1814 Müslim, Müsafirin, 203.

dostlarından Abdullah ibn Məsudun Nisa surəsini oxumağına qulaq asırdı. İbn Məsud "*Hər ümmətdən (peyğəmbərini) bir şahid gətirəcəyimiz və səni də onlara şahid təyin edəcəyimiz zaman (kafirlərin halı) nə cür olacaq?*"[43] ayəsini oxuyanda Nəbilər Sultanı göz yaşlarına boğularaq "*Bu qədər kifayətdir!*" – buyurmuşdu.[44] Dərin təfəkkürün və səmimi nigarançılıqlarının nəticəsi olaraq Rəhmət Elçisi bəzi surələrin onu qocaltdığını etiraf etmişdi. Ən yaxın dostu həzrət Əbu Bəkr bir gün "Ey Allahın Rəsulu, saçlarına dən düşdü, yaşlandın!" dedikdə O (s.ə.s.): "*Məni Hud, Vaqiə, Mürsəlat, Nəbə və Təkvir surələri qocaltdı*"[45] sözlərilə cavab vermişdi.

Allah Rəsulu ilahi kəlamın bəşəriyyətə həyat bəxş edən,[46] ruh verən,[47] müqəddəs bəyanlar olduğunu idrak edirdi. Həzrət Ömərin rəvayət etdiyinə görə o, Qur'ani-Kərimi nəzərdə tutaraq: "Şübhəsiz Allah bu Kitabla bəzi cəmiyyətləri ucaldır, bəzilərini isə alçaldır" – deyərdi.[48]

Allah Rəsulu insanları Allahın dininə dəvət edərkən Qur'anın ona öyrətdiyi hikmət və gözəl nəsihət metodundan istifadə etmiş, həmsöhbətləri ilə mücadilə edərkən də ən gözəl üsuldan istifadə

[43] ən-Nisa, 4/41.
[44] B5050 Buxari, Fəzailul-Qur'an, 33; M1867 Müslim, Müsafirin, 247.
[45] T3297 Tirmizi, Təfsirul-Qur'an, 56.
[46] əl-Ənfal, 8/24.
[47] əş-Şura, 42/52.
[48] M1897 Müslim, Müsafirin, 269.

etmişdi.[49] Qur'an onun din və dünya görüşünü, batil ilə mücadiləsinin əsasını təşkil edirdi.[50]

İstər Peyğəmbərimizin (s.ə.s.), istərsə İslamı qəbul edən insanların ən mühüm istinad nöqtəsi idi Allahın Kitabı. Yeni Mədinə cəmiyyəti Qur'an ilə qurulur, sünnə ilə formalaşırdı. İstər fərz namazlardan əvvəl, istərsə sonra Peyğəmbər Məscidində verilən əsas təhsil Qur'an təhsili idi. Rəhmət Elçisi səhər, axşam və işa namazlarında bir çox surəni oxuyar, bəzi səhabələrin də o surələri əzbərləməsinə fürsət yaranardı. Allah Rəsulunun Cümə xütbələrinin əksəriyyəti də bəzi Qur'an ayələrinin müəyyən bir bütünlük içərisində oxunmasından ibarət idi.[51] Buna görə də təxminən on il Cümə namazlarında oxunan xütbələrdən bizə nəql edilənlər elə də çox deyildi.

Məsələn, Peyğəmbərimizə (s.ə.s.) evlərini bağışlamaqla tanınan Harisə ibn Numanın bir qızı belə demişdi: "Mən Qaf surəsini Rəsulullahın (s.ə.s.) ağzından dinləyərək əzbərlədim. Onu hər Cümə xütbədə oxuyardı".[52] Cabir ibn Səmurənin rəvayət etdiyinə görə də həzrət Peyğəmbər (s.ə.s.) xütbəsini ayaq üstə verər, sonra oturardı. Sonra ayağa durar və ikinci xütbədə müxtəlif ayələr oxuyardı və Allahı xatırlayardı.[53] Rəsulullah (s.ə.s.) Cümə günü səhər namazında Səcdə və İnsan (Dəhr) surələrini,[54] Cümə namazında isə

[49] ən-Nəhl, 16/125-127.
[50] əl-Furqan, 25/52.
[51] D1101 Əbu Davud, Səlat, 221, 223.
[52] M2014 Müslim, Cümə, 51.
[53] İM1106 İbn Macə, İqamət,85.
[54] B1068 Buxari, Sucudul-Qur'an, 2.

bəzən Cümə və Münafiqun,[55] bəzən də Əla və Ğaşiyə surələrini oxuyardı.[56] Bir dəfə axşam namazında Əraf surəsini iki rükətə bölüşdürərək oxumuş,[57] bir dəfə də sübh namazında Qaf və Yasin surələrini oxumuşdu.[58]

Allah Rəsulu namazlarda Qur'anı ruhuna uyğun bir şəkildə oxuyar və qulaq asanları valeh edərdi. Belə ki, Cübeyr ibn Mütim müşrik əsirlərin fidyəsi barədə danışmaq üçün Rəsulullahın yanına gələndə Rəsulullah (s.ə.s.) axşam namazını qıldırır, Tur surəsini oxuyurdu. Onun dodaqlarından süzülən möhtəşəm ayələri eşidən Cübeyr hələ müsəlman olmamasına baxmayaraq Qur'anı eşidəndə hiss etdiklərini belə ifadə etmişdi: "Sanki qəlbim parçalanacaqdı!"[59]

Allah Rəsulu ona nazil olan Kitabın sanki ətə-sümüyə bürünmüş təcəssümü idi. O, təfsir olunmuş bir Qur'anı, canlı bir İslamı təmsil edirdi. Belə ki, möminlərin anası həzrət Aişə Peyğəmbərin evində yaşadığına görə qazandığı zəngin təcrübə ilə Rəsulullahın əxlaqını soruşan birinə "Sən Qur'an oxumursan? Rəsulullahın (s.ə.s.) əxlaqı Qur'an idi..." şəklində cavab vermişdi.[60] Həzrət Aişənin bu qısa və əsaslı ifadəsindən sonra "*Şübhəsiz, sən uca bir əxlaq*

[55] M2031 Müslim, Cümə, 64; N1422 Nəsai, Cümə, 38.
[56] N1423 Nəsai, Cümə, 39.
[57] N992 Nəsai, İftitah, 67.
[58] HM16510 İbn Hənbəl, IV, 35.
[59] HM16907 İbn Hənbəl, IV, 85.
[60] D1342 Əbu Davud, Tətəvvü', 26.

*üzərindəsən!"*[61] ayəsini xatırlatması[62] ayrıca Muminun surəsinin ilk doqquz ayəsini oxuması[63] Rəsulullahın gecələri oyaq qalanda nələr etdiyini soruşanlara isə Müzzəmmil surəsi ilə cavab verməsi yenə eyni həqiqətə işarə edirdi.[64]

Həzrət Aişənin bu izahları həzrət Peyğəmbərin söz, davranış və razılıqlarının Qur'ana bağlı olduğunu göstərir. Çünki əxlaq bunların hamısını ehtiva edir. Sünnə Qur'anın həyata izahlı tətbiqatı, təfsiri və İslamın nümunəvi icrasıdır.

Nəticə etibarilə həzrət Peyğəmbər tam olaraq Qur'an ilə yatar, Qur'an ilə qalxardı. Yatarkən necə ki, Fələq və Nas surələrini oxuyurdusa[65] gecə namaz qılmaq üçün oyananda da Ali-İmran surəsinin son on ayəsini oxuyaraq qalxardı.[66] Qur'an duyğuları da daxil olmaqla Allah Rəsulunun bütün həyatını necə əks etdirirsə Rəsuli-Əkrəm də iyirmi üç illik risalət həyatı boyunca bütün davranış və sözlərində daima Qur'an vəhyini əks etdirmişdi. Elə buna görə də risalət Qur'anla formalaşan bir ömür, Rəsul isə sanki yaşayan bir Qur'an idi.

[61] əl-Qələm, 68/4.
[62] İM2333 İbn Macə, *Əhkam*, 14; HM25108 İbn Hənbəl, VI, 91.
[63] NK11350 Nəsai, *əs-Sünənul-kübra*, VI, 412.
[64] M1739 Müslim, *Müsafirin*, 139.
[65] B6319 Buxari, *Də'əvat*, 12.
[66] B4572 Buxari, *Təfsir*, (Ali-İmran) 20; M1789 Müslim, *Müsafirin*, 182.


محمد

# HÖRMƏTƏ VƏ SEVGİYƏ ƏN LAYİQ İNSAN

Kəbə tarix boyu müxtəlif səbəblərə görə dağılmış və hər dəfə Məkkədəki qəbilələr tərəfindən təmir edilmişdi. Sonuncu dəfə Cürhüm qəbiləsinin təmir etdiyi Kəbə yağan yağışların və sellərin təsirindən xarab olmuşdu. Rəsulullahın mənsub olduğu Qüreyş qəbiləsi Kəbəni yenidən təmir etməyə qərar vermişdi. Hər qəbilə ayrı-ayrı daş toplayaraq Həcərul-əsvədin qoyulacağı yerə qədər Kəbənin divarlarını hörmüşdü. Növbə Həcərul-əsvədi yerinə qoymağa gələndə qəbilələr arasında narazılıq meydana çıxmışdı. Az qala bu narazılığa görə aralarında müharibə baş verəcəkdi. Həzrət İbrahim tərəfindən təvafın başlanğıc nöqtəsini təyin etmək üçün qoyulan bu daşı yerinə qoymaq şərəfini heç kimlə bölüşmək istəmirdilər. Əbduddar oğulları içərisi qan ilə dolu bir qab gətirmiş və bu qabın içindəki qana əllərini salaraq Ədi oğulları ilə and içmişdilər. Bu

hadisəyə görə Qüreyş qəbiləsi dörd-beş gün gözlədikdən sonra məsləhətləşmək üçün Məscidi-Haramda görüşdülər. Ancaq yenə də razılaşa bilmədilər. Nəhayət, Qüreyşin ən yaşlısı olan Əbu Ümeyyə ibn Müğirənin də təklifi ilə Haramı-Şərifin qapısından ilk içəri girən şəxsin aralarında qərarverici hakim olacağı barədə razılaşdılar və oturub gələcək olan şəxsi gözləməyə başladılar. Haramı-Şərifin Bəni Şeybə Qapısından ilk olaraq əl-Əmin (etibarlı adam) adlandırılan gənc Muhamməd (s.ə.s.) girdi. Onu görəndə "Bu gələn adam sevdiyimiz etibarlı (Əmin) şəxsdir. Bu, Muhamməddir" deyərək razılıqlarını ifadə etdilər. Ona məsələni danışıb aralarındakı narazılığın səbəbini izah etdikdən sonra hakimlik etməyini istədiklərində həzrət Muhamməd onların bu etimadlarını boşa çıxarmayan və hər kəsi razı salan bir çıxış yolu təqdim etdi. Həcərul-əsvədi ortaya sərilən bir örtüyün üzərinə qoydu və hər qəbilə bu örtüyün bir ucundan tutaraq daşı qoyulacağı yerə qaldırdı. MuhamMədul-Əmin daşı örtüyün üzərindən götürdü və yerinə qoydu.[1] Hamı bundan razı qaldı və heç kim etiraz etmədi. Aralarında narazılığa səbəb olan daşı həzrət Muhammədin (s.ə.s.) yerinə yerləşdirməsinə razı olmalarında onun cəmiyyətdəki etibarının böyük təsiri olmuşdu.

Cahiliyyə cəmiyyətində insanı hörmətəlayiq edən əsas xüsusiyyətlərin başında mənsub olduğu qəbilənin əsilzadə olmasının rolu olmaqla yanaşı, fərdin etibarlı olması, qohumluq əlaqələrini qoruması,

[1] HS2/18 İbn Hişam, Sirət, II, 18-19; BŞ3991 Beyhəqi, Şü'əbul-iman, III, 436, BS9289 Beyhəqi, əs-Sünənul-kübra, V, 116.

səxavətliliyi, zəifin yanında olması, yetimi qoruması, qonşusuna yaxşılıq etməsi və s. əxlaqi keyfiyyətlər də ona cəmiyyətdə etibar və hörmət qazandırırdı.[2]

Dövrün ən soylu qəbilələrindən[3] birinə mənsub olması ilə yanaşı sahib olduğu əxlaqi keyfiyyətlər və üstün məziyyətlər həzrət Peyğəmbəri cəmiyyətdə seçkin hala gətirmişdi. Yetim böyüyən, çobanlıq edən, məişətini qazanmaq üçün ticarətlə məşğul olan bir adın bu dərəcədə hörmətli bir mövqeyə sahib olması, əldə etdiyi etibar və hörmət təkcə qəbiləsinin əsilzadə olması ilə əlaqədar ola bilməzdi. Həcərul-əsvədin hakimliyində müşahidə edildiyi kimi etibarlı olması ona bu hörməti qazandıran ən mühüm xüsusiyyəti idi. Belə ki, o dövrdə ticarətlə məşğul olan həzrət Xədicə də dürüst və etibarlı olduğuna görə öz karvanının mallarını ona etibar etmişdir. Onunla bir müddət işlədikdən sonra onu cəmiyyətdə sayılıb-seçilən bir mövqeyə yüksəldən bu əxlaqını yaxından müşahidə etmiş və buna heyran qalmışdı. Əxlaq dəyərlərinin pozulduğu bir zamanda həzrət Peyğəmbərin təqdirə layiq əxlaqını bu dəyərləri unutmayan və bunlara qiymət verən həzrət Xədicə təqdirlə qarşılamış və ona evlilik təklif etmişdi.

Gözəl əxlaqına görə onunla evlənən həzrət Xədicə ilk vəhyin tədirginliyini yaşayan həzrət Peyğəmbəri təsəlli edərkən də bu dəyərləri vurğulamış və Allahın

2

3 B3668 Buxari, Fəzailu əshabin-nəbi, 5.

onu utandırmayacağını söyləmişdi: "Xeyr! Vallah, Allah Səni heç vaxt utandırmaz. Çünki sən qohumluq əlaqələrini qoruyar, düz söz danışar, ehtiyacı olanlara kömək edər, imkanı olmayanlara kömək əlini uzadar, qonağını yaxşı qarşılayar və haqsızlığa məruz qalanlara dayaq olursan."[4]

Cəmiyyətdə belə mühüm bir hörmətə sahib olan Peyğəmbərimizə risalət vəzifəsi verildikdən sonra dinin əmrlərini təbliğ etməyə başladıqda müxtəlif etirazlarla üzləşmişdi. Ona göstərilən etimad və sahib olduğu mühüm mövqeyə görə məkkəlilərin onun əxlaq və şəxsiyyəti haqqında heç bir narazıçılıqlarının olmamasına baxmayaraq yenə də onun gətirdiyi prinsiplərə etiraz etmişdilər. Şəxsində var olan ali dəyərləri inkar edə bilməsələr də[5] bəzən onu dəlilik, şairlik, sehrbazlıq, çaşğınlıq ilə günahlandırmışdılar. Halbuki risalətdən sonra "*Ən yaxın qohumlarını da xəbərdar et*"[6] ayəsi nazil olduqda həzrət Peyğəmbər ilk dəfə açıq-aşkar təbliğ etmək üçün bir gün Səfa təpəsinə çıxıb bütün qüreyşi çağırmış və hamı yığıldıqdan sonra onlara: *"Sizə bu dağın arxasından (sizinlə müharibə etmək üçün düşman) atlılar gəlir desəm mənə inanarsınız?"* – deyərək soruşanda onlar: *"Biz sənin yalan danışdığını nə gördük, nə də eşitdik"*[7] – demişdilər.

Həzrət Peyğəmbərə olan etimadlarını bu şəkildə bildirdiklərinə baxmayaraq onun sözlərini qəbul

4 B3 Buxari, Bədul-vəhy, 1.
5 B7 Buxari, Bədul-vəhy, 1.
6 əş-Şuəra, 26/214.
7 B4971 Buxari, Təfsir, (Ləhəb) 1.

etmək onlara sərf etməmişdi. Belə ki, Qur'an onların bu davranışını belə təsvir edir: "*Ey Muhamməd! Bilirik ki, onların (Qur'an barəsində) dedikləri söz səni çox kədərləndirir. Həqiqətdə isə onlar səni yalançı hesab etmirlər (ürəklərində sənin həqiqi peyğəmbər olduğunu yaxşı bilirlər). Ancaq o zalımlar (müşriklər) Allahın ayələrini inadla inkar edirlər.*"[8]

Həzrət Peyğəmbərin təbliğini təsirsiz hala salmaq üçün əvvəlcə onun insanların yanındakı etibarını zədələməyin vacib olduğunu başa düşəndə yeni sözlər uydurmağa başladılar: "*Onlar öz içərilərindən özlərinə (Allahın əzabı ilə) qorxudan bir peyğəmbər gəlməsinə təəccüb etdilər və kafirlər belə dedilər: "Bu, yalançı bir sehrbazdır! Əcaba, o, (Allahdan başqa heç bir tanrı yoxdur deməklə) tanrıların hamısını bir tanrımı edir? Bu, doğrudan da, çox təəccüblü bir şeydir. Onların əyanları (toplandıqları məclisdən) çıxıb gedərək (bir-birinə) belə dedilər: "Gedin öz tanrılarınıza (ibadətdə) möhkəm (səbatlı) olun. (Bizdən) istənilən şey budur. Biz bunu (Muhammədin dediklərini) sonuncu dində (xaçpərəstlikdə) də eşitməmişik. Bu ancaq bir uydurmadır. Məgər Qur'an aramızdan onamı nazil olmuşdur?! (Halbuki o, yaşca bizdən kiçik, özü də kasıbdır)". Doğrusu, onlar Mənim Qur'anım barədə şəkk-şübhə içindədirlər. Doğrusu, onlar hələ Mənim əzabımı dadmamışlar!*"[9]

Rum hökmdarı İrakli ticarət üçün Şama gələn Əbu Süfyan və yoldaşlarını peyğəmbərliyini elan edən adam haqqında məlumat almaq üçün sarayına dəvət

[8] əl-Ənam, 6/33.
[9] Sad, 38/4-8.

etmişdi. Hələ müsəlman olmayan Əbu Süfyanın həzrət Peyğəmbər haqqında etdiyi etiraf əslində müşriklərin Allah Rəsulunun hörmətəlayiq bir insan olduğunu inkar edə bilmədiklərini açıq-aydın sübut idi. O, Rəsulullah (s.ə.s.) haqqında: "Vallah, yalançılıqla ittiham edilməkdən qorxmasaydım, onun (Peyğəmbərin) haqqında yalan ittihamlarla artıq-əskik danışardım" demişdi. Aralarında cərəyan edən bu söhbətdə İraklinin həzrət Peyğəmbərlə əlaqədar olaraq "Heç müqavilələrinə xəyanət etdiyi vaxtlar oldumu?" sualına: "Xeyr! O, bağladığı müqavilələrə xəyanət etməz, ancaq biz indi onunla bir müddətlik atəşkəs təmin etmişik. Bu müddət ərzində nə edəcəyini bilmirik" şəklində cavab vermişdi. Bu sözdən sonra Əbu Süfyanın bu cavabla əlaqədar olaraq: "Onunla əlaqədar mənfi bir söz kimi söhbətimdə yalnız bu sui-zənnimi söz arasına soxuşdura bildim" şəklində olan etirafı da çox diqqət çəkicidir.[10]

Əbu Süfyanın bəhs etdiyi atəşkəs Hüdeybiyə müqaviləsi idi. Müşriklərlə müsəlmanlar arasında bağlanan bu müqavilənin maddələrindən biri müşriklər tərəfindən müsəlman olub müsəlmanların yanına getmək istəyənlərin müşriklərə geri qaytarılacağı haqqında idi. Bu müqavilə bağlanmış, lakin hələ tamamlanıb imzalanmamışdı. Elə bu əsnada müsəlman olduqdan sonra müşriklərin əziyyətlərinə məruz qalan və ayaqlarından zəncirlənərək həbs edilən Əbu Cəndəl qaçıb qurtularaq müsəlmanlara sığınmışdı. Əbu Cəndəl müşriklərin müqavilə imzalamaq

[10] B7 Buxari, Bədul-vəhy, 1; M4607 Müslim, Cihad və siyər, 74.

üçün göndərdiyi elçi Süheyl ibn Əmrin oğlu idi. Süheyl müqavilənin şərtlərinə əsasən Rəsulullahdan oğlunu qaytarmağını istədi. Hələ müqavilə imzalanmamış olmasına baxmayaraq Allah Rəsulu verdiyi sözdən dönməmişdi və Əbu Cəndəli geri qaytarmışdı.[11] Bu hadisə Əbu Süfyanın atəşkəs müddətində həzrət Peyğəmbərin necə davranacağının məlum olmadığı ilə əlaqəli dilə gətirdiyi sui-zənnin də mənasız və yersiz olduğunu göstərirdi.

Həzrət Peyğəmbərin bu seçkin və etibarlı mövqeyi təkcə müşriklər tərəfindən deyil, yəhudi və xristianlar arasında da qəbul edilmişdi. Həzrət Peyğəmbər Mədinəyə çatanda onu görməyə gələn yəhudi alimlərindən Abdullah ibn Səlam onunla görüşdükdən sonra Rəsulullahın üzünü görən kimi başa düşdüm ki, onun üzü bir yalançı üzü deyil"[12] demişdi. Həzrət Peyğəmbərin seçilmişliyini onun üz ifadələrindən oxuyan və təsirlənən bu müdrik adam çox keçməmiş İslamı qəbul etmişdi. Yenə yəhudilərin öz məsələlərində hakimlik etmək üçün həzrət Peyğəmbərə müraciət etməsi də ona olan etimadlarını aşkara çıxarmaq üçün diqqətə layiq məlumatdır.[13]

Rəsulullaha gələn vəhylər də onun Allah qatındakı seçkin mövqeyini vurğulayırdı. Cəmiyyətdə onsuz da var olan hörməti, peyğəmbərlikdən sonra Allah qatındakı dəyərini vurğulayan ayələrlə möhkəmləndirilmişdi. Qur'anın bu vurğusu həzrət Peyğəmbəri inananların nəzərində daha da ucaltmışdı.

[11] B2731 Buxari, Şürut, 15; B2700 Buxari, Sülh, 7.
[12] T2485 Tirmizi, Sifatul-qiyamə, 42; DM1494 Darimi Səlat, 156.
[13] B6819 Buxari, Hüdud, 24; M4437 Müslim, Hüdud, 26.

Müsəlmanların Allahın və Peyğəmbərinin qarşısına keçməmə barədə xəbərdarlıq almaları,[14] onun yanında yüksək səslə danışmamalarının emr edilməsi,[15] onun hər hansı biri olmayıb Allahın Rəsulu və peyğəmbərlərin sonuncusu olduğunun vurğulanması,[16] Allaha itaətlə yanaşı Rəsuluna itaətin əmr edilməsi,[17] ona tabe olunarsa bununla Allahın sevgisinin qazanılacağının vurğulanması,[18] razılaşa bilmədikləri işlərdə onu hakim təyin edib verdiyi qərarı etiraz etmədən qəbul etmələrinin istənməsi,[19] peyğəmbəri hər şeydən və hər kəsdən çox sevməyin imanla əlaqələndirilməsi[20] müxatəblərinin nəzərində onun ağırlığını və hörmətini daha da artırmışdı. Beləcə, Allah-Təala öz nəzərində mötəbər bir mövqe bəxş etdiyi peyğəmbərinin bu halını müsəlmanların qəlbinə də yerləşdirmişdi.

İslamın həzrət Peyğəmbərə verdiyi bu nüfuz səhabələrin onunla olan münasibətlərini formalaşdırmışdı. Səhabələrin Rəsulullahla olan danışıqlarında istifadə etdikləri "Atam-anam sənə fəda olsun!" cümləsi ona olan bağlılıqlarının Rəsulullah onlardan bir şey soruşduqda isə onların: "Allah və Rəsulu daha yaxşı bilir" – cavabı Allah və Rəsuluna olan hörmət və təslimiyyətlərinin bir ifadəsi idi. Bu mənada Allah Rəsulunun gətirdiyi ilahi əmrlərə itaət və iman

[14] əl-Hucurat, 49/1.
[15] əl-Hucurat, 49/2.
[16] əl-Əhzab, 33/40.
[17] ən-Nur, 24/52, 54.
[18] Ali-İmran, 3/31.
[19] ən-Nisa, 4/65.
[20] B15 Buxari, İman, 8; M169 Müslim, İman, 70.

edən səhabə ona qarşı hörmətsizlik etməkdən çəkinməklə yanaşı bəzi bədəvilərin kobud davranışlarına da müdaxilə etmək istəmişdilər.[21] Çünki Qur'anın Allah və Rəsuluna qarşı kobud davrananlarla əlaqədar aşağıdakı xəbərdarlığı onların zehinlərində çox təzə və canlı idi: *"Allahı və Onun Peyğəmbərini incidənlərə Allah dünyada və axirətdə lənət eləmiş (Öz rəhmətindən qovmuş) və onlar üçün həqarətli bir əzab hazırlamışdır!"*[22]

Qüreyşin əyanlarından Ürvə ibn Məsudun Hüdeybiyə görüşmələrindən qayıdarkən Rəsulullahla əlaqədar Qüreyşlilərə "Ey qövmüm! Vallah, mən bir çox hökmdarın hüzuruna çıxdım, heyət olaraq Qeysərdə, Kisrada və Nəcaşinin yanında oldum. Vallah, Muhammədin (s.ə.s.) əshabının ona təzim etdiyi qədər heç bir hökmdarın əyanlarının təzim etdiyini görmədim"[23]şəklindəki bəyanı da müxatəblərinin nəzərində Rəsulullahın hörmətinin açıq-aşkar bir ifadəsidir. Bununla yanaşı Rəsulullah istər ona inananların, istərsə də inanmayanların nəzərindəki bu mötəbər və etibarlı mövqeyini heç bir vaxt qürur və təkəbbür vəsiləsinə çevirməmişdir. Əksinə, möminlərin səhv düşüncəyə sövq edən təzim və davranışlardan uzaq durmasını istəmişdir.[24]

Səhabələrin həzrət Peyğəmbərə olan bu sevgi və hörməti ona salavat gətirməyi tövsiyə edən Qur'an ayələri və peyğəmbəri prinsiplə də

[21] M2451 Müslim, Zəkat, 143, B3344 Buxari, Ənbiya, 6.
[22] əl-Əhzab, 33/57.
[23] B2731 Buxari, Şürut, 15.
[24] D2042 Əbu Davud, Mənasik, 96, 97; B3445 Buxari, Ənbiya, 48; D5230 Əbu Davud, Ədəb, 151,152; HM22554 İbn Hənbəl, V, 255.

möhkəmləndirilmişdir. Qur'anda: *"Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər (xeyir-dua verirlər). Ey iman gətirənlər! Siz də ona salavat göndərib (onun üçün salavat deyib) layiqincə salamlayın! (Allahümmə səlli əla Muhammədin və ali Muhamməd; əssəlamu əleykə əyyuhənnəbi və rəhmətullahi və bərəkətuhu–deyin!)"*[25] – buyurulur. Peyğəmbərimiz də: *"Qiyamət günü insanların mənə ən yaxın olanı mənə ən çox salavat gətirənidir"*.[26] *"Mənə salavat gətirin. Çünki harada olursunuzsa olun sizin salavatınız mənə çatır"*[27] – deyərək ona salavat gətirilməsini müsəlmanlara nəsihət etmişdir. Çünki salavat təkcə həzrət Peyğəmbəri yada salmaq ya da ona dua etmək deyil. Onu yad etməyə, beləliklə, onun prinsiplərini və sünnəsini xatırlamağa bir vəsilədir. Peyğəmbərinə salavat gətirən möminlər təkcə onu xatırlamaqla kifayətlənməməli, həyatını onun prinsipləri istiqamətində/əsasında formalaşdırmalı, ona layiq ümmət olmağa çalışmalıdırlar. Bu mənada səhabədən sonrakı nəsillərin də ona salavat gətirməsi və onu yad etməsi həzrət Peyğəmbərin mənəvi hörmətinin, nüfuzunun və ümmətilə olan möhkəm əlaqəsinin davamlılığını təmin etmək baxımından əhəmiyyət kəsb edir.

Allah-Təala son Peyğəmbərinə digər peyğəmbərlər arasında da mötəbər bir mövqe bəxş etmişdir. Onlardan onlara verdiyi kitab və hikmətdən sonra bunları təsdiqləyici olaraq göndərəcəyi Peyğəmbərinə

[25] əl-Əhzab, 33/56.
[26] T484 Tirmizi, Vitr, 21.
[27] D2042 Əbu Davud, Mənasik, 96, 97.

iman edəcəkləri barəsində əhd almışdır.[28] Möminlərdən isə öz peyğəmbərlərinə iman etdikləri kimi Allahın digər peyğəmbərlərinə də aralarında heç bir fərq qoymadan iman etmələrini istəmişdir.[29] Bu səbəblə müsəlmanlara görə bütün peyğəmbərlər mötəbər və hörmətəlayiqdir. Bütün müsəlmanlar öz peyğəmbərlərinə iman etdikləri kimi bu peyğəmbərlərə də iman edər və eyni şəkildə ən kiçik bir hörmətsizlik etməkdən də çəkinirlər.

[28] Ali-İmran, 3/81.
[29] əl-Bəqərə, 2/136, 285.

محمد ﷺ

# HƏZRƏT PEYĞƏMBƏRİN ÜSTÜN CƏHƏTLƏRİ

Bir gün Mədinədə Nəbi (s.ə.s.) səhabələri ilə oturarkən bir yəhudi gəldi və "Ey Qasımın atası! Yoldaşlarından biri mənim üzümə şillə vurdu" – deyərək şikayət etdi. Bu adam: *"Allah yoxsuldur, ancaq biz zənginik!"*[1] – deyərək məcazi mənada Allaha gözəl bir şəkildə borc (qarzı-hasən) verən, yəni Allah rizası üçün malını xərcləyən insandan bəhs edən ayəni[2] ələ saldığı üçün həzrət Əbu Bəkrin qəzəbinə düçar olan yəhudi alimi Finhas idi. Buna görə daha əvvəl də həzrət Əbu Bəkrdən həzrət Peyğəmbərə şikayət etmişdi.[3]

Finhasın bu dəfəki şikayəti yenə həzrət Əbu Bəkrlə əlaqədar idi. Allah Rəsulu Finhasın şikayətindən sonra həzrət Əbu Bəkri çağırtdırdı və soruşdu: *"Sən bu yəhudini*

[1] Ali-İmran, 3/181.
[2] əl-Bəqərə, 2/245.
[3] TT7/442 Təbəri, *Cami'ul-bəyan*, VII, 442.

*vurdunmu?"* Həzrət Əbu Bəkr də onu vurduğunu etiraf etdi.

Əbu Hüreyrə və Əbu Səid əl-Xüdrinin nəql etdiklərinə görə ənsardan bir nəfər bazardan keçərkən bir yəhudinin satmağa çalışdığı mala onun xoşuna gəlməyən məbləğ təklif etdikdə malını mədh etməyə çalışaraq: "Musanı aləmlərə üstün tutan Allaha and olsun ki..." – deyərək and içdiyini eşitmiş və "Ey alçaq adam! Muhamməddən də üstün tutdun?", – deyə ona qəzəblənmişdi. O da: "Muhammədi aləmlərə üstün tutan Allaha and olsun ki..." – deyərək cavab vermişdi.[4] Mübahisə qızışdığı əsnada isə səhabə qəzəbinə hakim ola bilməyib Finhasın üzünə bir şillə vurmuşdu. Finhas müsəlmanlarla yəhudilər arasında olan müqaviləyə görə dövlətin zəmanəti (təminatı) altında olduğunu əsas alaraq dərhal Peyğəmbərimizin (s.ə.s.) yanına gedib mədinəli səhabə haqqında şikayət etmişdi. Nəhayət, iki tərəfə də qulaq asan Allah Rəsulu hər ikisinə də belə bir xəbərdarlıq etdi: *"Allahın peyğəmbərlərini bir-birindən üstün tutmayın!"*[5] *"Məni də Musadan üstün tutmayın!"*[6] Məlum olur ki, o, peyğəmbərlər arasında üstünlük yarışı aparılmasını istəmirdi.

[4] M6153 Müslim, Fəzail, 160; M6151 Müslim,Fəzail, 159; B2412 Buxari, Xüsumat, 1.
[5] M6151 Müslim, Fəzail, 159.
[6] B2411 Buxari, Xüsumat, 1.

Uca Allahın seçdiyi bütün peyğəmbərlər iman baxımından və gətirdikləri ilahi bəyanın ümumbəşər mahiyyəti və əsasları baxımından eyni səviyyədədirlər. Allah-Təala hər nə qədər bəzi elçilərini elmi, mənəvi və ya dünyəvi mövqelər baxımından digərlərindən daha üstün tutmasına baxmayaraq peyğəmbər olmaq baxımından onların arasında heç bir fərq yoxdur. Qur'ani-Kərimi mənimsəyən bir mömin bütün peyğəmbərlərin Allah tərəfindən seçildiyinə və hamısının üstün şəxsiyyətlər olduğuna inanmalı və bu barədə peyğəmbərlər arasında fərq qoymamalıdır. Uca Allahın: *"Hər biri Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə iman etdilər"*[7] və *"Sənə nazil olana və səndən əvvəl nazil olana iman edərlər"*[8] – şəklində təsvir etdiyi möminlərə yaraşan: *"Onun elçilərindən heç biri arasında fərq qoymarıq"*[9] – deməkdir. Allah Rəsulu (s.ə.s.) da: *"Heç biriniz əsla mənim Yunus peyğəmbərdən xeyirli olduğumu deməsin"*[10] – buyuraraq peyğəmbərlərin bir-birinə rəqib olaraq görülməsini istəməmişdir. Rəsuli-Əkrəmin özünü səbirsizliyinə görə balığın qarnına düşən və haqqında Allah-Təalanın: *"Balıq sahibi (Yunus) kimi olma!"*[11] – buyurduğu Yunus peyğəmbərdən üstün tutmaması da mühüm məna kəsb edir.

Digər tərəfdən Uca Allah bəzi peyğəmbərlərini təkcə dinə dəvət etməklə vəzifələndirərkən onların arasından seçdiyi bəzi rəsullarına da səhifələr, kitab

[7] əl-Bəqərə, 2/285.
[8] əl-Bəqərə, 2/4.
[9] əl-Bəqərə, 2/136, 285.
[10] B3412 Buxari, Ənbiya, 35.
[11] əl-Qələm, 68/49.

və şəriət vermişdir. Həzrət Nuh, həzrət İbrahim, həzrət Musa, həzrət İsa və həzrət Muhamməd (s.ə.s.) kimi bəzi peyğəmbərlərə də təzyiq və çətinliklərə qarşı göstərdikləri mücadilənin böyüklüyünə görə "ulul-əzm" adı[12] verilmişdir. Qur'ani-Kərimdə Allahın həzrət Musa kimi peyğəmbərlərlə danışdığı,[13] bəzilərinin dərəcələrini ucaltdığı, həzrət İsanı "Ruhul-Qüds" ilə dəstəklədiyi bildirilir və peyğəmbərlərdən bəzilərinə müxtəlif məziyyətlər bəxş edildiyi xəbər verilir.[14] Buna oxşar şəkildə Allah-Təala: *"Həqiqətən biz, peyğəmbərlərin bəzilərini bəzilərindən üstün tutduq. Davuda da Zəburu verdik"*[15] – buyurarkən sanki dəmirçiliklə məşğul olaraq[16] məişətini təmin etməyə çalışan həzrət Davuda istədiyi zaman hökmdarlıq və hikmətin qapılarını açaraq[17] onu çox üstün bir mövqeyə gətirdiyini xatırlatmaqdadır.

Həzrət İbrahim, həzrət İsa və həzrət Musa kimi peyğəmbərlərin tövhid mücadilələrindən bəhs edən Bəqərə surəsində də Uca Allah həzrət Muhamməde (s.ə.s.): *"Şübhəsiz ki, sən (Allah tərəfindən) göndərilmiş peyğəmbərlərdənsən"*[18] – buyuraraq iltifat etmişdir. Bundan başqa Qur'ani-Kərimdə qeyd edildiyi kimi Allah-Təala bir vaxtlar bütün peyğəmbərlərdən və beləliklə, o peyğəmbərlərin ümmətlərindən onlara

[12] əl-Əhqaf, 46/36.
[13] əl-Qəsəs, 28/30.
[14] əl-Bəqərə, 2/253.
[15] əl-İsra, 17/55.
[16] əl-Ənbiya, 21/80.
[17] əl-Bəqərə, 2/251.
[18] əl-Bəqərə, 2/252.

veriləni təsdiq edən bir peyğəmbər gələrsə ona iman və yardım edəcəkləri barədə əhd almışdır.[19]

İman və gətirdikləri ilahi bəyanatın mahiyyəti və əsası baxımından eyni səviyyədə olan peyğəmbərlərin dünya və axirətlə bağlı olan məsələlərdə özlərinə məxsus bəzi xüsusiyyətləri vardır. Bu baxımdan Rəsulullahı (s.ə.s.) digər peyğəmbərlərdən fərqləndirən bəzi xüsusiyyətlər və üstünlüklər verildiyi də danılmaz bir həqiqətdir. Hətta bu üstünlük əlbəttə ki, onun ümmətinə də aid olacaqdır.[20] Məsələn, Cabir ibn Abdullahdan nəql edildiyinə görə Rəsulullah (s.ə.s.) belə buyurmuşdur: *"Məndən əvvəlki peyğəmbərlərdən heç birinə verilməyən beş şey mənə verilmişdir: 'Mənə düşmənimin ürəyinə bir aylıq məsafədən qorxu salmaq qabiliyyəti verildi. Yer üzü mənə məscid və təmiz buyuruldu. Ona görə də ümmətimdən namaz vaxtına yetişən hər kəs (olduğu yerdə) namazını qılsın. Qənimətlər mənə halal buyuruldu. Hər peğəmbər yalnız öz qövmünə göndərildiyi halda mən bütün bəşəriyyətə göndərildim və mənə şəfaət (etmə haqqı) verildi"*.[21]

Başqa bir rəvayətdə isə Allahın Rəsulu yuxarıdakılara əlavə olaraq: *"Mənə cəvamiul-kəlim (az sözlə çox məna ifadə etmə qabiliyyəti) bəxş edildi... və peyğəmbərlər/peyğəmbərlik mənimlə sona çatdı"* – buyurmuşdur.[22]

Bu rəvayətlərə əsasən demək olar ki, Rəsuli-Əkrəm Xəndək müharibəsində olduğu kimi[23] Allah

[19] Ali-İmran, 3/81.
[20] T1553 Tirmizi, Siyər, 5.
[21] B438 Buxari, Səlat, 56; M1163 Müslim, Məsacid, 3.
[22] M1167 Müslim, Məsacid, 5.
[23] əl-Əhzab, 33/26.

tərəfindən düşmənin qəlbinə qorxu salma xüsusunda dəstəklənmişdir. Digər səmavi dinlərin mənsubları ibadətlərini özlərinə məxsus məkanlarda yerinə yetirdikləri halda, Uca Allah həzrət Peyğəmbərə və ümmətinə bir lütf olaraq təmiz olan hər yerdə namaz qılmaq və lazım olanda təyəmmüm etməyə icazə vermişdir. Müsəlman olmayanlardan müharibə yolu ilə əldə edilən qənimətləri -ümməti-Muhammədin buna olan ehtiyacı olduğunu bilən Allah-Təala[24]-müsəlmanlara halal buyurmuşdur.[25]

Həzrət Peyğəmbər bütün bəşəriyyətə göndərilmişdir. Bəzi alimlər həzrət Nuh və həzrət İbrahimin də bütün bəşəriyyətə göndərildiyini ifadə etmişdilər. Bundan başqa müəyyən bir əraziyə və ya cəmiyyətə göndərilən peyğəmbərlərin mesajlarında da Allahın birliyi və axirətə iman kimi ümumbəşəri prinsiplər olduğu həqiqətdir.

Həzrət Peyğəmbərə bəxş edilən "cəvamiul-kəlim" xüsusiyyətini bəzi alimlər az sözlə çox məna ifadə etmək şəklində izah etmişdir. Bəzi alimlərə görə onun sahib olduğu yığcam və ədəbi danışıq qabiliyyəti isə Qur'ani-Kərim və hədislərdə öz əksini tapmışdır.

Aləmlərə rəhmət olaraq[26] və bütün insanları və cinləri[27] müjdələmək və xəbərdarlıq etmək üçün göndərilən bir peyğəmbər[28] olan həzrət Muhamməd (s.ə.s.) peyğəmbərlərin son halqasını təşkil edir.[29]

[24] B3124 Buxari, Farzul-xüms, 8.
[25] əl-Ənfal, 8/69.
[26] əl-Ənbiya, 21/107.
[27] DM47 Darimi, Müqəddimə, 8.
[28] əs-Səba, 34/28.
[29] əl-Əhzab, 33/40.

*"Bütün peyğəmbərlər ataları bir qardaşdırlar, anaları ayrı lakin dinləri birdir"* – buyuran Allah Rəsulu[30] öz mövqeyini təmsili olaraq belə izah etmişdir: *"Mən və məndən əvvəlki peyğəmbərlərin halı bir ev tikən insana bənzəyir. O insan evi gözəl şəkildə tikib mükəmməl hala gətirmiş, lakin bir küncündə bir kərpicin yeri boş qalmışdır. İnsanlar bu evin içini gəzib dolaşırlar, ona heyran olurlar və belə deyirlər: 'Kaş ki, bu kərpic də yerinə qoyulmuş olsaydı'"* Rəsulullah sözlərinə belə davam etmişdir: *"Baxın mən həmin o kərpicəm. Mən peyğəmbərlərin sonuncusuyam"*.[31] Bu rəvayətdə həzrət Peyğəmbərin tarix boyunca davam edən peyğəmbərlik müəssisəsinə sahib çıxması və fərq qoymayaraq özünü bu zəncirə əlavə etməsi mühüm və nümunəvi bir davranışdır.

Həzrət Muhamməd bundan başqa ona verilən Qur'an möcüzəsinin xüsusiyyətilə də digər peyğəmbərlərdən fərqlənir. Əslində hər peyğəmbərə öz dövrü və ərazisinin inkişaf səviyyəsinə uyğun olaraq oraya müstəsna möcüzələr verilmiş, onların vəfatı ilə birlikdə bu möcüzələr də təbii olaraq başa çatmışdır. Ancaq həzrət Muhammədə verilən Qur'an möcüzəsi onun vəfatı ilə birlikdə unudulmamış, əksinə, bu gün olduğu kimi qiyamətə qədər onun tək möcüzəsi olaraq öz təsirini davam etdirəcəkdir. Elə buna görə də Rəsulullah (s.ə.s.) belə buyurmuşdur: *"Peyğəmbərlərə öz dövründəki insanların inandıqları möcüzələr verilmişdir. Mənə verilən möcüzə isə Allahın*

30 B3443 Buxari, Ənbiya, 48.
31 B3535 Buxari, Mənaqib, 18; M5963 Müslim, Fəzail, 23.

*mənə vəhy etdiyi (Qur'ani-Kərim)dir. Buna görə qiyamət günü mən ən çox tərəfdarı olan peyğəmbər olacağımı ümid edirəm".*[32]

Digər tərəfdən Allah Rəsulunun bilik mənbəyinin digər insanlar kimi ağıl və beş duyğu ilə məhdud olmadığının, əksinə, ilahi vəhyin də onun bilik mənbələri arasında olduğunun ən yaxşı dəlili Qur'ani-Kərimdir. Allah Rəsulunun ilahi vəhyin müxatəbi olması onu digər insanlardan fərqləndirən ən mühüm xüsusiyyətdir.

Vəhy Allah Rəsulunun çətin anlarında ilahi bir yardım olaraq da təcəlli etmişdir. Uca Allah hicrət əsnasında Rəsulullaha görünməyən əsgərlərlə kömək etmiş,[33] Xəndək müharibəsində düşmənə qarşı külək və gözəgörünməz ordular göndərmiş[34] və qəlblərinə qorxu salmışdı.[35] Bədr müharibəsində beş min mələklə möminlərə kömək etmişdir.[36] Farslara məğlub olan bizanslıların çox qısa bir müddət sonra təkrar qalib gələcəyi[37] və Məkkənin fəth ediləcəyi xəbərləri də ilahi vəhylə bildirilmişdi.[38] Bundan başqa ona İsra və Merac gecəsində Rəbbinin ayələrindən ən böyüyü göstərilmişdir.[39]

Rəsulullahın fərqlilikləri əlbəttə təkcə fövqəltəbii hallarla məhdud deyildi. Onun ən fərqli

[32] B4981 Buxari, Fəzailul-Qur'an, 1.
[33] ət-Tovbə, 9/40.
[34] əl-Əhzab, 33/9.
[35] əl-Əhzab, 33/26.
[36] Ali-İmran 3/13, 123-127.
[37] ər-Rum, 30/1-4.
[38] əl-Fəth, 48/27.
[39] əl-İsra, 17/1; ən-Nəcm, 53/18.

cəhətlərindən biri də dünyadakı sadə və təvazökar həyat tərzi idi. Uca Allah Rəsulullahdan (s.ə.s.) dünya nemətləri ilə öz dərgahındakılar arasında bir tərcih etməsini istədikdə o, Allah qatındakıları seçmişdi.[40] Onun bir hökmdar peyğəmbər deyil, qul peyğəmbər olmaq istəməsi əslində buna görə idi.[41]

Allah Rəsulunun bütün bu xüsusiyyətləri və üstünlükləri ümməti tərəfindən böyük bir marağa səbəb olmuş və "Xasaisun-Nəbi" (Peyğəmbərin fərqlilikləri) və "Dəlailun-Nübüvvə" (Peyğəmbərliyin dəlilləri) kimi sərlövhələr altında onun xüsusiyyətlərini və fərqli cəhətlərini təqdim edən qiymətli və zəngin bir külliyyat meydana çıxmışdır. Ancaq həzrət Peyğəmbərin böyüklüyünü və üstünlüyünü kobud cahiliyyə cəmiyyətinin hər cür əxlaqi və mənəvi xəstəliklərdən təmizləməsində və dəyərlərini itirmiş bir cəmiyyəti ali dəyərlərə qovuşdurmasında axtarmaq qənaətimizə görə daha doğru bir yol olacaqdır. Digər tərəfdən əvvəlki peyğəmbərlərin öz dövrlərindəki insanlara müxtəlif fövqəlbəşər möcüzələrlə təbliğ etmələrinə baxmayaraq Allah Rəsulunun bütün möcüzə ümidlərini bir tərəfə qoyaraq bəşəri şərtlərdə Məkkə və Mədinədə iyirmi üç illik qısa bir müddətdə nümunəvi bir İslam cəmiyyəti yaratması bəlkə də onun ən böyük möcüzəsidir.

Uca Allah ilahi kəlamında həzrət Peyğəmbəri insanlara təqdim edərkən *"uca bir əxlaq üzrə olduğuna"*[42] diqqət çəkmişdir. Bütün bəşəriyyətə göndərilən

[40] M6170 Müslim, Fəzailus-səhabə, 2.
[41] MK10686 Təbərani, əl-Mü'cəmul-kəbir, X, 288.
[42] əl-Qələm, 68/4.

həzrət Muhamməddin sahib olduğu ən mühüm xüsusiyyətlərdən biri də elə bu üstün əxlaqıdır. Onu (s.ə.s.) birgə yaşadığı insanlardan fərqləndirən bu üstün cəhətlərdən bəzilərini onu ən yaxşı tanıyan və bilən yaxın dostlarının dili belə xülasə edə bilərik:

O, insanların günahdan ən uzaq olanı idi.[43]

Onun qədər ailəsinə şəfqətli olan heç kim yoxdur.[44]

O, insanların ən yaxşısı və ən xeyirxahı idi.[45]

Səhabələri arasında məsləhətə ondan daha çox əhəmiyyət verən başqa heç kim yox idi.[46]

O, dilçəyi görüləcək qədər ağzını geniş açaraq gülməmişdi. O, yalnız təbəssüm edərdi.[47]

Ömrü boyu nə ona xidmət edənləri, nə də bir xanımını incidən hər hansı bir davranışı olmuşdu.[48]

Xülasə, Peyğəmbərimiz (s.ə.s.) *"İnsanların əxlaq baxımından ən kamili idi"*.[49]

[43] M6045 Müslim, Fəzail, 77.
[44] M6026 Müslim, Fəzail, 63.
[45] M2481 Müslim, Zəkat, 167.
[46] T1714 Tirmizi, Cihad, 35.
[47] B4828 Buxari, Təfsir, (Əhqaf) 2.
[48] M6050 Müslim, Fəzail, 79.
[49] T2015 Tirmizi, Birr, 69; M6015 Müslim, Fəzail, 54.

# “MƏNƏ ALLAHIN QULU VƏ RƏSULU DEYİN”

Məkkənin fəthi üçün Mədinədən yola düşən Peyğəmbər (s.ə.s.) yolda müttəfiq qəbilələrin də qoşulması nəticəsində təxminən on min nəfərə çatan ehtişamlı bir ordu ilə Məkkəyə yaxınlaşırdı. İslam ordusunun yola çıxdığı xəbəri Məkkəyə çatanda Məkkənin nüfuzlu simalarından Əbu Süfyan, Həkim ibn Hizam və Büdeyl ibn Vərqa gələn ordu haqqında daha çox məlumat toplamaq üçün Məkkənin kənarına, yəni müsəlmanların gəldiyi yola üz tutur. Rəsulullah Məkkəyə çox yaxın bir məsafədə olan Mərrüzzəhran vadisinə gəlib yerləşdikdən sonra əsgərlərinə çoxlu ocaq qalamağı əmr etmiş, beləcə, məkkəlilərin gözlərini daha çox qorxutmaq istəmişdi. Həqiqətən də Əbu Süfyan və yanındakılar gördükləri bu mənzərə qarşısında təşvişə düşmüşdü. Müsəlmanlar onları görüb həzrət Peyğəmbərin hüzuruna gətirdikdə isə Əbu Süfyan İslamı qəbul etmişdi.

Peyğəmbərimiz (s.ə.s.) İslam ordusunun ehtişamını Əbu Süfyana göstərib onu heyrətləndirmək istəyirdi. Bunu üçün həzrət Abbasa Əbu Süfyanı ordunun keçəcəyi yola tərəf aparmasını əmr etdi. Həzrət Abbasla Əbu Süfyan ordunu rahat görə biləcəkləri bir yerə getdilər. İlk növbədə İslam ordusunun ön cərgələrində yer alan müxtəlif müttəfiq ərəb qəbilələri keçməyə başladı. Daha sonra isə ənsar, mühacir və onların arasında zireh geyinmiş[1] həzrət Peyğəmbər göründü.[2]

Bu ehtişamlı ordu qarşısında Əbu Süfyan heyrətlə: “Ey Abbas, bunlar kimdir?”, – deyə soruşdu. Həzrət Abbas: “Bunlar Rəsulullah və ilk mühacirlər ilə ənsardan ibarət səhabələridir” – dedi. Səhabələrinin həzrət Peyğəmbərə olan sədaqətinə və itaətinə, ordusunun nizam-intizamına şahid olan Əbu Süfyan Abbasa: “Vallah, qardaşının oğlunun səltənəti çox böyümüş!” – deyərək heyrətini dilə gətirdi. Abbas isə ona “Xeyr! Vallah, bu, səltənət deyil, nübüvvətdir!” cavabını verdi.[3]

Əbu Süfyanın “səltənət” hesab etdiyi bu neməti həzrət Peyğəmbərin əmisi Abbas (r.ə.) “nübüvvət” adlandırmışdı. Çünki qarşılarındakı bu mənzərə nə fərdi bir səy, nə də səltənət sayəsində əldə edilə bilərdi. Bəli, o, bir nəbi idi. Ona nübüvvət

[1] MŞ36889 İbn Əbu Şeybə, Müsənnəf, Məğazi, 34.
[2] B4280 Buxari, Məğazi, 49; VM2/814 Vaqidi, Məğazi, II, 814.
[3] MŞ36889 İbn Əbu Şeybə, Müsənnəf, Məğazi, 34.

vəzifəsi verilmişdi. O (s.ə.s.), vəzifəsini layiqli şəkildə yerinə yetirmiş, nübüvvəti ona bəxş edən uca iradə də ona hər zaman kömək etmiş və nəticədə meydana belə bir mənzərə çıxmışdı. Nübüvvətə görə doğulub böyüdüyü şəhərdən qovulmuş, ancaq yenə nübüvvət sayəsində qısa müddət ərzində güclənmiş, ona səmimi qəlbdən bağlanan tərəfdarlar toplamış və Məkkəni fəth etməyə gəlmişdi.

Yalnız Allahın seçdiyi sevimli bəndələrinə nəsib olan,[4] istəməklə əldə edilə bilməyən bu nübüvvət neməti ilə şərəfləndirilən həzrət Muhamməd (s.ə.s.) aləmlərə rəhmət olaraq göndərilmişdi.[5] Məhz bu rəhmətin ilk təzahürü, qurduğu bu imanlı cəmiyyətdə açıq bir şəkildə müşahidə edilirdi. Belə ki, həzrət Peyğəmbər cahiliyyənin qaranlığından çıxardığı səhabələrini fəzilətli bir cəmiyyətə çevirmiş halda Məkkəyə geri qayıdır, bunu görən müşriklər isə heyrətə düşürdülər. Əbu Süfyanın dilə gətirdiyi bu heyrətamiz dəyişiklik, arxasında çox sayda tərəfdar toplayan bir liderin səltənəti deyil, həzrət Peyğəmbərin bəşər və liderlik vəsflərinin nübüvvət ilə qorunması nəticəsində meydana çıxan bütün müvəffəqiyyətlərinin bir təzahürü idi.

Nübüvvət həqiqətini qəbul edə bilməyən müşriklərin ağlına batmayan peyğəmbər təsəvvürünün əksinə, Qur'anda həzrət Peyğəmbərin bir "rəsul/nəbi" olduğu elan edilərkən, həm də onun ölümə məhkum bir "insan/bəşər" olduğu da vurğulanırdı.[6] Muham-

4 əş-Şura, 42/13.
5 əl-Ənbiya, 21/107; ən-Nəhl, 16/64.
6 əl-İsra, 17/90-95; əl-Əhzab, 33/40.

məd (s.ə.s.) Allahın elçisi olmaqla yanaşı həm də bir insan idi. O, məkkəli müşriklərin görmək istədiyi kimi nə bir mələk, nə bir sehrbaz, nə də bir şair idi...[7] Qur'anın ifadə etdiyi kimi o, "bəşər-rəsul" idi.[8] Bu xüsusu məhz Peyğəmbər də müxtəlif vaxtlarda, müxtəlif səbəblərlə ifadə etmişdi. Belə ki, *"Mən peyğəmbərəm, bunda heç bir şübhə yoxdur!"* – dedikdən sonra dərhal arxasınca: *"Mən Əbdülmüttəlibin oğluyam"*, – deyə əlavə edirdi. O: "*Xristianların Məryəm oğlunu (İsanı) mədh edərkən həddi aşdıqları kimi siz də məni mədh edərkən həddinizi aşmayın. Şübhəsiz ki, mən Allahın bəndəsiyəm. Buna görə də mənə 'Allahın qulu və rəsulu' – deyin*"[9] sözlərilə özünün həm bir nəbi, həm də bir bəşər olduğunu vurğulayırdı. Bundan başqa: "*Mən yalnız bir insanam, sizə dininiz haqqında nə əmr etsəm onu dərhal qəbul edin. Ancaq öz görüşümlə bir şey əmr etsəm (unutmayın ki) mən də bir insanam*"[10] – deyərkən xüsusən din ilə əlaqədar məsələlərdə ona itaət edilməsinin zəruriliyinə diqqət çəkmişdi.

O, bir insan olmaqla yanaşı həm də Rəbbindən vəhy alan bir peyğəmbər idi. Vəhy həzrət Peyğəmbəri digər insanlardan fərqləndirən ən mühüm xüsusiyyət idi. *"De: 'Mən də sizin kimi ancaq bir insanam. Mənə vəhy olunur ki, sizin tanrınız yalnız bir olan Allahdır. Kim Rəbbi ilə qarşılaşacağına (qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracağına) ümid bəsləyirsə (yaxud qiyamətdən qorxursa), yaxşı iş görsün*

[7] əl-İsra, 17/47, 95; əl-Ənbiya, 21/5; ət-Tur, 52/29-30.
[8] əl-İsra, 17/93.
[9] B3445 Buxari, Ənbiya, 48; HM391 İbn Hənbəl, I, 56.
[10] M6127 Müslim, Fəzail, 140.

*və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın!'"*[11] ayəsi bunu açıq-aşkar bir şəkildə izah edirdi. O (s.ə.s.), Allahın bəndələri arasından seçdiyi son peyğəmbər idi.[12] Rəsulullah (s.ə.s.) son peyğəmbər olduğunu təvazökar bir şəkildə belə ifadə etmişdi: *"Mən və məndən əvvəlki peyğəmbərlərin halı bir ev tikən insana bənzəyir. Həmin insan evi çox gözəl tikib mükəmməl hala gətirmiş, lakin bir küncdə yalnız bir kərpic yeri boş qalmışdır. İnsanlar bu evi gəzib dolaşırlar, ona heyran olurlar və belə deyirlər: 'Kaş ki, bu kərpic də yerinə qoyulmuş olsaydı".* Allah Rəsulu sözlərinə belə davam etmişdi: *"Mən məhz həmin kərpicəm. Mən peyğəmbərlərin sonuncusuyam".*[13]

Qırx yaşında Rəbbindən aldığı vəhylə çiyinlərinə ağır bir məsuliyyət[14] yüklənərək nübüvvət və risalət vəzifəsinə başlamışdı. Həzrət Peyğəmbərin nübüvvət vəzifəsi yalnız göndərildiyi cəmiyyətlə məhdudlaşdırılmamışdı. Uca Rəbbimiz onu bütün insanlara müjdə vermək və xəbərdarlıq etmək üçün göndərmişdi.[15] Buna görə də ona qiyamətə qədər əbədi qalacaq, misilsiz bir kitab olan Qur'an vəhy olunmuşdu. Həzrət Peyğəmbər (s.ə.s.): *"Peyğəmbərlərə öz dövrlərindəki insanların inanacaqları möcüzələr verilmişdir. Mənə verilən möcüzə isə Allahın mənə bəxş etdiyi vəhydir (Qur'andır)"*[16] – buyuraraq nübüvvətinin bu yönünə diqqət çəkmişdi. Bu möcüzə digər peyğəmbərlərin

[11] əl-Kəhf, 18/110.
[12] əl-Əhzab, 33/40; D4252 Əbu Davud, Məlahim, 1.
[13] B3535 Buxari, Mənaqib, 18; M5963 Müslim, Fəzail, 23.
[14] əl-Müzzəmmil, 73/5.
[15] Səba, 34/28.
[16] B4981 Buxari, Fəzailul-Qur'an, 1; M385 Müslim, İman, 239.

təkcə öz qövmlərinə xitab edən müxtəlif möcüzələrindən fərqlənirdi. Qur'an həm kəlmə, həm də mənası baxımından bir möcüzə idi. Şeir və ədəbiyyat cəhətdən yüksək inkişaf etmiş bir cəmiyyətdə öz sözləri və mənası ilə insanları aciz qoymuş,[17] cəmiyyəti maddi və mənəvi kirlərdən təmizləyib inananları dünya və axirət səadətinə aparan mənası ilə də qiyamətə qədər davam edəcək bir möcüzə olmuşdu.

Həzrət Peyğəmbəri (s.ə.s.) nübüvvət vəzifəsində tək qoymayan Rəbbi: *"Şübhəsiz ki, Qur'anı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq!"*[18] – buyuraraq göndərdiyi Qur'anı özünün qoruyacağını Rəsuluna xəbər verirdi. Belə ki, Allah-Təalanın nəzarəti və mühafizəsi təbliğ vəzifəsini icra edərkən daim Peyğəmbərimizin (s.ə.s.) yanında idi. Buna görə onun vəhyi təbliğ edərkən, ya da izah edərkən səhv söyləməsi, yaxud göndərilən bir vəhyi gizlətməsi mümkün deyildi. Onun şəxsiyyəti də buna yol verməzdi. Peyğəmbərlik verilməmişdən əvvəl də ətrafındakı insanlar tərəfindən gözəl əxlaqı, mərdliyi, yalan danışmaması, hər zaman doğru danışması və etimadı ilə tanınır,[19] buna görə də ona "əl-Əmin" deyilirdi.[20] Peyğəmbər olmamışdan əvvəl yalan danışmadığından zərrə qədər şübhə edilməyən[21] bir insanın Allahdan aldığı vəhyi əskik, yaxud əlavələr edərək təbliğ etməsi əlbəttə ki, mümkün deyildi. *"Əgər o (Peyğəmbər)*

[17] Yunus, 10/37-38.
[18] əl-Hicr, 15/9.
[19] M508 Müslim, İman, 355; B4953 Buxari, Təfsir, (Ələq) 1.
[20] ST43 İbn Səd, Təbəqat, I, 146.
[21] B4553 Buxari, Təfsir, (Ali-İmran) 4.

*özündən bəzi sözlər uydurub Bizə isnad etsəydi, Biz ondan mütləq şiddətli intiqam alardıq (sağ əlini kəsərdik, yaxud boynunu vurardıq)! Sonra onun şah damarını qopardardıq! Və heç biriniz də (Bizim əzabımızı) ondan dəf edə bilməzdiniz."*[22] ayələri həzrət Peyğəmbərin təbliğ vəzifəsində nə qədər həssas olduğunu göstərir. Belə ki, o, nəfsinin istəklərinə görə danışmazdı. Onun xəbər verdikləri vəhydən başqa bir şey deyildi.[23] Bəzi səhabələr həzrət Peyğəmbərdən eşitdiyi hər sözü əzbərləmək məqsədilə yazmağa vərdiş edən Abdullah ibn Əmrə: "Sən eşitdiyin hər şeyi yazırsan? Halbuki, Rəsulullah da bir insandır, əsəbi halda danışdığı kimi, sevincli halda da danışır" – deyərək eşitdiyi hər şeyi yazmaması üçün xəbərdarlıq etmişdilər. Ancaq Abdullah bu xəbərdarlıqlardan həzrət Peyğəmbərə danışanda Peyğəmbərimiz (s.ə.s.) barmağı ilə ağzını göstərərək: *"Yaz! Canımı əlində tutana and olsun ki, buradan haqdan başqa bir kəlmə çıxmaz"* – demişdi.[24]

Həzrət Peyğəmbərin Rəbbindən aldığı vəhyləri gizlətməsi də mümkün deyildi. Belə ki, Uca Allah çox açıq bir şəkildə: *"Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni (Qur'anı) təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə edilən elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!"*[25] – buyurur. Həzrət Aişə də Peyğəmbərin (s.ə.s.) Allahın Kitabından hər hansı

[22] əl-Haqqa, 69/44-47.
[23] ən-Nəcm, 53/3-4.
[24] D3646 Əbu Davud, Elm, 3.
[25] əl-Maidə, 5/67.

bir ayəni gizlədiyini iddia edənlərin yalan danışıb Allaha böhtan atmış olacaqlarını xəbər vermişdi.[26]

Allah-Təala Rəsulunu yalnız təbliğ etdiyi məsələlərdə deyil, müşriklərlə olan mübarizəsində də qoruyub yardım edirdi. Müşriklərin həzrət Peyğəmbəri inkar etməsi və ona qarşı apardıqları xain mübarizələr qarşısında Allah-Təala: *"(Ey Peyğəmbər!) Sən öz Rəbbinin hökmünə səbr et! Şübhəsiz ki, sən Bizim gözümüzün qabağındasan (himayəmiz altındasan). (Namaza) qalxdıqda Rəbbini həmd-səna ilə zikr et!..."*,[27] *"...Allah səni insanlardan qoruyacaq..."*[28] və *"(Ey Rəsulum!) Əgər sənə Allahın lütfü (mərhəməti) olmasa idi, əlbəttə, onların bir dəstəsi səni düz yoldan azdırmaq niyyətində olacaqdı. Halbuki onlar özlərindən qeyrisini azdıra bilməz və sənə də heç bir zərər verə bilməzlər..."*[29] – buyuraraq onun daim Rəbbinin nəzarəti altında olduğunu xatırlatmış, beləcə onun mənəviyyatını və çətinliklərə qarşı müqavimətini gücləndirərək peyğəmbərlik vəzifəsini bütün səyi ilə davam etdirməsi üçün onu cəsarətləndirmişdi. Yenə Rəbbi müşriklərə qarşı *"...De: "Haydı, çağırın şəriklərinizi, mənim barəmdə istədiyiniz hiyləni qurun və mənə heç möhlət də verməyin! Şübhəsiz ki, mənim hamim Kitabı (Qur'anı) nazil edən Allahdır. O, əməlisalehlərə himayədarlıq edər!""*[30] deməsini nəsihət edərək daima onu qoruyub yardım etdiyini vurğulamışdı.

[26] M439 Müslim, İman, 287; B7531 Buxari, Tövhid, 46.
[27] ət-Tur, 52/48.
[28] əl-Maidə, 5/67.
[29] ən-Nisa, 4/113.
[30] əl-Əraf, 7/195-196.

Rəbbinin qoruması və himayəsi altında risalət vəzifəsini davam etdirən həzrət Peyğəmbər müşriklərlə olan mübarizəsində çox vaxt ilahi yardımı bariz şəkildə görmüşdü. Bu kömək Bədr,[31] Uhud[32], Xəndək, Hüneyn döyüşü[33] və müşriklərlə olan digər müharibələrdə bəzən gözəgörünməz ordularla,[34] bəzən küləklə,[35] bəzən də düşmənin qəlbinə qorxu düşməsi şəklində olmuşdur.[36] Uca Allah bəzən düşmənin sayını müsəlmanlara az göstərərək onları cəsarətləndirmiş,[37] bəzən də sağında və solunda Elçisini qoruyan ağ libaslı gözlə görünən mühafizəçilərlə[38] onlara kömək etmişdi. Ancaq yardımlar həzrət Peyğəmbəri heç vaxt laqeydliyə meyilləndirməmiş, əksinə o, apardığı mübarizələrdə daim lazımi tədbirlər görərək[39] özünün hərb strategiyasını təyin etmişdi. Hər cür tədbiri aldıqdan sonra Rəbbinə təvəkkül edən Peyğəmbərimizin (s.ə.s.) düşmənə qarşı qəlbində qorxu və ümidsizlik olmamışdı. Çünki Rəbbinin hər zaman onunla birlikdə olduğunu bilirdi.[40]

Bu ilahi nəzarət altında risalət vəzifəsini ən gözəl şəkildə yerinə yetirən həzrət Peyğəmbər günahlardan da qorunmuşdu.[41] Onun mövqeyinə əsasən münasib olmayan yerlərə getməsi, qadağan olunmuş

[31] Ali-İmran, 3/123.
[32] B4054 Buxari, Məğazi, 18.
[33] ət-Tovbə, 9/25.
[34] ət-Tovbə, 9/26.
[35] əl-Əhzab, 33/9.
[36] əl-Əhzab, 33/26; M1163 Müslim, Məsacid, 3.
[37] əl-Ənfal, 8/44.
[38] M6005 Müslim, Fəzail, 47.
[39] B2947 Buxari, Cihad, 103; B3051 Buxari, Cihad, 173.
[40] əl-Ənfal, 8/19; ət-Tovbə, 9/40.
[41] B4837 Buxari, Təfsir, (Fətih) 2; M7126 Müslim, Sifatul-münafiqin, 81.

işləri görməsi onsuz da mümkün deyildi. Bununla yanaşı Rəsulullahın “zəllə” olaraq adlandırılan kiçik xətaları Allah-Təalanın müdaxiləsi ilə dərhal düzəldilirdi. Məsələn, həzrət Peyğəmbər müşriklərin zənginlərini İslama dəvət edərkən yanına gələn kor səhabə Abdullah ibn Ümmü Məktumla maraqlanmadığına[42] və Bədr hərbində ələ keçirilən əsirlərlə əlaqədar səhabə ilə məsləhətləşməsinə baxmayaraq, onları fidyə ödəmək şərtilə azad edəcəyi qərarına görə Rəbbindən xəbərdarlıq almışdı.[43] Həzrət Peyğəmbər peyğəmbərliyi boyunca İslamı təfsilatlı şəkildə öz həyatına tətbiq edərək səhabələrinə nümunə olmuşdu. Belə ki, Uca Rəbbimiz: *“Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!”*[44] – buyurmuşdu. Çünki həzrət Peyğəmbər təbliğ həyatı boyunca vəhy olunan əmrləri əvvəlcə özü tətbiq etmiş, qadağan olunan davranışlardan da uzaq durmuşdu. Beləcə, o, nümunəvi şəxsiyyəti ilə ilahi vəhyin ən böyük dəlili olmuşdu. Çünki ilahi iradə həzrət Peyğəmbəri müsəlmanlara, müsəlmanları da digər insanlara nümunə (şahid) göstərirdi.[45]

Peyğəmbər (s.ə.s.) təbliğ həyatı boyunca davranış və sözləri ilə ilahi mesajı bəşəriyyətə çatdırmaq üçün daim mübarizə aparmışdı. Belə ki, ona gələn ilk vəhylərdə qövmünü xəbərdar etməsi əmr edilmişdi.[46]

[42] Əbəsə, 801/1-11; TT24/217 Təbəri, Cami’ul-bəyan, XXIV, 217.
[43] əl-Ənfal, 8/67; M4588 Müslim, Cihad və siyər, 58.
[44] əl-Əhzab, 33/21.
[45] əl-Həcc, 22/78.
[46] əl-Müddəssir, 74/1-2.

Rəbbindən *"... Ən yaxın qohumlarını qorxut!"*[47] əmrini alan Allah Rəsulu Səfa təpəsinə çıxıb məkkəlilərə belə səslənmişdi: *"Sizə desəm ki, bu dağın arxasında (sizinlə döyüşmək istəyən düşmən) süvariləri var, mənə inanarsınız?" Məkkəli müşriklər: "Biz sənin yalan danışdığını görmədik" – demişdilər. Rəsulullah isə onlara peyğəmbərlik vəzifəsini bu sözlərlə elan etmişdi: "Elə isə (xəbəriniz olsun ki,) mən şiddətli bir əzab gəlməmişdən əvvəl sizin üçün (göndərilən) bir elçiyəm"*.[48]

Həzrət Peyğəmbər bu məsələni səhabələrinə aşağıdakı təmsillə izah etmişdir: *"Mənim və Allahın mənə verdiyi vəzifəmin halı bir qövmün yanına gəlib 'Mən düşmən ordularını gözlərimlə gördüm. Mən sizə açıq-aşkar xəbər verirəm. Dərhal qaçıb canınızı qurtarın!' deyən insanın halına oxşayır. Qövmündən bəziləri ona itaət etmiş və gecə vaxtı yavaşca qaçıb canını qurtarmış, bir qismi isə (onu) yalançı hesab etmiş və olduqları yerdən tərpənməmişdilər. Düşmən ordusu səhər gəlib onları həlak etmişdi. Mənə itaət edib söylədiklərimə tabe olan insanın misalı ilə mənə üsyan edib söylədiyim həqiqətləri yalan hesab edənin misalı buna bənzəyir"*.[49]

Rəsulullah (s.ə.s.) bu misalla ona iman edib tabe olmayanları düşmənin həlak etdiklərinə bənzətmişdi. Ona itaət etməyənlər həqiqətən də bu dünyada və axirətdə xoşbəxt ola bilməyəcəklər. Çünki Rəsulullaha itaət etmək Allaha itaət etmək deməkdi.[50] Peyğəmbərimiz (s.ə.s.): *"Mənə itaət edən Allaha itaət*

[47] əl-Şuəra, 26/214.
[48] B4971 Buxari, Təfsir, (Ləhəb) 1; M508 Müslim, İman, 355.
[49] B7283 Buxari, İtisam, 2; M5954 Müslim, Fəzail, 16.
[50] ən-Nisa, 4/80; əl-Ənfal, 8/20.

*etmiş, mənə üsyan edən Allaha üsyan etmiş olar..."*[51] – buyuraraq bu həqiqətə diqqət çəkmiş və ümmətindən ona itaət edən hər kəsin cənnətə girəcəyini səhabələrinə müjdələmişdir.[52] Bununla əlaqədar olaraq o: *"Muhamməddin canını əlində tutan Allaha and olsun ki, bu cəmiyyətdə bir yəhudi və ya xristian məni dinləyib göndərilən dinə inanmadan ölərsə, mütləq cəhənnəm əhlindən olacaqdır"*[53] – buyuraraq ona itaət etməyənlərin pis aqibətini xəbər vermişdi. Uca Rəbbimiz də: *"Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə (qoy döndərsin)! Biz ki səni onların üzərində gözətçi olaraq göndərməmişik"*[54] – buyuraraq Peyğəmbərə itaət etməyi özünə itaət sayır, itaət etməyənlər qarşısında isə Peyğəmbərimizin vəzifəsinin onların başında bir qarovulçu kimi duraraq İslamı zorla qəbul etdirmək olmadığını vurğulayırdı. Başqa bir ayə isə cəhənnəmlik olanlara görə həzrət Peyğəmbərin məsuliyyət daşımayacağını xəbər verir.[55] Çünki həzrət Peyğəmbərin vəzifəsi yalnız ilahi vəhyi təbliğ etməkdən ibarət idi.[56] Hidayət etmək isə ilahi iradəyə bağlı idi[57] və Uca Rəbbimiz zalım, kafir və fasiq (günahkar) cəmiyyətləri hidayətə çatdırmayacağını Rəsuluna xəbər vermişdi.[58]

Uca Rəbbimiz *"Ey Peyğəmbər! Həqiqətən, Biz səni (ümmətinə) bir şahid, bir müjdəçi və bir qorxudan kimi*

[51] M4749 Müslim, İmarə, 33; B7137 Buxari, Əhkam, 1.
[52] B7280 Buxari, İtisam, 2.
[53] M386 Müslim, İman, 240.
[54] ən-Nisa,4/80.
[55] əl-Bəqərə, 2/119.
[56] Ali-İmran, 3/20; M3696 Müslim, Təlaq, 35.
[57] əl-Qəsəs, 28/56.
[58] əl-Bəqərə, 2/258, 264; ət-Tovbə, 9/24.

*göndərdik! (Biz səni) Allahın izni ilə Ona tərəf çağıran və nurlu bir çıraq olaraq göndərdik!"*[59] ayəsilə də həzrət Peyğəmbərin nübüvvət vəzifəsini ən geniş şəkildə izah edir: nümunə, müjdələyən, qorxudan, dəvətçi, nura qərq edən və aydınlığa aparan bir peyğəmbər...

Yaşadığı həyat tərzilə müsəlmanlığı ən gözəl şəkildə təmsil edən həzrət Peyğəmbər *"(Ey Rəsulum!) İnsanları hikmətlə (Qur'anla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (islama) dəvət et, onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) mübahisə et!.."*[60] əmrinə əsasən bir tərəfdən müşrikləri mülayim şəkildə İslama dəvət edir, digər tərəfdən də Allahdan aldığı vəhyləri inanan insanlara təbliğ edib öyrədirdi. Peyğəmbərimiz (s.ə.s.) səhabələrinə təkcə Qur'an ayələrini xəbər verməklə kifayətlənmir, həm də bu ayələri onların başa düşəcəyi şəkildə izah edirdi. Onun bu vəzifəsini Uca Rəbbimiz *"Biz onları (peyğəmbərliklərinin doğru olduğunu sübut edən) açıq-aşkar möcüzələr və kitablarla göndərdik. Sənə də Qur'anı nazil etdik ki, insanlara onlara göndəriləni (hökmləri, halal-haramı) izah edəsən və bəlkə, onlar da düşünüb dərk edələr!"*[61] ayəsi ilə ifadə edirdi.

Əziz Peyğəmbərimiz Allahın onun vasitəsilə göndərdiyi hidayəti yağışa oxşadırdı: "*Allahın mənimlə göndərdiyi hidayət və elm (müxtəlif quruluşdakı) torpaqlara bol yağan yağışa oxşayır. Bunlardan bəziləri təmizdir, suyu çəkər, bol bitki və ot bitirər. Bəziləri şorandır,*

[59] əl-Əhzab, 33/45, 46.
[60] ən-Nəhl, 16/125.
[61] ən-Nəhl, 16/44.

*suyu (səthində) saxlayar. Bu sudan da insanlar istifadə edər. Həm özləri içər həm də (heyvanlarını) və əkin sahələrini suvararlar. Bir digər torpaq növü isə dümdüzdür. (Üstünə yağış yağar, ancaq) o nə su saxlayar, nə də bitki yetişdirər. Allahın dinini dərindən qavrayan, Onun mənə bəxş etdiyindən (hidayət və elmdən) istifadə edən, öyrənən və öyrədən kəs ilə (bunları eşitdiyi zaman təkəbbüründən) başını belə qaldırmayan və mənə bəxş edilən Allahın hidayətini qəbul etməyən insanın misalı buna bənzəyir".*[62]

Həzrət Peyğəmbər Qur'anı səhabələrinə izah etməklə yanaşı Qur'anda olmayan məsələlər barəsində yeni hökmlər verərək hökm qoymada (təşridə) da fəal bir rol oynayırdı. Belə ki, onun bu yönü Qur'anda belə ifadə edilmişdi: *"O kəslər ki, əllərindəki Tövratda və İncildə (adını, vəsfini və əlamətlərini) yazılmış gördükləri rəsula–ümmi (heç kəsin yanında oxuyub elm öyrənməmiş və ya məkkəli) peyğəmbərə tabe olurlar. (O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (napak) şeyləri haram edər..."*[63] Həzrət Peyğəmbər bir tərəfdən qarşısına çıxan yeni məsələlər haqqında yeni hökmlər verir, digər tərəfdən də müsəlmanlar arasında baş verən problemlərə hakimlik edirdi. Onun verdiyi hökmlərə əməl etmək isə məcburi xarakter daşıyırdı: *"Amma, xeyr! (Ey Rəsulum!) Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim (münsif) təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə*

[62] B79 Buxari, Elm 20; M5953 Müslim, Fəzail, 15.
[63] əl-Əraf, 7/157.

*boyun əyməyincə, (həqiqi surətdə) iman gətirmiş olmazlar."*[64] Bundan əlavə, *"Allah və Peyğəmbəri bir işi hökm etdiyi zaman heç bir mömin kişiyə və qadına öz işlərində başqa yol seçmək (öz ixtiyarları ilə ayrı cür hərəkət etmək) yaraşmaz. Allaha və Onun Peyğəmbərinə asi olan kəs, şübhəsiz ki, (haqq yoldan) açıq-aydın azmışdır!"*[65] ayəsi də həzrət Peyğəmbərin möminlər üzərindəki nəbəvi təsirini vurğulayırdı.

İslam dövlətini qurduqdan sonra da göstəriş və təmtəraqdan uzaq olan, səltənətə meyl etməyən və sadə bir həyat yaşayan Peyğəmbərimiz (s.ə.s.) Rəbbindən hökmdar-peyğəmbər deyil, bəndə-peyğəmbər olmağı istəmişdi.[66] Çünki o, dünyanın müvəqqəti nemətlərini deyil, Allahın rəhmətini və Onun dərgahındakı nemətləri hər şeydən üstün görürdü.[67]

Həzrət Peyğəmbər iyirmi üç illik risalət həyatı boyunca davam etdirdiyi bu təbliğ və irşad vəzifəsi sayəsində inananlardan mütəşəkkil cəmiyyət üzərindəki cahiliyyə dövrünün izlərini silib onları maddi və mənəvi bütün kirlərdən təmizləmiş, beləcə, həyata keçirdiyi bu ictimai dəyişiklik vasitəsilə ideal ümməti meydana çıxarmışdı.[68] Onun belə bir cəmiyyət qurması bəzi alimlər tərəfindən "Əgər Rəsulullahın (s.ə.s.) səhabələrindən başqa bir möcüzəsi olmasaydı, bu, onun peyğəmbərliyini isbat etmək üçün kifayət edərdi" şəklində şərh edilmişdi.[69] Onun

64 ən-Nisa, 4/65.
65 əl-Əhzab, 33/36.
66 MK10686 Təbərani, *əl-Mu'cəmul-kəbir*, X, 288.
67 M6170 Müslim, *Fəzailus-səhabə*, 2.
68 Ali-İmran, 3/110.
69 FH4/305 Qərafi, *Füruq*, IV, 305.

öz səhabələrini cahiliyyə bataqlığından çıxarıb nümunəvi bir cəmiyyətə[70] çevirəcək nüfuza sahib olması, əlbəttə ki, Rəbbinin ona bəxş etdiyi nübüvvət vəzifəsi sayəsində mümkün olmuşdu.

[70] əl-Bəqərə, 2/143.

# “MƏN DƏ SİZİN KİMİ BİR İNSANAM!”

Rəsulullahın (s.ə.s.) vəfatı səhabələrini dərin bir hüznə qərq etmişdi. Bir də münafiqlərin ədəbsizcə davranışları həzrət Ömər (r.a.) kimi mətanətli birini belə hövsələdən çıxarmış, çox əsəbiləşdirmişdi. Canından çox sevdiyi Peyğəmbərinin aralarından vaxtsız ayrılışına təəccüblənən və çarəsizlik içində qalan Ömər (r.a.) məscidin bir tərəfində ayağa duraraq: “Vallah, Rəsulullah ölmədi! Ətrafımızdakı çox sayda münafiqin əllərini və ayaqlarını (nifaqdan) uzaqlaşdırana qədər də ölməyəcəkdir!” – deyərək hayqırırdı.[1] Əslində bu və buna oxşar sözlər həzrət Ömərin (r.a.) çox sevdiyi Peyğəmbərinin qəbul edə bilmədiyi vəfatına şok halda sərf etdiyi ifadələrindən başqa bir şey deyildi. Bu kədərli xəbəri alan həzrət Əbu Bəkr Sunh məhəlləsindəki evindən məscidə gəldi. Birbaşa

[1] İM1627 İbn Macə, Cənaiz, 65.

Allah Rəsulunun xanəsinə çatdı, üzündəki örtünü açdı və onun gözlərinin arasını öpdü. Ömər (r.a.) başda olmaqla kədərdən nə edəcəklərini bilməyən səhabələri sakitləşdirməyə çalışan həzrət Əbu Bəkr: "Atam-anam sənə fəda olsun. Sən diri olaraq da ölü olaraq da tərtəmizsən. Bu canı bu bədəndə tutan Allaha and olsun ki, Allah sənə heç vaxt iki ölüm daddırmayacaqdır!" – dedi. Sonra otaqdan çıxdı və: "Ey (Rəsulullahın ölmədiyinə) and içən adam! Sakit ol!" – deyərək həzrət Ömərə (r.a.) xəbərdarlıq etdi. Sonra çox mətanətli şəkildə onlara xitab etməyə başladı. Həzrət Əbu Bəkr danışmağa başlayanda həzrət Ömər (r.a.) susub oturdu.[2]

Allaha həmd və şükürlər etdikdən sonra belə davam etdi həzrət Əbu Bəkr: "Eşidin və bilin! Kim Muhammədə qulluq edirsə bilsin ki, Muhamməd ölmüşdür. Kim Allaha qulluq edirsə bilsin ki, Allah diridir və əsla ölməz. Uca Allah Peyğəmbərinə *'Şübhəsiz ki, sən də öləcəksən, onlar da öləcəklər!'*[3] – buyurdu. Yenə Allah belə buyurdu: *"Muhamməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib-getmişlər. Əgər o, ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz? (Dininizdən dönəcək və ya döyüşdən qaçacaqsınız?) Halbuki geri dönən şəxs Allaha heç bir zərər yetirməz. Lakin Allah şükür edənlərə mükafat verər'"*.[4]

Həzrət Əbu Bəkrin bu sözlərindən sonra insanlar hıçqıraraq ağlamağa başladılar.[5] Səhabələr elə

[2] B3667 Buxari, Fəzailu əshabin-nəbi, 5; İM1627 İbn Macə, Cənaiz, 65.
[3] əz-Zümər, 39/30.
[4] Ali-İmran, 3/144.
[5] B3668 Buxari, Fəzailu əshabin-nəbi, 5.

çaşqın idilər ki, həzrət Əbu Bəkr bu ayəni oxuyana qədər sanki Allahın belə bir ayə nazil etdirdiyini bilməmiş kimi idilər və sanki bunu həzrət Əbu Bəkrdən yeni öyrənirdilər. Artıq hamı bu ayəni oxumağa başlamışdı. Allah Rəsulunun ölümünü o ana qədər qəbul edə bilməyən həzrət Ömər (r.a.), həzrət Əbu Bəkrin oxuduğu ayələri eşidəndə həqiqətlə üz-üzə gəlmiş, dəhşətə düşmüş və dizləri taqətsiz qalmışdı. Bu acı həqiqətin ağırlığı qarşısında olduğu yerdə yığılıb qalmışdı.[6]

Həzrət Ömər (r.a.) ilə birlikdə səhabələrin üzləşdiyi bu ən böyük kədər məlum bir həqiqəti çox bariz şəkildə yenidən xatırlatmışdı. Peyğəmbərimiz də bir insan idi. Allahdan vəhy alırdı ancaq nəticədə o da bir bəşər idi.[7] Doğulan hər fani kimi o da vəfat etdi. Baqi/Əbədi qalan isə Allah və dini idi. Həzrət Əbu Bəkrin oxuduğu ayə ilə xatırlatdığı da bu idi insanlara. Səhabələr çox yaxşı bildikləri bu həqiqəti sanki o çətin anda ilk dəfə eşitmiş kimi idilər. Halbuki həzrət Peyğəmbərin (s.ə.s.) doğulmasına şahid olanlar da var idi aralarında,[8] uşaqlıq dostu olanlar da. Onlarla birlikdə bir ömür keçirmiş,[9] Allahın təqdir etdiyi əcəli gələndə isə aralarından ayrılmışdı.

[6] B4454 Buxari, Məğazi, 84.
[7] əl-Kəhf, 18/110.
[8] T3619 Tirmizi, Mənaqib, 2.
[9] Yunus, 10/16.

Allahın sonuncu Elçisinin həyatı və ölümü Peyğəmbərin sadə bir insandan fərqli olmasının zəruriliyini düşünən müşrik anlayışa bir rəddiyyə idi əslində. Həzrət Peyğəmbərə "*Yerdən bizə bir bulaq fışqırtmadıqca, yaxud sənin xurmalardan, üzümlərdən ibarət bir bağın olub aralarından şırıl-şırıl çaylar axıtmadıqca, yaxud iddia etdiyin kimi göy üzünü üzərimizə parça-parça düşürmədikcə, yaxud Allahı və mələkləri qarşımıza gətirmədikcə, yaxud qızıldan bir evin olmadıqca, ya da göyə çıxmadıqca sənə qətiyyən/əsla inanmayacağıq. Bizə göydən oxuyacağımız bir kitab endirmədikcə göyə çıxdığına da inanan deyilik*" deyən bu insanlara Uca Allah "*Rəbbimi tənzih edirəm. Mən yalnız insan bir elçiyəm*" diyərək cavab verməyini əmr etmişdi.[10] Müşriklərin "*Ona (göydən) bir xəzinə endirilsəydi yaxud onunla birlikdə bir mələk gəlsəydi...*" demələrinə görə ruhu sıxılaraq ona vəhy olunan ayələrin bir qismini insanlara çatdırmaq istəmədikdə ona yalnız bir xəbərdar edici olaraq göndərildiyi ona xatırladılmışdır.[11] Keçmiş peyğəmbərləri təkcə möcüzələri ilə xatırlayan cahiliyyə cəmiyyəti öz aralarından çıxan, özləri kimi yaşayan və bəşəri ehtiyacları olan bu peyğəmbəri inkar etmiş: "*Bu necə peyğəmbərdir ki, yemək yeyir, bazarları gəzib dolaşır?*"[12] demişdilər. Onların bu səhv təsəvvürü Qur'anda: "*Səndən əvvəl göndərdiyimiz peyğəmbərlər də, şübhəsiz ki, yemək yeyər, (ruzi qazanmaq üçün) bazarları gəzib dolaşardılar*" şəklində düzəldilir[13] və ilahi xəbərdarlığın bir insan

[10] əl-İsra, 17/90-93.
[11] Hud, 11/12.
[12] əl-Furqan, 25/7.
[13] əl-Furqan, 25/20.

vasitəsilə olmasının daha münasib olduğu xəbər verilir.

Peyğəmbərin "bəşərüstü" yaxud "mələk" kimi bir varlıq olmasının zəruriliyini düşünən inkarçılar Allah Rəsulunun göndərilməsinə "Allah, elçi olaraq bunumu göndərmiş?!" deyərək etirazlarını bildirərkən inkar səbəblərini Allah Rəsulunun 'bəşər' yəni 'insan' olmasına əsaslandırırdılar.[14] Qur'an isə bunu rədd etməmiş, əksinə, israrla onun "insan" olduğunu vurğulamışdı. Qur'anın rədd etdiyi xüsus tam olaraq insanlardan fərqli hətta fövqəlbəşər bir peyğəmbər ümidi idi. Uca Allah onlara cavab olaraq: *"De: "Əgər yer üzündə (siz insanlar kimi) arxayın gəzib dolaşanlar mələklər olsaydı (yer üzünün əhalisi mələklərdən ibarət olsaydı), sözsüz ki, onlara bir mələk peyğəmbər göndərərdik!"* – buyurmuşdu.[15]

Cahiliyyəyə aid peyğəmbər təsəvvürünü dəyişdirib onun yerinə həqiqi peyğəmbər təsəvvürü yerləşdirmək istəyən Allah Rəsulu da bu barədə çox həssas davranırdı. Ənəs ibn Malikin rəvayət etdiyinə görə bir gün bir adam gəlib və Peyğəmbərimizə: "Ey Muhamməd! Ey Əfəndimiz, əfəndimizin oğlu, bizim ən xeyirlimizin oğlu!" şəklində iltifat etmişdi. Bunu eşidən Allah Rəsulu: *"Ey insanlar! Diqqətli olun təqvanıza sahib çıxın! Diqqətli olun şeytan sizi aldatmasın! Mən Muhamməd ibn Abdullaham. Allahın qulu və rəsuluyam. Vallah, mən sizin məni Uca Allahın mənə verdiyi*

[14] əl-İsra, 17/94.
[15] əl-İsra, 17/95.

*məqamın üzərinə çıxarmağınızı istəmərəm!"* – şəklində xəbərdarlıq etmişdi.[16]

Həzrət Peyğəmbər bu yanlış təsəvvürün mənbəyinə də diqqət çəkirdi: *'Xristianların Məryəm oğlunu (İsanı) mədh etməkdə ifrata düşdükləri kimi siz də məni mədh edərkən həddinizi aşmayın. Şübhəsiz ki, mən Allahın quluyam. Ona görə mənə 'Allahın qulu və rəsulu' deyin".*[17] Peyğəmbərimiz (s.ə.s.) əsasən bir bəndə olduğuna tez-tez diqqət çəkirdi. Bir gün kəlimeyi-şəhadət gətirməyi öyrətdiyi bir şəxs "Şəhadət edirəm ki, Muhamməd Allahın rəsulu və bəndəsidir" dedikdə: *"Mən rəsul olmamışdan əvvəl qul idim",* – deyə dərhal müdaxilə etmiş və bu cümləni "Allahın qulu və rəsuludur" şəklində düzəltdirmişdi.[18] Onun ilkin olaraq abd (qul) oluşuna diqqət çəkməsi peyğəmbərləri ucaldanlara, ilahlaşdıranlara, rəsul oluşunun vurğulanması isə peyğəmbərləri döyən, qovan və öldürənlərə bir rəddiyyə idi. Əsgərlərə su daşımaq, yaralı və şəhid olmuş əsgərlərin Mədinəyə aparılması kimi işlərdə xidmət göstərmək məqsədilə Rəsulullah ilə yanaşı müharibədə iştirak edən gənc bir xanım səhabə olan[19] Rubeyy bint Muavvizin toy mərasimində iştirak edərkən dəf çalıb mahnı oxuyan qızlara Allah Rəsulunun xəbərdarlığı da eyni narahatçılığa əsaslanırdı. Mahnı oxuyan bu qızlar Bədr müharibəsində şəhid olan atalarının gözəl xüsusiyyətlərini yad edirdilər. Bu əsnada aralarından biri: "Yanımızda bir

[16] HM12579 İbn Hənbəl, III, 154.
[17] B3445 Buxari, Ənbiya, 48.
[18] MA3076 Əbdürrəzzaq, əl-Müsənnəf, II, 205.
[19] Hİ7/641 İbn Həcər, *İsabə*, VII, 641.

peyğəmbər var! O, sabah nə olacağını bilir!” – şəklində bir cümlə ilə Allah Rəsulunu mədh etmək istəyir. Bunu eşidən Peyğəmbər (s.ə.s.): *“Belə demə! Bir az əvvəl dediklərini de!”*[20] – deyərək xəbərdarlıq edir və: *“Sabah nə olacağını yalnız Allah bilir”*, – deyə də əlavə etdi.[21]

Bütün bu xəbərdarlıq və xatırlatmalar peyğəmbər haqqındakı səhv təsəvvürlərin qarşısını almaq üçün idi. İnsanların bəşərüstü varlıq təsəvvürünə nə qədər meyilli olduqları keçmiş peyğəmbərlər ilə əlaqədar düşüncələrdə özünü biruzə vermişdi. Adı Rifaa ibn Yəsrib ibn Afv kimi müxtəlif şəkillərdə qeyd edilən[22], künyəsi Əbu Rimsə olan səhabənin həzrət Peyğəmbər ilə ilk qarşılaşması mübaliğə adətinin təsirinin hansı həddə çatdığını açıq-aşkar göstərir: “Atamla birlikdə Rəsulullahın (s.ə.s.) yanına getdik. Onu görəndə atam: ‘Bu kimdir bilirsənmi?’ – dedi. ‘Xeyr’ – dedim. ‘Bu Allahın elçisi Muhamməddir’ – dedi. Atamın bu sözünü eşidəndə təəccübləndim və donub qaldım. Çünki mən Allahın Elçisini insanlara oxşamayan fərqli biri olaraq xəyal edirdim. Halbuki onun saçları uzun və xınalı idi, əynində isə iki yaşıl cübbə var idi”.[23]

Əbu Rimsənin zənn etdiyi kimi Allah Rəsulu ətrafındakı insanlardan fərqli bir görünüşə sahib deyildi. Bəli, hər halı ilə ətrafındakılar üçün ən gözəl nümunə idi və hər hərəkəti digərlərindən daha sadə və

[20] B4001 Buxari, Məğazi, 12.
[21] İM1897 İbn Macə, Nikah, 21.
[22] Hİ2/495 İbn Həcər, İsabə, II, 495.
[23] HM7116 İbn Hənbəl, II, 228.

zərif idi. Ancaq heç bir vaxt özünü səhabələrindən fərqləndirməz, heç bir vaxt təkəbbürlənməzdi. O, bir peyğəmbər və cəmiyyətin rəhbəri olmasına baxmayaraq insanlarla münasibətində hər hansı bir məsafə saxlamamış, onlara heç bir vaxt yuxarıdan aşağı baxmamışdı. Bir gün onunla danışmağa gələn bir adamın həyəcandan titrədiyini görüb belə demişdi: *"Qorxma! Mən bir hökmdar deyiləm. Mən yalnız (günəşdə) qurudulan ət yeyən bir qadının oğluyam"*.[24]

Nə libası, nə oturuşu-duruşu, nə də hərəkətləri fərqli idi. Xalqın mərasimlərində, toylarında, yemək məclislərində iştirak etməyi sevərdi. O, yemək yeyərkən yerə oturar və *"Mən bir bəndənin yediyi kimi yeyir və oturduğu kimi otururam"* – deyərdi.[25] Bir Qurban bayramı günü bayram namazı qılınmış və ortaya tirit (ətli sulu yemək) yeməyi gətirilmişdi. Orada olan hər kəs yeməyin başına toplandı. Ancaq oturanların sayı çoxalıb sıxlaşınca hamıyla birlikdə süfrəyə oturmaqdan çəkinməyən Rəsulullah da dizi üstə oturmağa məcbur oldu. Həzrət Peyğəmbərə (s.ə.s.) bu oturuşu layiq görməyən bir bədəvi: "Bu necə oturmaqdır?" – deyərək təəccübünü dilə gətirdi. Onun bu sözünə Allah Rəsulu belə cavab verdi: *"Şübhəsiz ki, Allah məni mütəvazi bir bəndə olaraq yaratdı, zorba və inadkar biri olaraq deyil!"*[26] Dostları ilə birlikdə ikən geyimi və davranışı ilə diqqət çəkməz, tam mənasıyla onlardan biri olurdu. Məsələn, hətta Allah Rəsulunun "başa düşən insan" adlandırdığı həzrət Ömərin belə

[24] İM3312 İbn Macə, Ətimə, 30.
[25] MA19543 Əbdürrəzzaq, əl-Müsənnəf, X, 415.
[26] D3773 Əbu Davud, Ətimə, 17.

bir mövzunu daha gözəl və bəlağətli şəkildə başa salan başqa birini tanımadığını söylədiyi[27] Dimam ibn Saləbə Mədinəyə yeni gəldiyi günlərdə məsciddə səhabələri ilə oturan həzrət Peyğəmbəri tanıya bilməmiş və “Muhamməd hansınızsız?”, – deyə soruşmalı olmuşdu.[28] Əvvəllər də hicrət əsnasında buna oxşar bir hadisə baş vermişdi. Rəbiuləvvəl ayının bir bazar ertəsi günü Allah Rəsulu və yanındakılar çətin və məşəqqətli hicrət səyahətinin sonunda gəlib Qübaya çatdıqda mədinəli müsəlmanlar tərəfindən təntənəli şəkildə qarşılanmışdılar. Peyğəmbərimiz (s.ə.s.) istirahət üçün bir xurmanın kölgəsində oturmuşdu. Onları qarşılayanlarla isə həzrət Əbu Bəkr söhbət edirdi. Hətta ənsardan Rəsulullahı qarşılamaq üçün Qübaya gələnlər onu daha əvvəl heç görmədikləri üçün həzrət Əbu Bəkri salamlayırdılar. Həzrət Əbu Bəkr Peyğəmbərimizi (s.ə.s.) günəşdən qorumaq üçün onun üstünə öz paltarı ilə kölgə salmışdı. Elə o an xalq Rəsulullahı tanıya bilmişdi.[29]

Həzrət Aişənin ifadəsilə səhabələrdən hər hansı bir ailə rəisi evində nə iş görürsə o da eyni işləri görərdi.[30] O, hamı kimi bir insan idi. Libasını təmizləyər, qoyununu sağar və öz ehtiyaclarını özü həll edərdi.[31] Həzrət Peyğəmbəri uşaqlarla zarafatlaşarkən,[32] nəvələrini gəzdirərkən,[33] cavanlarla dərdləşərkən,

[27] Hİ3/487 İbn Həcər, İsabə, III, 487.
[28] B63 Buxari, Elm, 6.
[29] B3906 Buxari, Mənaqibul-ənsar, 45.
[30] EM540 Buxari, əl-Ədəbul-müfrəd, 190.
[31] HM26724 İbn Hənbəl, VI, 256.
[32] B6354 Buxari, Də’vat, 31.
[33] MŞ32185 İbn Əbu Şeybə, əl-Müsənnəf, Fəzail, 23.

alış-veriş edərkən, müharibə üçün xəndək qazarkən görmək mümkün idi. Sonradan Kufədə məskunlaşan və Abdulməlik ibn Mərvanın xilafəti ərəfəsində vəfat edən[34] Cabir ibn Səmurədən Rəsulullah ilə birlikdə oturub söhbət edib etmədiklərini soruşduqda o: "Əlbəttə dəfələrlə söhbət etmiş və hər şeyi unutmuşuq. Rəsulullah (s.ə.s.) səhər namazından sonra günəş üfüqdə görünənə qədər namaz qıldığı yerdən tərpənməzdi. O əsnada səhabə söhbət edib danışar, cahiliyyə dövründə başlarına gələnləri yada salar və gülərdilər. O isə təbəssüm edərdi" – deyərək bir məqamı danışmışdı.[35] Zeyd ibn Sabit isə belə bir suala: "Dünyadan danışsaq bizimlə birlikdə o da danışar, yeməkdən danışsaq bizimlə birlikdə o da danışardı" – şəklində cavab vermişdi.[36]

Həzrət Peyğəmbər insanların arasında onlardan biri olaraq həyatını davam etdirirdi. Hamı kimi o da kədərlənir,[37] sevinir[38] və əsəbiləşirdi.[39] Onun da həyat məşğələsi var idi. Yoldaşlığı, dostluğu var idi. Xanımları, övladları və nəvələri var idi. Xanımları ilə münasibətində problemləri olduğu anlar da olurdu[40], onlarla sevincli anları bölüşdüyü vaxtlar da...[41]

Bəşəri ehtiyacları olduğu kimi hər hansı bir insanın başına gələn işlər onun da başına gəlirdi. Bir dəfə

[34] TK4/439 Mizzi, Təhzibul-kəmal, IV, 439.
[35] M1525 Müslim, Məsacid, 286.
[36] MK4882 Təbərani, əl-Mü'cəmul-kəbir, V, 140.
[37] M6025 Müslim, Fəzail, 62.
[38] B3556 Buxari, Mənaqib, 23.
[39] D4659 Əbu Davud, Sünnə, 10.
[40] B2468 Buxari, Məzalim, 25.
[41] D2578 Əbu Davud, Cihad, 61.

səfər əsnasında yorulduğu üçün yatıb qalmış sübh namazını qıla bilməmiş və yalnız günəş tam çıxdıqdan sonra namazını qəza edə bilmişdi.[42] Bir dəfə də qıldırdığı bir namazın rükət sayında səhv etmiş, səhabələr namazda bir dəyişiklik olub olmadığını soruşduqda həzrət Peyğəmbər (s.ə.s.): *"Mən də yalnız sizin kimi bir insanam. Sizin xatırladığınız kimi xatırlayaram və sizin unutduğunuz kimi unudaram"* – buyurdu. Sonra iki (səcdə edərək) səhv səcdəsi etdi.[43] Başqa bir vaxt sübh namazını qılarkən Muminun surəsini oxumağa başlamışdı. Musa və Harun peyğəmbərlərin adı çəkilən ayəyə[44] gəlib çatanda onu bir öskürək tutmuş, artıq oxuya bilməyəcəyini başa düşüb rükuya getmişdi.[45] Peyğəmbər olmasına baxmayaraq daima Allaha şükür edən bir bəndə olma arzusu ilə yaşayırdı. İbadət eşqilə uzun müddət namaz qıldığına görə ayaqları şişib çatlamışdı.[46] Digər tərəfdən gəlib keçmiş bütün günahları bağışlandığı halda *"Bəzən mənim qəlbimdə bir dalğınlıq olur və buna görə gündə yüz dəfə Allaha tövbə edirəm"* – buyurmuşdu.[47]

Bəzən gündəlik həyatda qarşılaşdığımız problemlərlə o da qarşılaşmışdı. Məsələn, Xeybərdən qayıdarkən həyat yoldaşı Safiyyəni miniyinin arxa tərəfinə oturtmuşdu. Yolda gedərkən mindikləri bu dişi dəvənin ayağı sürüşmüş və Peyğəmbərimiz ilə

[42] B344 Buxari, Təyəmmüm, 6; M1560 Müslim, Məsacid, 309.
[43] M1284 Müslim, Məsacid, 93.
[44] əl-Müminun, 23/45.
[45] HM15468 İbn Hənbəl, III, 411.
[46] M7126 Müslim, Sifatul-münafiqin, 81.
[47] M6858 Müslim, Zikr, 41.

xanımı Safiyyə ikisi birdən yerə düşmüşdü.[48] Yenə başqa bir gün Allah Rəsulu atdan yıxılmış və sağ tərəfi əzilmişdi. O, bu səbəblə namazlarını bir müddət oturaraq qıldırmalı olmuşdu.[49] Digər insanlar kimi onun da xəstələndiyi vaxtlar olmuş və dövründə mövcud olan müalicə metodlarından istifadə etmişdi. Şiddətli baş ağrısından əziyyət çəkmiş və həcəmət etdirib qan aldırmışdı.[50] Həzrət Aişənin rəvayət etdiyinə görə Peyğəmbər (s.ə.s.) xəstələnəndə ona dərman verilməsini istəməməsinə baxmayaraq onun ağzına dərman qoyurdular. Onlar Rəsulullahın dərman istəməməsini dərmanı sevməməsi ilə əlaqələndirmiş və dərmanı içirməyə davam etmişdilər. Hətta Rəsulullah ayılanda ona dərman verənlərin hamısının o dərmandan içməsini istəyərək şirin bir intiqam da almışdı.[51]

Rəsuli-Əkrəmin dünya işlərinə aid məlumat və təcrübələri içində yaşadığı cəmiyyətdən fərqli deyildi. Heç kimin əkinçiliklə məşğul olmadığı və ticarətin məşhur olduğu Məkkədən Mədinənin münbit torpaqlarına gələndə xalqın kənd təsərrüfatı ilə məşğul olduğunu görmüşdü. Mədinə yamyaşıl xurma bağlarının mövcud olduğu bir yer idi. Bu bağçalar mədinəlilərin mühüm bir dolanışıq mənbəyi idi. Məhsullarını daha keyfiyyətli hala gətirmək üçün xurma ağaclarını calaq edirdilər. Peyğəmbər (s.ə.s.) onların bu halını görəndə: *"Siz nə işlə məşğulsunuz?"*,

[48] B6185 Buxari, Ədəb, 104; B5968 Buxari, Libas, 102.
[49] M921 Müslim, Səlat, 77.
[50] B5700 Buxari, Tibb, 15.
[51] B6886 Buxari, Diyət, 14.

– deyə soruşmuşdu. Onlar qədimdən bəri ağacları calaq işi ilə məşğul olduqlarını söyləmişdilər. Həzrət Peyğəmbər: *"Bəlkə də bunu etməsəniz daha yaxşı olar"* – demişdi. Onun bu ifadəsinə əsasən ağacları calaq etməmişdilər. Lakin xurmalar həmin il həmişəkindən daha az məhsul vermişdi, hətta yemişlərini tökmüşdü. Tövsiyəsinə qulaq asdıqları üçün məhsuldarlığın azaldığını Rəsulullaha xəbər verdikdə o belə buyurdu: *"Mən yalnız bir insanam. Sizə dininiz haqqında bir işi əmr etdikdə onu dərhal öyrənin! Öz görüşümə əsasən bir iş görməyinizi əmr etdikdə isə bilin ki, mən də bir insanam"*.[52]

Peyğəmbərimizin hələ uşaq ikən əl-As olan köhnə adını Abdullaha çevirdiyi, ən çox hədis nəql edən səhabələrdən[53] Abdullah ibn Əmr əzbərləmək məqsədilə həzrət Peyğəmbərdən eşitdiyi hər sözü qeyd edirdi. Səhabədən bəziləri "Sən Rəsulullahdan eşitdiyin hər şeyi yazırsan. Halbuki Rəsulullah da nəticədə bir insandır. Xoş hallarda danışdığı kimi əsəbi vaxtlarında da danışır" deyərək ona xəbərdarlıq etməli olmuşdular. Ancaq Abdullah bu xəbərdarlıqları Peyğəmbərimizə çatdıranda o barmağı ilə ağzını göstərərək belə demişdi: *"Sən yazmağa davam et! And içirəm ki, buradan həqiqətdən başqa söz çıxmaz"*.[54] Onun bu sözü bəşəri yönünün nəbəvi yönünə əsla zərər vermədiyinin bir ifadəsi idi. Sevimli Peyğəmbərimiz: *"Mən qəzəblənəndə ümmətimdən kiminsə xətrinə dəyən söz deyər yaxud da bəd dua edərəmsə bilin*

[52] M6127 Müslim, Fəzail, 140.
[53] Hİ4/192 İbn Həcər, İsabə, IV, 193.
[54] D3646 Əbu Davud, Elm, 3.

*ki, mən də Adəm oğullarından biriyəm. Onlar əsəbiləşdiyi kimi mən də əsəbiləşirəm. Lakin Allah məni yalnız aləmlərə rəhmət olaraq göndərmişdir"*, – deyə buyurmuş və sonra: *"Ey Allahım! Mənim belə bir davranışımı qiyamət günündə o insan üçün bir rəhmət/mərhəmət səbəbi et!"* – deyərək dua etmişdi.[55] İnsanlar arasında hökm verərkən deyilənlərə əsasən qərar verə biləcəyini bir dəfə belə ifadə etmişdi: *"Mən yalnız bir insanam. Mənə aranızdakı davaları ərz edirsiniz. Bəziləriniz dərdini daha yaxşı şəkildə ifadə edə bilir və mən eşitdiyimə görə hökm verə bilərəm. Qardaşının haqqı olan bir şey barəsində hər hansı birinizin leyhinə hökm versəm qətiyyən onu götürməsin. Mən ona ancaq alovdan bir hissə kəsmişəm deməkdir"*.[56] Bu sözləri ilə Peyğəmbərimiz inandırıcı danışıq qabiliyyətinə sahib olanların bundan istifadə edərək davalı olduğu insanın haqqını qəsb etməməsi barədə xəbərdarlıq etmişdi. Digər yandan təkcə gördüyü və eşitdiklərinə görə hərəkət etdiyini vurğulayırdı. Digər yandan mütləq ədalətin təsisini nə qədər arzuladığını ifadə edir, ancaq bir insan olaraq bunu bacarmaq barəsində nə qədər narahat olduğunu etiraf edərdi. Məsələn, Rəsulullah (s.ə.s.) günlərini xanımları arasında ədalətli şəkildə bölüşdürür sonra isə: *"Allahım bu gücümün çatdığı səviyyədə mənim əlimdən gələndir. Sənin qüdrətində olan ancaq mənim gücüm çatmayan işlərdə məni qınama!"* – deyərək dua edərdi.[57]

[55] D4659 Əbu Davud, Sünnə, 10.
[56] B7169 Buxari, Əhkam, 20; D3583 Əbu Davud, Qəza (Əqziyə), 7.
[57] D2134 Əbu Davud, Nikah, 37-38; N3395 Nəsai İşratun-nisa, 2.

Hər hansı bir insana aid olan bəşəri ehtiyaclar ona da aid idi. Lakin o bunları axirət şüuru ilə məhdudlaşdırır və nəzarət altında tuturdu. Həsirin izlərini Allah Rəsulunun vücudunda gördükdə kədərlənib, ağlayan həzrət Ömər: "Ey Allahın Rəsulu! Kisra və Qeysərin vəziyyəti məlumdur (sərvət və səltənət içindədirlər) və sən Allahın Rəsulusan!" – deyəndə: *"Dünyanın onların, axirətin isə bizlərin olmasını istəməzsiniz?"*, – deyə cavab vermişdi.[58] O, peyğəmbərliyinin ilk günlərində bu işdən əl çəkməsi üçün müşriklərin təklif etdiyi hər cür mal-mülk və məqam-mövqeyi rədd edərək bəşəri arzuların arxasınca getmədiyini isbat etmişdi.[59] Özünü bu dünyada ağacın altında oturub müvəqqəti olaraq dincələn bir yolçuya oxşadırdı.[60]

Başda ailəsi olmaqla yaxın və uzaq yoldaşları onunla bəşəri münasibətlərini davam etdirmişdilər. Onunla səfərə çıxanlar,[61] onun adına alış-veriş edənlər,[62] onunla eyni yastığa baş qoyan xanımları, özləri kimi olan bir insanla yaşadıqlarını bilirdilər. Onunla zarafat edənlər olduğu kimi[63], onunla oxçuluq kimi oyunlar oynayanlar da olmuşdu.[64] Həzrət Peyğəmbərin əsəbiləşdiyi, incidiyi insanlar da olmuşdu. Ancaq hamı onun öz aralarından seçilmiş və vəhy alan bir peyğəmbər olduğunu heç vaxt unutmurdu. Bədr

[58] B4913 Buxari, Təfsir, (Təhrim) 2; HM12444 İbn Hənbəl, III, 140.
[59] HS2/101 İbn Hişam, Sirət, II, 101; BN3/56 İbn Kəsir, Bidayə, III, 56.
[60] T2377 Tirmizi, Zöhd, 44; İM4109 İbn Macə, Zöhd, 3.
[61] B344 Buxari, Təyəmmüm, 6.
[62] B3642 Buxari, Mənaqib, 28; D3384 Əbu Davud, Büyu', 27.
[63] D5000, D5001 Əbu Davud, Ədəb, 84.
[64] B2899 Buxari, Cihad, 78.

müharibəsində müşriklərin cərgəsində yer tutan, sonradan müsəlman olub Allah Rəsulu (s.ə.s.) ilə birlikdə bəzi müharibələrdə iştirak edən və Yərmük müharibəsindən sonra Şamda məkunlaşan Qübas ibn Əşyəmin[65] Allah Rəsulu ilə Fil ilində dünyaya gəldiklərini dedikdə: "Sən böyüksən, yoxsa Rəsulullah (s.ə.s.)?" – sualına "Rəsulullah (s.ə.s.) məndən böyükdür, ancaq mən ondan öncə dünyaya gəlmişəm" – şəklindəki cavabı elə bu şüurun ali bir təzahürü idi.[66]

Xanımları ondan israrla zinət və geyimləri istəyərək onu əsəbiləşdirdikdə əlbəttə onunla bir bəşər kimi rəftar edirdilər. Ancaq digər tərəfdən Allahın Peyğəmbərini hirsləndirməyin Allahı qəzəbləndirəcəyi şəklində xəbərdarlıqlar da alırdılar. Həzrət Peyğəmbərin xanımlarına hirslənib onlardan ayrı yaşadığı günlərdə həzrət Ömər qızı Həfsəyə belə demişdi: "Rəsulullahı hirsləndirən qadın rəzil və pərişan olar! Hansınız Rəsulunun əsəbiləşməsinə görə Allahın da qəzəblənib sizi həlak etməyəcəyindən əmin ola bilərsiniz? Rəsulullaha qarşı həddini aşma! Ona etiraz etmə! Onu tərk etmə!"[67]

Allah Rəsulunun bəşəri həyat tərzini nəbəvi cəhətindən ayırmaq mümkün deyildi. Məsələ əsəbiləşəndə belə ağzından həqiqətdən başqa bir söz çıxmazdı.[68] Bir insan olaraq asqıranda insanlara asqırmağın ədəbini başa salır,[69] yemək yeyəndə yeyib-içmə-

[65] Hİ5/408 İbn Həcər, İsabə, V, 408.
[66] T3619 Tirmizi, Mənaqib, 2.
[67] B2468 Buxari, Məzalim, 25.
[68] D3646 Əbu Davud, Elm, 3.
[69] B6224 Buxari, Ədəb, 126; HM9660 İbn Hənbəl, II, 440.

yin qaydalarını,[70] ya da səhər yatıb qalanda namazın qəzasını öyrədirdi.[71] Elə onun insanlar arasından bir peyğəmbər olaraq göndərilməsinin hikməti də bu idi. Əlbəttə ki, yemək yeməyən, yatmayan və unutmayan bir peyğəmbər bütün bu xüsusiyyətlərə sahib olan insanlara necə nümunə ola bilərdi? Bundan başqa ölümü və axirəti ölümlü bir peyğəmbərdən daha gözəl kim başa sala bilərdi?

[70] D3773 Əbu Davud, Ətimə, 17; İM3275 İbn Macə, Ətimə, 12.
[71] B344 Buxari, Təyəmmüm, 6.

محمد ﷺ

# HÖKMÜN QAYNAĞI OLARAQ PEYĞƏMBƏRİMİZ

Allah Rəsulu bir gün yolda gedərkən qəflətən səmadan gələn bir səslə səksəndi. Hirada ona gələn ilk vəhydə də eyni qorxu hissini keçirmişdi. Başını qaldıranda yenə ilk vəhyi gətirən Cəbrayılı gördü. İlk gəlişindəki kimi ikincisində də səma ilə yer arasını tutan heybətli və əzəmətli bir görünüşdə idi. Sarsılmışdı, qorxmuşdu həzrət Muhamməd. Dərhal evinə qayıtdı. Bu böyük qorxunun yorğunluğu və taqətsizliyi ilə yalnız bu sözlər süzüldü dodaqlarından: *"Üstümü örtün!"* Ancaq Rəbbi ona yeni bir hədəf təyin etmişdi.[1] Rəbbi belə vəhy etdi Peyğəmbərinə: *"Ey (libasına) bürünüb sarınan (Peyğəmbər)! Qalx (qövmünü Allahın əzabı ilə) qorxut! Öz Rəbbini uca tut! Libasını təmizlə! (Nəfsini günahlardan pak et!) (Əzaba səbəb olacaq) pis şeylərdən uzaqlaş! (Bütləri tərk et!)"*[2]

[1] B4 Buxari, Bədul-vəhy, 1.
[2] əl-Müddəssir, 74/1-5.

*"Oxu!"* əmrindən sonra gələn bu ikinci vəhy Peyğəmbərimizə yeni bir həyatı müjdələyirdi. Artıq o, tək başına mağarada təfəkkür edən,[3] qəlbini saflaşdıran bir insan deyil, bütün bəşəriyyəti təfəkkürə və paklaşmağa səsləyən, fərdi və ictimai həyata dair əxlaq prinsipləri təsis edən bir dəvətçi olmuşdu.[4] Bundan sonra həyatı dəyişən təkcə o deyildi. Bütün bəşəriyyət köklü bir dəyişikliyin astanasında idi. Çünki əxlaqi və hüquqi mənada tarmar olmuş həyatlar bu alt-üst olmuş ədalətsiz nizamı ədalətli bir bünövrə üzərində yenidən təsis edən bir nizamlayıcıya möhtac idi. Allah bu vəzifəni yerinə yetirmək üçün həzrət Muhamməd (s.ə.s.) seçdi. Ona lazım olan səlahiyyətləri verdi. Ona itaət edilməsini istədi,[5] hətta ona itaəti Özünə itaətlə eyniləşdirdi.[6] Çünki o, öz istəyinə görə danışmayacaq, söylədiklərinin Allahdan gələn bir vəhy olduğu bilinəcəkdi.[7] Belə bir elçinin əmrlərinə əməl etmək və qadağalarından uzaq durmaq inananlar üçün imanlarının bir zərurətinə çevrildi.[8] Beləcə, o, cəmiyyətdə əxlaqi və dini sahələrdə olduğu kimi hüquq, idarəetmə və ticarət kimi sahələrdə də ədaləti icra etmək üçün qayda və prinsiplər təsis etməyə başladı.[9] Əslində o, həyata bir bütün olaraq baxdığına görə heç vaxt insan və cəmiyyət həyatını müxtəlif sahələrə ayırmamışdı.

[3] B3 Buxari, Bədul-vəhy, 1.
[4] əl-Bəqərə, 2/151.
[5] əl-Maidə, 5/92.
[6] ən-Nisa, 4/80.
[7] ən-Nəcm, 53/2-4.
[8] əl-Həşr, 59/7.
[9] əş-Şura, 42/15.

Bütün qayda və prinsiplərini insanı əhatə edən bir varoluş əxlaqı ətrafında təsis etmişdi.

Peyğəmbər (s.ə.s.) öz cəmiyyəti içərisindən seçilib Allahın elçisi olma şərəfinə nail olarkən gücün zülm və barbarlığa çevrilməsi şəklində təzahür edən cəmiyyətdəki nizamdan çox yaxşı xəbərdar idi. O, ilk növbədə Allaha və axirətə iman məsələlərindəki səhv təmayülləri düzəltməklə işə başladı. Məkkə dövründə daha çox iman əsaslarını bərpa etmək üçün cəhd göstərmişdi. Əziz Peyğəmbərimiz ilk dövrlərdə bu fəaliyyəti gizli şəkildə həyata keçirməli idi. Buna baxmayaraq ona inananlar gizli də olsa onun öyrətdiyi şəkildə ibadət etməyə çalışırdılar.[10] *"Səhər-axşam yalvararaq, qorxaraq, səsini qaldırmadan ürəyində Rəbbini yad et və qafillərdən olma!"*[11] əmri ilə namaz möminlərə fərz qılınanda[12] namazı necə qılacaqlarını öyrədən şübhəsiz ki, Peyğəmbər (s.ə.s.) idi.[13] O, beləliklə, Qur'an ayələrini ümmətinə yaşayaraq izah etmək vəzifəsini hələ ilk günlərdən yerinə yetirməyə başlamışdı.

Həzrət Peyğəmbər Məkkə dövründə müşriklərin təzyiqi və təqibləri altında olan müsəlmanlara tövhid əqidəsindən bəhs edən ayələri oxuyurdu. Ayələri həmsöhbətlərinin başa düşəcəyi şəkildə izah etməyə çalışırdı. Bunun üçün də bəzən ayələri olduğu kimi

[10] HS2/98 İbn Hişam, Sirət, II, 98.
[11] əl-Əraf, 7/205.
[12] İF2/53 İbn Həcər, Fəthul-bari, II, 53.
[13] B6008 Buxari, Ədəb, 27.

oxuyur, bəzən isə öz ifadələri ilə onları izah edirdi. Bu dövrdə onun birinci vəzifəsi insanları Allahın birliyinə və təkliyinə təslim olmağa dəvət etmək idi.

Mədinəyə hicrət etdikdən sonra Peyğəmbərimiz iman əsaslarını təbliğ etməklə yanaşı Mədinə şəhər dövlətinin əxlaq və hüquqa əsaslanan, birlik və bərabərlik içərisində haqq və ədalətin təzahür etdiyi bir sülh və qardaşlıq yurduna çevrilməsi üçün gecə-gündüz çalışırdı. Allahdan aldığı vəhyi təkcə insanlara oxumaqla kifayətlənmir, onu həm sözləri, həm də davranışları ilə izah edirdi. Çünki bu, Allahın ona yüklədiyi bir vəzifə idi.[14] Meracdan sonra gündə beş vaxt olan namazın[15] həm vaxtlarını, həm də necə qılınacağını möminlərə o öyrətmiş,[16] günəş doğarkən və batarkən namaz qılmağı yenə o qadağan etmişdi.[17] Həmçinin Qur'andakı zəkat əmrinin necə yerinə yetiriləcəyini, hansı mallardan nə qədər zəkat veriləcəyini izah edən[18], yaxud həccin icra şəklini göstərən yenə O (s.ə.s.) idi.[19]

Əziz Peyğəmbərimiz həyat haqqında ümumi xarakterə malik ilahi əmrləri öyrədərkən həmçinin nikah, boşanma, mal və mülkün paylanması/miras, haram və halal olan qidalar və ticarət kimi çox sayda mövzuya dair ayələri təfsir etmişdi. Məsələn *"...Allah alış-verişi halal, sələm (faiz) almağı isə haram*

[14] ən-Nəhl, 16/44.
[15] M411 Müslim, İman, 259.
[16] B631 Buxari, Azan, 18.
[17] N565 Nəsai, Məvaqit, 33; HM22000 İbn Hənbəl, V, 191.
[18] M2263 Müslim, Zəkat, 1; N2475 Nəsai, Zəkat, 18.
[19] M3137 Müslim, Həcc, 310.

*(qadağan) etmişdir"*[20] ayəsindən hər cür alış-veriş və ticarətin halal olduğu başa düşülsə də Peyğəmbərimiz məsələn, donuz əti və spirtli içki satışını qadağan edərək[21] buna məhdudiyyət gətirmişdi.

Allah öz Elçisinə Qur'anda mövcud olan əmr və qadağaları təbliğ etmə vəzifə və səlahiyyəti ilə yanaşı Qur'anda olmayan bəzi məsələlərdə hökm qoyma səlahiyyəti də vermişdi.[22] Məsələn, bir dəfə xütbə oxuyarkən: *"Ey insanlar! Allah sizə həcc ibadətini fərz qıldı. Elə isə həcc edin!"* – buyurmuşdu. Bunu eşidən bir nəfər ayağa qalxıb "Hər il, ey Rəsulullah?", – deyə soruşdu və Rəsulullahın (s.ə.s.) susmasına əhəmiyyət verməyərək sözünü üç dəfə təkrarladı. Nəhayət, Allah Rəsulu: *"Bəli desəm, hər il vacib olar. Sizin də buna gücünüz çatmaz"* – buyurdu və bu sözləri əlavə etdi: *"Mən sizin suallarınıza cavab verməyəndə təkid etməyin. Sizdən əvvəlki ümmətlər çox sual verdikləri və peyğəmbərlərinin cavabı və buyruqlarını qəbul etmədikləri üçün həlak olub getmişlər. Mən sizə bir işi əmr etdikdə gücünüz çatdığı qədər ona əməl edin, sizə bir işi qadağan etdikdə isə onu da tərk edin!"*[23]

Bəli, onun bir şeyi qadağan etməsi Qur'anın qadağan etməsinə bənzəyirdi. Məsələn, Qur'anda yeyilməsi haram olan qidalar arasında qeyd edilməyən əhilləşdirilmiş eşşək ətini yeməyi özü qadağan etmişdi.[24] Bu qadağaya əməl edən səhabələr də eşşək

[20] əl-Bəqərə, 2/275.
[21] M4048 Müslim, Müsaqat, 71.
[22] əl-Əraf, 7/157.
[23] M3257 Müslim, Həcc, 412.
[24] B5528 Buxari, Seyd, 28.

əti bişirdikləri qabların içindəkiləri dərhal yerə boşaltmışdılar.[25]

Haqqında vəhy nazil olmayan məsələlərə dair hökm verərkən bəşəri təcrübə və ağıldan istifadə edən həzrət Peyğəmbər bir-birindən şikayət edən iki nəfərə: *"Mən, haqqında mənə vəhy nazil olmayan məsələlərdə öz şəxsi görüşümə görə aranızda hökm verirəm"*[26] – buyurmuşdu. Allah Rəsulunun şəxsi hökmlərinin doğruluğu, şübhəsiz ki, hər hansı bir insanınkı ilə eyni deyildi. Həzrət Ömər bir gün minbərdə xütbə oxuyarkən bu həqiqəti belə ifadə etmişdi: "Ey insanlar, yalnız Rəsulullaha (s.ə.s.) aid olan şəxsi görüş mütləq doğrudur. Çünki Allah ona həqiqəti və doğruları şəxsən özü göstərmişdir. Bizimkilər isə gücümüz daxilində meydana qoyduğumuz və mütləq doğrunu göstərməyən təxminlərdir".[27] Həzrət Muhamməd (s.ə.s.) hər zaman, hər an Allahın nəzarəti altında idi. Xüsusən həzrət Ömərin Peyğəmbərimizin səhv etməyəcəyinə diqqət çəkdiyi məsələlər onun peyğəmbərlik vəzifəsi ilə əlaqəli idi. Belə ki, dinə dair bir mövzuda Allah Rəsulu səhv qərar verdikdə ilahi xəbərdarlıq və düzəliş dərhal nazil olurdu.[28]

Allah Rəsulunun həyata dair nizamlayıcı mövqeyi peyğəmbər olması ilə başlamış və ömrünün sonuna qədər davam etmişdir. Məkkə dövründə şəhərə gələn əcnəbi qonaqlarla müxtəlif şəkildə əlaqə qurmağa və

[25] B2991 Buxari, Cihad, 130.
[26] D3585 Əbi Davud, Qəza (Əqziyə), 7.
[27] D3586 Əbu Davud, Qəza (Əqziyə), 7.
[28] *Əbəsə*, 80/1-10; *ət-Tovbə*, 9/43; *ət-Təhrim*, 66/1; *əl-Ənfal*, 8/67-68.

onlara doğru yolu təbliğ etməyə cəhd göstərirdi. Bir həcc mövsümündə Mədinədən gələnlərlə əlaqə qurma imkanı yaranmışdı. Allah Rəsulu onlardan dəvətinə müsbət yanaşan altı nəfərlik bir qrupla Əqəbə adlanan yerdə görüşdü. Həmin tarixi gündə onlardan bu sözləri eşitdi: "(Ey Nəbi!) Xalqımızı qoyub bura gəldik. Övs qəbiləsi ilə aramızda olan düşmənçiliyə və pisliyə başqa qəbilələr arasında rast gəlmək olmaz. Bəlkə Uca Allah sənin sayəndə bu iki qəbilə arasındakı düşmənçiliyi yox edər. Biz indi gedək onlara sənin dəvətini izah edək. Qəbul etdiyimiz bu dinə onları da dəvət edək".[29]

Bu altı ənsarın sözü əslində Allah Rəsulunun insan həyatının hər bir sahəsindəki nizamlayıcı mövqeyinə siyasi bir rəng əlavə olunduğunu da elan edirdi. Bir il sonra həcc mövsümündə ikisi Övs, onu Xəzrəc qəbiləsindən olan on iki nəfərlik ənsar qrupu Məkkəyə gəlib Rəsulullahın hüzurunda sədaqət andı içdilər. Həzrət Peyğəmbər bu görüşdə Mədinədəki on iki müttəfiq qəbilənin hər birinə bir başçı təyin etdi. Beləcə, hicrətdən əvvəl Peyğəmbərimiz Mədinədəki hadisələri Məkkədə ikən öyrənib idarə etməyə başlamışdı. Onlara müəllim təyin etdiyi Müsəbin və yaxud Əqəbədə olan və on iki qəbilənin rəisi olan[30] Əsəd ibn Zürarənin Mədinəyə qayıdanda cümə namazını qıldırması və arxasında qırx nəfərlik bir camaatın səf bağlaması təsadüf deyildi.[31] Cümə nama-

[29] HS2/276 İbn Hişam, Sirət, II, 276-277.
[30] ST3/602 İbn Səd, Təbəqat, III, 602.
[31] D1069 Əbu Davud, Səlat, 209, 210; İM1082 İbn Macə, İqamə, 78; BS5703 Beyhəqi, əs-Sünənul-kübra, III, 259.

zı həzrət Peyğəmbərin Mədinədəki dini və ictimai-siyasi mövqeyinin və müsəlmanların təşəkkülünün bariz əlamətlərindən idi.

Mədinəyə hicrət edərkən Allah Rəsulu ilk cümə namazını Qüba ilə Mədinə arasındakı Ranuna vadisində qıldırmışdı.[32] Bu həmçinin ictimai birlik naminə verilən bir bəyanat idi. Mədinəyə çatanda ilk işi bütün inanc qruplarını bir yerə toplayan və bir mənada Mədinə şəhər dövlətinin yazılı konstitusiyası sayılan bir sənəd hazırlamaq oldu. Əksəriyyəti yəhudilərdən ibarət olan qeyri-müsəlmanların da daxil olduğu bu müştərək anlaşma sənədi Mədinə şəhər dövlətinin qurulmasının ən bariz göstəricisi idi. Beləliklə, həzrət Peyğəmbər bir dövlət başçısı kimi fərdlərin və qəbilələrin öz hüquqlarını özlərinin qoruması şəklindəki özbaşına davranışlarını ləğv etmiş, idarəetməni ortaq bir razılıq sənədi vasitəsilə rəsmiləşdirmişdi.

Bu sənədə əsasən həzrət Peyğəmbərin səlahiyyəti hələ başlanğıcda konstitusiya maddəsi olaraq təyin edilmiş və müsəlman olmayanlar tərəfindən də qəbul edilmişdi.[33] Bunun sayəsində həzrət Peyğəmbər din və cinsiyyət fərqi olmadan bütün fərd və qrupların hüquqlarının təminatçısına çevrilmişdi.

Allah Rəsulu bir dövlət başçısı kimi təkcə müsəlmanların şikayətləri ilə deyil, müsəlman olmayanların da ədliyyə işləri ilə məşğul olurdu. Ancaq yəhudi[34]

[32] MK5414 Təbərani, əl-Mü'cəmul-kəbir, VI, 30; HS3/22 İbn Hişam, Sirət, III, 22-25.
[33] BN3/275 İbn Kəsir, Bidayə, III, 275.
[34] M4437 Müslim, Hüdud, 26; DM2351 Darimi, Hüdud, 15.

və xristianlar[35] arasında onların öz kitablarına görə hökm verirdi. Müsəlmanların arasındakı məsələlərdə isə əsas məsnəd Allahın Kitabı idi. Bu ona Allahın bir əmri idi.[36] Belə ki, bir dəfə bir qeyri-qanuni əlaqə məsələsinə görə həzrət Peyğəmbərin hakimliyinə müraciət edən iki nəfər ondan aralarındakı məsələni Allahın Kitabındakı hökmə əsasən həll etməsini istəmişdi. Allah Rəsulu bu iki nəfərin bir-biri haqqındakı şikayətlərinə qulaq asdıqdan sonra onlara: *"Allaha and olsun ki, mən sizin aranızda, əlbəttə, Allahın Kitabına görə hökm verəcəm"* – buyurmuşdu.[37]

Həzrət Peyğəmbər Mədinə şəhər dövlətinin Mədinə xalqı tərəfindən təyin edilmiş ən ali səlahiyyətli şəxsi idi. Ayrıca bu vəzifə *"(Ey Rəsulum!) Həqiqətən, Biz sənə Qur'anı haqq olaraq nazil etdik ki, Allahın sənə göstərdiyi (öyrətdiyi, bildirdiyi) ilə insanlar arasında hökm edəsən"* ifadələri ilə Allah tərəfindən də ona verilmişdi.[38] Onun verdiyi hökmə razı olmamaq Qur'anın ifadəsinə görə münafiqlik idi.[39] Bir gün mədinəli müsəlmanlardan biri ilə məkkəli Zübeyr arasında xurma ağaclarının suvarılması məsələsində münaqişə baş vermişdi. Ənsardan olan adam: "Suyu aç, gəlsin!" – demiş, Zübeyr isə buna razı olmamışdı. Münaqişə böyümüş, hadisə Rəsulullaha (s.ə.s.) xəbər verilmiş və ondan hakimlik etməsi istənilmişdi. Rəsulullah (s.ə.s.) onlara qulaq asdıqdan sonra Zübeyrə: *"Ey Zübeyr! Sən bağını sula, sonra suyu aç, qonşuna*

35 əl-Maidə, 5/47.
36 ən-Nisa, 4/105.
37 B7260 Buxari, Əxbarul-ahad, 1; B7278 Buxari, İtisam, 2.
38 ən-Nisa, 4/105.
39 ən-Nisa, 4/61.

*ötür!"* – dedi. Mədinəli bu sözə əsəbiləşdi və: "Ey Rəsulullah! Bu adam sənin bibinin oğlu olduğuna görə (belə edirsən)?" – dedi. Bunu eşidən Allah Rəsulunun (s.ə.s.) üzünün rəngi dəyişdi və sonra: *"Ey Zübeyr! Sula, suyu ağacların köklərinə yaxşıca çatana qədər saxla!"* – buyurdu. Hadisənin tərəf müqabillərindən biri olan Zübeyr aşağıdakı ayənin bu hadisə üzərinə nazil olduğunu nəql edir: *"Amma, xeyr! (Ey Rəsulum!) Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim (münsif) təyin etməyincə və verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə, (həqiqi surətdə) iman gətirmiş olmazlar."*[40]

Allah Rəsulunun insanlar arasında yaranan münaqişələrdə verdiyi hökmlərə başqa bir nümunə də Bəra ibn Azibin başına gələn bu hadisədir: Bəranın dəvəsi bir bağın divarını aşıb bağ sahibinin əkinlərinə ziyan vurmuşdu. Hadisə Peyğəmbərimizə gedib çatdıqda o, ərazi sahiblərini gündüz öz ərazilərini qorumaqla, dəvə sahibini də gecə dəvəsinə göz-qulaq olmaqla məsul tutdu. Dəvənin verdiyi zərəri isə Bəranın ödəməsini istədi.[41]

Həzrət Peyğəmbər hökm verərkən tamamilə konkret dəlillərə əsaslanırdı. O: *"İnsanlara mücərrəd iddialar əsasında istədikləri verilsəydi, bəzi adamlar başqalarının qanında və malında haqq iddia edərdi..."*[42] – buyuraraq şikayətlərdə maddi dəlilə əsaslanmağın

[40] ən-Nisa, 4/65; M6112 Müslim, Fəzail, 129.

[41] MA18438 Əbdürrəzzaq, Müsənnəf, X, 82; DK3269 Darəqutni, Sünən, III, 153.

[42] M4470 Müslim, Əqdiyə, 1.

əhəmiyyətinə diqqət çəkmişdi. Şikayətlərdə müşəxxəs bir dəlil,[43] şahid,[44] yaxud andı[45] şərt qoşardı. Bunlarla yanaşı məsələnin axirət yönünü xatırladaraq ədaləti təmin edərdi. Məsələn, haqsız yerə şikayət edən insanın o işdən əl çəkənə qədər Allahın qəzəbinə düçar olacağını bildirmişdi.[46] Başqa bir vaxt isə belə bir xəbərdarlıq etmişdi: *"Şübhəsiz ki, mən də bir insanam. Siz mənə problem və iddialarınızla müraciət edirsiniz. Ola bilər ki, hansınızsa öz dəlilini digərindən daha düzgün ifadələrlə izah etsin, mən də eşitdiklərimə əsasən onun lehinə hökm verim. Mən kimin lehinə qardaşının haqqından olan bir şeyə hökm versəm, o kəs onu qəbul etməsin. Çünki belə olan halda mən ona yalnız alovdan bir hissə vermiş oluram"*.[47]

Hüquqi davalarda bəzən axirətdəki nəticələrini xatırlatmaq tamamilə həzrət Peyğəmbərə məxsus bir metod idi. Çünki o, həm də bir peyğəmbər idi. Bu metodla o, çox konkret nəticələr əldə edirdi. Məsələn, miras münaqişəsinə görə həzrət Peyğəmbərə müraciət edən, lakin əllərində isbat etmək üçün heç bir dəlilləri olmayan iki nəfər bu sözləri eşidəndə hər biri digərinin lehinə öz haqqından əl çəkmək istəmişdi.[48]

Məsələn, bir dəfə Həzrəmövt bölgəsindən Rəbiə ibn İbdan ilə kindəli İmriul-Qeys ibn Abis əl-Kindi[49]

43 M359 Müslim, İman, 224.
44 D3621 Əbu Davud, Qəza (Əqziyə), 25.
45 B2515 Buxari, Rəhn fil-həzər, 6.
46 D3597 Əbu, Qəza (Əqziyə), 14; HM5385 İbn Hənbəl, II, 71.
47 B6967 Buxari, Hiyəl, 10.
48 D3584 Əbu, Qəza (Əqziyə), 7.
49 M359 Müslim, İman, 224.

Rəsulullahın yanına gəldilər. Rəbiə ibn İbdan: “Ey Allahın Rəsulu! Bu adam atamdan qalan torpağımı əlimdən aldı” – dedi. Sonra İbn Abis əl-Kindi: “O mənim torpağımdır, hal-hazırda mənim əlimdədir və onu mən əkib-becərirəm. Bu torpaqda onun heç bir haqqı yoxdur” – dedi. Həzrət Peyğəmbər Rəbiə ibn İbdandan: *“O torpağın sənə aid olduğuna dair bir dəlilin var?”,* – deyə soruşduqda o: “Xeyr”, – deyə cavab verdi. *“Elə isə sadəcə and içə bilərsən (başqa bir yolu yoxdur)”* – buyurdu. Rəbiə: “Bu adam açıq-aşkar günah işləməkdən qorxmayan bir adamdır. Nəyə and içdiyinin onun üçün heç bir əhəmiyyəti yoxdur, çünki heç bir şeydən qorxub çəkinmir” – deyəndə həzrət Peyğəmbər: *“Bundan başqa əlimdən bir şey gəlməz”* – buyurdu. İbn Abis əl-Kindi and içmək üçün (minbərin yanına tərəf) getdi. Arxasını çevirəndə Rəsulullah (s.ə.s.) *“Diqqətli olun! Haqsız yerə bir mala sahib olmaq üçün and içən kəs, şübhəsiz Allah-Təalanın hüzuruna Allah ondan üz çevirmiş halda çıxacaqdır”* – buyurdu.[50] Bunu eşidən İbn Abis əl-Kindi: “Ərazi onundur” – deyə etiraf etdi.[51]

Rəsuli-Əkrəmin hökm verdiyi və lazımi qərarları tətbiq etdiyi məsələlər təkcə iki tərəf arasındakı şikayətlər deyildi. İctimai hüquq sayılan və dinə görə qadağan edilmiş davranışlar icra edilərkən də yenə Rəsulullah (s.ə.s.) hakimlik edirdi.[52] Həzrət Peyğəmbər sorğu-sual əsnasında bir hakim kimi rəftar edir,

[50] D3245 Əbu Davud, Nüzur, 1.
[51] D3245 Əbu Davud, Nüzur, 1.
[52] M4440 Müslim, Hüdud, 28; M4410 Müslim, Hüdud, 8; B6777 Buxari, Hüdud, 4; ən-Nur, 24/4; əl-Maidə, 5/33-34.

hökm verərkən isə hər zaman ədalət prinsipini qoruyurdu. Heç bir vaxt hökmü insana görə dəyişdirməzdi. O, hər işində olduğu kimi, ictimai və insan hüququ ilə birbaşa əlaqəli olan məsələlərdə də heç vaxt insanlar arasında ayrı-seçkilik etməzdi. Oğurluq edən nüfuzlu bir qadının bağışlanması üçün Üsamə ibn Zeydin vasitəçilik etməsi buna verilən məşhur bir nümunədir.[53]

Həzrət Peyğəmbər (s.ə.s.) hər münaqişənin də məhkəmə məsələsinə çevrilməsini doğru hesab etmirdi.[54] İnsanların öz aralarında danışıb həll edə biləcəkləri mövzuların məhkəmə səviyyəsinə çıxarılmasının tərəfdarı deyildi. O, insanların öz aralarında danışıb halallaşmasını istəyirdi. Çünki ona görə münaqişə məhkəmə həddinə çatdırılanda məsələ artıq iki nəfər arasındakı bir hadisə olmaqdan çıxıb ictimaiyyəti maraqlandıran bir mahiyyət qazanırdı. Hər davranışı müsəlmanlar üçün bir nümunə olan həzrət Peyğəmbər belə hallarda lazımlı şəkildə davranırdı. Məsələn, bir nəfər Səfvan ibn Ümeyyənin xirqəsini oğurlamışdı. Günahkarı Rəsulullahın (s.ə.s.) hüzuruna apardılar. Rəsulullah (s.ə.s.) adamın günahı aşkarlandıqdan sonra əlinin kəsilməsini əmr etdi. Günahkara verilən cəzanı eşidəndə Səfvan belə bir işə səbəbkar olmamaq üçün: “Ey Allahın Rəsulu! Mən şikayətimi geri götürürəm” – dedi. Rəsulullah (s.ə.s.) isə: *“Ey ! Kaş ki, adamı hüzuruma çıxarmamışdan əvvəl*

[53] M4410 Müslim, Hüdud, 8.
[54] N4776 Nəsai, Qəsamə, 20-21.

*geri çəksəydin!"* – buyurdu və verdiyi cəzanı tətbiq etdirdi.[55]

Bu nümunə Peyğəmbərimizin dövründə məhkəmə işlərinin qurumlaşmağa başladığını da göstərir. Münaqişələrin həll edilməsi məsələsi artıq insanlar arasında baş verən hadisələr olmaqdan çıxmış, məhkəmə fəaliyyətinin müəssisələri qurulmağa başlamışdı. Hətta müəyyən dövrdən sonra ölkənin sərhədləri genişlənmiş, buna görə də həzrət Peyğəmbər hakimlər təyin edərək məhkəmə işlərinin yerində həll edilməsini təmin etmişdi. Tərəflər buralarda alınan qərarlardan razı qalmadıqda yenə ona müraciət edirdilər. Buna görə də həzrət Peyğəmbər bugünki mənada apelyasiya işini öhdəsini götürürdü.[56]

Allah Rəsulu bütün həyatını fərd və cəmiyyətin əmin-amanlığına, dünya və axirət səadətinə həsr etmişdi. O, şəffaf, hesabı verilə bilən, hüquq və ədalətə əsaslanan, legitimliyini xalqın razılığından alan idarəetmə fikrini bundan neçə əsr əvvəl həyata keçirməyə və bəşəriyyətə bir model təqdim etməyə çalışmışdır. Bütün səyi hüquqların qorunması və hüququn üstünlüyünün təmini olmuşdur.

[55] N4883 Nəsai, Qət'us-sariq, 4; HM15379 İbn Hənbəl, III, 401.
[56] BS16863 Beyhəqi, əs-Sünənul-kübra, VIII,175.

# DUYĞULU VƏ HƏSSAS PEYĞƏMBƏR

Rəsuli-Əkrəmin həzrət Xədicədən dünyaya gələn oğulları Qasım və Abdullah hələ körpə ikən Məkkədə əbədi aləmə köçmüşdülər. Onların vəfatından sonra bu dəfə Mariyadan bir oğlu olmuşdu.[1] Bu sevincli xəbəri alan Allah Rəsulu: "*Bu axşam bir oğlum dünyaya gəldi, ona əcdadım İbrahimin adını qoydum*" – demişdi.[2] Onun böyüyüb boya-başa çatmasını, soyunu davam etdirməsini istəyirdi. İbrahim əmizdirilmək üçün Mədinədən aralı məhəllələrdə yaşayan Bəra ibn Övs adında bir dəmirçinin xanımı olan süd anası Ümmü Seyfə verilmişdi. Allah Rəsulu bəzən yeganə oğluna baş çəkməyə gedər, onunla oynayar, öpüb qoxlayardı.[3]

[1] TB2/214 Təbəri, Tarix, II, 214.
[2] M6025 Müslim, Fəzail, 62.
[3] ST1/136 İbn Səd, Təbəqat, I, 13; B1303 Buxari, Cənaiz, 43; M6026 Müslim, Fəzail, 63.

Rəsulullah yaxşı qidalanmaları üçün Mariya və İbrahimə də bir neçə dəvə və qoyunun südünü ayırmışdı. Yaxşı qidalanan İbrahimin dərisi düzəlmiş, bədəni ağarmış, hətta atasına oxşamağa başlamışdı.[4] Artıq on yeddi yaxud on səkkiz aylıq olmuş, tam sevimli hala gəlmişdi. Lakin bir gün qəflətən xəstələndi. Onun xəstələndiyini eşidən Rəhmət Elçisi dostlarından Əbdürrəhman ibn Övf ilə birlikdə sevimli övladına baş çəkməyə getmişdi. İbrahimin xəstəliyi daha da ağırlaşmış və can verməyə başlamışdı. Uşaqlara qarşı çox mərhəmətli və şəfqətli olan Peyğəmbərimizin gözləri dolmuşdu.[5] Onun bu halını görən səhabələr: "Sən ağlayırsan ey Allahın Rəsulu! Sənin ağladığını görən müsəlmanlar da ağlayacaq!" – deyərək təəccüblərini bildirəndə Nəbi (s.ə.s.) *"Göz yaşarar, qəlb kədərlənər, lakin biz ancaq Rəbbimizin razı olacağı kəlmələr söyləyərik..."*[6] *"Bu, mərhəmətdir və mərhəmət etməyənə mərhəmət olunmaz. Mən insanların ancaq qışqırıb bağıraraq ölən insanın arxasınca yas tutmalarını qadağan etdim"*, – deyə cavab verdi. İbrahim ruhunu təslim edəndə isə belə buyurmuşdu: *"Əgər əhatəedici bir söz, gediləcək bir yol olmasaydı və sonra gedən əvvəl gedənə qovuşmasaydı indi müxtəlif şeylər fikirləşəcəkdik. Ey İbrahim! Həqiqətən biz sənin üçün kədərliyik"*.[7]

Daha sonra Rəhmət Peyğəmbəri dostlarına: *"Mən oğluma (son dəfə) baxmamış onu kəfənləməyin!"*

4 ST1/137 İbn Səd, Təbəqat, I, 137.
5 B1303 Buxari, Cənaiz, 43.
6 M6025 Müslim, Fəzail, 62.
7 MA6672 Əbdürrəzzaq, əl-Müsənnəf, III, 552; M6026 Müslim, Fəzail, 63.

– buyurmuşdu. Balaca İbrahim yuyulub kəfəninə sarılanda Peyğəmbərimiz (s.ə.s.) onun yanına gəldi və onun üstünə qapanıb təkrar ağladı.[8]

Səhabələr ölənlər üçün qışqırıb bağıraraq, üz-gözünü, üst-başını cıraraq yas saxlamaq yaxud mərsiyə oxumağın qadağan edilməsinin ağlamağı da əhatə etdiyini zənn etmişdilər. İnsanlara başlarına gələn bəlalara səbr göstərməyi, ilahi təqdirə razı olmağı tövsiyə edən bir peyğəmbərin öz oğlu vəfat edərkən göz yaşı tökməyərək səbr edəcəyini fikirləşirdilər. Həzrət Peyğəmbər isə bu hadisə ilə hər şeydən əvvəl bir insan olaraq və ata şəfqətilə yeganə oğlundan ayrılmağın kədərini yaşayır, digər tərəfdən isə bir Rəsul olaraq ümmətinə doğmaları vəfat edərkən necə hərəkət edəcəklərini öyrədirdi. Kədərin, ağlamağın və yas saxlamağın da dərəcə və miqdarının olduğunu öyrədirdi.

Bəli, Rəsulullah ağlayırdı. Çünki o da bir insan idi, hissləri var idi. Ata idi, səfqətli idi. Onun da bir ürəyi var idi və yanırdı. Gözləri var idi, kədərlənəndə yaşlar süzülürdü. Peyğəmbər idi, rəhmət elçisi idi, mərhəmət sahibi idi.

Buna oxşar bir səhnə ilə qızı Zeynəbdən olan Ümeymə adlı nəvəsinin vəfatında təkrar üzləşmişdi Rəhmət Peyğəmbəri.[9] Nəvəsi üçün sonsuz bir baba şəfqətilə gözlərindən yaşlar süzülən Peyğəmbərimiz

8 İM1475 İbn Macə, Cənaiz, 13.
9 HM22122 İbn Hənbəl, V, 204.

(s.ə.s.) bir tərəfdən də: “*Alan da Allah, verən də Allahdır və hər şeyin müəyyən bir müddəti var!*” – buyuraraq başda qızı Zeynəb olmaqla ətrafındakıları təsəlli edir və belə deyirdi: “*Bu, bir rəhmətdir ki, Allah onu istədiyi bəndələrinin qəlblərinə qoyar. Allah bəndələrindən mərhəmətli olanlara mərhəmət edər!*”[10]

Həssas bir insan olan Rəhmət Elçisi təkcə öz oğlu, yaxud nəvəsi üçün deyil, səhabələrindən digər çox insan üçün də göz yaşı tökmüşdü. Məsələn, ibadət və itaətə çox düşkün olan Osman ibn Məzunun cansız cəsədini öpəndə göz yaşları yanaqlarını islatmışdı.[11]

Abdullah ibn Ömərin rəvayət etdiyinə görə Səd ibn Übadə xəstələnmiş və Peyğəmbər (s.ə.s.) bəzi dostları ilə birlikdə ona baş çəkməyə getmişdilər. Sədin yanına daxil olanda bütün ailəsi onun ətrafında toplanmışdı. Rəsulullah: “Səd öldümü?” – deyə soruşanda oradakıların “Xeyr, ey Allahın Rəsulu, ölmədi” deməsinə baxmayaraq həzrət Peyğəmbər hisslərini cilovlaya bilməyib ağlamışdı. Həzrət Peyğəmbərin ağladığını görəndə oradakılar da ağlamışdılar.[12]

Rəhmət Elçisinin hisslərini göstərən göz yaşlarının səbəbi bəzən kədər, bəzən mərhəmət, bəzən həsrət, bəzən də ümməti üçün hiss etdiyi narahatlığı və qorxusu idi. Dostlarından Abdullah ibn Əmrin nəql etdiyinə görə Rəsulullah (s.ə.s.) dövründə günəş tutulmuşdu. Allah Rəsulu (s.ə.s.) namaz qılmaq üçün ayağa durdu, orada olanlar da qalxıb namazı qıldılar. Namazın hər iki rəkatında da qiyam, rüku, səcdə və

[10] B5655 Buxari, *Mərza*, 9; M2135 Müslim, *Cənaiz*, 11.
[11] D3163 Əbu Davud, *Cənaiz*, 35-36; T989 Tirmizi, *Cənaiz*, 14.
[12] B1304 Buxari, *Cənaiz*, 44; M2137 Müslim, *Cənaiz*, 12.

oturuşunun hər birini çox uzatdı. İkinci rəkatın səcdəsində bir tərəfdən dərin nəfəs alır, digər tərəfdən də ağlayırdı. O əsnada isə belə deyirdi: "*Mən aralarında ikən bunu mənə vəd etməmişdin! Biz səndən bağışlanma istəyəndə bunu mənə vəd etməmişdin!*" Namazını qılıb qurtardıqdan sonra başını qaldırdı, günəş açılmışdı. Namazdan sonra ayağa durub insanlara xitab etdi. Allaha həmd edib Onu mədh etdikdən sonra belə buyurdu: "*Günəş və ay, Uca Allahın (varlığını və birliyini göstərən) dəlillərdəndir. Ay və günəşdən hər hansı birinin tutulduğunu görsəniz Uca Allahı zikr etməyə (namaz qılmağa) tələsin. Canımı əlində tutan Allaha and olsun cənnət mənə o qədər yaxınlaşdırıldı ki, əlimi uzatsam meyvələrindən qopara bilərdim. Cəhənnəm də o qədər yaxınlaşdırıldı ki, sizi hər tərəfinizdən dövrəyə alacağından qorxub Allaha sığındım...*"[13]

O, bir ata olmaqla yanaşı həm də Allahın Rəsulu idi. Buna görə də yeganə oğlu İbrahimin öldüyü gün meydana gələn günəş tutulması ilə bu ölüm arasında əlaqə quranların olduğunu eşidəndə belə bir xütbə verməyin faydalı olacağını anlamış və "Ay ilə günəşin hər hansı bir insanın həyatına və ya vəfatına bağlı olaraq tutulmayacağını" ifadə etmişdi.[14]

Bir insan olaraq həzrət Peyğəmbərin digər insanlar kimi bəzən həyəcanlandığı, nigaran olduğu hallar da müşahidə edilmişdir. Həzrət Əbu Bəkrin qızı Əsmanın rəvayət etdiyinə görə bir gün günəş tutulanda həzrət Peyğəmbər narahat olmuş və tələsdiyindən

[13] N1483 Nəsai, Küsuf, 14; D1194 Əbu Davud, İstisqa, 9.
[14] B1043 Buxari, Küsuf, 1; M2102 Müslim, Küsuf, 10.

xanımının geyimini götürmüşdü. Bunu görən kimi onun öz libasını gətirib vermişdilər.[15]

Hava buludlu olanda, yaxud külək güclənəndə Allah Rəsulu narahat olur və bu nigarançılığı onun üzündən məlum olurdu. Bir dəfə həzrət Aişə “Ey Allahın Rəsulu! İnsanlar bulud görəndə yağış yağacaq ümidi ilə sevinirlər. Sənin isə onu görəndə narahat olduğunu üzündən oxuyuram!” demişdi. Bunu eşidən Rəsulullah (s.ə.s.) belə buyurmuşdu: *“Ey Aişə, bunda bir əzab olmadığı haqqında kim mənə zəmanət verə bilər? Bir qövm (Ad qövmü) küləklə həlak edilmişdi. Onlar (əslində) əzaba baxırmışlar ancaq (ümidlənərək) “Bu bizə yağış gətirəcək bir buluddur*” demişdilər”.[16]

Ənəs ibn Malikin rəvayət etdiyinə görə Rəsulullah (s.ə.s.) insanların ən gözəli, ən səxavətlisi və ən cəsuru idi. Bir gecə Mədinə əhalisi şiddətli bir səs ilə oyanmış və hamı çox qorxmuşdu. Səsin gəldiyi tərəfə doğru gedən bəzi insanlar onlardan əvvəl gedən Rəsulullahın geri qayıtdığını gördülər. Əbu Təlhənin yalın bir atına minib, qılınc boynunda: “*Qorxmayın! Qorxmayın!*” – deyirdi.[17]

Buna baxmayaraq bir insan olaraq həzrət Peyğəmbər bəzi vaxtlar narahat olaraq qorunmağa ehtiyac hiss etmiş və səhabə tərəfindən qorunmuşdu.[18] Məsələn, Mədinəyə gələndə bir gecə yata bilməmiş və: “*Kaş ki, səhabələrimdən yaxşı və cəsur biri bu gecə məni qorusaydı!*” – demiş, bir az sonra silahı ilə gələn

[15] M2108 Müslim, Küsuf, 16.
[16] M2086 Müslim, İstisqa, 16.
[17] M6006 Müslim, Fəzail, 48.
[18] HM19847 İbn Hənbəl, IV, 405.

Səd ibn Əbu Vəqqas onun başı üzərində durub keşik çəkmiş və beləcə, həzrət Peyğəmbər yata bilmişdi.[19]

Rəsulullahın xüsusiyyətlərini çox yaxşı bilən və onun şəmailini nəql edən səhabələrdən Hind ibn Halənin rəvayət etdiyinə görə Allah Rəsulu rahat və keyfinə düşkün bir insan deyildi, həmişə kədərli və fikirli idi. Səssiz bir təbiəti var idi. Lazımsız və boş yerə danışmazdı.[20] Hindin bu sözləri Peyğəmbərimizin kefinə düşkün, laqeyd biri olmadığını, əksinə, onun zəngin duyğulara sahib olduğunu və ümumiyyətlə dərin bir təfəkkür içərisində olduğunu göstərir.

O, heç bir vaxt bir kənara çəkilib durmamışdı. Əziyyət çəkən insanların dərdlərini ürəyinin dərinliklərində hiss etmiş, onlara daim səbri təlqin edərək dözmələrinə kömək etmişdi. Əzab, cəfa və işgəncənin adiləşdiyi Məkkədə təbliğin ilk illərində səhabələri ilə birlikdə o da müxtəlif əziyyətlərə məruz qalmışdı. İki-üç ilə yaxın davam edən mühasirə illərinə səhabələri ilə birlikdə sinə gərmişdi. Aclığı, qorxunu, hicrəti və nəhayət müharibələri onlarla birlikdə yaşamış, xəndəyi birlikdə qazmışdı. Həssas bir şəxsiyyət olan Rəhmət Elçisi zəif, yoxsul, gücsüz şəxslərə, kölə və cariyələrə xülasə bütün səhabələrinə qarşı çox mərhəmətli idi. Onun bu xüsusiyyətini Uca Allah belə ifadə etmişdir: *“Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə (məşəqqətə) düşməyiniz ona ağır gəlir, o sizdən (sizin iman gətirməyinizi) hər*

19

20 TŞ226 Tirmizi, Şəmail, 97.

*şeydən və hər kəsdən çox arzu edir, möminlərə şəfqətli, mərhəmətlidir!*"[21]

Allah Rəsulunun ən bariz vəsflərindən biri də onun Rəhmət Peyğəmbəri olmasıdır. Uca Allah onu ancaq aləmlərə rəhmət olaraq göndərmişdir.[22] Belə ki, müşriklərə bəddua etməsi istəndikdə: "*Mən lənət oxuyan olaraq göndərilmədim, rəhmət olaraq göndərildim!*" buyurmuşdu.[23]

Allah Rəsulunun həssas olduğunu göstərən başqa bir xüsusiyyət də onun çox həyalı olması idi. Onun bu yönünü Əbu Said əl-Xüdri belə təsvir etmişdir: "Həzrət Peyğəmbər (s.ə.s.) örtüyünə bürünmüş gənc bir qızdan daha həyalı idi. Xoşuna gəlməyən bir şey görəndə bunu üzündən oxumaq olurdu".[24]

Bəzi hadisələrə görə həzrət Peyğəmbərin əsəbiləşdiyi, qəzəblənib əhvalının pozulduğu vaxtlar da olurdu. Səhabə çox vaxt onun hiddətləndiyini üzündən hiss edərdi.[25] Belə ki, Rəsulullah (s.ə.s.) özünün də bir insan olduğunu, hamı kimi onun da əsəbiləşə biləcəyini bildirmişdi. Bundan başqa əsəbiləşdiyi hallarda söz yaxud davranışı ilə qarşısındakı mömini incidəndə bu xoşagəlməz halların qiyamət günü onların Allaha yaxınlaşması, günahlardan arınması və rəhmət vəsiləsi olması üçün Rəbbinə dua etmişdi.[26] Ancaq onun belə davranışları az sayda və ya istisna, yaxud da çox nadir hallarda olurdu. Çünki Qur'anda

[21] ət-Tovbə, 9/128.
[22] əl-Ənbiya, 21/107.
[23] M6613 Müslim, Birr, 87.
[24] B6102 Buxari, Ədəb, 72; İM4180 İbn Macə, Zöhd, 17.
[25] B6336 Buxari, Də'əvat, 19.
[26] M6616, M6619 Müslim, Birr, 89, 90; B6361 Buxari, Də'əvat, 34.

*“(Ey Rəsulum!) Allahın mərhəməti səbəbinə sən onlarla (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün (Allahdan) bağışlanmaq dilə, işdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et!”*[27] buyurulur.

Həzrət Peyğəmbər ona edilən haqsızlıqlara səbir edərdi. Lakin məsələ Allah və bəndələrin hüququ məsələsi olanda daha həssas olur, hətta bunun qorunması üçün sərt rəftar edirdi. Bir dəfə Müaz ibn Cəbəl (r.ə.) namaz qıldıranda Bəqərə surəsini oxumuş, namazı çox uzatmışdı. Buna görə camaatdan ayrılıb namazını tək başına qılan bir şəxs sonra onu həzrət Peyğəmbərə şikayət etmişdi. Bunu eşidən Rəsulullah (s.ə.s.): *“Müaz, sən insanların səbrinimi sınayırsan!”*[28] – deyərək Müazı sərt şəkildə danlamışdı.

Lakin burada bunu da xatırlatmalıyıq ki, Rəsuli-Əkrəmin qəzəblənməsi də fərqli idi. Təbuk səfərində iştirak etmək üçün laqeyd davranan üç nəfərdən biri olan Kəb ibn Malik müharibədən qayıdan həzrət Peyğəmbərin hüzuruna çıxmışdı. Müharibədə iştirak etməməsinin səbəbini izah etmək üçün onun yanına gəlmiş, ona salam vermişdi. Həzrət Peyğəmbər ilə hadisədən sonra ilk qarşılaşdığı bu anı Kəb belə təsvir etmişdi: “Rəsulullah (s.ə.s.) mənə əsəbi halda təbəssüm etdi və “*Gəl!*” dedi...”[29]

[27] Ali-İmran, 3/159.
[28] M1041 Müslim, Səlat, 179.
[29] M7016 Müslim, Tövbə, 53; N732 Nəsai, Məsacid, 38.

Rəhmət Elçisi ən qəddar düşmənlərinə qarşı belə kin saxlamazdı. İstər Məkkədə, istərsə də Mədinədə olsun düşmənlərinin həlak olmasını deyil, daima hidayətə çatmalarını arzulamışdı. Məkkəni fəth etdiyi gün məkkəlilərdən intiqam almağı ağlının ucundan belə keçirməmişdi və onları azad etmişdi.[30] Həzrət Aişənin rəvayət etdiyinə görə "Rəsulullah (s.ə.s.) öz nəfsi üçün heç vaxt intiqam almazdı. Ancaq Allahın qoyduğu haramlar tapdandığı zaman Allah üçün intiqam alardı".[31]

Allah Rəsulunun həssas bir insan olduğunu göstərən başqa bir xüsusiyyəti də onun xanımlarına qarşı diqqət, qayğı və sevgisi idi. İlk xanımı olan həzrət Xədicəyə qarşı olan sevgisini onun vəfatından sonra da qoruyub saxlamış və həyatının sonuna qədər onu həmişə xeyirlə yad etmişdi. Hətta gənc xanımı olan həzrət Aişə aradan neçə il keçməsinə baxmayaraq həzrət Xədicəni yenə qısqanırdı.[32]

Sevimli xanımı həzrət Aişəyə atılan iftira (ifq) hadisəsində dildən dilə gəzən söz-söhbət bir insan olaraq həzrət Peyğəmbərə də təsir etmişdi. Məsələni dostları və qohumları ilə müzakirə etmiş, bir həyat yoldaşı olaraq çox çətin və narahat günlər keçirmişdi. Həzrət Aişəyə atılan bu pis böhtanın onunla hiç bir əlaqəsinin olmadığını isə yalnız nazil olan ayələr [33] vasitəsilə öyrənə bilmişdi.[34]

30 BS18785 Beyhəqi, əs-Sünənul-kübra, IX, 195.
31 B3560 Buxari, Mənaqib, 23; M6045 Müslim, Fəzail, 77.
32 B3821 Buxari, Mənaqibul-ənsar, 20; M6282 Müslim, Fəzailus-səhabə, 78.
33 ən-Nur, 24/11-21.
34 B4141 Buxari, Məğazi, 35; MA9748 Əbdürrəzzaq, əl-Müsənnəf, V, 410.

Təkidlə ondan müxtəlif dünya malları istədiklərinə görə xanımlarından inciyən həzrət Peyğəmbər bir çardağa çəkilmiş və iyirmi doqquz gün onlardan ayrı yaşamışdı. Nəhayət xanımlarının dünya mənfəəti ilə Allahın rizası və axirət arasında seçim etməsini istəyən ayələr nazil olduqdan sonra[35] xanımları öz səhvlərini başa düşmüş, peşman olaraq Allah və Rəsulunu seçmişdilər.[36]

Digər insanlar kimi həzrət Peyğəmbər də sevinər və şənlənərdi. Kəb ibn Malik: "Rəsulullah (s.ə.s.) sevinəndə üzü parlayar, sanki bir ay parçası kimi olurdu. Biz onun sevincini üzündən oxuyardıq" – demişdi.[37] Hərdən insanlarla münasibətində yumora yer verməkdən çəkinməyən Rəsulullah gözəl və səviyyəli zarafatlar edər, ancaq bunları edərkən də doğruluqdan ayrılmamağa diqqət yetirir,[38] zarafatına yalan qarışdırmazdı.[39] Daha çox söz oyunu şəklində məcazlı, kinayəli ifadələrdən ibarət və məntiqə əsaslanan zarafatlarını bəziləri başa düşməsə[40] də onun bu xasiyyətini bilən bəzi səhabələr onunla qarşılıqlı zarafatlaşardılar.[41] Lakin həzrət Peyğəmbərin bu xasiyyətini bilməyənlər onun zarafat etdiyini görəndə təəccüblənmiş və: "Ey Allahın Rəsulu! Sən də bizimlə zarafatlaşırsan?!" deyəndə o: "*Lakin mən yalnız*

35 əl-Əhzab, 33/28-34.
36 B4785 Buxari, Təfsir, (Əhzab) 4; B4786 Buxari, Təfsir, (Əhzab) 5; ST8/182 İbn Səd, Təbəqat, VIII, 182-187.
37 B3556 Buxari, Mənaqib, 23.
38 T1992 Tirmizi, Birr, 57.
39 HM8462 İbn Hənbəl, II, 341.
40 D4998 Əbu Davud, Ədəb, 84; TŞ241 Tirmizi, Şəmail, 105.
41 İM3443 İbn Macə, Tibb, 3.

*həqiqəti danışıram*"[42] – deyərək cavab vermişdi. Həzrət Peyğəmbər ilə səhabə arasındakı söhbət, məhəbbət və səmimi münasibətdən danışan Cabir ibn Səmurənin nəql etdiyinə görə Rəsulullah (s.ə.s.) səhər namazını qıldıqdan sonra günəş görünənə qədər namaz qıldığı yerdən durmazdı. Ancaq günəş doğduqdan sonra qalxardı. Bu arada səhabə onunla birlikdə oturub söhbət edər, məclisdə şeirlər oxuyar, cahiliyyə dövründə etdiklərini yad edər və gülərdilər, o da təbəssüm edərdi.[43]

Bəli, Allah Rəsulu da gülərdi, ancaq özündən gedəcək qədər qəhqəhə atmazdı. O, həmişə gülərüz idi və gülüşü də həmişə təbəssüm şəklində idi. Hətta bəzi səhabələr Rəsuli-Əkrəmin müxtəlif səbəblərə görə bir az çox gülümsədiyi anları "O qədər ki, azı dişləri göründü" şəklində təsvir etmişdilər.[44] Peyğəmbərimizi ən yaxından tanıyan həzrət Aişə onun gülümsəməsini belə nəql edir: "Mən Rəsulullahın (s.ə.s.) dilçəyi görünəcək qədər güldüyünü görməmişəm. O, ancaq təbəssüm edərdi".[45]

Həzrət Peyğəmbərin həyatından rəvayət edilən bu iqtibaslar açıq-aydın onu göstərir ki, bir bəşər olan Allah Rəsulu hissləri olan hər insan kimi hərəkət etmiş və fərqli hallarda hisslərini fərqli şəkildə bildirmişdir. Rəsulullahın hansı hallarda narahat yaxud qorxu hiss etdiyi, hansı hallarda əziyyət çəkdiyi və bu cür vəziyyətlərdə müsəlmanlar üçün

[42] T1990 Tirmizi, Birr, 57; HM8462 İbn Hənbəl, II, 341.
[43] M1525 Müslim, Məsacid, 286; ST2/372 İbn Səd, Təbəqat, II, 372.
[44] M461, M462 Müslim, İman, 308, 309.
[45] B4828 Buxari, Təfsir, (Əhqaf) 2; M2086 Müslim, İstisqa, 16.

necə nümunə olduğu əhəmiyyət kəsb edir. Rəhmət Peyğəmbəri bir kişi, bir ailə başçısı, bir lider və nəhayət bir Peyğəmbər olmasına baxmayaraq başına gələn hadisələr qarşısında çox təbii olaraq hiss etdiyi səmimi hisslərini ətrafındakı insanlardan gizlətməmiş əksinə, sağlam bir duyğu dünyasına sahib olma və hisslərinə hakim olmaq baxımından onlara örnək olmuşdur. Bu hal və davranışları ilə o, insanlara müsbət və mənfi hisslər qarşısında necə davranacaqlarını öyrətmişdir.

Verilən nümunələrdən Sevimli Peyğəmbərimizin hisslərini gizlətmədiyi başa düşülür. Hiss etdiklərini üzə vurmaqdan hətta münasib şəkildə yaşamaqdan və bunu da ətrafındakı insanlarla bölüşməkdən çəkinməmişdir. Xüsusən "Kişilər ağlamaz!" kimi kəlamların məşhur olduğu ənənəmizdə çox vaxt insanlar təbii hisslərini gizlətməyə məcbur olur. Gizlədilən hisslər isə müəyyən vaxtdan sonra ya gözlənilməz şəkildə aşkara çıxıraq bir çox problemlərə yol açar, yaxud müxtəlif mənəvi xəstəliklərin meydana çıxmasına səbəb olur. Halbuki, bu davranışları ilə yad edilən Peyğəmbərimiz (s.ə.s.) hisslərini gizlətməyə deyil, nəzarət altında saxlamağa, çox hissi və emosianal davranmağa deyil, həssas davranışlar nümayiş etdirməyə üstünlük vermişdi. Rəhmət Peyğəmbəri hər xüsusiyyəti ilə olduğu kimi hiss yönü və həssaslığı ilə də müsəlmanlara nümunə və rəhbər olmuşdur.

محمد ﷺ

# ŞÜKÜR EDƏN BİR QUL OLMAYIMMI?

Rəsulullahın əmisinin oğlu Abdullah ibn Abbas kiçik yaşlarında həzrət Peyğəmbərin hal, hərəkət və ibadətlərini öyrənmək məqsədilə onun yanında qalmağa çalışırdı. Həzrət Peyğəmbərin xanımlarından Meymunə də xalası olduğuna görə gecələr bəzən onların evində qalardı. Hələ on yaşında olanda öz-özünə "Mən Rəsulullahın gecələr namaz qılmağına yaxşıca baxacam" dedi və sonra da gördüklərini belə nəql etdi: "Rəsulullah ailəsi ilə bir müddət söhbət etdi. Sonra yatdı. Gecənin yarısı, yaxud gecə yarısından sonra oyandı.[1] Yuxusunu qaçırmaq üçün üzünü ovuşdurdu. Sonra Ali-İmran surəsinin son on ayəsini oxudu. Sonra divara asılmış kiçik su tulumunu götürüb dəstəmaz aldı. Sonra namaz qılmağa başladı. Mən də durdum, onun kimi dəstəmaz aldım sonra da namaz qılmaq üçün sol tərəfinə keçdim. Allah

[1] B7452 Buxari, Tövhid, 27.

Rəsulu əlini başımın üstünə qoydu. Qulağıma toxunaraq məni sağ tərəfinə keçirdi”. Balaca Abdullahın rəvayət etdiyinə görə o gecə Peyğəmbərimiz (s.ə.s.) altı dəfə iki rəkat, axırda isə tək rəkat olmaqla cəmi on üç rəkat namaz qılmışdı. Sonra olduğu yerə uzanıb bir müddət dincəlmiş, müəzzin azan oxuyanda bir az tələsik iki rəkat da namaz qıldıqdan sonra sübh namazını qıldırmağa getmişdi.[2]

İbadətləri öyrəndiyim ilk rəhbərdir Rəsuli-Əkrəm. Onun kimi namaz qılmaq,[3] onun kimi oruc tutmaq,[4] o necə həcc etmişsə elə həcc etmək,[5] onun oxuduğu kimi Qur’an oxumaq,[6] xülasə onun kimi ibadət etmək arzusu vardır hər mömində. Abdullah ibn Abbas nümunəsində olduğu kimi əsri-səadətdə bu arzuda olan səhabələr Rəsuli-Əkrəmi ibadət edərkən izləməkdən yaxud onun ibadət həyatı ilə maraqlanmaqdan çəkinmirdilər. Çünki *“Mənim necə namaz qıldığımı görürsünüzsə elə namaz qılın”*,[7] *“Həcc ibadətinin vaciblərini (məni müşahidə edərək) öyrənin”*[8] buyuran bir peyğəmbərin ümməti onun ibadət həyatına laqeyd qala bilməzdi.

[2] B4570 Buxari, Təfsir, (Ali-İmran) 18; M1791 Müslim, Müsafirin, 184.
[3] TŞ281 Tirmizi, Şəmail, 123.
[4] TŞ300 Tirmizi, Şəmail, 133.
[5] M2950 Müslim, Həcc, 147.
[6] HM26983 İbn Hənbəl, VI, 286.
[7] B631 Buxari, Azan,18.
[8] M3137 Müslim, Həcc, 310.

Gənc səhabə Zeyd ibn Xalid də Peyğəmbərimizin gecə namazını öyrənmək istəyənlərdən idi. Bir səfər əsnasında gözlədiyi fürsət əlinə düşmüş, Allah Rəsulunun çadırının kənarından onun necə namaz qıldığına baxmışdı.[9] Hicrətin doqquzuncu ilində müsəlman olan Əsəd oğulları qəbiləsi içərisindən seçilən və İslamı öyənmək məqsədilə Mədinəyə gələn on nəfərlik heyətin içərisində olan Vabisə ibn Məbəd də [10] yeni iman etdiyi Peyğəmbərinin necə namaz qıldığını öz gözləri ilə görüb öyrənmək istəyənlərdən idi. Bir dəfə Rəsulullahı namaz qılarkən görmüş və diqqətlə onu seyr etmiş "Rükuda belini elə dümdüz tuturdu ki, əgər üstünə su tökülmüş olsaydı orada (tökülmədən) qalardı"[11] deyərək onun namaz qılma şəklindən bir hissəni göstərmişdi.

Həzrət Peyğəmbərin hər hal və hərəkətini şəxsən yaşayaraq nəql etməyi həyat tərzinə çevirən gənc səhabə İbn Ömər Peyğəmbərimizin bu yönünü də həssaslıqla həyatına nəqş edirdi. Buna görə də çox saydakı rəvayətdə "İbn Ömər belə edərdi, belə ibadət edərdi"[12] şəklində rəvayətlər əslində bir mənada həzrət Peyğəmbərin ibadət tərzini göstərirdi.

Allah Rəsulu şəxsən özü də ibadət həyatını insanlara başa salır və öyrədirdi. Səhl ibn Sədin şahid olduğuna görə Rəsuli-Əkrəm ənsarlı bir qadına dülgər

[9] MU266 Muvatta, Səlatul-leyl, 2; D1366 Əbu Davud, Tətəvvü', 26.
[10] Dİ62/340 İbn Əsakir, Tarixu Diməşq, LXII, 340; ZE4/323 Zəhəbi, Tarixul-İslam, IV, 323.
[11] İM872 İbn Macə, İqamət, 16.
[12] HM4452 İbn Hənbəl, II, 3; HM4460 İbn Hənbəl, II, 3.

olan köləsindən onun üçün yulğun ağacından bir minbər düzəltdirməyi əmr etmiş, minbər hazırlandıqdan sonra da üzərində iki rəkat namaz qılaraq ətrafındakı insanlara: "*Ey insanlar! Bunu ancaq mənə tabe olmağınız və namaz (qılış)ımı öyrənməniz üçün göstərdim*" – buyurmuşdu.[13]

Yenə İslamın hökmlərini öyrənmək məqsədilə Leys oğullarından altı nəfərlik[14] gənc bir qrup[15] həzrət Peyğəmbərin yanına gəlmiş və yanında təxminən iyirmi gecə qalmışdılar. Allah Rəsulu bu müddət ərzində onlara: "*Mənim necə namaz qıldığımı görürsünüzsə siz də elə namaz qılın. Namaz vaxtı gələndə aranızdan biri sizin üçün azan oxusun. Ən böyüyünüz də sizə imam olsun (namaz qıldırsın)*" – demişdi.[16] Allah Rəsulu bir müddət sonra gənclərin ailələri üçün darıxdığını görəndə "*(Yurdunuza) qayıdın onların yanında olun və onlara da (burada öyrəndiklərinizi) öyrədin...*" tövsiyəsi ilə onları geri göndərmişdi.[17] Bu tövsiyəni tutanlardan Malik ibn Hüveyris (yaşadığı Bəsrədə) sırf insanlara Peyğəmbərimizin necə namaz qıldığını göstərmək və öyrətmək üçün məsciddə namaz qılmışdı.[18]

Rəsuli-Əkrəmin ibadət həyatında "gözümün nuru" dediyi namazın[19] xüsusi bir yeri var idi. İnsanlara ilahi həqiqətləri çatdırma vəzifəsi həvalə edildikdən

[13] B917 Buxari, Cümə, 26.
[14] EÜ5/16 İbnul-Əsir, Üsdul-ğabə, V, 16.
[15] B685 Buxari, Azan,49.
[16] B631 Buxari, Azan,18; B7246 Buxari, Əxbarul-ahad, 1.
[17] B628 Buxari, Azan,17.
[18] B824 Buxari, Azan,143.
[19] N3391 Nəsai, İşratun-nisa, 1.

dərhal sonra digər peyğəmbərlər kimi[20] o da namaz qılmaqla əmr olunmuşdu. Peyğəmbərimizin öz oğlu kimi yaxın olduğu azadlı köləsi Zeyd ibn Harisənin nəql etdiyinə görə vəhyin nazil olduğu ilk dövrdə Cəbrail (ə.s.) onun yanına gəlib dəstəmazı və namazı ona öyrətmişdi.[21]

Həzrət Peyğəmbər və müsəlmanlar ilk vaxtlar namazlarını iki rükət qılırdılar.[22] Məkkədə müşriklərin təzyiqi davam etdiyi üçün[23] namazlarında Qur’anı bacardıqca səssiz oxuyur[24] və namazlarını çox vaxt ilk müsəlmanlardan Ərkam ibn Əbul-Ərkama aid olan və Darul-Ərqam olaraq tanınan evdə qılırdılar.[25] Məscidi-Haramın çevrəsində, Səfa təpəsinin yamacında yerləşən bu evi özü üçün təbliğ və təlim məskəni seçən Allah Rəsulu burada bir yandan səhabələrə dini məlumatlar öyrədir, digər yandan isə ilahi həqiqəti axtaran insanları İslama dəvət edirdi. Təzyiqlərin davam etdiyi bu müddətdə Peyğəmbərimizi Kəbənin yaxınlığında namaz qıldığını görən müşriklər ona pis söz və davranışlarla mane olur və narahat etməkdən çəkinmirdilər.[26] Hətta Rəsuli-Əkrəm bir dəfə onu boğmaq istəyən Üqbə ibn Əbu Muayt adlı müşrikin hücumundan həzrət Əbu Bəkrin köməyi ilə xilas ola bilmişdi.[27] Müsəlmanlar Kəbədə camaatla birlik-

[20] əl-Ənbiya, 21/73.
[21] HM17619 İbn Hənbəl, IV, 162.
[22] B3935 Buxari, Mənaqibul-ənsar, 48.
[23] əl-Ələq, 96/9-10.
[24] M1001 Müslim, Səlat, 145.
[25] BH1/457 Hələbi, əs-Sirətul-Hələbiyyə, 1/457.
[26] B240 Buxari, Vüzu, 69.
[27] B3856 Buxari, Mənaqibul-ənsar,29.

də yalnız həzrət Ömər İslamı qəbul etdikdən sonra namaz qıla bilmişdilər.[28]

Müsəlmanların çox çətin günlər yaşadığı bu dövrdə Müzzəmmil surəsinin başındakı ayələrlə gecə namazı (təhəccüd) fərz qılındı.[29] Bunun üzərinə Peyğəmbərimiz və səhabələr bir il boyu gecə namazına qalxdılar. On iki ay sonra yenə bu surənin sonundakı gecə namazının məcburiliyini yox edən yüngülləşdirici ayə nazil olmuş[30] və artıq gecə namazı fərz olmaqdan çıxmış və nafilə namaz olmuşdu. Ancaq Allah-Təala Rəsuli-Əkrəmə xas olaraq təhəccüd namazını həyatı boyunca ona fərz əmr etmişdi.[31]

Beş vaxt namaz isə hicrətdən il yarım əvvəl, Merac gecəsində fərz buyurulmuşdu.[32] Namazların qılınma şəkli də Cəbrail (ə.s.) tərəfindən Peyğəmbərimizə öyrədildi.[33] Beləliklə, əvvəllər iki rükət olaraq qılınan namazların fərzləri dörd rükət oldu.[34] Fərz namazlarla birlikdə qılınan sünnə və nafilə namazları isə möminlərin anası həzrət Aişədən soruşanda belə cavab vermişdi: "Rəsulullah mənim evimdə günortadan əvvəl dörd rükət (nafilə) namaz qılar, sonra məscidə gedib camaata namaz qıldırır, arxasınca (təkrar evinə) gəlib iki rükət (nafilə) da qılardı. Camaata işanı qıldırdıqdan sonra (evinə) gəlib iki rükət

28 HS2/186 İbn Hişam, Sirət, II, 186.
29 əl-Müzzəmmil, 73/1-4.
30 əl-Müzzəmmil, 73/20; M1739 Müslim, Müsafirin, 139.
31 əl-İsra, 17/79.
32 M431 Müslim, İman, 279.
33 B3221 Buxari, Bədul-xalq, 6.
34 B3935 Buxari, Mənaqibul-ənsar, 48.

da (nafilə) qılardı… (Səhər) Dan yeri ağaranda da iki rükət (nafilə) qılardı”.[35]

Allah Rəsulu gecə namazına çox əhəmiyyət verirdi. Həzrət Aişə bu namazlarından “Qıldığı namazların gözəlliyini və uzunluğunu soruşma!”[36] deyərək danışardı. Vitr namazını da gecə namazının axırında qılardı. Gecənin bir hissəsində oyanar, dişlərini təmizləyər, dəstəmaz alar və vitr daxil olmaqla on üç, on bir[37] və yaxud beş rəkat[38] namaz qılardı. Əgər yuxu yaxud bədənindəki ağrıya dözməyib gecə namazını qıla bilmirdisə bunun əvəzinə gündüz on iki rəkat namaz qılardı.[39] Həzrət Aişə Peyğəmbərimizin gecə ibadətini belə təsvir edirdi: “Allahın Peyğəmbərinin (s.ə.s.) nə bir gecədə Qur’anı əvvəldən axıra qədər oxuduğunu, nə bir gecə səhərə qədər namaz qıldığını, nə də Ramazan ayından başqa bir ayı tam oruc tutduğunu gördüm”.[40]

Həzrət Peyğəmbər gecə namazında ayaqları şişənə qədər qiyamda durar,[41] uzun uzadı və sözbəsöz Qur’an oxuyardı.[42] Bəzən gecə boyunca bir ayəni təkrar edərək namaz qılardı.[43] Əbu Zər əl-Ğifarinin nəql etdiyinə görə Peyğəmbərimiz bir gecə namazında səhərə qədər “*Əgər onlara əzab versən, şübhə yoxdur ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, yenə*

[35] M1699 Müslim, Müsafirin, 105.
[36] B3569 Buxari, Mənaqib, 24.
[37] B4570 Buxari, Təfsir, (Ali-İmran) 18; M1739 Müslim, Müsafirin, 139.
[38] D1357 Əbu Davud, Tətəvvü’, 26.
[39] N1790 Nəsai, Qiyamul-leyl, 64.
[40] N2350 Nəsai, Siyam, 70; M1739 Müslim, Müsafirin, 139.
[41] B6471 Buxari, Riqaq, 20.
[42] M1712 Müslim, Müsafirin, 118; T373 Tirmizi Səlat, 158.
[43] T448 Tirmizi Səlat, 212; TŞ277 Tirmizi, Şəmail, 122.

*şübhə yoxdur ki, Sən yenilməz qüvvət sahibi, hikmət sahibisən*"[44] ayəsini təkrarlamışdı.[45]

Rəsuli-Əkrəm bir insanın əlli ayə oxuyacağı qədər uzun müddət səcdə edərdi.[46] Bəzi gecələr namazını uzun müddət ayaq üstə duraraq qılar, bəzi gecələr isə oturaraq qılardı. Qiraəti ayaq üstündə oxuyanda ayaq üstündə rüku və səcdə edər, oturarkən oxuyanda oturduğu yerdən rüku və səcdə edərdi.[47] Ancaq vəfatına yaxın vaxtlarda nafilələri oturaraq qılmağa başlamışdı.[48] Hətta məsciddə namaz qıldığı yerdə üstündə duracağı əsaya bənzər bir dirəkdən istifadə edərdi.[49] Bir dəfə də atdan düşərək sağ tərəfini zədələmiş və bu zədəyə görə namazlarını bir müddət oturaraq qıldırmalı olmuşdu.[50]

Həzrət Peyğəmbərin (s.ə.s.) gündəlik olaraq qılmağa çalışdığı nafilə namazlardan başqa hər gün olmasa da bəzi xüsusi gün və vaxtlarda qıldığı namazlar da var idi. Onun bu ibadətləri haqqında həzrət Aişə belə deyir: "Rəsulullah (s.ə.s.) insanların bir ibadəti daimi yerinə yetirərək sünnə qəbul edər və beləliklə, bu ibadət onlara fərz qılınar qorxusu ilə bəzən nafilə ibadətləri tərk edər, insanlara asan olan şeyləri etməyi sevərdi".[51] Məsələn, Ramazanda İşa namazının arxasınca uzun-uzun vitir namazı da daxil

[44] əl-Maidə, 5/118.
[45] İM1350 İbn Macə, İqamətus-Salavat, 179.
[46] B994 Buxari, Vitir, 1.
[47] M1699 Müslim, Müsafirin, 105.
[48] M1712 Müslim, Müsafirin, 118; T373 Tirmizi Səlat, 158.
[49] D948 Əbu Davud, Səlat, 172-173.
[50] M921 Müslim, Səlat, 77.
[51] MA4867 Əbdürrəzzaq, əl-Müsənnəf, III, 78.

olmaqla on bir rəkat namaz qılardı.[52] Onun Ramazanda gecə namazını camaatla qıldığı vaxtlar da olurdu.[53] Ancaq vəhyin hələ də nazil olmağa davam etdiyi bir şəraitdə insanların nafilə namaz qılmağa olan həvəslərinin bu nafilə namazların fərz qılınmasına gətirib çıxaracağına və beləcə, ümmətinin gücü çatmayacağı bir yükün altına girəcəyi barədə narahatlığı onu bu namazı daima məsciddə camaatla qılmaqdan çəkindirmişdi.[54]

Peyğəmbərimizin fərz kimi qəbul edilməməsi üçün bəzən bilərək tərk etdiyi nafilə namazlardan biri də düha (quşluq) namazı idi.[55] Sübh namazından sonra günəş doğana qədər məsciddən çıxmayan Peyğəmbərimiz namaz qılmağın məkruh sayıldığı bu vaxtlarda[56] dostları ilə söhbət edər,[57] günəş tam çıxdıqdan sonra isə düha namazı qılardı. Düha namazını bəzən iki,[58] bəzən dörd rükət qılar, istəyəndə isə rükətlərin sayını artırırdı.[59] Onun hətta səfərdə də düha namazını mütləq qıldığı rəvayət edilmişdir.[60] Belə ki, Məkkənin fəthi günü səkkiz rükət namaz qılmış,[61] hər iki rükətdan bir salam vermişdir.[62]

52 B2013 Buxari, Salətut-təravih, 1.
53 N1607 Nəsai, Qiyamul-leyl, 4; HM18592 İbn Hənbəl, IV, 273.
54 B7290 Buxari, İtisam, 3; M1825 Müslim, Müsafirin, 213.
55 MU361 Muvatta, Qasrus-salət, 8; T477 Tirmizi, Vitr, 15.
56 B586 Buxari, Məvaqitus-salət, 31.
57 M1525, M1526 Müslim, Məsacid, 286-287.
58 T550 Tirmizi, Cümə, 41.
59 M1663 Müslim, Müsafirin, 78.
60 D1222 Əbu Davud, Səfər, 7.
61 B1103 Buxari, Təksirus-salət, 12.
62 D1290 Əbu Davud, Tətəvvü', 12.

Allah Rəsulu bu namazlardan başqa müxtəlif səbəblərlə nafilə namaz qılardı. Məsələn, məscidə girəndə məscidi salamlamaq mənasına gələn iki rükət "təhiyyətul-məscid" namazı qılar və səhabələrinə də bu namazı tövsiyə edərdi.[63] Yenə bir səfərdən qayıdanda əvvəlcə məscidə gələr və iki rükət namaz qılardı.[64] Peyğəmbərimiz (s.ə.s.) sevindirici və xoş xəbər eşidəndə yaxud bir nemət əldə edəndə Rəbbinə şükür etmək üçün iki rükət namaz qılar[65] yaxud şükür səcdəsi edərdi.[66] Quraqlıq kimi çətin dövrlərdə də yağış duası üçün namazgaha gedib cübbəsini tərs çevirərək dua etdikdən sonra iki rükət namaz qılardı.[67] Yenə günəş və ay tutulması əsnasında namaz qılaraq Allaha sığınardı.[68]

Rəhmət Elçisi dəstəmaz aldıqdan sonra iki rükət nafilə namaz qılmağı tövsiyə edərdi.[69] O, xüsusi bir ehtiyacı olan insanın Rəbbinə dua edəcəyi zaman gözəlcə dəstəmaz alıb iki rükət namaz qılmasını, ondan sonra dua etməsini,[70] hər hansı bir işdə qərarsız qalan insanın iki rükət namaz qılıb sonra istixarə (xeyirli olanı istəmə) duası oxumağı tövsiyə etmişdi.[71] Günahlarından tövbə etmək istəyənləri də iki rükət

[63] B444 Buxari, Səlat, 60; M1654 Müslim, Müsafirin, 69.
[64] B3088 Buxari, Cihad, 198.
[65] İM1391 İbn Macə İqamətus-saləvat, 192.
[66] İM1392 İbn Macə, İqamət, 192.
[67] M2073 Müslim, İstisqa, 4; B1012 Buxari, İstisqa, 4.
[68] B1042 Buxari, Küsuf, 1; B184 Buxari, Vüzu, 37.
[69] M538 Müslim, Təharət, 3.
[70] T479 Tirmizi, Vitr, 17; İM1384 İbn Macə, İqamət, 189.
[71] B1162 Buxari, Təhəccüd, 25.

namaz qılaraq Allahdan bağışlanma diləməyə sövq etmişdir.[72]

Həzrət Peyğəmbərin ibadət həyatında oruc ibadətinin xüsusi bir yeri var idi. Allah Rəsulu hələ orucun fərz qılınmadığı zamanlarda Məkkədə ikən Məhərrəm ayının onuncu günündəki aşura orucunu tutardı. Cahiliyyədə Qüreyş qəbiləsi də bu orucu tutardı. Rəsulullah Mədinəyə hicrət edəndə aşura orucu tutmuş[73], hətta Mədinədə yəhudilərin Musa Peyğəmbərin dininə uyaraq oruc tutduqlarını eşidəndə: "*Biz Musaya daha çox layiqik və ona daha yaxınıq*" – deyərək müsəlmanların aşura günü oruc tutmalarını əmr etmişdi.[74] Ancaq hicrətin ikinci ilində Ramazan orucunun fərz qılınmasından sonra aşura orucunu tutmaq insanların istəyinə bağlandı.[75]

Həzrət Peyğəmbər həyatı boyunca doqquz Ramazanı oruclu keçirmişdi. Ramazanın hər gecəsi Cəbrail (ə.s.) Rəsulullahın yanına gələr Peyğəmbərimiz də o vaxta qədər nazil olmuş ayələri oxuyaraq Qur'anı ona ərz edərdi.[76] Müqabələ ənənəmiz də məhz bu ərz hadisəsinə əsaslanır. Allah Rəsulu sonralar "təravih" adlandırılacaq olan nafilə namazlarla Ramazan gecələrini canlandırır,[77] Qədr gecəsi olma ehtimalı olan gecələri xüsusən ibadət edərək keçirər, ailəsini də buna sövq edərdi.[78]

[72] HM47 İbn Hənbəl, I, 9.
[73] B3831 Buxari, Mənaqibul-ənsar, 26.
[74] B2004 Buxari, Sövm, 69.
[75] M2641 Müslim, Siyam, 116.
[76] B1902 Buxari, Sövm, 7.
[77] D1371 Əbu Davud, Şəhru Ramazan, 1; B1129 Buxari, Təhəccüd, 5.
[78] M2787 Müslim, İtikaf, 7; D1376 Əbu Davud, Şəhru Ramazan, 1.

Bir dəfə Ramazanın sonuna yaxın günlərdə iftar etməyərək iki günün orucunu birləşdirmiş yəni visal orucu tutmuşdu. Bəzi səhabələrin də belə etdiklərini görəndə bunun yalnız ona xas olduğunu bildirmişdi.[79]

Peyğəmbərimiz Ramazanın son on günündə məsciddə itikafa girər və ibadətlə məşğul olardı. Bir Ramazandan başqa[80] digər bütün Ramazanlarda itikafa girmiş, hər il on gün davam edən itikafı vəfat edəcəyi il iyirmi gün davam etmişdi. O il Ramazanda Cəbrailə Qur'ani-Kərimi iki dəfə ərz etmişdi.[81]

Rəsuli-Əkrəm Ramazan ayında verilən sədəqənin daha üstün olduğunu söyləyər,[82] özü də bu ayda səxavətliliyin zirvəsində olurdu.[83]

Allah Rəsulu fərz olan Ramazan orucundan başqa nafilə olaraq Məhərrəm (Aşura)[84], Şaban[85] və Rəcəb aylarında[86] oruc tutmağa çox əhəmiyyət verərdi. Ancaq o, Ramazan ayından başqa heç bir ayı əvvəlindən axırına qədər tam oruc tutmamışdı.[87] Allah Rəsulunun bir ayı "tam şəkildə" oruclu keçirdiyi haqqındakı rəvayətləri isə[88] ayın "çox hissəsi" olaraq başa düşmək daha doğrudur.[89]

[79] B7241 Buxari, Təmənni, 9; M2570 Müslim, Siyam, 59.
[80] M2781 Müslim, İtikaf, 2; B2041 Buxari, İtikaf, 14.
[81] İM1769 İbn Macə, Siyam, 58.
[82] T663 Tirmizi, Zəkat, 28.
[83] B1902 Buxari, Sövm, 7.
[84] T754 Tirmizi, Sövm, 50; D2429 Əbu Davud, Siyam, 55.
[85] T736 Tirmizi, Sövm, 37; N2354 Nəsai, Siyam, 70.
[86] M2726 Müslim, Siyam, 179.
[87] M1739 Müslim, Müsafirin, 139.
[88] İM1649 İbn Macə, Siyam, 4.
[89] T737 Tirmizi, Sövm, 37.

Peyğəmbərimiz bundan başqa Şəvval ayının altı günü[90], qəməri ayların "Əyyamı-biyz" adlanan on üç, on dörd və on beşinci günlərində[91] və Zilhiccə ayının doqquz gününü[92] oruc tutardı. Ancaq yəqin ki, çətinlik və halsızlıq olacağını nəzərə alaraq Zilhiccənin doqquzuncu günü Arafatda oruc tutmamışdı.[93] Rəsuli-Əkrəm çox vaxt bazar ertəsi və cümə axşamları oruc tutmağa üstünlük verirdi.[94] Bəzən isə bir ayın şənbə, bazar və bazar ertəsi günlərini, digər ayın çərşənbə axşamı, çərşənbə və cümə axşamları oruc tutardı.[95] Bazar ertəsi günü oruc tutmasının səbəbini izah edərkən: "*Mən o gün dünyaya gözlərimi açdım və mənə vəhy ilk dəfə o gün nazil oldu*" – buyurmuşdu.[96]

Allah Rəsulunun Mədinəyə hicrət etməsindən sonra fərz buyrulan ibadətlərdən biri də zəkat idi. Uca Allah zəkatı əvvəlki peyğəmbərlərin çoxuna da əmr etmişdi.[97] Zəkatla əlaqədar əsas hökmlərin Rəbbimiz tərəfindən qoyulmasına baxmayaraq[98] Allah Rəsulu həm aldığı vəhyi, həm də içərisində yaşadığı cəmiyyətin sosial/ictimai və iqtisadi şərtlərini nəzərə alaraq zəkatla əlaqədar nizam-intizamı özü tərtib etmişdi. Möminlərə zəkatın kimlərə veriləcəyini,[99] zə-

[90] M2758 Müslim, Siyam, 204.
[91] N2347 Nəsai, Siyam, 70.
[92] D2437 Əbu Davud, Siyam, 61.
[93] M2632 Müslim, Siyam, 110.
[94] D2451 Əbu Davud, Siyam, 69.
[95] T746 Tirmizi, Sövm, 44.
[96] M2750 Müslim, Siyam, 198.
[97] əl-Ənbiya, 21/72-73.
[98] D1630 Əbu Davud, Zəkat, 24.
[99] ət-Tovbə, 9/60; D1630 Əbu Davud, Zəkat, 24.

kat veriləcək malları,[100] zəkatın şərtlərini,[101] miqdarını[102] və zəkat vermə ədəbini[103] Sevimli Peyğəmbərimiz öyrətmişdi. İnanan insanları zəkat verməyə sövq etmiş[104], zəkat verməyənləri isə müxtəlif şəkillərdə xəbərdar etmişdi.[105] Digər tərəfdən Uca Allah tərəfindən qənimətlərin beşdə biri Allah Rəsulunun şəxsinə və qohum-əqrabasına ayrılmışdı.[106] Ancaq əxlaqi, siyasi və dini həssaslıqlara görə Rəsuli-Əkrəmin nə özü, nə də ailəsi qətiyyən zəkat və sədəqə almamış və yeməmişdilər.[107]

Mədinəyə hicrətin doqquzuncu ilində Uca Allah *"...Onun yoluna (ərzaq, minik, və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısındakı borcudur..."*[108] ayəsilə müsəlmanlara həcci fərz buyurmuşdu. O il müsəlmanların müşriklərlə münasibətləri yaxşı olmadığı üçün ilk ili özü həccə getməyən Allah Rəsulu ikinci il səhabələri ilə birlikdə həcc ibadətini yerinə yetirmişdi. Ancaq onun hicrətdən sonrakı bu ilk həcci həmçinin onun son həcci olacaq[109] Vida Həccindən üç ay sonra "Ən Uca Dostum" dediyi[110] Rəbbinə qovuşacaqdı. Allah Rəsulu dörd dəfə də ümrə etmişdi. Bunlardan həcc ilə birlikdə etdiyi ümrəsindən başqa

[100] M2263 Müslim, Zəkat, 1; N2475 Nəsai, Zəkat, 18.
[101] T631 Tirmizi, Zəkat, 10.
[102] T620 Tirmizi, Zəkat, 3; DM1662 Darimi, Zəkat, 7.
[103] B1426 Buxari, Zəkat, 18.
[104] B1429 Buxari, Zəkat, 18; İM1842 İbn Macə, Zəkat, 28.
[105] M2300 Müslim, Zəkat, 30; T3012 Tirmizi, Təfsirul-Qur'an, 3.
[106] əl-Ənfal, 8/41.
[107] B1491 Buxari, Zəkat, 60; M2476 Müslim, Zəkat, 162.
[108] Ali-İmran, 3/97.
[109] T815 Tirmizi, Həcc, 6.
[110] B6348 Buxari, Də'vat, 29.

digərlərini həmişə Zilqədə ayında yerinə yetirmişdi. Bu ümrələr Hüdeybiyədən qayıdarkən etdiyi ümrə, sonrakı il etdiyi ümrə, Hüneyn qənimətlərini bölüşdürdüyü yer olan Ciranədən yola çıxaraq etdiyi ümrə və Vida Həcci ilə birlikdə etdiyi ümrədir.[111]

Həzrət İbrahimdən qalan bir sünnə[112] və ibadət olaraq qurbanın da Allah Rəsulu üçün ayrı bir əhəmiyyəti var idi. Rəsulullah qurban kəsmək istəyəndə kök, qoşa buynuzlu və ala-bula iki qoç alar, bunlardan birini Allahın birliyinə və onun peyğəmbər olduğuna şəhadət edən ümmətinin adından, digərini isə özünün və ailəsinin adından kəsərdi.[113] Qurbanların kəsilmə mərhələsini gözəl şəkildə yerinə yetirmələri və heyvana əziyyət etməmələri üçün insanları tənbeh etmiş,[114] şəxsən özü də buna görə bıçağını itilətdirmişdi.[115]

Peyğəmbərimiz (s.ə.s.) bayram namazlarını musalla olaraq adlandırılan açıq və geniş bir ərazidə əda edər, əvvəlcə bayram namazını qılar,[116] arxasınca da bayram xütbəsini oxuyardı.[117]

Allah Rəsulunun ibadət həyatında həm çox sayda ibadətin əvəzsiz bir parçası, həm də təkbaşına bir ibadət olan Qur'an oxumaq böyük bir əhəmiyyətə sahib idi. Bu müqəddəs Kitab ona vəhy olunmuş və o da bütün həyatını Qur'anı oxuyub ona münasib bir

[111] B1780 Buxari, Ümrə, 3.
[112] İM3127 İbn Macə, Əzahi, 3; HM19498 İbn Hənbəl, IV, 368.
[113] İM3122 İbn Macə, Əzahi, 1.
[114] M5055 Müslim, Sayd, 57.
[115] M5091 Müslim, Əzahi, 19.
[116] M2045 Müslim, İdeyn, 2.
[117] M2052 Müslim, İdeyn, 8.

həyat tərzi yaşamağa həsr etmişdi. Qur’an Allah Rəsulunun ən böyük möcüzəsi idi.[118] Allah Rəsulu hər gün müntəzəm olaraq Qur’andan bir bölüm (hizb) oxuyar, bacardıqca bunu davam etdirərdi.[119] Oxumaq üçün münasib bir vaxt və məkan axtarmaz, nə olursa olsun Qur’an oxuyardı. Qur’an oxumaq üçün cənabət halından başqa heç bir şey ona mane ola bilməzdi.[120] Qur’an oxuyarkən uzatma hərflərini gözəlcə uzadar,[121] hər bir ayənin axırında bir az fasilə verir,[122] sözbəsöz və aydın şəkildə oxuyardı.[123] Qur’an oxuyarkən Ona (s.ə.s.) qulaq asanlar onun səsinə və oxuyuşuna heyran olurdular.[124] Allah Rəsulu Qur’ana başqalarının ağzından qulaq asmağı da çox sevərdi, bəzən qulaq asdığı ayələrin təsiri ilə gözyaşlarına hakim ola bilməzdi.[125]

İbadət şüuru ən yüksək səviyyədə bir “insan” olan Allah Rəsulunun ibadət həyatında unutmaq, səhv etmək, gücü çatmamaq kimi bəşəri hallar da olurdu. Bir müharibədən qayıdarkən yorulduğu üçün səhabələri ilə birlikdə yatıb qaldıqları üçün sübh namazını qıla bilməmiş[126], bir dəfə isə namazda oxuduğu ayələri qarışdırmışdı.[127] Bir dəfə isə namazın rükətlərinin sayında səhv etmiş,[128] bir namazında isə

[118] B7274 Buxari, İtisam, 1.
[119] İM1345 İbn Macə, İqamət, 178; HM16266 İbn Hənbəl, IV, 9.
[120] D229 Əbu Davud, Təharət, 90; N266 Nəsai, Təharət, 171.
[121] D1465 Əbu Davud, Vitr, 20; B5045 Buxari, Fəzailul-Qur’an, 29.
[122] D4001 Əbu Davud, Huruf və qiraət, 1.
[123] N1023 Nəsai, İftitah, 83; D1466 Əbu Davud, Vitr, 20.
[124] B7546 Buxari, Tövhid, 52.
[125] B5050 Buxari, Fəzailul-Qur’an, 33.
[126] B344 Buxari, Təyəmmüm, 6.
[127] HM15967 İbn Hənbəl, III, 471.
[128] B714 Buxari, Azan,69.

öskürək tutduğu üçün dözə bilməyib qiraətini yarımçıq kəsərək rükuya getmişdi.[129] Onun ibadət həyatı bütün bu bəşəri hallarla birlikdə asanlıqla tətbiq edilən və nümunə götürülən bir mahiyyətə sahib idi. Buna görə də onun peyğəmbərliyinə baxaraq "O kim, biz kim!" deyərək ümidsizliyə düşənlərə ibadət məntiqini başa salaraq onu nümunə götürməyin kifayət edəcəyini bildirmişdi.[130] Bu barədə fəqih səhabə Abdullah ibn Məsudun mənalı bir sözü vardır: "Sünnəyə görə hərəkət edib mötədil olmaq, sünnə olmayan (bidət) işlərdə lazımsız yerə səy göstərməkdən daha xeyirlidir".[131]

Həzrət Peyğəmbərin bütün ibadətləri əsnasında tərk etmədiyi əsas prinsiplər var idi. Bunların başında ixlas və səmimiyyət gəlirdi. Buna görə ibadətlər yalnız Uca Allah üçün edilir[132] və əvəzi də yalnız Ondan istənir. İbadətlərini yerinə yetirərkən "Allahı görürmüşcəsinə"[133] yerinə yetirən ixlaslı insanlar haqqında Peyğəmbərimizin (s.ə.s.) verdiyi müjdə çox böyükdür: "*Kim Allaha tam və ixlaslı şəkildə şərik qoşmayaraq ibadət edər, namazını qılar və zəkatını verərsə bu dünyadan köçərkən Allahın rizasını qazanmış olaraq vəfat edər*".[134]

İxlas ona sahib olan insanı dərin bir xüşu və xaşyət duyğusuna sövq edər. Həzrət Peyğəmbəri namaz qılarkən görən Abdullah ibn Şixxir onun xüşu ilə

[129] HM15468 İbn Hənbəl, III, 411.
[130] B5063 Buxari, Nikah, 1.
[131] DM223 Darimi, Müqəddimə, 23.
[132] əl-Fatihə, 1/5.
[133] B50 Buxari, İman, 37.
[134] İM70 İbn Macə, Sünnə, 9.

etdiyi ibadəti belə təsvir edir: "Allah Rəsulunu (s.ə.s.) namaz qılarkən gördüm. O qədər ağlamışdı ki, sinəsindən dəyirman səsinə bənzər bir xırıltı eşidilirdi".[135] Bu hadisə başqa bir rəvayətdə belə təsvir edilmişdir: "Allah Rəsulu namaz qılarkən sinəsindən qaynayan qazanın qaynamasının səsinə oxşar bir ağlama səsi gəlirdi".[136] Namaz qılmaq üçün Rəbbinin hüzuruna çıxmaq Allah Rəsuluna bütün qəm-qüssəsini unutdururdu. Bəlkə də buna görə çətin işlə qarşılaşanda/dara düşəndə namaz qılar[137], ürəyi darıxanda isə gündə yüz dəfə istiğfar edərək Rəbbindən bağışlanma diləyərdi.[138]

Allah Rəsulunun gündəlik həyatında ən çox yer alan ibadətlərdən biri də zikr və dua idi. Həyat yoldaşı həzrət Aişənin də bildirdiyinə görə "O (s.ə.s.) həmişə Allahı zirk edərdi".[139] Gündəlik həyatda zikr etmək üçün hər fürsətdən istifadə edirdi. Paltarını geyinərkən,[140] dəvəsinə minərkən,[141] bir yoxuşu çıxarkən yaxud enərkən,[142] yatağına uzanarkən və yuxudan oyanarkən,[143] ayaqyoluna girərkən[144] və çıxarkən,[145] evdən çölə addım atarkən,[146] xülasə, hər fürsətdə dua edər, Allahı xatırlayardı. Zikr gün

[135] D904 Əbu Davud, Səlat, 156, 157; N1215 Nəsai, Səhv, 18.
[136] TŞ323 Tirmizi, Şəmail, 144.
[137] D1319 Əbu Davud, Tətəvvü', 22.
[138] M6858 Müslim, Zikr, 41.
[139] M826 Müslim, Heyz, 117.
[140] T1767 Tirmizi, Libas, 29.
[141] M3275 Müslim, Həcc, 425.
[142] D2599 Əbu Davud, Cihad, 72.
[143] B6312 Buxari, Də'əvat, 7.
[144] B142 Buxari, Vüzu, 9.
[145] D30 Əbu Davud, Təharət, 17.
[146] T3427 Tirmizi, Də'əvat, 35.

boyunca onun (s.ə.s.) dilində, qəlbində və zehnində idi. Yeməyə başlayarkən mütləq bismillah deyər[147], yeyib qurtardıqdan sonra da həmd və səna ilə şükür edərdi.[148] Gecə Allahı zikr edərək yatar[149], yenə Allahı zikr edərək oyanardı.[150]

Peyğəmbərimiz (s.ə.s.) hər bir iş üçün dua edər, səhabələrinə də: "*Hər biriniz ehtiyacını Allahdan istəyin, hətta qopan ayaqqabı bağını belə!*" – buyuraraq onları duaya təşviq edərdi.[151] Dua edəcəyi vaxt əvvəlcə özündən başlayar,[152] lakin duasının əhatəsini genişləndirirdi.[153] Çox vaxt da "Rəbbimiz! Bizə dünyada gözəllik, axirətdə də gözəllik ver və bizi cəhənnəm əzabından qoru" deyərək dua edərdi.[154] Namazlarını qıldıqdan sonra da dua edərdi. Salam verdikdən sonra əsasən üç dəfə istiğfar edər, sonra "Allahım, sən Səlamsın. Sağlıq və salamatlıq səndəndir. Ey cəlal və ikram sahibi! Sən mübarəksən" duasını oxuyardı.[155]

Allah Rəsulu insanlara ibadətlərində ifratdan uzaq olmalarını, mötədil və davamlı olmalarını tövsiyə edər, özü də ibadətlərini belə yerinə yetirərdi.[156] Bundan başqa iki işdən birini seçmək məcburiyyətində qalanda-günahdan uzaq olmaq şərtilə-onlardan

[147] B5376 Buxari, Ətimə, 2.
[148] B5458 Buxari, Ətimə, 54.
[149] B6319 Buxari, Də'əvat, 12
[150] B4570 Buxari, Təfsir, (Ali-İmran) 18.
[151] T3604-8 Tirmizi, Də'əvat, 132.
[152] T3385 Tirmizi Dəavat, 10.
[153] D1482 Əbu Davud, Vitr, 23.
[154] D1482 Əbu Davud, Vitr, 23.
[155] M1334 Müslim, Məsacid, 135; N1338 Nəsai, Səhv, 81.
[156] B1970 Buxari, Sövm, 52.

asan olanını seçərdi.[157] İnsanlara ibadətlərin çətinliklərini öyrətdiyi kimi asanlıqlarını da öyrədir, səyahət və xəstəlik kimi zəruri hallarda şəxsən özü də bu asanlıqlardan istifadə edərərək ibadətini asanlaşdırardı.[158]

Həzrət Peyğəmbərin xüsusən təhəccüd kimi nafilə ibadətlərinin əsasında "şükür edən bir bəndə olmaq" düşüncəsi və əzmi var idi. Onun bütün bu ibadətləri yerinə yetirməsi məcburiyyətdən yaxud günahlarının bağışlanmasına görə deyil, yalnız Rəbbinə şükür edə bilmək üçün idi. Çox qəribədir ki, özünü "şükür edən bir qul olmağa" həsr edən Allah Rəsulunun[159] ibadət həyatını öyrənənlərdən bəziləri onun ibadətlərinin az olduğunu fikirləşərək özlərini tamamilə ibadətə verməyə çalışmışdılar. Rəsuli-Əkrəm isə özü bir peyğəmbər olduğu halda gündəlik həyatın ehtiyac və həqiqətlərindən ayrılmayaraq ibadət etdiyini, onun (s.ə.s.) yolunun da bu olduğunu bildirərək bu insanları tənbeh etmişdir.[160]

Həzrət Peyğəmbər həyatı boyunca bütün mənalı davranış və sözlərini "ubudiyyət" yəni ibadət şüuru ilə etmişdi. Buna görə də təkcə namaz, oruc, həcc və zəkat kimi müəyyən ibadətləri deyil, Allaha, insanlara və cəmiyyətə qarşı sədaqət ehtiva edən bütün davranışları ibadət kimi dəyərləndirmişdi. Allah Rəsulunun dilində yoldan keçməyə mane olan bir daşı kənara qoymaq, bir insana minik vasitəsinə minərkən

[157] B3560 Buxari, Mənaqib, 23.
[158] M2610 Müslim, Siyam, 90; N2262 Nəsai, Siyam, 48.
[159] B1130 Buxari, Təhəccüd, 6.
[160] B5063 Buxari, Nikah, 1.

kömək etmək, namaza gedərkən atılan hər addım, gözəl söz sədəqədir.[161] Gülərüz olmaq, yaxşı işlərə sövq edib, pis işlərdən uzaqlaşdırmaq, yolunu azan insana yol göstərmək, əcnəbiyə yol göstərmək hərəsi bir sədəqədir.[162] Xülasə ibadət şüuru və Allah rizası üçün edilən bütün yaxşı və müsbət davranışlar sədəqə hökmündədir.[163]

Gündəlik həyatın tükənməz məşğuliyyətləri içərisində Uca Allahın mədhini qazanmaq üçün "nə ticarət, nə alış-verişin onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmadığı ərlərdən"[164] olmaq istəyənlər Peyğəmbərimizin hər namazın axırında oxumağı tövsiyə etdiyi bu duanı dillərindən əskik etməməlidirlər: "Allahım! Səni zikr etmək, sənə şükr etmək və sənə gözəl şəkildə ibadət etmək üçün mənə yardım et!"[165]

[161] M2335 Müslim, Zəkat, 56.
[162] T1956 Tirmizi, Birr, 36.
[163] M2328 Müslim, Zəkat, 52.
[164] ən-Nur, 24/37.
[165] D1522 Əbu Davud, Vitr, 26; N1304 Nəsai, Səhv, 60.

محمد

# TƏMİZ, SADƏ VƏ ZƏRİF PEYĞƏMBƏR

Allah Rəsulu (s.ə.s.) pərişanlığı, səliqəsizliyi və kirliliyi xoşlamaz, səliqəli, zövqlü və gözəl görünüşü bəyənərdi. Onun bu məsələdəki həssaslığını göstərən çox sayda nümunə var. Bir dəfə saçları pəjmürdə bir adamla qarşılaşmışdı. Rəsulun dodaqlarından "*Görəsən, bu (adam), saçlarını səliqəyə salmaq üçün bir şey tapmayıb?!*" sözləri süzülmüşdü. Üst-başı kirli bir insan gördükdə isə: "*Görəsən, bu (adam) libasını yuyacaq su tapa bilməyib?!*" demişdi.[1]

Peyğəmbərimiz (s.ə.s.) bir gün məsciddə ikən içəri saçı-başı pərişan bir adam girir. Rəsulullah (s.ə.s.) bayıra çıxıb üst-başını düzəltməsi üçün əli ilə adama işarə edir. Adam bayıra çıxıb üst-başını düzəldərək yenidən məscidə girir. Peyğəmbərimiz (s.ə.s.): "Şeytan kimi saçı-başı dağınıq

[1] D4062 Əbu Davud, Libas, 14.

gəlməkdənsə, belə daha yaxşı deyilmi?", – deyə soruşur.[2]

Yaşadığı dövrdən və şəraitdən asılı olmayaraq hər bir müsəlman öz imkanlarından düzgün şəkildə istifadə edərək gözə zərif və xoş görünən xarici görünüşdə olmaq məcburiyyətindədir. Əlbəttə, zərif və təmiz görünmək müsəlmanın vəzifələrindən yalnız biridir, ancaq çox mühümdür. Allahın Rəsulu işləyərkən də təmiz olmağın vacib olduğunu deyər, pal-paltara diqqət göstərilməsini istəyərdi. Belə ki, səhabələrlə Bəni Ənmar hərbinə çıxarkən heyvanlara baxmağı tapşırdığı insanı köhnə libasda görəndə yanında olanlardan həmin adamın əynindəkilərdən başqa bir paltarı olub olmadığını soruşmuşdu. Heybəsində əlavə libası olduğunu öyrənən Rəsulullah (s.ə.s.): "*Onu çağır, de ki, heybədəki paltarlarından birini geyinsin*" – demişdi. Çobanlıq edən səhabə heybədəki yaxşı vəziyyətdəki paltarlarından birini geydikdə Allah Rəsulu: *"Buna baxın! Allah köməyin olsun! Belə daha yaxşı deyilmi?"* – buyurmuşdu. Çoban: "Ey Allahın Rəsulu! Allah yolunda (hərbə gedərkən də belə geyinək)?" – deyəndə Rəsulullah: "*Bəli, Allah yolunda (hərb edərkən də)!*" – demişdi.[3]

Müharibə kimi bir xaosun içərisinə, can bazarına gedərkən belə gözəl paltar geyinməyi tövsiyə edən Sevimli Peyğəmbərimiz (s.ə.s.) əlbəttə ki,

[2] MU1739 Muvatta, Şə'r, 2.
[3] MU1654 Muvatta, Libas, 1.

müsəlmanların hansı şəraitdə olursa olsun baxımlı, gözə xoş görünən, təmiz, qibtə edilən insanlar olmasını arzu edirdi. Əmr və qadağaları vasitəsilə bir qismini bizim görə bilməyəcəyimiz hikmət və ictimai mənfəətləri qarşıya məqsəd qoyan Rəsulullahdan: "Ey Allahın Rəsulu! Allah yolunda (savaşa gedərkən də gözəl geyinək)?", – deyə soruşan həmin insan cihadda iştirak etmiş və şəhid olmuşdu.[4]

Bir dəfə səhabələrdən Malik ibn Nəzlə dağınıq üst-başla Allah Rəsulunun yanına gəldikdə də buna bənzər bir xəbərdarlıqla qarşılaşmışdı. Rəsulullah (s.ə.s.) ondan: *"Sənin sərvətin var*?", – deyə soruşmuş və "Bəli" cavabını almışdı. "*Nəyin var?*", – deyə soruşduqda Malik "Allah mənə dəvə, qoyun, at və xidmətçilər lütf etmişdir" şəklində cavab vermişdi. Bunu eşidən Allah Rəsulu: "Əgər Allah sənə sərvət vermişsə, elə isə Allahın nemət və səxavətinin əlaməti üstündə görünsün!" – buyurmuşdu.[5]

Allah Rəsulu həyatı boyunca fərqli rənglərdə – ağ,[6] qara,[7] yaşıl,[8] qırmızı[9] və sarı[10] paltarlar geyinmişdi. Lakin o, gözə çox batan rəngli paltarları sevməzdi.[11] Peyğəmbərimizin ən çox sevdiyi rəng ağ rəng idi. Bir dəfə: *"Libaslarınızdan ağ rəngli olanı*

4 MU1654 Muvatta, Libas, 1.
5 D4063 Əbu Davud, Libas, 14; T2006 Tirmizi, Birr, 62.
6 M273 Müslim, İman, 154.
7 M5445 Müslim, Libas və zinət, 36; T2813 Tirmizi, Ədəb, 49.
8 D4065 Əbu Davud, Libas, 16; T2812 Tirmizi, Ədəb, 48.
9 B5848 Buxari, Libas, 35; T1724 Tirmizi, Libas, 4.
10 D4064 Əbu Davud, Libas, 15.
11 T2807 Tirmizi, Ədəb, 45.

*geyin, çünki o, paltarlarınızın ən xeyirlisidir. Ölülərinizə də onu (ağ kəfən) geydirin"*[12] – buyurmuşdur.

Rəsuli-Əkrəm yaşadığı coğrafiyanın iqlim şərtlərinə, adət-ənənə və vərdişlərinə uyğun təbii, təmiz və sadə libaslar geyinər və səhabələrinə də belə geyinməyi tövsiyə edərdi. Hədis mənbələrinin qeyd etdiyi məlumatlara görə başına "başlıq" qoyar, üzərinə "sarıq" sarıyardı.[13]Əyninə geyindiyi libas "rida" adlanan üst[14] və "izar" adlanan alt hissədən ibarət idi.[15] Ən çox sevdiyi və üstünlük verdiyi paltar köynək idi.[16] Peyğəmbərimizin geyindiyi köynəklər bu gün geyindiyimiz köynəklərdən fərqli idi. Pambıqdan toxunan, yaxasız, önü bağlı, diz qapaqlarına qədər, bəzən daha da aşağıya qədər uzanan ağ kişi geyimi idi. O dövrdə həm qol hissələri biləklərinə qədər uzanan köynəklər, həm də[17] boyu və qolları qısa olanlar var idi.[18] Rəsuli-Əkrəmin bu geyim növünü çox sevməsinin səbəbi, ehtimal ki, həmin libasın o günün ənənəvi geyim tərzinə ən uyğunu olmaqla yanaşı sağlamlıq və iqlim şərtlərinə də uyğun olmasına bağlı idi.

Peyğəmbərimiz bəzi vaxtlarda köynəyinin üstündən "cübbə",[19] "əba",[20] "xirqə"[21] kimi qiyafətlər geyin-

[12] D4061 Əbu Davud, Libas, 13; T994 Tirmizi, Cənaiz, 18.
[13] D4078 Əbu Davud, Libas, 21; T1784 Tirmizi, Libas, 42.
[14] M2429 Müslim, Zəkat, 128.
[15] D4036 Əbu Davud, Libas, 5+; T1733 Tirmizi, Libas, 10.
[16] T1762 Tirmizi, Libas, 28; D4025 Əbu Davud, Libas, 3.
[17] D4027 Əbu Davud, Libas, 3.
[18] İM3577 İbn Mavə, Libas, 10.
[19] B2918 Buxari, Cihad, 90.
[20] M5612 Müslim, Adab, 22.
[21] B5809 Buxari, Libas, 18.

mişdir. Onun sevdiyi qiyafətlər arasında Yəməndə istehsal edilmiş bir növ xirqə də var idi.[22] İsti iqlimlərə çox da uyğun olmayan bu xirqə əsasən xətli olur, pambıqdan istehsal edilirdi.[23] Bundan başqa Rəsulullah (s.ə.s.) "kaftan"[24] və qara yundan toxunma üst paltarları da geyinərdi.[25] Bu, İslamın geyimdə bütün cəmiyyətlər üçün tək növ bir libası deyil, iqlim, ənənə və adətlərə görə fərqli geyim tərzini münasib gördüyünü göstərir. Əsas olan odur ki, paltar rahat, geniş, gözəl və ədəbə münasib olsun, israfa yol vermədən və təkəbbürdən uzaq geyinmək mümkün olsun.

Sevimli xanımı həzrət Aişə Peyğəmbərimizin naxışlı və qara rəngli paltarla namaz qıldığını xəbər vermişdi. Ancaq libasının naxışları diqqətini yayındırdığına görə Allah Rəsulu: "*Bunun naxışları məni məşğul edir, siz bunu ən yaxşısı Əbu Cəhmə verin, mənə isə onun ənbicaniyəsini (naxışsız, qalın və yun paltar) gətirin*" – buyurmuşdur.[26] Digər yandan Peyğəmbərimizin satıcıyla sövdələşərək bir şalvar aldığı da rəvayətlər arasında yer alır.[27]

Sevimli Peyğəmbərimiz coğrafi şərtlərə uyğun olaraq "nalın" adlanan açıq ayaqqabılar geyinərdi.[28] Rəsulullahın nalınları aşılanmış dəridən

[22] B5813 Buxari, Libas, 18; M5441 Müslim, Libas və zinət, 33.
[23] İF10/277 İbn Həcər, Fəthul-bari, X, 277.
[24] B5800 Buxari, Libas, 12.
[25] D4032 Əbu Davud, Libas, 5; M5445 Müslim, Libas və zinət, 36.
[26] B373 Buxari, Səlat, 14; M1238 Müslim, Məsacid, 61.
[27] D3336 Əbu Davud, Büyu', 7; İM3579 İbn Macə, Libas, 12; NS9670 Nəsai, əs-Sünənul-kübra, V, 482.
[28] B5851 Buxari, Libas, 37; M2818 Müslim, Həcc, 25.

hazırlanırdı.[29] Nalının ayaq barmaqları arasına keçən iki ədəd bağcığı vardı.[30] Bu bağcıqlar qarşı tərəfdən gön dabana bərkidilmiş, üst tərəfdən də ayaqqabının kəmərinə tikilmişdi. Rəsulullah (s.ə.s.) nalınlarla yanaşı Ərəb dilində "xüff" – adlandırılan ayaqqabılar da geyinmişdi. Hər nə qədər dilimizdəki mənası "məst" olsa da, "xüff"ün bu gün istifadə etdiyimiz məst olduğunu düşünmək doğru deyil. Çünki o, bu gün olduğu kimi çöl ayaqqabısının içinə geyinilən bir içlik deyil, müstəqil geyinilən bir ayaqqabı idi. Allah Rəsulunun geyindiyi məstlərdən bir cütünü də ona Həbəşistan kralı Nəcaşi hədiyyə etmişdi.[31]

Peyğəmbərimizin (s.ə.s.) ehtiyac duyulan hər cür məişət malları ilə yanaşı geyim-keçimdə də əsas prinsipi israf və təkəbbürdən uzaq olmaqdır. O, bunu ifadə etmək üçün: *"İsraf və təkəbbürdən çəkinərək yeyin, sədəqə verin və geyinin"*[32] – buyurmuşdu. Peyğəmbərimizin (s.ə.s.) geyimlə təkəbbürlənmək deyərkən nəzərdə tutduğu şey dinin təyin etdiyi əxlaq prinsiplərini nəzərə almayaraq, nümayiş etdirici paltarlar geyinərək insanları alçaltmaqdır. Belə ki, bir gün həzrət Peyğəmbər (s.ə.s.): "*Qəlbində zərrə qədər təkəbbür olan insan cənnətə girə bilməz*" – buyurmuş, bunu eşidən bir nəfər: "(Ancaq) hər insan paltarının və ayaqqabısının gözəl olmasını istəyər!" – dedikdə sözlərini belə izah etmişdir: "*Allah gözəldir, gözəlliyi*

[29] D4210 Əbu Davud, Tərəccül, 19; N5246 Nəsai, Zinət, 66.
[30] B5857 Buxari, Libas, 41; D4134 Əbu Davud, Libas, 41.
[31] D155 Əbu Davud, Təharət, 59; T2820 Tirmizi, Ədəb, 55.
[32] N2560 Nəsai, Zəkat, 66; B5783 Buxari, Libas, 1.

*sevər. Təkəbbür (isə) haqqı inkar etmək və insanları xor görməkdir."*[33]

Başqa bir vaxt Allah Rəsulu ərəblər arasında ətəyi yerlə sürünən kaftanların zənginlik və göstəriş məqsədilə geyinildiyinə diqqət çəkərək: *"Kim təkəbbüründən libasını yerdə sürüyərsə Allah qiyamət günü onun üzünə baxmaz"* – buyurmuşdu. Həzrət Əbu Bəkr: "Ey Rəsulullah, libasımın iki tərəfindən biri mütləq sallanır" – dedikdə həzrət Peyğəmbər (s.ə.s.) belə buyurmuşdu: *"Lakin sən bunu təkəbbürlənərək edənlərdən deyilsən."*[34]

Allah Rəsulu "şöhrət libası" adlandırdığı geyim şəklinə də etiraz etmişdi. Başqalarından fərqli olmaq və insanların diqqətini çəkmək məqsədilə geyinilən[35] libaslar şöhrət libası olduğu kimi, sanki dünyaya əhəmiyyət vermirmiş kimi görünüb zöhd və təqva nümayiş etdirərək yamaqlı geyinmək də belə adlanırdı.[36] Bu barədə həzrət Peyğəmbər (s.ə.s.): *"Kim şöhrət libası geyinərsə, qiyamət günü Allah ona zillət libası geyindirər"* – buyurmuşdu.[37]

Sevimli Peyğəmbərimiz libasın təmizliyilə yanaşı şərəf və izzətinə yaraşan olmasına da diqqət çəkmişdir. Bununla o, ətrafındakı insanların qəlbində və zehnində dərin iz qoymuşdur. Səhabələrdən Bəra ibn Azib Peyğəmbərimizin (s.ə.s.) geyimi ilə əlaqəli hiss etdiklərini: "Saçları çiyinlərinə düşmüş, qırmızı

33 M265 Müslim, İman, 147.
34 B5784 Buxari, Libas, 2.
35 AV11/50 Əzimabadi, Övnul-mə'bud, XI, 50.
36 MT8/221 Əli əl-Qari, Mirqatul-məfatih, VIII, 221.
37 İM3606 İbn Macə, Libas, 24; HM5664 İbn Hənbəl, II, 92 .

libasda Allah Rəsulundan (s.ə.s.) daha gözəlini görmədim"[38], – deyə dilə gətirərkən, Cabir ibn Səmurə: "Aylı bir gecədə Allah Rəsulunu (s.ə.s.) gördüm. Bir Rəsulullaha, bir də aya baxmağa başladım. Əynində qırmızı libas var idi, o anda mənim gözümdə Allahın Rəsulu aydan daha gözəl idi"[39] – demişdir. İbn Abbas həzrət Əli tərəfindən üsyankar bir qrupa elçi olaraq göndəriləndə ən gözəl libasını geyinərək vəzifəsinə yerinə yetirmək üçün getmiş, oradakılar bu libasının İslam geyim tərzinə uyğun olmadığını ima etdikdə isə: "Bu libasların ən gözəlini Allah Rəsulunun (s.ə.s.) əynində gördüm", – deyə cavab vermişdir.[40] Belə ki, Allahın Rəsulu bir gün ona hədiyyə göndərilən və baxanları heyran edən qızıl işləməli bir cübbə geyinmişdir.[41]

Tamamilə sevgi təzahürü və təbərrük anlayışından ibarət olan və həzrət Peyğəmbəri yemək, içmək və geyim də daxil olmaqla məişət işlərində olduğu kimi təqlid etməyə çalışan bəzi səhabələr xaric, digərləri öz zövq və istəklərinə görə sərbəst hərəkət edirdilər. Bu isə onların həzrət Peyğəmbərin geyim vərdişlərini onun nəbəvi yönünə deyil, bəşəri yönünə bağladıqlarının açıq-aşkar göstəricisidir.

Peyğəmbərimiz (s.ə.s.) yeni bir libas geyindikdə o libasının adını söyləyər və: "*Rəbbim, həmd sənədir, onu mənə sən geyindirdin. Səndən onun xeyirli olmasını və gözəl işlərdə istifadə edilməsini istəyirəm. Onun*

[38] T1724 Tirmizi, Libas, 4; M6065 Müslim, Fəzail, 92 .
[39] T2811 Tirmizi, Ədəb, 47.
[40] D4037 Əbu Davud, Libas, 5+.
[41] T1723 Tirmizi, Libas, 3; B5836 Buxari, Libas, 26.

*şərrindən və pis işlərdə istifadə edilməsindən də sənə sığınıram*" – deyərək dua edərdi.[42] Əshabi-kiram da yeni bir libas geyinən insana "(İnşallah bu libası) köhnəldənə qədər geyinərsən və Uca Allah sənə yenisini nəsib edər" şəklində arzusunu bildirərdi.[43] Bundan başqa həzrət Peyğəmbər yeni bir libas alıb köhnə libasını sədəqə verən insanı Allahın dünya və axirətdə qoruyacağı müjdəsini vermişdi.[44]

Həzrət Ömərin oğlu Abdullah (r.ə.) "Necə bir libas geyinim?" – deyərək soruşan bir nəfərə "Ağılsızların səni xor görməyəcəyi, ağıllıların da ayıblamayacağı bir libas geyin" şəklində cavab vermişdir.[45] Çünki geyim insanın həm özünə olan hörmətini, həm də digər insanlar qarşısındakı mövqeyini təyin etmək üçün mühüm rol oynayır. Buna görə də Peyğəmbərimiz (s.ə.s.), nəvəsi Həsənin də dediyi kimi "əldə etdiklərimizin ən yaxşısını geyinməyimizi və ən gözəl ətirlərdən istifadə etməyimizi" əmr etmiş,[46] özü də həyatının sonuna qədər buna uyğun davranaraq bizə nümunə olmuşdur.

[42] D4020 Əbu Davud, Libas, 1.
[43] D4020 Əbu Davud, Libas, 1.
[44] T3560 Tirmizi, Də'əvat, 107; İM3557 İbn Macə, Libas, 2.
[45] MZ8604 Heysəmi, Məcmə'uz-zəvaid, V, 135.
[46] BT1222 Buxari, ət-Tarixul-kəbir, I, 382.


محمد

# HƏZRƏT PEYĞƏMBƏRİN ƏŞYALARI

Hicri doqquzuncu il idi. Rəsulullah (s.ə.s.) Təbuk səfərindən qayıtmış, Məscidi-Nəbəviyə bitişik evinə gəlmişdi. İçəri daxil olduqda otağındakı rəfin üzərinə üstündə canlıların rəsmlərinin olduğu nazik bir pərdə salındığını gördü. Dərhal qəzəbləndi, üzünün rəngi dəyişdi və onu çəkib cırdı. Sonra üzünü həzrət Aişəyə tutub belə buyurdu: *"Qiyamət günü (öz düzəltdiklərini) Allahın yaratdıqlarına bənzətməyə çalışan insanlar Allah qatında ən şiddətli əzaba düçar olacaqlar."* Həzrət Peyğəmbərin qəti xəbərdarlığından sonra həzrət Aişə də örtünü kəsib ondan iki yer yastığı düzəltdi.[1] Daha sonra həzrət Peyğəmbər düzəldilən həmin yastıqların üstündə oturdu.[2]

[1] M5528 Müslim, Libas və zinət, 92; B5954 Buxari, Libas, 91; İF10/387 İbn Həcər, Fəthul-bari, X, 387.

[2] B2479 Buxari, Məzalim, 32; M5534 Müslim, Libas və zinət, 96 .

İslam dövləti tövhid inancı üzərində qurulmuşdu. Həzrət Peyğəmbər isə bütpərəstlikdən yenicə qurtulan insanların zehnlərindəki şirk izlərinin tamamən silinməsini istəyirdi. Bu həssaslığına görə də Allah Rəsulu üstündə canlıların rəsmləri olan örtü, divar xalçası və s. kimi əşyaların divarlara, tavanlara və rəflərin üstünə asılmasını qadağan etmişdi. Çünki o, insanların cahiliyyə inanclarını xatırlatma ehtimalı olan, onları əvvəlki düşüncələrinə yenidən sövq edə biləcək hər hansı bir şeyə əhəmiyyət verməsini və hörmət etməsini istəmirdi.

Həzrət Peyğəmbər (s.ə.s.) evlərdə istifadə olunan bəzi məişət əşyalarına görə narahat olur və onların atılmasını istəyirdi. Həzrət Aişənin anlatdığına görə həzrət Peyğəmbər (s.ə.s.) öz evində üstündə xristianların xaç şəkilləri olan şeyləri ya qırar, ya da üstündəki rəsmləri silərdi.[3]

Həzrət Peyğəmbər istifadə edilən əşyaların insanı mənəvi aləmdən uzaqlaşdıran, onlara daim maddi dünyanı xatırladacaq şəkildə və xüsusiyyətdə olmasını da münasib görməzdi. Möminlərin anası həzrət Aişə üstündə quş şəkli olan pərdələri olduğunu, onu qiblə tərəfdən asdıqları üçün otağa daxil olan insanın birbaşa qarşısına çıxdığını, buna görə Rəsulullahın (s.ə.s.) *"Ey Aişə, pərdəni dəyişdir. Çünki hər dəfə*

[3] B5952 Buxari, Libas, 90; D4151 Əbu Davud, Libas, 44.

*içəri girib onu gördükdə dünyanı xatırlayıram"* buyurduğunu bildirir.[4]

Dünyanın bir əmtəə, yəni müvəqqəti olaraq istifadə olunan bir yer olduğunu deyən həzrət Peyğəmbər[5] heç bir əşyaya və yaxud mal-mülkə lazım olduğundan artıq dəyər verməzdi. Dünya malının müvəqqəti və dəyərsiz olduğunu bu sözlərlə izah edərdi: *"Adəmoğlu 'Malım, malım!' deyər. Ey Adəm övladı! Görəsən, sənin yeyib-içdiyindən, geyinib köhnəltdiyindən və sədəqə verib (axirətdə əvəzini almaq üzrə) qabaqcadan göndərdiyindən başqa malın varmı?"*[6] O, hər cür dəbdəbə, israf və cah-cəlaldan qəti şəkildə uzaq durmuş və bu davranışları ilə də müsəlmanlara nümunə olmuşdur.

Peyğəmbərimizin dünyasında əşyaya ürəkdən bağlanılan maddi bir varlıq və sayəsində dəyər qazanılan bir şey deyil, ehtiyac olduğuna görə istifadə olunan bir şey idi. Dünya malına həddən artıq dəyər verənlərə belə xəbərdarlıq etmişdi: *"Dinarın və dirhəmin, qədifənin və işləməli libasların köləsi olanın vay halına! (Belə bir insana) bir şey verildiyi zaman razı olar, verilməzsə məmnun olmaz."*[7] O, istifadə etdiyi əşyanın ehtiyacını təmin etməsi ilə kifayətlənir, dəbdəbə həvəsinə düşmədən imkanları məhdud olan müsəlmanların yaşadığı mütəvazi bir həyata üstünlük verirdi. Hətta Rəsulullah (s.ə.s.) dünyaya gəldiyi zaman sahib olduğu var-dövlətdən daha çoxuna

[4] N5355 Nəsai, Zinət, 111; M5521 Müslim, Libas və zinət, 88.
[5] M3649 Müslim, Rəza', 64.
[6] M7420 Müslim, Zöhd, 3.
[7] B2886 Buxari, Cihad, 70.

vəfat edərkən belə sahib deyildi. Çünki ehtiyacı olandan artıq pul və qiymətli əşyanı Allah yolunda paylamışdı. Möminlərin anası Cüveyriyə bint əl-Harisin qardaşı Əmr ibn Harisin bildirdiyinə görə həzrət Peyğəmbər (s.ə.s.) öldükdən sonra geriyə silahı, ağ dişi qatırı və bir qədər torpaq sahəsindən başqa bir şey qoymamış, onları da sədəqə məqsədilə qoymuşdu.[8] O, geridə nə dinar, nə dirhəm, nə kölə, nə kəniz, nə də başqa bir şey qoymuşdu.[9] Peyğəmbərimizin miras qoyduğu əşyalar həyatı davam etdirmək üçün zəruri olan minimum tələbatlardan ibarət idi.

Həzrət Peyğəmbərin (s.ə.s.) dünya həyatında hər cür imkan əldə etməyə gücü olsa da dünya malı toplamağa həvəsi olmamışdı. Fəqih səhabələrdən Abdullah ibn Məsud bir gün həzrət Peyğəmbərin – kiçik olduğuna görə göyərçin yuvasına bənzədilən – otağına girdi. O (s.ə.s.), bir həsirin üstündə yatırdı. Həsir sərt olduğuna görə Rəhmət Elçisinin bədəninin bir tərəfində iz salmışdı. İbn Məsud Rəsulullahın bu halına dözə bilməyib ağlamışdı. İbn Məsudun ağlamasına təəccüblənən həzrət Peyğəmbər: "*Niyə ağlayırsan, ey Abdullah?*", – deyə soruşdu. İbn Məsud hiss etdiklərini anlatmağa başladı: "Ey Rəsulullah, Kisra və Qeysər atlas, xalis ipək və dibac (İranda toxunan ipək parça) üstündə gəzir, sən isə bu həsirin üstündə yatırsan. Həsir də sənin bədənində iz salıb."

Bunu eşitdikdə həzrət Peyğəmbərin dodaqlarından İbn Məsuda təsəlli verən bu cümlələr çıxdı:

[8] B3098 Buxari, Fərzul-xüms, 3; B2912 Buxari, Cihad, 86.
[9] B2739 Buxari, Vəsaya, 1.

*"Ağlama, Abdullah! Dünya onların, axirət isə bizimdir. Üstəlik mən dünyaya nə qədər bağlıyam ki?! Mən bu dünyada yalnız bir ağacın kölgəsində dincələn, sonra da oradan qalxaraq səfərinə davam edən yolçu kimiyəm."*[10]

Bəli, nə yolçu daimi idi, nə də kölgə. Amma mənzil başına, hədəfə çatmaq üçün çölün istisində qısa müddət də olsa kölgələnmək güc toplamaq idi. Dünya fani, dünyaya aid olanlar müvəqqəti idi. Lakin axirətə gedən yolda axirətin sərmayəsi kimi dünya malı da diqqətdən kənar qoyulmamalıdır. Allah Rəsulu da bu gözəl təşbehi ilə bunu başa salmaq istəyirdi.

Ənsarlı bir qadın həzrət Aişəni evində ziyarət etdi. Həmin əsnada Peyğəmbərimizin həsirdən hazırlanmış döşəyini gördü. Ehtimal ki, o döşəyi Peyğəmbərinə münasib görməyib ki, evinə qayıdan kimi xam yundan hazırlanmış bir döşək göndərdi. Evə gəldiyi zaman bu yeni yataq diqqətini çəkən həzrət Peyğəbər: "*Bu nədir?*", – deyə soruşdu. Həzrət Aişə: "Ey Rəsulullah, ənsardan filan qadın yanıma gəlmişdi, yatağınızı gördü, evinə gedib bunu göndərdi", – deyə cavab verdi. Həzrət Peyğəmbər: "*Onu özünə qaytar!*" – dedi.

Həzrət Aişə hadisənin davamını belə anlatır: "Onu geri qaytarmadım. (Düzünü desəm, belə bir döşəyin) mənim evimdə olması xoşuma gəlmişdi. Rəsulullah bu xəbərdarlığını üç dəfə təkrarladı və belə dedi:

[10] MK10327 Təbərani, əl-Mu'cəmul-kəbir, X, 162; İM4109 İbn Macə, Zöhd, 3.

*'Vallah, ey Aişə, əgər istəsəm, Allah mənə qızıl və gümüş dağlar bəxş edər.'"*[11]

Həzrət Peyğəmbər insanı rəhavətə sövq edən və ibadətdən uzaqlaşdıran əşyalardan istifadə etməzdi. Həzrət Həfsədən "Allah Rəsulunun sənin evindəki yatağı necə idi?", – deyə soruşduqda o, belə cavab vermişdi: "Yundan toxunmuş qalın bir kilimi ikiqat qatlayardıq. Onun üstündə yatardı. Bir gecə bunu dördə qatlasam onun üçün daha yumşaq olar, dedim. Bu məqsədlə kilimi onun üçün dördə qatladıq. (Buna baxmayaraq həzrət Peyğəmbər) səhər yuxudan oyananda: '*Bu gecə mənim altıma nə sərdiniz?!*', – deyə təəccüblə soruşdu. Biz: "Bu sənin həmişəki yatağındır. Sadəcə onu dördə qatladıq ki, daha yumşaq olsun" – dedik. Bunu eşidən Allah Rəsulu: "*Siz onu yenə əvvəlki kimi edin. Çünki onun yumşaqlığı gecə namazıma mane oldu*" – buyurdu.[12] Ancaq Rəsulullah özü şəxsən belə bir yumşaq yataq istəməsə də, səhabəsinə belə bir tövsiyə etməmişdi.

Hər bir insanın ən təbii haqqıdır ki, əsas tələbatı olan əşyaya sahib olsun. Bu tələbatların ilk sırasında içində ömür sürülən bir ev, bədəni örtüb soyuqdan və istidən qoruyacaq geyimlər və həyatın davamını təmin edəcək qida maddələridir.[13] Lakin yaşadığı dövrdəki maddi vəziyyəti də nəzərə alan həzrət Peyğəmbər əşyadan istifadə edərkən səhabələri israfdan və həddi aşmaqdan uzaq olmağa çağırmışdı.[14] Üstəlik

[11] ST1/465 İbn Səd, Təbəqat, I, 465; BŞ1468 Beyhəqi, Şü'əbul-iman, II, 173.
[12] TŞ330 Tirmizi, Şəmail, 148.
[13] T2341 Tirmizi, Zöhd, 30.
[14] M5452 Müslim, Libas və zinət, 41.

özünü nümayiş etdirmək və öyünmək məqsədi daşıyan geyim tərzini də qadağan etmişdir.[15]

Peyğəmbərimiz bütün ömrü boyu ifrat və təfritdən uzaq olmuş və yaşadığı təvazökar həyatı ilə səhabələrinə nümunə olmuşdur. O (s.ə.s.), mənsubu olduğu cəmiyyətdə məişət həyatında dəbdə olan bir çox əşyanı "varını göstərməyə" çevirmədən istifadə etmişdir. Buna görə də qonaq getdiyi evlərdə bəzən yerə sərilmiş bir örtünün üstündə,[16] bəzən də verilən döşəkçənin əvəzinə quru torpağın üstündə oturmuşdu.[17]

İmkanı olmasına baxmayaraq Allah Rəsulu tamamən öz arzusu ilə hər hansı bir yoxsul insan kimi sadə həyat yaşamağa üstünlük verirdi. Buna görə də həzrət Peyğəmbərin (s.ə.s.) evindəki əşyalar mümkün olduğunca sadə və özünü nümayişdən uzaq idi. Evində xurma lifləri ilə dolu meşindən bir neçə yastıq, yataq əvəzinə istifadə etdiyi bir-iki həsir döşək,[18] divardan asılmış bir neçə ədəd heyvan dərisi, bir neçə ədəd də örtük[19] var idi.[20] Gecələr işıqlandırma məqsədilə istifadə etdiyi fitilli bir çıraq,[21] bir bıçaq,[22] yemək yediyi böyük bir boşqab,[23] biri şüşədən,[24]

15 B5650 Buxari, Mərza, 4; M5437 Müslim, Libas və zinət, 29.
16 EM1177 Buxari, əl-Ədəbul-müfrəd, 402.
17 B6277 Buxari, İstizan, 38; M2741 Müslim, Siyam, 191. 18 HM25113 İbn Hənbəl, VI, 91.
18 HM25113 İbn Hənbəl, VI, 91.
19 M5528 Müslim, Libas və zinət, 92.
20 B5843 Buxari, Libas, 31.
21 İM3089 İbn Macə, Mənasik, 91; EM1223 Buxari, əl-Ədəbul-müfrəd, 420.
22 M5091 Müslim, Əzahi, 19.
23 B5225 Buxari, Nikah, 108.
24 İM3435 İbn Macə, Əşribə, 27.

digəri də ağacdan[25] hazırlanmış iki piyalə də onun istifadə etdiyi məişət əşyalarından idi. Onun mütəvazi evində həm hamamda su üçün, həm də xəmir yoğurmaq üçün istifadə edilən böyük bir qazanla[26] yanaşı dəstəmaz suyu və içmək üçün saxlanılan bir neçə su qabı var idi.[27] O dövrdə İslam cəmiyyətində ələk istifadə edilməsinə baxmayaraq Rəhmət Elçisinin nə vəfat edənə qədər evində un ələmək üçün ələyi olmuş, nə də boğazından xalis undan hazırlanmış bir tikə çörək keçmişdi.[28]

Həzrət Peyğəmbər bir insan kimi baxımına diqqət yetirir, təmiz və gözəl görünmək üçün müxtəlif əşyalardan istifadə edir və bir səfərə çıxarkən onları da özü ilə aparırdı. Onun (s.ə.s.) hətta gecə oyanarkən istifadə etdiyi,[29] biri dəmir,[30] digəri fil dişindən olan iki darağı,[31] aynası var idi. Bu aynaya baxdıqdan sonra: "*Əlhəmdulillah, Allahım, məni gözəl yaratdığın kimi əxlaqımı da gözəlləşdir*", – deyə dua edərdi.[32] İsmid adlanan qara sürməsi var idi, yatarkən gözlərinin içinə üç dəfə çəkərdi.[33] Gözü parlaqlaşdırıb kiprikləri bəslədiyi üçün əshabına da ismidi tövsiyə edərdi.[34] Ehrama girəcəyi zaman saçına və saqqalına sürtdüyü yağın parıltısı rahatlıqla görünürdü Pak Elçinin.[35] Əraq

[25] TŞ196 Tirmizi, Şəmail, 84.
[26] N241 Nəsai, Təharət, 149; İM378 İbn Macə, Təharət, 35.
[27] İM3412 İbn Macə, Əşribə, 16.
[28] B5413, B5415 Buxari, Ət'imə, 23.
[29] BS96 Beyhəqi, əs-Sünənul-kübra, I, 54.
[30] B6241 Buxari, İstizan, 11; M5638 Müslim, Adab, 40.
[31] BS96 Beyhəqi, əs-Sünənul-kübra, I, 54; ST1/484 İbn Səd, Təbəqat, I, 484.
[32] NZ913 Nəvəvi, Əzkar, s. 304; HM3823 İbn Hənbəl, I, 403.
[33] T2048 Tirmizi, Tibb, 9; İM3499 İbn Macə, Tibb, 26.
[34] D3878 Əbu Davud, Tibb, 14; T1757 Tirmizi, Libas, 23.
[35] M2838 Müslim, Həcc, 44.

ağacından düzəldilən misvak da onun (s.ə.s.) evinə girərkən ilk istifadə etdiyi,[36] hətta gecə oyandıqda[37] və gün boyu istifadə etdiyi əşyalardan idi.[38]

Həzrət Peyğəmbər (s.ə.s.) İslamı və müsəlmanları qorumaq məqsədilə bir neçə müharibədə iştirak etmiş və döyüşlərdə qılınc, zireh, dəbilqə kimi öz dövrünün müharibə sursatından istifadə etmişdir. Həzrət Peyğəmbərin doqquz qılıncı var idi ki, bunların bir çoxu qənimət kimi əldə olunmuşdu. O (s.ə.s.), öz döyüş alətlərinə daim gözəl adlar verərdi. Onun (s.ə.s.) ən məşhur qılıncı Bədr qənimətlərindən götürdüyü "Zülfiqar" idi.[39] Bu qılıncın qəbzəsinin başı gümüşdən idi və qınının üstündə gümüş halqalar var idi.[40] Peyğəmbərimiz fəth günü Məkkəyə girərkən üstündəki qılıncın qəbzəsi də qızıl və gümüş işləməli idi.[41] Atasından miras qalan və hicrət edərkən özü ilə apardığı Məsur,[42] Səd ibn Übadənin hədiyyə etdiyi və Bədrdə istifadə etdiyi Əzb,[43] Bəni Qeynüqadan qənimət aldığı Qəli, Bəttar və Hətf ilə Tey qəbiləsindən alınan Rəsub və Mihzəm[44] adlı qılıncları da var idi.

Həzrət Peyğəmbər döyüşdə düşmənin ox və qılınc zərbələrindən qorunmaq üçün zireh geyinərdi. Onun (s.ə.s.) yeddi ədəd zirehi var idi. Onların ən məşhuru

36 M590 Müslim, Təharət, 43; D51 Əbu Davud, Təharət, 27.
37 B245 Buxari, Vüzu, 73; M595 Müslim, Təharət, 47.
38 ST1/484 İbn Səd, Təbəqat, I, 484.
39 T1561 Tirmizi, Siyər, 12; İM2808 İbn Macə, Cihad, 18.
40 D2583 Əbu Davud, Cihad, 64; N5376 Nəsai, Zinət, 120.
41 T1690 Tirmizi, Cihad, 16.
42 ST1/485 İbn Səd, Təbəqat, I, 485.
43 VM1/103 Vaqidi, Məğazi, I, 103.
44 ST1/485 İbn Səd, Təbəqat, I, 486.

Zatülfüzul idi.[45] Fiddə və Sədiyə adlı iki zirehi Bəni Qeynüqa yəhudilərindən öz payına düşən qənimətlər arasında idi. Həzrət Peyğəmbər Uhud döyüşündə Zatülfüzul ilə Fiddəni, Xeybər günü isə Zatülfüzul ilə Sədiyyə adlı zirehlərini üst-üstə geyinmişdi.[46] Bir də Məkkənin fəthi günü başına taxdığı bir dəbilqəsi var idi.[47] Rəhmət Elçisinin Bəni Qeynüqadan aldığı üç mizraq və Rövha, Beyza və Səfra adlı üç yayla yanaşı[48] Zəvra, Şəddad və Uhudda qırılan Kətum adlı yayları ilə birlikdə ümumilikdə altı yayı var idi.[49] Həzrət Peyğəmbərin bu döyüş alətlərinin demək olar ki hamısı ya qənimət, ya da hədiyyə idi.

Səhabələrinə ən yaxşı libaslarını geyinməyi və imkanları daxilində ən gözəl ətirləri vurmağı tövsiyə edən[50] Allah Rəsulu "*İsraf və təkəbbürə yol vermədən yeyin, için, geyinin və Allah yolunda xərcləyin*" – buyuraraq bu məsələnin əsas prinsiplərini bildirmişdir.[51]

Digər məsələlərdə olduğu kimi evinin tərtibatı və istifadə etdiyi məişət əşyaları barəsində də səhabələrinə və ümmətinə nümunə olan Peyğəmbərimizin əşyalardan istifadəyə dair yanaşmasını sadəlik, ehtiyacın təmin olunması, səliqə və təmizlik şəklində sadalamaq olar. Bir dövlətin başçısı, müzəffər bir komandir, daha da əhəmiyyətlisi son dinin peyğəmbəri kimi Rəsulullah kasıb deyildi, amma mütəvazi

[45] MA9662 Əbdürrəzzaq, Müsənnəf, V, 295.
[46] ST1/485 İbn Səd, Təbəqat, I, 487.
[47] B4286 Buxari, Məğazi, 49; N2870 Nəsai, Mənasikul-həcc, 107.
[48] ST1/489 İbn Səd, Təbəqat, I, 489.
[49] ZD1/130 İbn Qeyyim, Zadul-mə'ad, I, 131.
[50] BT1222 Buxari, ət-Tarixul-kəbir, I, 382.
[51] B5783 Buxari, Libas, 1.

yaşamağa üstünlük vermişdi. Özü yoxsul səhabələrinin həyat standartlarına uyğun yaşamasına baxmayaraq ətrafındakıların həddi aşmamağa diqqət yetirdikləri müddətcə gözəl və keyfiyyətli əşyalardan istifadə etməsinə qarışmamışdı. Özü də istifadə etdiyi keyfiyyətli əşyaların demək olar ki, hamısına ya qənimət, ya da hədiyyə yolu ilə sahib olmuşdu. O, həyatı boyunca mal-mülk əldə etməyə qarşı olmamış, bununla yanaşı var-dövlət arzusunda olmamış və bunu həyatının məqsədinə də çevirməmişdi. Peyğəmbərimizin (s.ə.s.) həyat tərzinə baxdıqda görürük ki, əşya insanın ağası deyil, əksinə, Rəbbə layiqli şəkildə qulluq edə bilməsi və Onun razılığına uyğun bir ömür sürməsi üçün vəsilədir.

محمد ﷺ

# PEYĞƏMBƏR SÜFRƏSİNDƏ YEMƏK ƏDƏBİ

Ömər ibn Əbu Sələmə hicrətin ikinci ilində anadan olan bəxtəvər bir uşaq idi. Çünki hələ həddi-büluğ yaşına çatmamışdan əvvəl anası Ümmü Sələmə həzrət Peyğəmbər ilə evləndiyi üçün Rəsulullahın (s.ə.s.) xaneyi-səadətində yaşamışdı. Rəhmət Elçisinin himayəsində, onun verdiyi tərbiyə ilə böyümüşdü.[1] Bir gün Allah Rəsulu kiçik Ömərin yemək yeyərkən əlini boşqabın hər tərəfində gəzdirdiyini gördükdə ona mülayim şəkildə: *"Oğlum! Bəsmələ de, sağ əlinlə və öz qarşından ye"* – dedi. Üç qısa cümlə ilə Ömərə yemək ədəbini öyrədən Allah Rəsulunun bu xəbərdarlığı ömrünün sonuna qədər onun yemək yemə tərzini formalaşdırmışdı.[2] Əslində bu xəbərdarlıq ilə o (s.ə.s.), yemək yeyərkən

[1] EÜ4/169 İbnul-Əsir, Üsdul-ğabə, IV, 169-170.
[2] B5376 Buxari, Ət'imə, 2; M5269 Müslim, Əşribə, 108.

müsəlmanların diqqət edəcəyi ən mühüm üç sünnəni təyin etmişdi.

Yemək və içmək başda insan olmaqla hər canlının həyatını davam etdirə bilməsi üçün mühüm bir ehtiyacdır. Həyatı bütünlükdə ibadət olaraq görən Peyğəmbərimiz yemək-içməklə əlaqəli nümayiş etdirdiyi ədəb və sünnəsilə yemək və içməyə başqa məna qatmışdı.

Maddi və mənəvə hər cür təmizliyin imandan sayıldığı[3] dinimizdə yeməkdən əvvəl əllərin, yeməkdən sonra isə həm əllərin, həm də ağzın təmizlənməsi barədə həzrət Peyğəmbərin göstərdiyi həssaslıq, bədən sağlamlığı baxımından diqqətəlayiqdir. Çünki müqəddəs Nəbi bunu hələ süfrələrdə çəngəl, bıçaq, qaşıq kimi avadanlığın olmadığı, yeməklərin əllə və barmaqlarla yeyildiyi bir sosial cəmiyyətə öyrədirdi. O, yeməkdən əvvəl və sonra əllərin yuyulmasını "yeməyin bərəkəti" adlandırmışdır.[4] Allah Rəsulu təmizlik və sağlamlıq baxımından da çox mühüm olan bu mədəniyyəti bütün müsəlmanlara mənimsətmək məqsədilə ocaqda bişən (yağlı) yeməklərdən sonra dəstəmaz alınmasını istəmişdi.[5] Lakin möminlərin zehninə istədiyi təmizlik vərdişini yerləşdirdikdən sonra ocaqda bişən

[3] T3519 Tirmizi, Də'əvat, 86; HM23461 İbn Hənbəl, V, 363.
[4] D3761 Əbu Davud, Ət'imə, 11; T1846 Tirmizi, Ət'imə, 39.
[5] M788 Müslim, Heyiz, 90.

yeməklərdən sonra dəstəmaz alma vərdişini tərk etdiyi rəvayət olunur.[6]

Belə bir ictimai quruluşda həzrət Peyğəmbərin də yeməyini barmaqları ilə yeməsində və yeməkdən sonra təmizlik məqsədilə barmaqlarını yalamasında təəccüblü bir hal olmamalıdır.[7] Ancaq burada həzrət Peyğəmbərin yeməkdən əvvəl əllərini, sonra isə əllərini və ağzını yuduğunu da unutmamaq lazımdır. Hətta mübarək Nəbi yeməkdən sonra əllərini yumamış yatanlara xəbərdarlıq etmiş, bunun nəticəsində meydana çıxacaq maddi-mənəvi problemlərə diqqət çəkmişdir.[8] Bütün bunlar göstərir ki, yeməkdən əvvəl və sonra əllər təmiz görünsə də yuyulmalıdır.

Həzrət Peyğəmbər əllərini yuduqdan sonra yer süfrəsində oturar və bəsmələ deyərək yeməyə başlayardı. Peyğəmbərimiz (s.ə.s.) yeyilən hər yeməyin Uca Allahın bir neməti, lütfü və ihsanı olduğunu dərk edərək hər zaman şükür etmişdir. Buna görə də hər işdə olduğu kimi yemək yeməyə başlayarkən hər zaman "bəsmələ" çəkərək Allahı xatırlamış və: *"Kim evinə daxil olarkən və yemək yeyərkən bəsmələ çəkərsə, şeytan yoldaşlarına: 'Burada sizə yer yoxdur, yemək də yoxdur!" – deyər. Əgər o kəs evinə daxil olarkən bəsmələ söyləməzsə, şeytan: 'Sığınacaq yer tapdınız' – deyər. Yemək yeyərkən bəsmələ söyləməzsə: 'Həm sığınacaq, həm də yemək tapdınız' – deyər"* – buyurmuşdu.[9]

6 B207 Buxari, Vüzu, 50; T80 Tirmizi, Təharət, 59.
7 M5297 Müslim, Əşribə, 131.
8 T1859 Tirmizi, Ət'imə, 48; D3852 Əbu Davud, Ət'imə, 53.
9 M5262 Müslim, Əşribə, 103.

Peyğəmbərimiz (s.ə.s.) ətrafındakı insanlara da bəsmələni tövsiyə etmişdi. Bəsmələni insanlara lütf etdiyi nemətlərə görə Allaha edilən bir təşəkkür hesab edən Allah Rəsulu bəsmələsiz yeyilən yeməklərdə bərəkət olmayacağını xəbər vermişdir. Yeməyə başlayarkən unudularsa, xatırlandığı zaman deyilməsinin vacib olduğunu bildirmişdir: “*Yemək yeyəcəyiniz zaman ‘Bismillah’ (Allahın adı ilə) deyin. Əgər yeməyə başlayarkən bəsmələ çəkməyi unudarsınızsa, ‘Bismilləhi fi əvvəlihi və axirihi’ (Başında da sonunda da Allahın adı ilə) deyin*”.[10] Peyğəmbərimiz (s.ə.s.) su içərkən də bəsmələ deməyi səhabələrinə tövsiyə etmişdir. *“Suyu dəvə kimi bir nəfəsə içməyin, iki və ya üç nəfəsdə için, içərkən bəsmələ deyin. İçdikdən sonra da Allaha şükür edin”* – buyurmuş,[11] bundan başqa su qabının içinə nəfəs verməyi də qadağan etmişdi.[12]

Rəsulullah yeyib içərkən sağ əlini istifadə edər və belə deyərdi: *“Yemək yediyiniz zaman sağ əlinizlə yeyin, bir şey içdiyiniz zaman sağ əlinizlə için! Çünki şeytan sol əli ilə yeyər və sol əli ilə içər”*.[13] Bütün bunlardan başa düşürük ki, yemək və içməkdə sağ əlin istifadə edilməsi sünnədir. Hətta sağ əldən istifadə etmək müsəlmanları başqalarından fərqləndirən bir xüsusiyyət olaraq tövsiyə edilmiş, əcnəbilərə meyl etmək, yaxud təkəbbür və nümayiş məqsədilə sol əli istifadə etmək isə xoş qarşılanmamışdır. Şübhəsiz ki, burada sol əlin ayaqyoluna getdikdən sonra kirli işlərdə

[10] T1858 Tirmizi, Əşribə, 47; D3767 Əbu Davud, Ət'imə, 15.
[11] T1885 Tirmizi, Əşribə, 13.
[12] B154 Buxari, Vüzu, 19.
[13] M5265 Müslim, Əşribə, 105; D3776 Əbu Davud, Ət'imə, 19.

istifadə edilməsinin də təsiri vardır. Yemək yeyərkən sol əlindən istifadə edən bir insana Peyğəmbərimizin: *"Sağ əlinlə ye"* – deyərək xüsusi xəbərdarlıq etməsi[14] məsələnin əhəmiyyətini bariz şəkildə göstərir. Ancaq hər hansı bir səbəbə bağlı olaraq sol əldən istifadə etmək məcburiyyətində qalanların bu qadağadan kənar olduqları da bəllidir.

Həzrət Peyğəmbərin yemək yediyi süfrə dəridən hazırlanmış sadə bir yer süfrəsi idi.[15] Rəsulullahın süfrəsi kimi süfrəyə oturuşu da təvazökar idi. O, əhlikef bir insan kimi kürəyini bir yerə söykəyərək süfrədə yayılıb yayxanaraq oturmazdı.[16] Belə ki, həzrət Peyğəmbərin dizi üstündə oturmuş bir vəziyyətdə yemək yediyini görən bir bədəvi təəccüblənərək: "Bu necə oturuşdu?!", – deyə soruşanda o: *"Allah məni kərim bir bəndə olaraq yaratdı, zorba və inadçı biri olaraq yaratmadı!"*[17], – deyə cavab vermişdi. O, bu davranışı ilə dövrün hökmdarları və bəzi qəbilə rəislərinin dəbdəbəli və təntənəli oturuş şəkillərindən fərqlənmək istəmişdi. Deməli ki, onun yemək/süfrə mədəniyyəti təkəbbür, ehtişam və təntənə kimi mənfi davranışlardan uzaq idi. Rəsulullaha görə, əksinə, sadəlik, qənaətkarlıq, təmizlik və halallıq kimi prinsiplər ön planda olmalı idi.

Həzrət Peyğəmbər yeməkdən sonra süfrədən dərhal qalxmamağı, digər insanların yeməklərini bitirmələrini gözləməyi tövsiyə edərək belə

[14] M5268 Müslim, Əşribə, 107.
[15] B5415 Buxari, Ət'imə, 23; T1788 Tirmizi, Ət'imə, 1.
[16] B5398 Buxari, Ət'imə, 13.
[17] D3773 Əbu Davud, Ət'imə, 17; İM3263 İbn Macə, Ət'imə, 6.

buyurmuşdur: "*Süfrə salındıqdan sonra hər kəs bitirib süfrə yığışdırılana kimi heç kəs ayağa qalxmasın. Doysanız da süfrədə oturanlar yeməyi davam etdikləri müddətcə siz də əlinizi süfrədən çəkməyin, artıqlıq etsə də yeməyə davam edin. Çünki (yeməkdən əlini çəkməklə) yanında oturan insanı utandırarsınız, buna görə də həmin insan doymadığı halda yeməkdən əlini çəkə bilər.*"[18] Peyğəmbərimizin (s.ə.s.) bu tövsiyəsi doymayan insanın yeməyə davam etməsini asanlaşdırmaq və utanaraq süfrədən tez qalxmasının qarşısını almaq üçün bir tədbir idi.

Allah Rəsulu ayaq üstə yemək yeməyi və su içməyi də münasib görməzdi.[19] Ancaq gün boyunca ayaq üstə olarkən bəzən nə isə yemək və içmək məcburiyyətində qaldığı vaxtlar da olmuşdur.[20] Bu da göstərir ki: İslamın yemək yemə mədəniyyəti ümumi prinsiplər əsasında təyin edilmiş olsa da müəyyən şərtlərdə İslamın ruhuna zidd olmamaq şərtilə bu prinsiplərdən kənara da çıxıla bilər.

Buna görə də Rəsulullahın mətbəx ənənəsində əsas məsələlərin vasitələr deyil, məqsədlər olduğunu unutmamalıyıq. Bu məqsədləri isə yemək-içməyin təmiz və halal olması, insan sağlamlığına zərər verməməsi, israfdan çəkinmək və Allaha şükür etmək kimi sadalamaq olar.

Həzrət Peyğəmbərin ən yaxın dostlarından həzrət Ömər Rəsulullahın aclıqdan gün boyu qıvranıb yemək üçün çürük bir xurma da tapa bilmədiyi

[18] İM3295 İbn Macə, Ət'imə, 21.
[19] M5275 Müslim, Əşribə, 113; T1879 Tirmizi, Əşribə, 11.
[20] T1880 Tirmizi, Əşribə, 11; İM3301 İbn Macə, Ət'imə, 25.

anlarına şahid olmuşdu.[21] Hətta çox vaxt arpa çörəyi yeyən həzrət Peyğəmbər və ailəsinin[22] axşam yeməyi tapmayıb bir neçə gün ac qaldıqları vaxtlar da olmuşdu.[23] Həzrət Peyğəmbər və səhabələrinin ac qaldıqları günlərin sayı da az deyildi.[24] Elə vaxtlar olurdu ki, aclıq daş olub qarınlarında otururdu.[25] Həyat yoldaşı həzrət Aişə həzrət Peyğəmbərin xaneyi-səadətində uzun müddət ocaq yandırılmadığını, bu müddət ərzində yalnız quru xurma ilə su içdiklərini, bəzən ənsardan sadiq qonşularının onlara süd gətirdiklərini və onu içdiklərini rəvayət etmişdi.[26]

Bir dəfə də Peyğəmbərimiz (s.ə.s.) süfrəyə oturmuş, qarşısına quru çörək gətirildikdə: "*Yavanlıq bir şey yoxdur?*", – deyə soruşmuşdu. "Xeyr, sirkədən başqa heç nə yoxdur!" cavabını eşitdikdə isə: "*Sirkə necə də gözəl yavanlıqdır*" – buyuraraq yeməyə başlamışdı.[27]

Belə məlum olur ki, həzrət Peyğəmbərin bu həyat tərzi "bir tikə, bir xirqə" şəklində xülasə edilən həyat fəlsəfəsini mənimsədiyi üçün deyil, həm o dövrün şərtlərinə görə yemək tapmaq çətin olduğuna, həm də əlinə keçəni əvvəlcə yoxsul səhabələrinə payladığına görə idi.

Təvazökarlığı şüara çevirən Allah Rəsulu ona təqdim edilən yeməkdə heç vaxt qüsur axtarmaz, ürəyi

[21] M7461 Müslim, Zöhd, 36; İM4146 İbn Macə, Zöhd, 10.
[22] T2357 Tirmizi, Zöhd, 38; HM2303 İbn Hənbəl, I; 256.
[23] T2360 Tirmizi, Zöhd, 38; İM3347 İbn Macə, Ət'imə, 49.
[24] B5432 Buxari, Ət'imə, 32.
[25] T2371 Tirmizi, Zöhd, 39.
[26] M7452 Müslim, Zöhd, 28; B2567 Buxari, Hibə, 1.
[27] M5353, M5352 Müslim, Əşribə, 167, 166.

istəyərsə yeyər, xoşu gəlməzsə yeməzdi.[28] Yeməyin israf edilməsini istəməz, qabda qalan qırıntıların yeyilməsinə, bir tikənin belə hədər olmamasına diqqət edərdi.[29]

Peyğəmbərimizin (s.ə.s.) də sevmədiyi bəzi yeməklər var idi. Bu yeməklər çox vaxt Rəsulullahın öz bölgəsində yeyilmədiyi üçün bilinməyən və vərdiş etmədiyi yeməklər idi. Bu yeməkləri sevməməsi əsasən onun öz seçimi idi. Bundan başqa həmin yeməklər o bölgənin mətbəx zövqü ilə də uyğun gəlmirdi. Belə ki, Peyğəmbərimizin (s.ə.s.) xanımı möminlərin anası Meymunənin evində baş verən bu hadisə Nəbilər Sərvərinin öz bölgəsində olmayan bir yeməyə qarşı münasibətini açıq şəkildə bizə göstərir:

"Allahın qılıncı" ləqəbi ilə tanınan Xalid ibn Vəlid və Abdullah ibn Abbas Peyğəmbərimizlə birlikdə möminlərin anası Meymunənin yanına getmişdilər.[30] Həm Xalid ibn Vəlidin, həm də Abdullah ibn Abbasın xalası olan möminlərin anası Meymunə dərhal onları qonaq etmək məqsədilə yemək hazırlamışdı.[31] Rəsulullah (s.ə.s.) qarşısına qoyulan yeməyə əlini uzatdığı əsnada oradakı bir qadın bu yeməyin nə olduğunu Peyğəmbərimizə (s.ə.s.) dedi. Çünki Peyğəmbərimiz (s.ə.s.) hər hansı bir yeməyə qonaq edilərkən

[28] B5409 Buxari, Ət'imə, 21; B3563 Buxari, Mənaqib, 23; M5383 Müslim, Əşribə, 188.
[29] M5306 Müslim, Əşribə, 136.
[30] B5391 Buxari, Ət'imə, 10; M5034 Müslim, Seyd, 43.
[31] B5391 Buxari, Ət'imə, 10; M5040 Müslim, Seyd, 47.

əvvəlcə bu yeməyin nə olduğu haqqında məlumat verilirdi.

Möminlərin anası Meymunənin Peyğəmbərimizi (s.ə.s.) qonaq etdiyi yemək Meymunənin bacısı Hüfeydənin Nəciddən gətirdiyi və kabab edilən kələz (bir növ kərtənkələ) əti idi.[32] Kələz əti olduğunu eşidəndə Peyğəmbərimiz dərhal yeməkdən imtina edir. Bunu görən Xalid ibn Vəlid: "Bu (kələz) haramdır, ey Rəsulullah?" – deyə soruşdu. Rəsulullah (s.ə.s.): *"Xeyr, lakin o, bizim tərəflərdə olmur. Buna görə də mənim ondan xoşum gəlmir. Siz yeyin"* – buyurdu.[33]

Peyğəmbərimizin (s.ə.s.) bu sözlərini eşidən Xalid ibn Vəlid kələzi öz qarşısına çəkib yeməyə başladı. Bu əsnada Peyğəmbərimiz (s.ə.s.) də ona baxırdı.[34] Orada olan hər kəs kələzdən yedi. Lakin möminlərin anası Meymunə: "Mən yalnız Rəsulullahın yediyi yeməklərdən yeyirəm" – deyərək kələz ətindən yemədi.[35]

Həzrət Peyğəmbərin kələz ətini yeməməsi onun belə bir əti heç vaxt yeməmiş olması, iştahının çəkməməsi və damaq zövqü/ağız dadıyla, mədəsi və iştahı ilə əlaqədar bir hal idi. Özü yemədiyi halda oradakılara izacə verməsi kələz ətinin yeyilməsinin mübah və bunun insanların zövqləri ilə əlaqədar olduğunu göstərir. Belə ki, Rəsulullahın (s.ə.s.) başqa bir rəvayətdə "*Mən kələzi yemirəm, ancaq haram da etmirəm*"

[32] B5391 Buxari, Ət'imə, 10.
[33] M5034 Müslim, Seyd, 43; M5040 Müslim, Seyd, 47.
[34] B5391 Buxari, Ət'imə, 10; B5537 Buxari, Seyd, 33.
[35] M5040 Müslim, Seyd, 47.

buyurması da bunu göstərir.[36] Həmçinin möminlərin anası Meymunənin davranışı da belə bir yeməyi bəyənib bəyənməməkdən çox həzrət Peyğəmbərin yolundan getmək arzusu ilə əlaqəli idi. Belə ki, Rəsuli-Əkrəmin kələz əti yeməməsinin şəxsi bir arzu olduğunu başa düşən səhabələr arasında kələz ətini sevənlərlə yanaşı sevməyənlər də var idi.

Nəyin yeyilib nəyin yeyilmədiyini təsbit etmək üçün əsas prinsipləri dini hökmlər təyin etdiyi halda yeməklər arasında seçim etmək üçün yerli mətbəx və şəxsi seçimlər ön planda idi. Peyğəmbərimizin qoyunun qol hissəsini[37] və tərəvəzlərdən qabağı xoşladığı,[38] lakin çəyirtkə yeməyi sevmədiyi rəvayət edilir.[39] Bəzi səhabələrin həzrət Peyğəmbər xoşladığı üçün bəzi yeməkləri yediyi, bəzilərinin də o xoşlamadığı üçün yemədiyi dini bir məcburiyyət deyil, Rəsulullaha olan sevgi və sədaqətlə əlaqəli idi. Ənəs ibn Malikin həzrət Peyğəmbər sevdiyinə görə qabağı sevməsini,[40] Əbu Eyyub əl-Ənsarinin isə həzrət Peyğəmbər xoşlamadığına görə içərisində sarımsaq olan yeməyi yeməməsini buna misal göstərmək olar.[41]

Bir gün həzrət Peyğəmbərin qarşısına içərisində (soğan, sarımsaq kimi) tərəvəzlər olan bir boşqab gətirilmiş, boşqabdan gələn naxoş qoxuya görə bunun nə olduğunu soruşmuş. Boşqabdakı tərəvəzlərin adları deyildikdən sonra yanında oturan səhabələrdən

[36] B5536 Buxari, Seyd, 33.
[37] M481 Müslim, İman, 328.
[38] İM3302 İbn Macə, Ət'imə, 26.
[39] D3813 Əbu Davud, Ət'imə, 34.
[40] B2092 Buxari, Büyu', 30; M5326 Müslim, Əşribə, 145.
[41] M5356 Müslim, Əşribə, 170.

birinə işarə edərək: “*(Bu tərəvəzləri) oradakı adama verin*” – buyurmuşdur. Lakin o səhabə də həzrət Peyğəmbər (s.ə.s.) yemədiyinə görə bunları yemək istəməmiş. Ancaq Rəsulullah (s.ə.s.): “*Sən ye, çünki mən sənin görüşüb danışmadığın insanlarla danışıram*” – buyuraraq[42] müxtəlif insanlarla görüşüb söhbət etdiyi və ağız qoxusu ilə heç kimi narahat etmək istəmədiyi, yaxud xoşuna gəlmədiyi üçün yemədiyi yeməklərin də yeyilə biləcəyini bildirmiş.

Peyğəmbərimizin (s.ə.s.) yemək mövzusuna yanaşmasında diqqət çəkən xüsuslardan biri də hansı məqsədlə olursa olsun heç kimin halal olan bir yeməyi özünə haram qılmaq səlahiyyətinin olmamasıdır. Belə ki, “*Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu pak nemətləri (özünüzə) haram etməyin və həddi aşmayın. Doğrudan da, Allah həddi aşanları sevməz!*”[43] ayəsi şəhvani arzularından xilas olub daha çox ibadət etmək məqsədilə özünə ət yeməyi qadağan edən bir səhabə haqqında nazil olmuşdur.[44] Buna görə çox ibadət etmək məqsədilə də olsa sağlamlıq baxımından bir problem təşkil etmədiyi müddətcə Allahın verdiyi nemətlərin istifadəsinə hər hansı bir şəkildə məhdudiyyət qoymaq doğru deyildir.

Bir dəfə Rəsulullah da buna bənzər bir məsələ ilə əlaqədar ilahi xəbərdarlıq almışdı. Xanımı Zeynəb bint Cəhşin yanında “məğafir” adlanan ətirli bir ağacın özəyindən hazırlanan bal şərbətini içmiş və buna görə də yanında bir az çox qalmışdı. Bunu qısqanan

[42] B855 Buxari, Azan, 160; D3822 Əbu Davud, Ət’imə, 40.
[43] əl-Maidə, 5/87.
[44] T3054 Tirmizi, Təfsirul-Qur’an, 5.

həzrət Aişə və həzrət Həfsə öz aralarında razılığa gələrək Peyğəmbərimizi gördükdə "Səndən məğafir iyi gəlir!" – demişdilər, həzrət Peyğəmbər də bir daha bal şərbəti içməyəcəyini söyləmişdi. Bu hadisə üzərinə Uca Allah nazil etdiyi bu ayə ilə Rəsulunu xəbərdar etmişdi: *"Ey Peyğəmbər! Zövcələrinin (səndən) razı qalmasını diləyərək Allahın sənə halal etdiyi şeyi (dünya ləzzətini) niyə özünə haram (qadağan) edirsən?"*[45] Mübarək Elçi bəzi yeməkləri çox sevmiş və onları tərifləmişdi. Həzrət Peyğəmbərin bu davranışı yeməyin dadı, ləzzəti və bəsləyici olması kimi keyfiyyətlərlə yanaşı, Allahın verdiyi hər nemətin əslində tərifə və şükrə layiq olduğunu göstərmək üçündür. Məsələn, həzrət Peyğəmbər tirit,[46] ət yeməyi,[47] xurma,[48] sirkə[49] kimi qidaları mədh etmişdir. Halbuki ərəb cəmiyyətinin yaşadığı coğrafiyada tanınmadığı üçün həzrət Peyğəmbərin heç adını çəkmədiyi minlərlə qida növü üçün də əslində buna bənzər sözlər söyləmək mümkündür. Çünki Uca Allahın yaratdığı hər bir meyvə, tərəvəz, qida və məşrubatın özünəməxsus gözəlliyi olduğunda heç bir şübhə yoxdur.

Yeməyə Allahın adını söyləyərək başlayan həzrət Peyğəmbər yeməkdən sonra Allaha belə şükür edərdi: *"Əlhamdu lilləhilləzi ətamənə və səqanə və cəalənə muslimin" (Bizi yedirib, içirən və bizi müsəlman yaradan Allaha həmd olsun)*[50]

[45] B5267 Buxari, Təlaq, 8; N3450 Nəsai, Təlaq, 17; ət-Təhrim, 66/1.
[46] D3783 Əbu Davud, Ət'imə, 22.
[47] İM3305 İbn Macə, Ət'imə, 27.
[48] B5769 Buxari, Tibb, 52.
[49] M5353 Müslim, Əşribə, 167.
[50] D3850 Əbu Davud, Ət'imə, 52; T3457 Tirmizi, Də'əvat, 55.

Belə dua etdiyi vaxtlar da olmuşdu:

*"Əlhamdu lilləhi kəsiran tayyibən mübarəkən fihi, ğayra məkfiyyin və lə müvəddəin və lə müstağnən anhu, Rabbənə!" (Gözəl və bərəkət diləklərilə dolu, ancaq bir o qədər az olan və dilimizdən əskik olmayan, dilimizdən düşməyən bütün mədhlərlə sənə çox həmd edirik, ey Rəbbimiz!)*[51]

Bəzən belə dua edərdi:

*"Əftara indəkumus-saimun və əkələ təaməkumul-əbrar və sallət aleykumul-məlaikə." (Oruclular sizin yanınızda iftar etsinlər, yaxşı insanlar sizin yeməklərinizdən yesinlər, mələklər də sizə salam dua etsinlər.)*[52]

Bundan başqa bir insanın yeməkdən sonra söylədiyi təqdirdə günahlarının bağışlanacağını xəbər verdiyi dualardan biri də belə idi:

*"Əlhamdu lilləhil-ləzi ətaməni həzət-təamə və razaqanihi min ğayri havlin minni və la quvvətin." (Məni yedirən, mən güc və qüvvət sərf etmədiyim halda mənə bu ruzini verən Allaha həmd olsun.)*[53]

Bu duaların Allaha şükrü ifadə etdiyini görürük. Buna görə də çox uzun dua edilməsə də ən azından "Əlhamdulilləh" deyərək verdiyi nemətlərə görə Uca Yaradana şükür edib minnətdar olmaq lazımdır. Allah Rəsulu da bunu belə ifadə etmişdir: "*Bəndəsinin yeməyini yedikdən və ya suyunu içdikdən sonra Ona həmd və şükür etməsi Allah çox xoş gedər*".[54]

[51] B5458 Buxari, Ət'imə, 54; D3849 Əbu Davud, Ət'imə, 52.
[52] D3854 Əbu Davud, Ət'imə, 54; İM1747 İbn Macə, Siyam, 45.
[53] D4023 Əbu Davud, Libas, 1.
[54] M6932 Müslim, Zikr, 89; T1816 Tirmizi, Ət'imə, 18.


محمد

# MƏNƏ SÖZÜN ƏSLİ VERİLDİ

Həzrət Peyğəmbərin ögey oğlu Hindin Rəhmət Elçisinin hilyə və şəmailini yaxşı bilməsi və gözəl nitq qabiliyyəti hər kəsə məlum idi.[1] Bir gün həzrət Həsən ondan babası Rəsulullah haqqında danışmasını xahiş etdi. Hind ibn Əbu Halə danışmağa başladı. Həzrət Peyğəmbərin ay kimi üzünü, saqqalını və mübarək bədənini təsvir etdi. Həsən bunları diqqətlə dinlədikdən sonra Hində: “Mənə onun danışıq tərzindən bəhs et” – dedi.[2] Bu xahişdən sonra həzrət Xədicənin birinci həyat yoldaşından olan oğlu Hind ibn Əbu Halə bunları danışmağa başladı: “Rəsulullah daim dərdli və kədərli idi. Laqeyd və rahat deyildi. Səssiz və sakit bir insan idi. Lazım olmadıqca danışmazdı. Danışmağa başlarkən Uca Allahın adı ilə başlayar və yenə onun adı ilə sözünü bitirərdi. Az sözlə çox məna

[1] Hİ6/557 İbn Həcər, İsabə, VI, 557.
[2] MK18934 Təbərani, əl-Mü’cəmul-kəbir, XXII, 155.

ifadə edərək (cəvamiul-kəlim ilə) danışardı. Nitqi səlis və aydın idi. Sözlərində nə artıqlıq, nə də əskiklik var idi. Kobud rəftarlı və təhqir edən biri deyildi. Az olmasına baxmayaraq nemətə şükür və hörmət edərdi. O (s.ə.s.), yeməkləri nə pisləyər, nə də tərifləyərdi. Nə dünya, nə də dünyaya aid olan heç bir şey onu əsəbiləşdirməzdi. Ancaq kiminsə haqqı tapdandıqda, o haqq sahibinə qaytarılana qədər qəzəbini heç bir sey söndürə bilməzdi. Öz nəfsi üçün heç kimə qəzəblənməz və intiqam almazdı. Bir şeyə işarə edərkən (barmağı ilə deyil) əlini uzadaraq göstərirdi. Bir şeyə heyrət edərkən əllərini yuxarıya tərəf çevirirdi. Danışarkən əllərini birləşdirir və sağ əlinin ovucu ilə sol əlinin baş barmağının içinə vururdu. Əsəbiləşərkən (o insandan) üz çevirir və ondan ayrılardı. Sevinərkən (həddinin aşmaz) gözlərini qıyardı. Çox vaxt təbəssüm edərək gülərdi və güləndə dişləri dolu dənəsi kimi ağappaq görünərdü".[3]

"*Mənə sözün özü verildi...*" – buyuran Peyğəmbərimiz (s.ə.s.)[4] Ərəb dilini ən yaxşı bilən və ən yaxşı danışanlardan idi. Cahiliyyə ərəblərində Ərəb dilini fəsih və ədəbi şəkildə danışmaqla fəxr edən iki qəbilədən biri həzrət Peyğəmbərin anadan olduğu Qüreyş, digəri isə uşaqlığını aralarında keçirdiyi Həvazin qəbiləsi idi.[5] Möminlərin anası Aişə Rəhmət Elçisinin çox təsiredici qabiliyyətə malik

[3] TŞ226 Tirmizi, Şəmail, 97.
[4] M1167 Müslim, Məsacid, 5; B2977 Buxari, Cihad, 122.
[5] ST1/113 İbn Səd, Təbəqat, I, 113.

olan danışıq tərzinə diqqət çəkərək belə demişdi: "Həzrət Peyğəmbər (s.ə.s.) hər hansı bir mövzuda söhbət edərkən (kəlmə-kəlmə danışdığına görə) onun sözlərini saymaq istəyən, saya bilərdi".[6] Bundan başqa o, Peyğəmbərimizin danışarkən sözü bir nəfəsə demədiyini,[7] sözü ağzında dolandırmadığını, əksinə, nitqinin ona qulaq asanların başa düşəcəyi qədər aydın və səlis olduğunu söyləmişdi.[8] Əbu Hüreyrənin hədisləri bir-birinin arxasınca bir nəfəsə söylədiyini eşidən həzrət Aişə ona belə etiraz etmişdi: "Rəsulullah sözlərini sizin söylədiyiniz kimi bir nəfəsə söyləməzdi".[9] Gənc səhabələrdən Cabir ibn Abdullah da həzrət Peyğəmbərin nitqinin nə çox yavaş, nə də çox sürətli olduğunu söyləmişdi.[10]

Həzrət Peyğəmbər (s.ə.s.) lazımsız danışmaz, belə deyərdi: "Şübhəsiz ki, qiyamət günü mənə ən sevimli və məqamına görə ən yaxın olanınız, əxlaqı ən gözəl olanlarınızdır. Qiyamət günü mənə sevimsiz və mənə məqamına görə ən uzaq olanınız isə boşboğazlar, ovurdlarını şişirərək (saymazyana) danışanlar və təkəbbürlü olanlardır".[11]

Rəsuli-Əkrəm (s.ə.s.) sözlərinin daha yaxşı başa düşülməsi üçün əhəmiyyətli gördüyü bəzi kəlmə və cümlələri üç dəfə təkrar edərdi.[12] Bir gün səhabələrinə "*... Ey Allahın qulları! Qardaş olun! Müsəlman*

[6] B3567 Buxari, Mənaqib, 23: M7509 Müslim, Zöhd, 71.
[7] B3568 Buxari, Mənaqib, 23.
[8] D4839 Əbu Davud, Ədəb, 18.
[9] B3568 Buxari, Mənaqib, 23; M6399 Müslim, Fəzailus-səhabə, 160.
[10] D4838 Əbu Davud, Ədəb, 18.
[11] T2018 Tirmizi, Birr, 71.
[12] B95 Buxari, Elm 30; T3640 Tirmizi, Mənaqib, 9.

*müsəlmanın qardaşıdır. Ona zülm etməz, onu tərk etməz və onu xor görməz*" dedikdən sonra köksünə işarə edərək üç dəfə: "*Təqva bax, buradadır!*" – demişdi.[13] Yenə böyük günahlardan bəhs edərkən növbə yalan danışmaq və yalan yerə şahidlik etməyə çatanda bunu o qədər çox təkrar etmişdi ki, səhabələr onun heç susmayacağını zənn etmişdilər.[14] Allah Rəsulu Vida həccindəki məşhur tarixi nitqini söylədikdən sonra da orada olanlardan: "*Təbliğ etdimmi?*", – deyə soruşmuş, onların "Bəli" şəklindəki cavablarından sonra: *"Allahım, şahid ol!"* – buyurmuş və bu cümləni üç dəfə təkrar etmişdi.[15]

Həzrət Peyğəmbər (s.ə.s.) həmsöhbətlərinin diqqətini çəkmək və ifadələrini onlara daha yaxşı başa salmaq üçün bəzən fərqli bir metoddan istifadə edərdi. Hicrətdən on il keçmişdi. Zilhiccə ayi idi. Allah Rəsulu sonralar "Vida həcci" kimi yaddaşlarda qalan nitqində qarşısındakı izdihama sözlərinə yaxşı qulaq asıb əməl etməyi xatırlatdıqdan sonra: *"Bilmirəm"* – dedi və sözlərinə belə davam etdi: "*Bəlkə bu ildən sonra (bir də) sizinlə burada görüşə bilməyəcəm*". Deməк ki, Müqəddəs Elçi ayrılıq vaxtının yaxınlaşdığını xəbər verirdi. Bu sözlərdən sonra Rəsul (s.ə.s.) nitqinə belə davam etdi: "*Ey insanlar! Bu (ay) hansı aydır?*" İzdihamın içərisindən bir nəfərin də səsi çıxmadı. Hamı onun dodaqlarından süzülən sözləri maraqla gözləyirdi. Sualına özü cavab verdi: "*Bu, haram bir aydır*". Daha sonra "*Bu (olduğunuz) şəhər hansı*

[13] M6541 Müslim, Birr, 32.
[14] B5976 Buxari, Ədəb, 6; M259 Müslim, İman, 143.
[15] B4402, B4403 Buxari, Məğazi, 78.

*şəhərdir?*", "*Bu hansı gündür?*" tərzində suallar verməyə davam etdi. İzdihamdan səs çıxmadığına görə yenə özü bu şəhərin müqəddəs bir şəhər, bu günün mübarək bir gün olduğunu xatırlatdı. Məqsədi hər kəsin ümumi qəbul etdiyi xüsuslar barədə onlara xəbərdarlıq etmək idi. Dinləyənlərin diqqətini çəkdikdən sonra söz əsl vurğulamaq istədiyi mövzuya gəlmişdi: "*Bu (zilhiccə) ayınızda, bu (Məkkə) səhərinizdə bu (Ərəfə) gününüz necə müqəddəsdirsə, qanınız, malınız və namusunuz (şəxsiyyətiniz və sayğınlığınız) da həmçinin müqəddəsdir*".[16]

Allah Rəsulu (s.ə.s.) vermək istədiyi mesajı təşbeh/bənzətmə və müqayisələrlə daha da açıq şəkildə izah edərək sözünün daha asan başa düşülməsini, həmsöhbətin zehnində qalmasını istəyirdi. Məsələn, mömin ilə kafir arasındakı fərqi bu bənzətmə ilə izah etmişdi: *"Mömin yaşıl əkin sahəsinə bənzəyir. Rüzgar hansı tərəfdən əsərsə, o tərəfə əyilir (ancaq qırılmaz). Külək dayandıqdan sonra isə yenə dik durar. Kafir isə sərt və dimdik sidr ağacına bənzəyir ki, Allah onu istədiyi vaxt (bir dəfəyə) əyib sındırar"*.[17]

Rəhmət Elçisi möminlərin arasındakı münasibəti aşağıdakı bənzətmə ilə izah etmişdi: *"Möminlər bir-birlərini sevməkdə, bir-birlərinə mərhəmət və şəfqət göstərməkdə bir üzvü xəstələnərkən digər üzvləri də narahat olan və qızdırma ilə bu ağrıları paylaşan bədənə bənzyirlər"*.[18]

[16] B67 Buxari, Elm, 9; VM3/1111 Vaqidi, Məğazi, III, 1111; B1739 Buxari, Həcc, 132.
[17] B7466 Buxari, Tövhid, 31.
[18] M6586 Müslim, Birr, 66; B6011 Buxari, Ədəb, 27.

Vücud dili bəzən şifahi mesajlardan daha güclü təsirə malik olduğuna görə həzrət Peyğəmbər insanlarla münasibət qurarkən jest və mimikalarından köməkçi bir ünsür kimi istifadə edərdi. Rəhmət Elçisi (s.ə.s.) danışarkən bədən dilini, xüsusən də əllərini,[19] barmaqlarını və əlindəki əsasını nəyə isə işarə etmək üçün istifadə edirdi.[20] Bir dəfə cəhənnəmdən danışırdı. Sözünə əvvəlcə cəhənnəmdən Allaha sığınaraq başladı. Sonra isə başını başqa tərəf çevirdi.[21] Sanki o an cəhənnəm bütün dəhşəti ilə qarşısına gətirilmiş və gördüklərindən dəhşətə düşmüş bir halda alova baxmaq istəmədiyi üçün başını yana çevirmişdi. Belə məlum olur ki, Allah Rəsulu bu davranışı ilə cəhənnəmin dəhşətə düşürən o qorxunc halını təsvir edir, oranın qorxunc bir yer olduğunu həm də bədən dili ilə ifadə etmək istəyirdi. Böyük günahları sadalayarkən növbə yalan danışmaq və yalançı şahidlik etməyə çatdıqda həzrət Peyğəmbərin söykəndiyi yerdən qalxıb dik oturması da məsələnin dəhşətini nümayiş etdirən bir bədən dili ifadəsidir.[22]

Həzrət Peyğəmbər danışarkən nəzakət qaydalarına əməl edər və həmsöhbətinin qəlbinə dəyəcək və onu narahat edəcək tərzdə xitab etməzdi.[23] Belə ki, Ənəs ibn Malik həzrət Peyğəmbərin heç vaxt söyüşkən, pis söz danışan və lənət edən bir insan olmadığını söyləmişdi.[24] Peyğəmbərimiz (s.ə.s.) danışarkən

[19] B3302 Buxari, Bədul-xəlq, 15.
[20] ST1/377 İbn Səd, Təbəqat, I, 377; B5304 Buxari, Təlaq, 25.
[21] B6023 Buxari, Ədəb, 34; M2350 Müslim, Zəkat, 68.
[22] B5976 Buxari, Ədəb, 6; M529 Müslim, İman, 376.
[23] TŞ226 Tirmizi, Şəmail, 97.
[24] B6031 Buxari, Ədəb, 38.

söyləyəcəyi sözləri diqqətlə seçərdi. Onun Əncəşə adlı zənci bir köləsi var idi və Vida həcci səfərində həzrət Peyğəmbərin xanımlarının oturduğu dəvələri o yönləndirirdi. Həm dəvələri yönləndirir, həm də şeir oxuyurdu. Gözəl səsi olan Əncəşənin nəğmələrinin cazibəsilə dəvələr sürətlə getməyə başlamış və möminlərin anaları bundan narahat olmuşdu. Bunu görən həzrət Peyğəmbər o zərif üslubu ilə: "*Yavaş ol, ey Əncəşə, büllurları qoru!*"[25] – demişdi.

Allah Rəsulu (s.ə.s.) danışarkən həmsöhbətinin qavrayış səviyyəsini nəzərə alır və kəlmələrini ona görə seçərdi. Abdullah ibn Abbas da ondan nəql etdiyi "*İnsanlarla onların qavrama səviyyələrinə görə danışmaq mənə əmr olunmuşdur*" sözləri ilə bu məsələyə diqqət çəkmişdi.[26] Səhabələrdən Əbut-Tüfeyl "Hər səviyyənin özünə xas bir danışıq üslubu var"[27] sözüylə həzrət Peyğəmbərin tətbiq etdiyi prinsipi ifadə etmişdi. Rəhmət Elçisi səhabələrinin yanında bir müəllim, səmimi bir dost, ordusunun başında güclü bir sərkərdə, xanımlarının yanında anlayışlı bir həyat yoldaşı, uşaqlarının yanında isə şəfqətli bir ata kimi danışardı.

Əziz Peyğəmbərimiz soruşulan suallara da həmsöhbətinin vəziyyətinə görə və onun ehtiyac və əskiklərini tamamlayacaq şəkildə cavab verirdi. Məsələn, "Ən xeyirli əməl nədir?" tərzində müxtəlif vaxtlarda fərqli insanların soruşduğu eyni suala: *"Allaha və*

[25] M6039 Müslim, Fəzail, 72; B6210 Buxari, Ədəb, 116; AU22/289 Eyni, Ümdətul-qari, XXII, 289.
[26] DF1611 Deyləmi, Firdövs, I, 398.
[27] BŞ5020 Beyhəqi, Şü'əbul-iman, IV, 263.

*Rəsuluna iman",*[28] *"Vaxtında qılınan namaz",*[29] *"(Həccdə) təlbiyəni yüksək səslə söyləmək və qurbanlıq heyvanları kəsmək",*[30] *"Evinə gələnə yemək vermək, tanıdığın və tanımadığın hər kəsə salam vermək"*[31] şəklində müxtəlif cavablar vermişdi.

Bir gün həzrət Peyğəmbərin hüzuruna bir nəfər gəlmiş və belə demişdi: "Ey Rəsulullah, mənə bir neçə söz öyrət ki, mən həmişə onları söyləyim. Ancaq çox olmasın, yoxsa unudaram".[32] Nəbi (s.ə.s.): *"Əsəbiləşmə!"* – buyurdu. Həmin şəxs təkrar nəsihət istədi, ancaq hər dəfə eyni qısa cavabı aldı.[33] Əslində nəsihət hesab ediləcək bir şey olmasa da Peyğəmbərimizin "Əsəbiləşmə!" nəsihətində təkid etməsinin hikməti sual verən şəxsin əsəbi xarakteri ilə bağlı idi. Bəlkə də onun üçün ən mühüm və o an üçün ən çox lazım olan cavabın sakitlik olmasına görə Nəbi (s.ə.s.) ona qəzəbinə hakim olmağı tövsiyə etmişdi.[34]

Lazımsız yerə danışmamağın insanın imanının gözəlliyindən/ kamilliyindən olduğunu söyləyən həzrət Peyğəmbər (s.ə.s.)[35]: *"Allaha və axirət gününə inanan ya xeyir söz danışsın, ya da sussun..."* – buyuraraq ümmətinə xəbərdarlıq edirdi.[36] O, qeybət, yalan və dedi-qodu kimi şərr və pis əməllərə səbəb olan

[28] B26 Buxari, İman, 18.
[29] B527 Buxari, Məvaqitus-Səlat, 5.
[30] İM2924 İbn Macə, Mənasiq, 16.
[31] B28 Buxari, İman, 20.
[32] MU1646 Muvatta, Hüsnul-xülq, 3.
[33] B6116 Buxari, Ədəb, 76.
[34] İF10/520 İbn Həcər, Fəthul-bari, X, 520 .
[35] T2317 Tirmizi, Zöhd, 11.
[36] B6475 Buxari, Riqaq, 23; M173 Müslim, İman, 74.

söhbətləri qəti şəkildə qadağan edərdi.[37] O (s.ə.s.), müsəlmanı *"Dilindən və əlindən digər müsəlmanların əmin-amanlıqda olduğu insandır"*[38] şəklində tərif edərək bu məsələyə diqqət çəkmişdi.

Peyğəmbərimizin mehmandarı və İstanbulun sultanı Əbu Eyyub əl-Ənsarinin rəvayət etdiyinə görə bir nəfər Rəsulullahın yanına gəlib ona qısa bir məsləhət verməsini istəmişdi. Rəsuli-Əkrəm (s.ə.s.) ona nəsihət etmiş, ancaq yenə də sözü uzatmamışdı: "*Hər namazını son namazın kimi qıl. Üzr istəyəcəyin bir sözü söyləmə və insanların əllərindəki dünya malına bel bağlama!*"[39]

Rəhmət Peyğəmbəri sözünə Allahın adı ilə başlayar, Onun adı ilə sona çatdırardı. Gələcəkdə görəcəyi bir işdən danışarkən "inşallah" deyərdi. Beləcə, peyğəmbər də olsa hər bir iradənin fövqündəki bir iradənin varlığına diqqət çəkərdi. Əslində Rəbbi də ona və onun timsalında bütün insanlara: *"Heç bir şey barəsində: "Mən onu sabah edəcəyəm!" – demə! Ancaq: "İnşallah (əgər Allah istəsə; Allah qoysa) edəcəyəm!" – de"*[40], – deyə xəbərdarlıq etmişdi.

Peyğəmbərimizin bəzən and içərək sözünə başladığı vaxtlar da olurdu. Bunu sözün doğru olduğunu təsdiq etmək, yaxud mövzunun əhəmiyyətini nəzərə çatdırmaq məqsədilə edirdi. Onun and içmə tərzi adətən *"Canımı əlində tutan Allaha and olsun ki!"*[41]

[37] B5975 Buxari Ədəb, 6; İM349 İbn Macə, Təharət, 26.
[38] M162 Müslim, İman, 65; B10 Buxari, İman, 4.
[39] İM4171 İbn Macə, Zöhd, 15.
[40] əl-Kəhf, 18/23-24.
[41] HM6510 İbn Hənbəl, II, 162; T2170 Tirmizi, Fitən, 9.

şəklində idi. Bəzən: "*...Qəlbləri (istədiyi tərəfə) çevirən Allaha and olsun ki!*"[42], – deyə and içərdi.

Dürüstlük onun ən bariz xüsusiyyəti idi. Son Elçi peyğəmbərlikdən əvvəl də öz qövmü arasında bu xüsusiyyətinə görə seçilirdi. "əl-Əmin" ləqəbi ilə tanınırdı.[43] Yalan danışdığını kimsə nə görmüş, nə də eşitmişdi.[44] Belə ki, sevimli xanımı həzrət Xədicə ilk vəhy gəldiyi vaxt qorxu və narahatlıq keçirən Allah Rəsulunu "... Allaha and olsun ki, Allah səni heç vaxt utandırmaz. Çünki, Allaha and olsun ki, sən qohum-əqrabanın hörmətini saxlayır və heç vaxt yalan danışmırsan..." deyərək təsəlli etmişdi.[45]

Həzrət Peyğəmbər əsla yalan danışmaz, zarafat edərkən belə bu həssaslığını qoruyardı. Yəni o, həm əsəbi, həm də sevincli halında ağzından doğru və həqiqətdən başqa bir söz çıxarmazdı.[46] Rəsulullah səviyyəli, incə və xoş zarafatlar edərdi. Bir dəfə minik heyvanı istəyən birisinə: "*Gəl, səni dişi bir dəvənin balasına mindirək*" – deyərək zarafat etmiş, o adam "Mən dişi dəvənin balasını neyləyirəm? (O məni daşıya bilməz)" sözlərilə təəccübünü ifadə edəndə Allah Rəsulu "*(Bütün) dəvələri dünyaya gətirən dişi dəvə deyil?*" – demişdi.[47] Həzrət Peyğəmbərin zarafatdan xoşu gəldiyini bilən bəzi səhabələr onun lətifəsinə eyni şəkildə cavab verirdi. Hazırcavab və zarafatcıl xasiyyətli Süheyb Rumi bir gün həzrət Peyğəmbərin

[42] B7391 Buxari, Tövhid, 11.
[43] HS2/20 İbn Hişam, Sirət, II, 20.
[44] M508 Müslim, İman, 355; B4971 Buxari, Təfsir, (Ləhəb) 1.
[45] M403 Müslim, İman, 252; B6982 Buxari, Təbir, 1.
[46] D3646 Əbu Davud, Elm, 3; HM6510 İbn Hənbəl, II, 162.
[47] D4998 Əbu Davud, Ədəb 84; T1991 Tirmizi, Birr, 57.

yanına gəlmişdi. Peyğəmbərimizin qarşısında çörək və xurma vardı. Ona: *"Yaxın gəl, ye"* – dedi. Süheyb də xurmadan yeməyə başladı. Rəsulullah (s.ə.s): *"Həm gözün ağrıyır (xəstəsən), həm də xurma yeyirsən?!"* – dedi. Süheyb bu zarafata "Digər tərəflə çeynəyirəm!" deyərək cavab verdi. Rəsulullah (s.ə.s.) gülümsədi.[48]

Həzrət Peyğəmbər səhabələrinə cümə və bayram günləri xütbə verərdi.[49] Bu günlərdən başqa vaxtlar da lazım olanda nəsihət vermək, öyrətmək, həvəsləndirmək və çəkindirmək məqsədilə söhbət edərdi. Rəhmət Elçisi insanlara xitab edərkən hamının onu görməsi və eşitməsi üçün hündür bir yerə çıxardı. O (s.ə.s.), məsciddəki söhbətlərini əvvəllər bir xurma kötüyünün üstündə apardığı halda sonralar səhabələrin sayı artdıqca onların tövsiyəsilə minbərə çıxmışdı.[50] Həzrət Peyğəmbər məsciddən başqa yerlərdə söhbət etdikdə ya bir dəvənin üstündə oturar,[51] ya da yüksək bir yerdə durardı.[52]

Xütbəsinə Allaha həmd-səna ilə başlayan Peyğəmbərimiz (s.ə.s.)[53] sözünü çox uzatmaz, başa düşülməyəcək qədər qısa da danışmazdı.[54] Çünki əsas məsələ söhbəti uzatmaq deyil, az sözlə çox məna və fikir ifadə edə bilməkdir. Bundan başqa həzrət Peyğəmbər bezdirməmək üçün səhabələrinə tez-tez xütbə oxumaz, onların maraq və istəyini canlı

[48] İM3443 İbn Macə, Tibb, 3.
[49] B1015 Buhari, İstisqa, 8; M2047 Müslim, İdeyn, 3.
[50] B3584 Buhari, Mənaqib, 25; HM5886 İbn Hənbəl, II, 110.
[51] T2121 Tirmizi, Vəsaya, 5.
[52] M508 Müslim, İman, 355.
[53] B927 Buxari, Cümə, 29; T1163 Tirmizi, Rəza', 11.
[54] N1419 Nəsai, Cümə, 35; İM1106 İbn Macə, İqamə, 85.

saxlamaq üçün ən münasib vaxtı gözləyərdi.[55] Çünki təlimin zamana yayılması maraq və istəyin davamiyyəti baxımından vacib idi. Xülasə, hər baxımdan və həyatın hər sahəsində öndərimiz və rəhbərimiz olan həzrət Peyğəmbər (s.ə.s.) bütün inananların örnək alacağı ən gözəl nümunədir.

55 B68 Buhari, İlim, 11; M7127 Müslim, Sifatul-münafiqin, 82.

# “MƏN MÜƏLLİM OLARAQ GÖNDƏRİLDİM”

Bir gün evindən çıxıb məscidə gedən həzrət Peyğəmbər orada yığılmış iki qrupa rast gəldi. Bunların birində Qur’an oxuyur və Allaha dua edirlər, digərində isə elm öyrənir və öyrədirdilər. Sevgi və rəhmət dolu baxışlarla onlara qayğı göstərən Rəsuli-Əkrəm: “*Hər biri xeyir yolundadır. Bunlar Qur’an oxuyur və Allaha dua edirlər, Allah istəyərsə onlara verər, istərsə verməz. Digərləri isə elm öyrənir və elm öyrədirlər. Mən də müəllim olaraq göndərildim*” – buyurdu və onların qrupuna qoşuldu.[1] Digər bir rəvayətə görə Rəsuli-Əkrəm həzrət Aişəyə “...*Allah məni dərd verib çətinləşdirmək üçün göndərmədi. Məni yalnız asanlaşdıran bir müəllim olaraq göndərdi*”[2] – buyuraraq özünü təlim və tərbiyəçi olaraq təqdim etmişdi.

[1] İM229 İbn Macə, Sünnət, 17; DM357 Darimi, Müqəddimə, 32.

[2] M3690 Müslim, Təlaq, 29.

Bəli, sevimli Peyğəmbərimiz vəhydən ilham almış, hikmətlə bəzənmiş müdrik bir müəllim idi. İbn Məsudun ifadə etdiyi kimi o (s.ə.s.), xeyirin açarlarını da, nəticələrini də öyrətmişdi.[3] Həyatın hər sahəsində insanlara faydalı olan çox şeyi səhabələrinə öyrədərkən "*Mən sizə bir atanın övladına öyrətdiyi kimi öyrədirəm*" – deyirdi.[4]

"*Elm öyrənmək hər müsəlmana fərzdir*"[5] – buyuran həzrət Peyğəmbər bir mənada təlim və təhsilin dəyişdirən, inkişaf etdirən və gələcəyə hazırlayan xüsusiyyətinə diqqət çəkərək qadın-kişi bütün müsəlmanları elm öyrənməyə həvəsləndirirdi: "*Kim elm öyrənmək üçün bir yola girərsə Allah ona cənnətə gedən yolu asanlaşdırır. Allahın evlərindən bir evdə Allahın Kitabını oxuyan və öz aralarında onu araşdırıb öyrənən bir topluluğun üzərinə səkinə (ilahi yardım, bərəkət və rəhmət) enər, onları rəhmət bürüyər, ətraflarına mələklər yığışar və Allah onları dərgahında olanların yanında anar. Kimin əməli onu gerilədərsə soyu onu qabağa aparmaz*".[6]

Təlim və təhsilin əhəmiyyətini çox yaxşı bilən həzrət Peyğəmbər bunu həyata keçirərkən müxtəlif metodlardan istifadə edirdi. Hər şeydən əvvəl o, ondan məsləhət istəyən insanların hər birinin vəziyyətini, qavrama səviyyəsini, ruh halını və

[3] N1164 Nəsai, Tətbiq, 100; HM4160 İbn Hənbəl, I, 438.
[4] İM313 İbn Macə, Təharət, 16; N40 Nəsai, Təharət, 36.
[5] İM224 İbn Macə, Sünnət, 17.
[6] M6853 Müslim, Zikr, 38; T2945 Tirmizi, Qiraət, 10.

ehtiyacını nəzərə alaraq müxtəlif tövsiyələr verir və onlarla müxtəlif şəkildə rəftar edirdi. O, bəşəri münasibətlərdə və təlim-tədris fəaliyyətlərində həmsöhbətlərin vəziyyətinin həmişə nəzərə alınmasını məsləhət görürdü. Allah Rəsulunun riayət etdiyi bu prinsipləri onun səhabələri də nəzərə alırdı. Belə ki, həzrət Əli “İnsanlara başa düşə biləcəkləri şeyləri rəvayət edin! Allah və Rəsulunun inkar edilməsini istəyərsiniz?”[7] şəklində xəbərdarlıq etmişdi. Abdullah ibn Məsud da: “Əgər bir zümrəyə ağıllarının qavraya bilmədiyi rəvayətləri söyləyərsənsə bu onların bir qismi üçün yalnız fitnəyə səbəb olar”[8] – deyərək hər məlumatın hər qrupa nəql edilməsinin zehinlərin qarışmasına səbəb ola biləcəyinə diqqət çəkmişdi.

Allah Rəsulu elm arxasınca düşən, elm öyrənmək istəyən insanlarla yaxından maraqlanmağı, onları gözəl şəkildə qarşılayıb ehtiyac hiss etdikləri mövzularda məlumat verilməsini istəmiş və belə demişdi: “*Sizin yanınıza şərq tərəfindən elm öyrənmək üçün insanlar gələcəkdir. Onlar sizin yanınıza gələndə onlara yaxşılıq və xeyirxahlıq etməyi məsləhət görün*”.[9]

Həzrət Peyğəmbər müxatəbini utandırmaz və onu çətin vəziyyətdə qoymazdı. Mədinəli cavan səhabə Müaviyə ibn Həkəm qadağan olduğunu hələ bilmədiyi vaxtlarda namaz əsnasında asqıran birinə “Yərhəmukəllah” – demişdi. Camaat baxışları ilə ona etiraz etmiş, o da “Təəssüflər olsun! Niyə mənə elə

[7] Buxari, Elm, 49 —bab başlığı—.
[8] M14 Müslim, Müqəddimə, 5.
[9] T2651 Tirmizi, Elm, 4; İM249 İbn Macə, Sünnət, 22.

baxırsınız?” – deyərək yenə cavab vermişdi. İnsanlar daha da etiraz etdikdə susmaq məcburiyyətində qalmışdı. Namaz qılınıb qurtardıqdan sonra həzrət Peyğəmbərin onunla necə rəftar etdiyini belə nəql edir: “Nə ondan əvvəl nə də ondan sonra daha gözəl öyrədən bir insan gördüm. Vallah, Rəsulullah məni nə danladı, nə vurdu, nə də təhqir etdi. Sadəcə olaraq ‘*Bu namazda insan sözü danışmaq olmaz. Namaz ancaq təsbih, təkbir və Qur’an oxumaqdır*’ – buyurdu”.[10]

Həzrət Peyğəmbər insanların qüsurlarını üzlərinə vurmaz, xoşuna gəlməyən bir hərəkət və davranış görəndə “*Bu insanlara nə olub ki?!*” və ya “*Aranızda bəziləri belə belə edirmiş!*” kimi ifadələrlə ad çəkmədən xəbərdarlıq edərək ifadəsində dolaylı bir üslubdan istifadə edərdi. Beləliklə, müxatəblər insanların arasında üzləri qızarmadan əməllərindən lazımi dərsi çıxarırdılar. Rəsuli-Əkrəm zəkat yığmaq işini Əzd qəbiləsindən İbnul-Lütbiyyəyə tapşırmışdı. Bu şəxs bir müddət sonra bəzi mallarla Rəsuli-Əkrəmin yanına gəlib: “Bu sizə aiddir, bunu da mənə hədiyyə veriblər” – demişdi. Bunu eşidən Rəsulullah minbərə çıxıb: “*Mənim təyin etdiyim bir məmura nə olub ki, ‘Bu sizə aiddir, bunu da mənə hədiyyə veriblər*”, – *deyə bilir! Bu insan atasının yaxud anasının evində otursaydı bir fikirləşsin görək yenə də ona hədiyyə verilərdi?*” – deyərək zəkat yığan məsul bir şəxsin hədiyyə almağını bir növ rüşvət, yaxud vəzifəsini sui-istifadə olaraq görmüş və bu şəkildə hamını bu cür davranışdan çəkindirmişdi.[11]

[10] M1199 Müslim, Məsacid, 33.
[11] M4738 Müslim, İmarət, 26; B2597 Buxari, Hibə, 17.

Müqəddəs Nəbi insanları maarifləndirərkən onlara qarşı nəzakətli davranır həvəsləndirmə metodundan istifadə edirdi. Bir gün səhabənin hafizlərindən olan[12] Übey ibn Kəbə "*Ey Əbul-Münzir! Əzbərində olan ayələrdən hansı daha böyükdür?*", – deyə soruşmuşdu. O da 'Allah və Rəsulu daha yaxşı bilir' – deyəndə Rəsulullah eyni sualı təkrar yenə soruşdu. Übey ibn Kəb '*Allahu lə iləhə illə huval-hayyul-qayyum*' – deyəndə Müqəddəs Nəbi onun sinəsinə yavaşca vuraraq: "*Əbul-Münzir, elm sənə xeyirli, mübarək olsun!*" – buyurdu.[13]

Əbu Hüreyrənin "Qiyamət günündə sənin şəfaətinə ən çox kim sevinəcək?" sualına isə Allah Rəsulu "*Ey Əbu Hüreyrə sənin bu mövzulara olan marağını bildiyimə görə bu sualı səndən əvvəl heç kimin soruşmayacağını təxmin etmişdim. Qiyamət günü mənim şəfaətimə ən çox sevinən insanlar səmimi qəlbdən 'Allahdan başqa bir ilah olmadığını' – deyənlərdir*"[14] -buyuraraq onun sual verməsindən razı qalmış, onu mədh etmiş və elm öyrənənləri bu şəkildə davranmağa həvəsləndirmişdi.

İnsanları maarifləndirərkən və onlara nə isə öyrədərkən asanlaşdırmaq həzrət Peyğəmbərin ən bariz tədris metodu idi. "*Asanlaşdırın! Çətinləşdirməyin! Müjdələyin! Nifrət etdirməyin!*"[15] ifadələri onun təlimdəki rəftarını və münasibətini göstərirdi. Həzrət Aişə deyir ki, Peyğəmbər (s.ə.s.) iki yoldan birini seçmək

[12] B4999 Buxari, Fəzailul-Qur'an, 8; M6334 Müslim, Fəzailus-səhabə, 116.
[13] D1460 Əbu Davud, Vitr, 17.
[14] B6570 Buxari, Riqaq, 51.
[15] B69 Buxari, Elm, 11; M4525 Müslim, Cihad, 6.

məcburiyyətində qalanda günah olmadığı müddətcə ən asan olan yolu seçərdi. Əgər günah isə ondan ən uzaq olan insan olurdu. Vallah, Rəsulullah (s.ə.s.) özünə aid olan heç bir məsələdə intiqam almaq arzusunda olmamışdır. Lakin o, Allahın bir qanunu tapdananda isə mütləq bunun cəzasını verirdi.[16]

Rəsuli-Əkrəm bu düsturu səhabələrinə də tövsiyə edərdi. Bir gün yeni müsəlman olan lakin hələ dinin əxlaq və ədəbini bilməyən bir adam döşəməsi torpaq və qumluq olan məscidə kiçik ayaqyolunu etmişdi. Orada olanlar adamın üstünə hücum etmək istəyirdi ki, Rəsulullah onlara "*Siz yalnız asanlaşdıran olaraq göndərildiniz, çətinləşdirən olaraq göndərilmədiniz. Onun ayaqyolu etdiyi yerə bir qab su tökün*"[17] – deyərək müdaxilə etmiş, sonra da bu adamı yanına çağırıb məscidlərdə bu cür işlərin görülməyəcəyi haqqında öyüd-nəsihət vermişdi.[18]

Allah Rəsulunun tərbiyə metodunda həmsöhbətlərilə mülayim rəftar etmək əsas prinsip idi. O, üzügülər çöhrəsi, şirin dil və gözəl metodu ilə həmsöhbətlərinin yaddaşında həmişə müsbət iz və təsir qoyurdu. Belə ki, Allah onun bu yönünü belə ifadə edirdi: "*Allahın mərhəməti səbəbinə sən onlarla (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər...*"[19] Bundan başqa o, Firon kimi zorba idarəçilərin belə yumşaq sözdən, nazik

[16] M6045 Müslim, Fəzail, 77; D4785 Əbu Davud, Ədəb, 4.
[17] D380 Əbu Davud, Təharət, 136; T147 Tirmizi, Təharət, 112.
[18] M661 Müslim, Təharət, 100; HM13015 İbn Hənbəl, III, 191.
[19] Ali-İmran, 3/159.

davranış və münasibətdən təsirlənəcəkləri həqiqətini ayələrdən öyrənmiş və bu metodu özü də tətbiq etmişdi.[20]

Hüneyn hərbində Rəsuli-Əkrəm qəniməti bölüşdürdükdən sonra bir nəfər bu bölgünün adil olmadığını və Allah rizasına riayət edilmədiyini bildirmişdi. Onun bu sözləri Rəsuli-Əkrəmin qulağına çatanda "Allah və Rəsulu ədalətli deyilsə, kim ədalətli ola bilər ki? Allah Musaya rəhmət etsin, o bundan daha çox əzab görmüşdü, lakin səbr etmişdi" deməklə kifayətlənmişdi.[21] Adamın ədəb və nəzakətdən uzaq bir üslubla bildirdiyi bu etiraz Rəhmət Peyğəmbərinin müəlləfeyi-quluba yəni İslama həvəsləndirilənlər və qəlbləri qazanılanlara bir az çox qənimət verməsindən sonra meydana çıxmışdı. Halbuki Rəsuli-Əkrəmin Beytulmalın beşdə bir (xüms) hissəsindən istədiyi kimi xərcləmək haqqı və səlahiyyəti var idi və zənn edildiyi kimi hər hansı bir ədalətsizlik də yox idi.

Rəhmət Elçisi bütün bu olanlara baxmayaraq insanları maarifləndirərək fəth etməyə çalışırdı. Onlarla həmişə yumşaq rəftar edir və bu şəkildə rəftar edilməsinə rəhbərlik edirdi. Əlbəttə fərdlər səhv fikirləşə bilər hətta səhv işlər görə bilərlər. Xətalarına görə onları uzaqlaşdırmaq, utandırmaq, fayda əvəzinə zərər verə bilərdi. Bu baxımdan Allah Rəsulu belə insanlarla da mülayim rəftar edir və onları xoşluqla öyrədir və tərbiyələndirirdi.

[20] Taha, 20/43-44.
[21] B3150 Buxari, Fərzul-xüms, 19.

Rəhmət Elçisinin təkcə insanlarla deyil, heyvanlarla da bu şəkildə şəfqətli və incə rəftarı müşahidə edilirdi. Bir gün həzrət Aişə yabanı bir dəvəyə minmiş və heyvanı sakitləşdirmək üçün yəhərini sərt bir şəkildə dala-qabağa çəkməyə başlamışdı. Bunu görən Rəsulullah (s.ə.s.) ona “*Ey Aişə mülayim rəftar et! Çünki rifq (nəzakət) harada varsa oranı gözəlləşdirir, harada yoxdursa oranı da çirkləndirir*”[22] buyuraraq dəvəsi ilə yaxşı rəftar etməsini məsləhət görmüşdü.

Həzrət Peyğəmbər bəzən həmsöhbətini xəbərdar etmək, onun maraq və nigarançılığını artırmaq üçün müxtəlif şəkillərdə suallar soruşaraq mövzuya diqqət çəkərdi. Bir gün birlikdə səfərə çıxdığı Müaz ibn Cəbəldən “Ey Müaz! Allahın qulları üzərindəki haqqı nədir bilirsiniz?” soruşmuşdu. Müaz “Allah və Rəsulu daha yaxşı bilir” demişdi. Rəsulullah “*Allahın qulları üzərindəki haqqı Ona heç bir şeyi şərik qoşmamaq və Ona ibadət etməkdir*” – buyurmuşdu. Bir müddət yol getdikdən sonra yenə onun mübarək səsi eşidildi: “*Yaxşı, ey Müaz! Əgər bunu edərlərsə qulların Allah üzərindəki haqqı nədir, bilirsənmi?*” Yenə “Allah və Rəsulu daha yaxşı bilir”dedi Müaz. Rəsulullah “*Allahın onlara əzab etməməsi,*[23] *onları cənnətinə qoymasıdır*”[24] buyurdu.

Peyğəmbər Əfəndimizə Kövsər surəsi nazil olduqdan sonra “*Bismilləhirrahmənirrahim*” deyərək oxumağa başladı və surəni oxuyub qurtardı. Sonra “*Kövsər nədir bilirsiniz?*”, – deyə soruşdu. Səhabə “Allah

[22] D2478 Əbu Davud, Cihad, 1; M6603 Müslim, Birr, 79.
[23] B6500 Buxari, Riqaq, 37.
[24] HM22423 İbn Hənbəl, V, 239.

və Rəsulu daha yaxşı bilir" dedilər. Bu sözdən sonra "*O, Rəbbimin mənə vəd etdiyi cənnətdə bir çaydır*" – buyurdu.[25] Buna oxşar olaraq həzrət Peyğəmbər "*Müflis kimdir bilirsiniz?*"[26] "*Rəbbinizin nə buyurduğunu bilirsiniz?*"[27] kimi suallar soruşaraq səhabənin diqqətini çəkmişdi. Lakin yeni hökmlərin qoyulmasına, məsuliyyətlərin çətinləşməsinə səbəb ola biləcəyindən qorxaraq yerli yersiz sual vermək ayə ilə qadağan edilmiş və Allah Rəsulu da bu şəkildə soruşulan lazımsız sualları xoş görməmişdi.[28]

Bir problemi müxtəlif yollarla həll etməyə çalışmaq həzrət Peyğəmbərin istifadə etdiyi bir metod idi. Bu mənada Rafi ibn Amr əl-Ğifarinin rəvayəti tədris metodu baxımından çox diqqətəlayiqdir: "Hələ uşaq ikən ənsarın xurma ağaclarına daş atmışdım. Bunu görənlər məni Həzrət Peyğəmbərin (s.ə.s.) yanına apardılar. O məndən: '*Övladım, xurmaya nə üçün daş atırsan?*' soruşdu. Mən: 'Yemək üçün!' deyə cavab verəndə Rəsulullah (s.ə.s.): '*Xurmaya daş atma, altına tökülənlərdən ye*' – dedi. Sonra başımı sığalladı və: '*Allahım, bu uşağın qarnını doydur!*' şəklində dua etdi."[29]

Belə zənn edirdilər ki, qorxu və təlaşla qolundan tutub apardıqları uşaq cəzalandırılacaq. Halbuki Rəsulullahın (s.ə.s.) "Övladım" tərzindəki müraciəti ilə qurduğu şəfqət dolu ünsiyyət qarşısında uşaq "Yemək üçün!" deyərək səmimi etiraf etmişdi.

[25] D784 Əbu Davud, Səlat, 121-122; M894 Müslim, Səlat, 53.
[26] M6579 Müslim, Birr, 59; T2418 Tirmizi, Sifatul-qiyamə, 2.
[27] B846 Buxari, Azan,156.
[28] T814 Tirmizi, Həcc, 5; N2620 Nəsai, Mənasiqul-hac, 1.
[29] D2622 Əbu Davud, Cihad, 85; HM20609 İbn Hənbəl, V, 31.

Həzrət Peyğəmbər bəzən bir mövzunu hamının başa düşəcəyi bir misal ilə təsvir edərək başa salırdı. "Təmsil" adlanan bu metodda mücərrəd olan şey konkret/maddi olanla müqayisə edilərək zehnin daha asan qavramasına kömək edirdi. Məsələn Rəsuli-Əkrəm risaləti qəbul edənlərlə etməyənləri belə bir misalla təsvir etmişdi: "*Allahın mənimlə göndərdiyi hidayət və elm (müxtəlif tərkibli) torpaqlara düşən bol yağışa oxşayır. Bunlardan bəziləri təmizdir, suyu udar, bol bitki və ot yetişdirir. Bəziləri quraqdır, suyu (səthində) tutar. Bu sudan insanlar istifadə edir. Həm özləri içər, həm də (heyvanlarını) suvarırlar və əkinçilikdə istifadə edərlər. Digər bir torpaq növü də vardır ki, dümdüzdür. (Onun üstünə də yağış yağar ancaq) o nə suyu saxlayar, nə də bitki yetişdirər. Allahın dinini təfsilatıyla qavrayan, Allahın mənimlə göndərdiyindən (hidayət və elmdən) faydalanan, öyrənən və öyrədən kəs ilə (bunları eşidib təkəbbüründən) başını belə qaldırmayan və Allahın mənimlə göndərdiyi hidayətini qəbul etməyənin misalı bax belədir*".[30] Rəsuli-Əkrəm: "*Yer üzündəki alimlər, göyüzündəki ulduzlar kimidir*"[31] hədisində də alimlərin ətrafını elmlə işıqlandırmasını ulduza bənzətmişdi.

İnanc, əməl və əxlaq məsələləri haqqında həzrət Muhammədin (s.ə.s.) danışdığı qissələr müsəlmanların tərbiyə və tədrisində çox mühüm bir təsirə malik idi. Çünki qissə danışmaq həmsöhbətin marağına səbəb olan, onu rahatladan, həvəsləndirən hətta onu sehrləyən bir metoddur. Qur'anda da tez-tez qeyd edilən keçmiş nəsillərin yaxşı və pis əhvalatları

[30] B79 Buxari, Elm, 20; M5953 Müslim, Fəzail, 15.
[31] HM12627 İbn Hənbəl, III, 156.

nəql edilir, yaxşılığa yönləndirən yaxud pislikdən uzaqlaşdıran bu qissələrə dini və əxlaqi mesajlar mükəmməl şəkildə yerləşdirilmiş, qədim qövmlərin başlarına gələn yaxşı və pis hadisələr ədəbi sənət və təsvirlərlə təsvir edilmişdi. Onlar kimi olanların da başlarına onların başlarına gələnlərin gələcəyi vurğulanaraq xitab edilənlərin bu hadisələrdən ibrət və dərs alması hədəflənirdi. “*...Qissəni danış, bəlkə fikirləşərlər*”[32] ayəsi bir metod olaraq maarifləndirmədə qissələrin təsirindən faydalanmağa işarə edir.

Hiss və həyəcan oyandıran, düşündürən və keçmişdən dərs çıxarmağı öyrədən qissələr ali dəyərlərin, çətin və qarışıq mövzuların başa düşülməsində təsirli bir vasitə idi. Çünki maddi nümunə verərək təsvir, təşbeh və təmsil kimi ədəbi sənətlərdən istifadə edərək bir mövzunu danışmaq həmsöhbətlər üçün maarifləndirici bir dəyərə sahibdir və mənəvi bir dəstək təşkil edir . Bundan başqa fəlakət və bəlalara qarşı dözümü artırır. Dua, təsəlli, səbir və təvəkkülə dəvət edərək buna oxşar bəlalara məruz qalan insanları həvəsləndirir. Buna görə də uşaqlar və gənclər başda olmaqla səhabə həzrət Peyğəmbərin danışdığı qissələrə çox diqqət, həvəs və həyəcanla qulaq asardılar. Həbs etdiyi bir pişiyin ölümünə səbəb olduğu üçün cəhənnəmə girən və əzab çəkən bir qadının halı[33], susuzluqdan nəmli torpağı yalayan bir köpəyə quyudan su çıxarıb içirdiyinə görə Allahın

[32] əl-Əraf, 7/176.
[33] M5852 Müslim, Salam, 151; N1483 Nəsai, Küsuf, 14.

razı qalıb bağışladığı bir adamın vəziyyəti[34] həzrət Peyğəmbərin danışdığı qissələrdən bəziləridir.

Səadət əsrinin tərbiyə, təlim və tədris fəaliyyətlərində səmərəli və münasib vaxtı seçmək prinsipi də nəzərə alınırdı. Bir nəfər Abdullah ibn Məsudun yanına gəlib: "Sənin hər gün bizə vəz verməyini istəyərdim!" – demişdi. Abdullah ibn Məsud isə ona: "Sizi yorub usandırmaq qorxusu məni bundan çəkindirir. Buna görə də mən vəz üçün sizin ən münasib vaxtlarınızı seçirəm. Belə ki Rəsulullah (s.ə.s.) da bezginlik verəcəyindən qorxaraq vəz vermək üçün bizə münasib olan günləri seçərdi" – demişdi.[35] Çünki deyilənlərə maraq və istək yaratmaq üçün bu metod çox faydalıdır.

Rəsulullah (s.ə.s.) tərbiyə və tədris metoduna əsasən hər bir həmsöhbətinə ayrı bir dəyər verirdi. Onunla danışan hər bir səhabə ona daha çox qiymət verildiyini zənn edirdi. Onun (s.ə.s.) yanında uşaqların və gənclərin xüsusi bir yeri var idi. Uşaqlıq və gənclik illərində həyatı mənalı edən faydalı nəsihətlər, düşüncə və inanc əsasları onun ilk öyrətdikləri arasında idi. Belə ki bir gün Abdullah ibn Abbas eyni heyvanın üstündə Rəsulullahın (s.ə.s.) arxasında oturub səfərə gedərkən həzrət Peyğəmbər ona belə demişdi: "*Cavan oğlan! Sənə bəzi şeylər öyrədəcəm. Allahı xatırla ki, Allah da səni xatırlasın. Allahı xatırla ki, Allahı həmişə yanında hiss edəsən. Bir şey istəyəndə Allahdan istə! Köməyə ehtiyacın olanda Allahdan kömək*

[34] M5859 Müslim, Salam, 153; EM378 Buxari,əl-Ədəbul-müfrəd, 137.
[35] B70 Buxari, Elm, 12; T2855 Tirmizi, Ədəb, 72.

*istə! Bunu yaxşı bil ki, bütün insanlar sənə fayda vermək üçün yığılsa Allahın təqdir etdiyindən fərqli sənə heç bir fayda verə bilməzlər. Bundan başqa bütün insanlar sənə zərər vermək üçün yığılsa Allahın təqdir etdiyindən fərqli sənə heç bir zərər verə bilməzlər. Bu barədə qələmlər yazıb qurtarmış, səhifələr (dəki yazılar) qurumuşdur*”.[36]

Rəsulullah (s.ə.s.) bəzən “Övladım” ifadəsi ilə uşaqların duyğu dünyasına xitab edir, diqqətini toplayır və sözlərinin yaxşı qavranmasını təmin edirdi. Belə ki, Ənəs ibn Malik deyir ki: “Rəsulullah (s.ə.s.) mənə: *‘Övladım! Heç kəsə kin saxlamadan və düşmənlik etmədən səhərdən-axşama axşamdan-səhərə qədər yaşaya bilirsənsə, belə olmağa davam et!*’ – dedi. Sonra da belə buyurdu: ‘*Övladım! Bu mənim sünnəmdir. Kim mənim sünnəmi həyata keçirərsə, deməli həqiqətən məni sevir. Məni sevən insan da mənimlə birlikdə cənnətdə olacaqdır*’”.[37] Yenə Rəsulullahın (s.ə.s.) himayəsində böyüyən Ömər ibn Əbu Sələmənin əlini boşqabın içərisində gəzdirdiyini görəndə “*Övladım, bismillah de, sağ əlinlə və öz qarşından ye!*”[38] – deyərək süfrə mədəniyyəti haqqında ona nəsihət vermişdi.

Rəsuli-Əkrəmin söhbət və danışığında bədən dilindən də gözəl istifadə etdiyi başa düşülür. Tədris fəaliyyətlərində müxatəbin vəziyyətinə görə mülayim, səmimi və təsirli bir səs tonu ilə, yaxud yüksək səslə danışmaqla yanaşı mimikaları ilə də həmsöhbətinin ruh dünyasını nüfuz etməyə çalışırdı. Cabir ibn Abdullah Rəsulullahın xütbə verişini belə

[36] HM2669 İbn Hənbəl, I, 293; T2516 Tirmizi, Sifatul-qiyamə, 59.
[37] T2678 Tirmizi, Elm, 16.
[38] M5269 Müslim, Əşribə, 108.

rəvayət edir: "Həzrət Peyğəmbər xitab edərkən gözləri qızarır, səsi yüksəlir, sanki bir orduya xəbərdarlıq edərcəsinə həyəcanlanırdı... Bir dəfə şəhadət barmağı ilə orta barmağını bitişdirərək "*Qiyamət və mən bu şəkildə (yaxın) göndərildim*" – buyurmuşdu.[39]

Həzrət Peyğəmbərin müxatəbləri ilə danışarkən əllərindən də istifadə etdiyi nəql edilir: "(Hər hansı bir şeyi və ya yeri) göstərəndə bütün ovucu ilə göstərərdi. (Hər hansı bir işə) təəccüblənəndə isə ovucunu tərs çevirərdi. Danışarkən ovuclarını birləşdirər və sağ ovucunun içini sol baş başbarmağına vurardı..."[40] O: "*Möminlər bir-birinə dayaq olan bina kimidir*" – deyərkən barmaqlarını bir-birinə keçirmişdi.[41] Müsəlmanların qardaş olduqlarını və bir-birləri üzərindəki haqq və toxunulmazlıqlarından danışarkən isə sözü təqvaya gətirən Allah Rəsulu təqvanın qəlbə aid bir iş olduğunu bildirmək üçün üç dəfə "*Təqva buradadır, təqva buradadır, təqva buradadır*" buyuraraq əli ilə sinəsini/qəlbini göstərmişdi.[42] Yenə şəhadət barmağı ilə orta barmağını birləşdirərək yetimi himayə edən insanın cənnətdə ona nə qədər yaxın olacağını göstərmişdi.[43] "*Şübhəsiz ki, Allah sizin bədənlərinizə və surətinizə baxmaz, lakin qəlblərinizə baxar*" – buyurduqdan sonra yuxarıdakı kimi barmağı ilə sinəsini/qəlbini göstərmişdi.[44] Həzrət Peyğəmbərin üzü qızaranda onun qəzəbləndiyi başa

[39] M2005 Müslim, Cümə, 43.
[40] TŞ226 Tirmizi, Şəmail 97.
[41] B481 Buxari, Səlat, 88.
[42] M6541 Müslim, Birr, 32.
[43] M7469 Müslim, Zöhd, 42; İM3680 İbn Macə, Ədəb, 6.
[44] M6542 Müslim, Birr, 33.

düşülürdü.[45] Xoşuna gələn bir iş olanda yenə sevinci üzündən oxunurdu.[46]

Həzrət Peyğəmbər sözlərinin daha yaxşı başa düşülməsi və öyrənilməsi üçün bəzən şəkillər çəkər, bənzətmələr edərdi. Abdullah ibn Məsuddan nəql edildiyinə görə Rəsulullah (s.ə.s.) bir gün düz bir xətt çəkdi və: "*Bu, Allahın yoludur*" – buyurdu. Sonra bunun sağından və solundan bəzi xətlər çəkdi. Sonra "*Bunlar bəzi yollardır. Hər yolun başında ona səsləyən bir şeytan vardır*" – buyurdu. Sonra da bu ayəni oxudu: "*Şübhəsiz ki bu mənim doğru yolumdur. Elə isə o yoldan gedin. Başqa yollara tabe olmayın. Yoxsa sizi onun (yəni Allahın) yolundan ayırar*".[47]

Bəzi hallarda izah etdiklərinin daha yaxşı qavranması üçün göstərərək, tətbiq edərək izah edərdi. Bir gün bir bədəvi Rəsulullahın yanına gəlib dəstəmazın necə alınacağını soruşdu. Həzrət Peyğəmbər dəstəmaz üzvlərini üç dəfə yuyaraq ona dəstəmaz almağı göstərdi. Sonra da "*Dəstəmaz budur. Bundan artıq edən insan, günah işləmiş, həddi aşmış, yaxud haqsızlıq etmiş olar*".[48]

Allah Rəsulu onun tövsiyələrinə qulaq asmayan insanlara tez-tez xəbərdarlıq edirdi. Bir gün səhabələrindən biri: "Ey Allahın Rəsulu! Filankəs bizə namaz qıldıranda o qədər uzadır ki, az qala daha namaza gəlmək istəmirəm" – dedi. Hədisi rəvayət edən Abdullah ibn Məsud həzrət Peyğəmbəri o günə qədər

[45] B91 Buxari, Elm, 28.
[46] HM18525 İbn Hənbəl, IV, 265.
[47] DM208 Darimi, Müqəddimə, 23; HM4142 İbn Hənbəl, I, 435.
[48] İM422 İbn Macə, Təharət, 48; N140 Nəsai, Təharət, 105.

şahid olmadığı bir əsəblə “*Ey insanlar! Sizlər nifrət etdirirsiniz. Hər kim insanlara namaz qıldırırsa asanlaşdırsın. Çünki camaatın içində xəstə olanlar zəif olanlar və iş-güc sahibi olanlar var*”[49] şəklində xitab edərkən gördüyünü bildirmişdir. Yenə bir gün Allah Rəsulu çətin səfərlərdən biri olan Təbuk səfəri üçün müsəlmanların hazırlıq görməsini istəmişdi. Ancaq üç səhabə bu səfərdə hər hansı bir səbəb və ya bəhanələri olmadığı halda iştirak etməmişdilər. İnanc və ibadətlərində hər hansı bir laqeydlikləri olmayan bu səhabələrin çətin bir gündə səfərdə iştirak etməmələrinə həzrət Peyğəmbər çox kədərlənmişdi. Səfərdən qayıtdıqdan sonra Allahın əmri gələnə qədər heç kəsin onlarla danışmamasını istəmişdi. Onların səhvlərini başa düşüb peşman olmalarından əlli gün sonra Allah Rəsulu onlarla danışmağa başlamışdı.[50]

Peyğəmbərimiz (s.ə.s.) insanları tərbiyə edib maarifləndirərkən danışıq tərzinə də çox diqqət edərdi. Həzrət Aişə Peyğəmbərimizin (s.ə.s.) üslubunu belə nəql edirdi: “Rəsulullah (s.ə.s.) sizin kimi belə sürətlə danışmazdı. Əksinə yanındakılar onun dediklərini əzbərləyə biləcək qədər sözbəsöz və yavaş danışardı”.[51] Hətta “Bir hadisəni danışarkən istəyən hər kəs onun sözlərini saya bilərdi”.[52] Mühüm bildiyi məsələləri təkrar edərdi.[53] Bəzən də diqqətləri çəkmək üçün təkcə giriş cümlələrini təkrar edərdi. Bir gün: “*Burnu yerə sürtülsün! Burnu yerə sürtülsün!*

[49] B90 Buxari, Elm, 28.
[50] M7016 Müslim, Tövbə, 53.
[51] T3639 Tirmizi, Mənaqib, 9.
[52] B3567 Buxari, Mənaqib, 23.
[53] M2008 Müslim, Cümə, 46; D4608 Əbu Davud, Sünnət, 5.

*Burnu yerə sürtülsün!*" – buyuraraq sözə başlamışdı. Səhabələr narahat olmuş özlərini tuta bilməyib dərhal: "Kimin, ey Rəsulullah?" – deyə soruşmuşdular. Allah Rəsulu: "*Yaşlı ata-anasına yaxud onlardan birinə yetişib də onlara görə cənnətə girməyənin!*" buyurmuşdu.[54]

Bəzən səhabələrini adları ilə çağırar: "Buyur, ey Allahın Rəsulu" cavabını eşidərdi. Yenə eyni cür çağırar, eyni cavabı eşidər, bunu bir neçə dəfə təkrarlayardı. Beləcə müxatəblərinin diqqətlərini çəkdikdən sonra deyəcəklərini deyərdi.[55] Mühüm mövzuları bütün camaata birlikdə izah etdiyi kimi bir-bir ad çəkərək izah etdiyi hallar da olurdu.[56]

Rəsulullah (s.ə.s.) tədrisin bir parçası olaraq qadınlara xüsusi vaxt ayırardı. Belə ki, Buxari "Elm üçün qadınlara xüsusi bir gün ayrılırmı?" başlığı altında bu hədisə yer vermişdir: Bir gün bir qadın Rəsulullahın (s.ə.s.) yanına gələrək: "Ey Allahın Rəsulu! Kişilər sənin söhbətlərinə rahatlıqla qulaq asırlar. Bizə də bir gün ayır, o gün sənin yanına gələk. Allahın sənə öyrətdiklərindən bizə də öyrət" – dedi. Rəsulullah (s.ə.s.) "*Filan gün yığılın*" – buyurdu. Bundan sonra qadınlar yığıldılar. Rəsulullah (s.ə.s.) onların yanına gələrək Allahın ona öyrətdiklərindən onlara öyrətdi.[57]

[54] M6510 Müslim, Birr, 9.
[55] B128 Buxari, Elm, 49.
[56] M504 Müslim, İman, 351; B2753 Buxari, Vəsaya, 11
[57] M6699 Müslim, Birr, 152; B101 Buxari, Elm, 35; HM7351 İbn Hənbəl, II, 247.

Bu o deməkdir ki, səadət əsrinin qadınları məscidin qapıları üzlərinə daim açıq olmasına baxmayaraq Rəsulullahın (s.ə.s.) ümuma xitab edən vaz, xütbə və söhbətləri ilə kifayətlənməyərək müstəqil bir gündə daha xüsusi bir tədris istəmişdilər. Qadınlara xüsusi olan bu tədris proqramında məsələlər birbaşa Rəsuli-Əkrəmə sual verilərək soruşulur və cavablar alınırdı. Bəzən də qadınlar həzrət Aişə vasitəsilə məlumat sahibi olurdular. Belə ki, həzrət Aişə bunu belə nəql edir: "Ənsar qadınları nə yaxşı qadınlardır! Həya hissləri onların dinlərini öyrənməyə və dini dərindən dərk etmələrinə mane olmurdu".[58]

Mədinəyə hicrət etdikdən sonra Məscidi-Nəbəviyə bitişik inşa edilən və Süffə adlanan və sadə bir kölgəlikdən ibarət olan bu tədris yeri bir mənada sistematik tədris qurumlarının nüvəsini təşkil edirdi. Özlərini bu elm və irfan yuvasına həsr edən və Əshabı-Süffə adlanan səhabələr həzrət Peyğəmbərin şəxsi himayəsinə verilmiş, dolanışıq və digər xərcləri şəxsən Rəsulullah tərəfindən təmin edilirdi.[59] Ən çox hədis rəvayət edən səhabələrdən olan Əbu Hüreyrə[60], Abdullah ibn Ömər[61] və Uqbə ibn Amir[62] də bu məktəbdən məzun olmuşdu. Vali, komandir, hakim, müəllim kimi dövlət işçiləri əsasən onların arasından seçilirdi.

58 Buxari, Elm, 50 —bab başlığı—; M750 Müslim, Heyiz, 61.
59 B6452 Buxari, Riqaq, 17.
60 T3837 Tirmizi, Mənaqib, 46.
61 M6370 Müslim, Fəzailus-səhabə, 140.
62 M1873 Müslim, Musafirin, 251.

Bundan başqa uzaq yerlərdə yaşayan bəzi səhabələr Rəsulullahı (s.ə.s.) ziyarət edər və bir müddət Süffədə qonaq qalardılar. Onlar bugünkü kurs və seminarları xatırladan bu qısa müddətli tədris proqramlarında dinin hökmlərini öyrənir, evlərinə qayıdanda ailə fərdlərinə, qohum-əqraba və dost-tanışlarına öyrəndiklərini öyrədirdilər. Belə ki, Malik ibn Hüveyris Süffədə qaldıqları günlərlə əlaqədar bu maraqlı xatirəni nəql edir: "Rəsulullahın (s.ə.s.) yanına getmişdik. Hamımız təxminən həmyaşıd gənclər idik. İyirmi gün onun yanında qaldıq. Rəsulullah (s.ə.s.) çox mərhəmətli və çox şəfqətli idi. Ailələrimiz üçün darıxdığımızı başa düşəndə vətənimizdə kimləri qoyub gəldiyimizi soruşdu. Biz də dedik. Rəsulullah (s.ə.s.) bizə '*Ailələrinizin yanına qayıdın, onların yanında qalın, (burada öyrəndiklərinizi) onlara da öyrədin. Namaz vaxtı gələndə namaz qılmalarını əmr edin. Biriniz azan oxusun, yaşca ən böyüyünüz də sizə imam olsun!*' buyurdu".[63]

Rəsuli-Əkrəm prinsip olaraq faydasız elmdən uzaq durar, faydalı elmi istəyərdi. Onun ən çox təkrarladığı və xatırlanmasını arzu etdiyi dua cümlələrindən biri belə idi: "*Allahım! Səndən faydalı bir elm, halal bir ruzi, Sənin qəbul edəcəyin bir əməl istəyirəm!*"[64] O, "*Allahım, doymayan nəfsdən, qorxmayan qəlbdən, faydasız elmdən və qəbul olunmayan duadan sənə sığınıram!*"[65] deyərək də faydasız məlumatdan uzaq durmağın vacibliyini vurğulayardı. Çünki insanın

[63] N636 Nəsai, Azan,8; B628 Buxari, Azan,17.
[64] İM925 İbn Macə, İqamət, 32; HM27056 İbn Hənbəl, VI, 294.
[65] N5540 Nəsai, İstiazə, 65; D1548 Əbu Davud, Vitr, 32.

maddi-mənəvi dünyasına təsir edən və feli bir dəyər daşıyan faydalı məlumat canlı-cansız bütün varlıqlar üçün rəhmət və bərəkət mənbəyi təşkil edərkən faydasız məlumat hafizəyə yük olmaqla yanaşı faydalı məlumatların yaddan çıxarılmasına da yol açırdı.

Elmin və alimin qiymətini bilən həzrət Peyğəmbər elmlə məşğul olan elmi öyrədən insanların olmamasının doğru olmayan təmayüllərə, həqiqəti itirməyə səbəb olacağını bildirirdi. “Allah elmi insanların əlindən bir anda söküb almaz. Lakin alimlərin ruhunu alaraq elmi onların əlindən alır. Nəhayət bir alim belə qalmayanda insanlar cahilləri özlərinə rəhbər seçərlər. Onlara sual verilir və onlar da savadsızca fətva verirlər. Beləcə həm azır, həm də azdırırlar”.[66]

Nəticə olaraq həzrət Peyğəmbərin əxlaq düşüncəsi onun tərbiyə, təlim-tədris metodu, bədən, zehin, ruh və duyğu dünyası baxımından güclü, sağlam və xarakterli bir nəslin yetişməsi və gələcəyə hazırlanması üçün ən qiymətli nümunəmizdir. Çünki insan təlim-tərbiyəsi kimi müqəddəs bir vəzifə həlimlik və təvazökarlıq qədər ciddiyyət, izzət və vüqar da tələb edir. Müxtəlif şərtlərə bağlı və şəraitlərdən asılı olaraq həzrət Peyğəmbərin rəhbərliyi altında onun hədis və sünnələrində asanlıq, tətbiq edilməsi mümkün, uyğun və ahəngli bir müxtəliflik mövcuddur. Əslində təbiəti və yetişmə tərzi nə olursa olsun hər insanın Qur'ani-Kərimin zəngin və canlı nümunəsini nümayiş etdirən və əxlaqi gözəllikləri

[66] B100 Buxari, Elm, 34; M6796 Müslim, Elm, 13.

kamilləşdirmək üçün göndərilən Müqəddəs Nəbidən alacağı nümunəvi hallar, nümunəvi davranış və hərəkətlər mütləq vardır. Xülasə halında desək Rəhmət Elçisinin tətbiq etdiyi tərbiyə və tədris mərhəmət təlimidir.

مُحَمَّد

# PEYĞƏMBƏR NÜMUNƏSİNDƏ TƏSİREDİCİ ÜNSİYYƏT

Bir gün Peyğəmbər (s.ə.s.) səhabələri ilə birlikdə oturmuşdu. Bir cavan oğlan gəldi və: “Ey Allahın Elçisi! (Nəfsimə hakim ola bilmirəm) zina etmək üçün mənə icazə ver!”– dedi. Bunu eşidən səhabələr qəzəblə: “Sus! Bəsdir!” – deyərək cavan oğlana mane olmaq, onu susdurmaq istədilər. Lakin həzrət Peyğəmbər cavan oğlanı yanına dəvət etdi və o da gəlib onun yanında oturdu. Allah Rəsulunun mübarək simasında nə bir hirs, nə də bir əsəbilik əlaməti var idi. Rəhmət Elçisi onunla söhbət etməyə başladı və aralarında belə bir dialoq keçdi:

– “Sən kiminsə sənin ananla zina etməsini istəyərsən?”

– “Canım sənə fəda olsun ki, xeyr, ey Allahın Rəsulu!”

– “Digər insanlar da anaları ilə kiminsə zina etməsini istəməz! Yaxşı, qızınla kiminsə zina etməsini istəyərsən?”

– “Canım sənə fəda olsun ki, xeyr, ey Allahın Rəsulu!”

– “Digər insanlar da qızları ilə kiminsə zina etməsini istəməz! Yaxşı bacınla kiminsə zina etməsini istəyərsən?”

– “Canım sənə fəda olsun ki, xeyr, ey Allahın Rəsulu!”

– “Heç kim kiminsə bacısı ilə zina etməyini istəməz!”

Arxasınca Allah Rəsulu dalbadal bibisi və xalası haqqında da eyni sualı soruşduqdan sonra əlini cavan oğlanın üstünə qoydu və belə dua etdi: “*Allahım! Bu cavan oğlanın günahlarını bağışla, qəlbini təmizlə və iffətini qoru!*”

Ravinin rəvayət etdiyinə görə Allah Rəsulunun cavan oğlanla bu dialoqundan sonra o artıq zinaya yaxın durmadı.[1]

Gələn adam gənc idi, açıq sözlü idi. Peyğəmbərinin yanına gəlib belə bir mövzuda icazə istəməkdən çəkinməmişdi. Çünki Allah Rəsulunun qapısı demək olar ki, ətrafındakı bütün insanların rahatlıqla gəlib dərdini danışa biləcəyi və istədikləri

[1] HM22564 İbn Hənbəl, V, 257.

mövzuda rahatlıqla məsləhətləşə biləcəyi qədər hər kəsə açıq idi. Allah Rəsulu cavan oğlanın üstünə hücum etmək istəyən səhabəyə mane olmaqla kifayətlənməmiş, bu açıq sözlü gənci yanına çağırmışdı. Beləcə, Peyğəmbərimiz həm cavan oğlanı özünə yaxınlaşdırmış, həm də əli ilə ona toxunaraq münasibət qurmaqda bədən dilinin ən təsirli iki amilindən istifadə etmişdir. İdeal bir müəllim olan Müqəddəs Elçi bir tərəfdən bədən dilini çox yaxşı istifadə etmiş digər tərəfdən də soruşduğu suallarla onu qane etmişdi. Beləcə, o, təsiredici ünsiyyətin gözəl bir nümunəsini nümayiş etdirmişdi.

Allah Rəsulu bir insan idi. Səhabələri ilə arasındakı münasibətlərdə nə bir rəsmilik nə də bir sünilik var idi. Əksinə, tamamilə təbii və səmimi bir münasibət müşahidə edilirdi. Bu münasibətlərdə Qur'an və peyğəmbərlik meyarlarına uyğun səmimiyyət hakim idi. Bir dəfə Cabir ibn Səmurədən Rəsulullah ilə birlikdə oturub digər insanlarla söhbət etdikləri kimi söhbət edib etmədikləri haqqında soruşmuşlar. O, bunu belə təsvir etmişdi: "Bəli, biz çox vaxt belə edərdik. Rəsulullah (s.ə.s.) sübh namazını qıldıqdan sonra günəş zirvəyə yüksələnə qədər məsciddən çıxmazdı. O əsnada səhabə ilə söhbət edər, cahiliyyədə yaşadıqları hadisələri xatırlayar və gülərdilər, o da təbəssüm edərdi".[2]

Səhabələr onları öyrədən və tərbiyələndirən bu müəllimdən, yetişdirib istiqamət verən bu tərbiyəçidən, idarə edən bu misilsiz liderdən və nəhayət

[2] M1525 Müslim, Məsacid, 286.

Allahın yoluna rəhbərlik edən onlara tamamən bir həyat verən Rəsulullahın söylədiyi bütün söz və təlimatlara çox böyük əhəmiyyət verirdilər. Buna görə də təkcə onun xütbə, söhbət və nəsihətlərini deyil, harada və nə vaxt olursa olsun bütün bəyanlarını dinləməyə, öyrənməyə çalışırdılar. Onun gətirdiyi dəvət və açdığı yol uğrunda mallarını və canlarını fəda edən səhabə onu "sanki başlarına quş qonmuşcasına"[3] sakit, səssiz, diqqətli və ciddi şəkildə və həzz alaraq dinləyirdilər.

Nəzərə alsaq ki, ən səmərəli ünsiyyət danışanla dinləyən, yaxud izah edənlə həmsöhbəti ortaq hədəf və düşüncələrə, eyni arzu və istəklərə sahib olarkən baş tutar, səhabə ilə həzrət Peyğəmbər arasında ünsiyyətin ən mükəmməl şəraitinin yarandığını rahatlıqla deyə bilərik.

Rəsul və səhabə arasındakı səmimi münasibəti nümayiş etdirməsinə görə bu hadisə diqqətəlayiqdir. Mənbələrdə Sələmə yaxud Süleyman ibn Səxr adlı bir səhabədən danışılır.[4] Bu şəxs Ramazan orucunu tutarkən nəfsinə tamamən hakim olmaq üçün zihar edir, yəni xanımı ilə cinsi yaxınlıq etməməyə and içir. Ancaq yenə də sözünə sadiq qala bilmir. Özünü saxlaya bilməyib xanımı ilə cinsi yaxınlıq edərək bəzi rəvayətlərə görə orucunu[5], bəzi rəvayətlərə görə də ziharını (andını) pozur.[6] Öz hərəkətinə görə çox peşman olur və bu səhvini necə düzəldəcəyini

[3] D3855 Əbu Davud, Tibb, 1.
[4] EÜ2/525 İbnul-Əsir, Üsdul-ğabə, II, 525.
[5] B1935, B1937 Buxari, Sövm, 29-31; M2595-M2603 Müslim, Siyam 81-87.
[6] T1199 Tirmizi, Təlaq və lian, 19; D2213 Əbu Davud, Təlaq, 16, 17.

fikirləşməyə başlayır. Əvvəlcə öz qəbiləsindən kömək istəyir, ancaq belə bir məsələdə onlardan gözlədiyi diqqət və qayğını görmür. Nə olursa olsun qərarını verir və birbaşa Allah Rəsulunun qarşısına çıxır. Çox sevdiyi və qüsursuz hörmət etdiyi Peyğəmbərinə ürəyini açır və səhvini söyləyir. Əməlinə görə nə qədər peşmandırsa, Rəsuli-Əkrəmin onu başa düşəcəyinə və bir həll yolu göstərəcəyinə də bir o qədər ümid bəsləyir.

Həzrət Peyğəmbər Sələməyə qulaq asdıqdan sonra ona kəffarə olaraq arxa-arxaya bəzi cəzalar ödəməsini məsləhət görür. Sələmə ona təklif edilən kölə azad etmək, altmış gün dalbadal oruc və yaxud altmış kasıbı yedirmək cəzalarının heç birinə gücünün çatmadığını bildirir.[7] Bunu eşidən həzrət Peyğəmbər ona bir səbət xurma verib kasıblara paylamasını istəyir. Ancaq Sələmə yaşadığı ərazidə ondan və onun ailəsindən daha kasıb bir kəsin olmadığını xatırladanda həzrət Peyğəmbər buna bir xeyli gülür və xurmaları aparıb ailəsilə birlikdə yeməsini istəyir.[8] Başına gələn bu hadisəni danışan Sələmə məhəlləsinə qayıdanda qəbiləsinə belə deyir: "Sizdən dar görüşlülük və düşüncəsizlik, Rəsulullahdan (s.ə.s.) isə xoşgörü və gözəl düşüncə gördüm."[9]

İslamı yeni qəbul edən Əmr ibn Asın dediyi kimi "Rəsulullah (s.ə.s.) üzü və sözü ilə cəmiyyətin ən pis fərdinə belə üz tutur bununla onların qəlbini

7 HM16535 İbn Hənbəl, IV, 37.
8 M2595 Müslim, Siyam, 81.
9 T3299 Tirmizi, Təfsirul-Qur'an, 58.

qazanmaq istəyirdi."[10] İslamı sevdirmək üçün ətrafındakı insanlara səxavətli və əliaçıq davranırdı. Belə ki, onlardan biri olan Səfvan ibn Ümeyyə belə etiraf etmişdi: "Rəsulullah ən çox sevmədiyim insan idi. Lakin Hüneyn günü mənə o qədər mal verdi ki, nəhayət mənim üçün insanların ən sevimlisinə çevrildi."[11]

Rəsuli-Əkrəm istər peyğəmbərlikdən əvvəl, istərsə də peyğəmbərlikdən sonra tamamilə təbii və təvazökar bir həyat tərzi yaşamağa üstünlük vermişdi. İstər çox çətin illər keçirdiyi Məkkədə olsun, istərsə də nisbətən sakit və rifaha qovuşduğu Mədinə illərində olsun yeyib-içməyində, geyim-keçimində, oturuşunda-duruşunda həmişə bu təvazökarlığa riayət etmişdi. Bu, ictimai statusuna baxmayaraq hamıya eyni nəzakət və hörməti göstərməsində də müşahidə edilirdi. Belə ki, mədinəli kənizlərdən (xidmətçi qız uşaqlarından) biri həzrət Peyğəmbərin əlindən tutub bir məsləhət almaq üçün onu aparmaq istəyəndə gedəcəkləri yerə çatana qədər əlini çəkməzdi.[12]

Bəzən onu görməyə gələn insanlar qarşısında həyəcanlanırdılar. Belə ki, hüzuruna gəlib onunla danışarkən həyəcanlanıb titrəyən birinə "*Qorxma! Mən bir şah deyiləm. Mən də qurudulmuş ət yeyən bir qadının oğluyam*!"[13] demək məcburiyyətində qalmışdı. Təmim qəbiləsindən gəlib həzrət Peyğəmbərin

[10] TŞ345 Tirmizi, *Şəmail*, s. 156.
[11] M6022 Müslim, *Fəzail*, 59; T666 Tirmizi, *Zəkat*, 30.
[12] İM4177 İbn Macə, *Zöhd*, 16.
[13] İM3312 İbn Macə, *Ətimə*, 30; NM3733 Hakim, *Müstədrək*, IV, 1400 (2/466).

hüzuruna çıxarkən həyəcandan titrəyən Qeylə bint Məxrəməni: "*Xanım, həyəcanlanma*!" – deyərək sakitləşdirməsi də bunun gözəl bir nümunəsidir.[14]

Rəvayətlərdən başa düşüldüyünə görə həzrət Peyğəmbərin nə zahiri görünüşündə, nə də üz cizgilərində adi bir baxışla hiss edilən bir fərqlilik, onun Peyğəmbər olduğunu göstərən hər hansı bir əlamət yox idi. Buna görə də daha əvvəl onu görməyənlər səhabələri arasından onu seçə bilmirdilər.[15] Lakin insanların şəxsiyyətləri haqqında dərin məlumata sahib olanlar onun üz cizgilərinə və sözlərinə baxaraq fərqliliyini asanlıqla başa düşə bilirdilər. Belə ki, həzrət Peyğəmbər Mədinəyə çatanda yəhudi alimlərindən Abdullah ibn Səlam onunla görüşdükdən sonra: "Rəsulullahın üzünü görəndə dərhal başa düşdüm ki, onun üzü bir yalançı üzü deyil" – demiş və qısa müddətdən sonra da müsəlman olmuşdu.[16]

Səhabə ilə Rəsulullah arasındakı münasibətlərdə ümumiyyətlə Qur'an və peyğəmbər meyarları hakim idi. Buna görə də həzrət Peyğəmbər ilə səhabə arasındakı bəşəri münasibətlərdə tarazlıq qorunub saxlanırdı. Rəhmət Elçisinin özlərinə qarşı olan sevgi, mərhəmət və bağlılığını çox yaxşı bilən səhabələr ona qarşı qüsursuz hörmət və ehtiram göstərməklə yanaşı, onun yanında özlərini çox rahat hiss edirdilər. Həzrət Aişənin rəvayət etdiyinə görə Mina (Qurban bayramı) günlərində iki cariyə onun

[14] MK21679 Təbərani, əl-Mü'cəmul-kəbir, XXV, 7-11.
[15] B3906 Buxari, Mənaqibul-ənsar, 45.
[16] ST1/235 İbn Səd, Təbəqat, I, 235; T2485 Tirmizi, Sifatul-qiyamə, 42.

otağında dəf çalmış, həzrət Peyğəmbər də paltarına bürünüb yatmış və onlara mane olmamışdı. Bir az sonra gələn həzrət Əbu Bəkr bu mənzərəni görən kimi onları danlamış, həzrət Peyğəmbər isə: "*İşin olmasın ey Əbu Bəkr! Hər xalqın bir bayramı var. Bizim bayramımız da bu günlərdir*" – buyurmuşdu.[17] Bundan başqa Rəsulullah (s.ə.s.) həzrət Aişəni həbəşlilərin məsciddə nümayiş etdirdikləri oyunlara baxmağa da aparmış, həzrət Ömər həbəşliləri danlayıb qovmaq istəyəndə Rəsulullah (s.ə.s.) müdaxilə edərək: "*Onlarla işin olmasın, qoy, səhnələrini rahat-rahat nümayiş etdirsinlər!*" – buyurmuşdu.[18]

Həzrət Peyğəmbərin bu xoşgörüsü, təvazökarlığı, səbrli, həlim-səlim və sakit xarakteri qarşısında səhabə onunla daha rahat və sərbəst hərəkət edirdi. Səd ibn Əbu Vəqqasın rəvayət etdiyinə görə bir gün bir dəstə qüreyşli qadın həzrət Peyğəmbərin hüzurunda yüksək səslə danışarkən həzrət Ömərin gəldiyini eşidən kimi dərhal özlərini yığışdırmışdılar. İçəri daxil olarkən həzrət Peyğəmbərin güldüyünü görən həzrət Ömər: "Allah üzündən gülməyi heç əskik etməsin (nə üçün gülürsən, ey Allahın Rəsulu?)", – deyə soruşanda Rəsulullah: "*Mənim yanımda sərbəst və rahat hərəkət edən bu qadınların sənin səsini eşidən kimi özlərini yığışdırmalarına heyrət etdim!*", – deyə cavab vermişdi. Bunu eşidən həzrət Ömər "Ey Allahın Rəsulu, sən onların çəkinmələrinə daha layiqsən" deyəndən sonra qadınlara tərəf dönüb: "Ey özlərinin düşmənləri! Demək Allahın Rəsulundan çəkinmirsiniz,

[17] B3931 Buxari, Mənaqibul-ənsar, 46.
[18] B988 Buxari, İdeyn, 25.

məndən çəkinirsiniz!", – deyə onları danlamış, onlar isə: "Bəli, sən Rəsulullahdan daha sərt və əsəbisən!" – demişdilər.[19]

Səhabələrilə səmimi rəftar edib mehriban davranmasına baxmayaraq nadir hallarda da olsa Peyğəmbərimizin qəzəbləndiyinin şahidi olan səhabə onun nə üçün və necə qəzəbləndiyini nəql etmişdilər. Səhabələr Rəsulullahın məmnun qaldığını və yaxud qəzəbləndiyini bəzən sözlərindən[20], çox vaxt isə bədən dilindən başa düşürdülər. Onlar yerinə görə Rəsulullahın (s.ə.s.) onlara qarşı mərhəmətli davranmasından əslində qəzəbləndiyini başa düşdükləri kimi[21] "Əsəbiləşən biri kimi güldü"[22] yaxud "Əsəbiləşən biri kimi baxdı"[23] – deyərək gülüş və baxışından belə onun əsəbi olduğunu başa düşürdülər. Əlbəttə ki, hər hansı bir insan kimi Allah Rəsulunun qəzəbləndiyi və ya əsəbi olduğu üzündən məlum olur, qəzəbləndiyi qızaran üzündən hiss edilir, bəzən əsəbiləşdiyinə görə qaşlarının arası tərləyərdi.[24]

Səhabələrindən birinin komandirliyində ordu göndərdiyi bir döyüşdə səhabələrdən birinin bir düşməni "Mən müsəlmanam" dediyi halda öldürdüyünü eşidən həzrət Peyğəmbər dərhal bir xütbə oxumuşdu. Hadisəni danışan Üqbə ibn Malik əl-Leysi Peyğəmbərimizi (s.ə.s.) "Keçirdiyi mənfi hisslər (qəzəbləndiyi) üzündən oxunurdu" deyərək təsvir

19 B6085 Buxari, Ədəb, 68; M6202 Müslim, Fəzailus-səhabə, 22.
20 D4659 Əbu Davud, Sünnə, 10.
21 HM6702 İbn Hənbəl, II, 182.
22 N732 Nəsai, Məsacid, 38.
23 HM2127 İbn Hənbəl, I, 238.
24 HM17657 İbn Hənbəl, IV, 166; B91 Buxari, Elm, 28.

etmişdi. Allah Rəsulu xütbəsində həmin şəxsi daha əvvəl misli görülməmiş bir şəkildə qınamış, o adam: "Ey Allahın Rəsulu! O şəxs canını qurtarmaq üçün: 'Mən müsəlmanam" – demişdi" – deyərək özünü müdafiə etməyə çalışsa da Rəsulullah onu dinləməyərək üzünü çevirmişdi.[25]

Məxzum qəbiləsinə mənsub bir qadın oğurluq etmiş, həzrət Peyğəmbər oğurluğa görə cəza təyin etmiş, qadının qohumları cəzanı yüngülləşdirmək məqsədilə vasitəçilik etməsi üçün həzrət Peyğəmbərin çox sevdiyi Üsaməni göndərmişdilər. Üsamənin Allahın təyin etdiyi cəzalardan birinin yerinə yetirilməməsi üçün vasitəçi olduğuna görə üzünün rəngi dəyişən Rəsulullah (s.ə.s.) onu danladıqdan sonra camaata da bir xütbə vermişdi. O, öz xütbəsində əvvəlki qövmlərin güclü insanlar oğurluq edərkən onlara cəza verməyib zəif və sahibsiz insanlara cəza verdiklərinə görə həlak edildiklərini xəbər vermişdi.[26]

Bu və bunun kimi hadisələrə görə Allah Rəsulu Rəbbinə belə dua etmişdi: "*Mən sadəcə bir insanam. Bir insan kimi razı olar, bir insan kimi qəzəblənərəm. Mən ümmətimdən hər hansı birinə layiq olmadığı halda bəddua etmişəmsə, (ey Rəbbim,) bunu onun üçün bir paklaşma, saflaşma və qiyamət günü sənə yaxınlaşma səbəbi elə!*"[27]

Allahın rəhməti sayəsində o, ətrafındakı insanlarla daim mülayim rəftar etmiş, kobud və daşürək olmamışdı. Bir peyğəmbər olaraq ətrafındakılara qarşı

[25] HM22857 İbn Hənbəl, V, 289.
[26] M4411 Müslim, Hüdud, 9.
[27] M6627 Müslim, Birr, 95.

daim bağışlayıcı və əfv edici olmuş, əks halda vəhyin ilk müxatəbləri olan bu insanların ətrafından dağılıb gedəcəkləri haqqındakı ilahi xəbərdarlığa[28] uyğun hərəkət etmişdir. O, cahil, kobud, zorba bir insan deyildi.[29] Ənəs ibn Malik belə demişdir: “Həzrət Peyğəmbərə on il qulluq etdim. Mənə bir dəfə də ‘Of!”, ‘Niyə belə etdin?’ və ‘Nə üçün belə etmədin!’ demədi”.[30] Yenə kiçik xidmətçisi Ənəsin ifadə etdiyinə görə Rəsulullah (s.ə.s.) pis sözlər söyləyən, lənət yağdıran biri deyildi.[31] Cavan səhabələrdən Cərir ibn Abdullah isə onun rəftarını “Müsəlman olduğum gündən bəri Rəsulullah (s.ə.s.) məni heç vaxt qapısından qaytarmadı. Məni hər görəndə mütləq gülümsəyərdi” şəklində dilə gətirmişdi.[32]

Səhabələrin həzrət Peyğəmbərə bağlılığını Hüdeybiyədə müşahidə edən Qüreyş liderlərindən Ürvə ibn Məsudun Qüreyşə anlatdığı təəssüratları isə belədir: “Ey qövmüm! Vallah, mən bir çox kralın hüzuruna çıxdım, heyətlə Qeysər, Kisra və Nəcaşinin hüzurunda oldum. Vallah, Muhammədin səhabələrinin ona təzim etdiyi qədər heç bir krala adamlarının təzim etdiyini görmədim”.[33] Yenə Hüdeybiyə müqaviləsini təzələmək üçün Mədinəyə gələn, lakin nə həzrət Peyğəmbərdən nə də səhabədən müsbət bir cavab alan Əbu Süfyan Məkkəyə çatanda: “Hal-hazırda

[28] Ali-İmran, 3/159.
[29] əl-Ənam, 6/35; əl-Ğaşiyə, 88/22; Qaf, 50/45.
[30] B6038 Buxari, Ədəb, 39; B2768 Buxari, Vəsaya, 25.
[31] HM12299 İbn Hənbəl, III, 127.
[32] T3820 Tirmizi, Mənaqib, 41.
[33] B2731 Buxari, Şürut, 15; MA9720 Əbdürrəzzaq, əl-Müsənnəf, V, 330.

hamısının qəlbi tək bir ürəyə bağlı olan bir qövmün yanından gəlirəm” – demişdi.[34]

Həzrət Peyğəmbərin bir sıra qərarlarının onun ictihadlarının nəticəsi olduğunu düşünən bəzi səhabələr bəzən müxtəlif səbəblərə görə fərqli fikirlər, yaxud alternativ təkliflər irəli sürürdülər. Çünki onlar çox yaxşı bilirdilər ki, yaxından bələd olduqları Rəsuli-Əkrəm müsəlmanların mənfəəti və ictimai faydaları naminə irəli sürülən məntiqli təklifləri qəbul edir. Belə ki, Bədr müharibəsindən əvvəl həzrət Peyğəmbərin ordunu yerləşdirdiyi yerin susuz və qumlu olduğunu, buna görə hərbi-strateji cəhətdən münasib olmadığını düşünən Xübab ibn Münzir: “Ey Allahın Rəsulu! Məskunlaşdığımız bu yer irəli getməyimizə, yaxud geri çəkilməyimizə çətinlik törədən bir yerdir. Bura Allahın əmri/vəhyi ilə seçdiyin bir yermi, yoxsa bu bir görüş, hərb (metodu), yaxud bir hiyləmi?” – deyərək soruşmuş, ictihadla olduğunu öyrənəndə başqa bir yerə yerləşməyin daha münasib olacağını demiş və həzrət Peyğəmbər də bu təklifə əsasən hərəkət etmişdi.[35]

Getdikcə qızışan Əhzab müharibəsində həzrət Peyğəmbər Qətəfan qəbiləsinə döyüşdən çəkilməyin müqabilində Mədinənin o ilki xurma məhsulunun üçdə birini verməyi planlaşdırmışdı. Bu fikrini səhabələri ilə məsləhətləşəndə nüfuzlu səhabələrdən Üseyd ibn Hüzeyr, Səd ibn Müaz, Səd ibn Übadə və həzrət Ömər ona: “Əgər bu Allahdan gələn bir

[34] MA9739 Əbdürrəzzaq, əl-Müsənnəf, V, 374.
[35] VM1/52 Vaqidi, *Məğazi*, I, 53; HS3/167 İbn Hişam, *Sirət*, III, 167-168.

əmrdirsə, onu dərhal yerinə yetir! Əgər bu barədə sənə vəhy gəlməmiş, sadəcə öz arzundursa arzuladığın kimi onu da yerinə yetir! Sənə qulaq asar və itaət edərik. Yox, əgər bu yalnız şəxsi bir görüşdürsə bizim onlara qılıncdan başqa verə biləcəyimiz heç bir şey yoxdur!" – dedilər. Həzrət Peyğəmbər "*Əgər bu vəhylə bildirilsəydi bu barədə heç sizinlə məsləhətləşməzdim. Bu, sadəcə olaraq sizə ərz etdiyim öz görüşümdür*" dedikdən sonra: "*Elə isə siz deyən kimi olsun*" – buyuraraq onların görüşlərini qəbul etmiş və öz fikrindən dönmüşdü.[36]

Həzrət Peyğəmbərin səhabələrinin müxtəlif tələb və təkliflərinə nə qədər açıq olduğunun ən mühüm göstəricisi də onun ehtiyac hiss etdiyi bir çox məsələdə səhabələri ilə məsləhətləşməsidir. O, vəhy gəlməyən müxtəlif məsələlərdə Uca Allahın "*İş(lərin)də onlarla məsləhətləş, qərar verəndə isə Allaha dayan!*"[37] əmrinə görə səhabələrlə tez-tez məsləhətləşərdi. Belə ki, Əbu Hüreyrə "Rəsulullahdan (s.ə.s.) daha çox səhabələri ilə məsləhətləşən kimsə görmədim" demişdir.[38] Buna görə də onun nümayiş etdirdiyi davranışların, hətta sünnəsinin bir qismi səhabələrilə etdiyi məsləhətlərə əsaslanır.

Rəsulullah məsləhətləşməyə çox əhəmiyyət verdiyi kimi demək olar ki, hər sahədə səhabələrinin fikirlərinə, arzu və təkliflərinə də əhəmiyyət vermiş, onların məsləhətlərinin münasib olanlarını qəbul

[36] VM2/478 Vaqidi, Məğazi, II, 478; MA9737 Əbdürrəzzaq, əl-Müsənnəf, V, 367.
[37] Ali-İmran, 3/159.
[38] T1714 Tirmizi, Cihad, 35; HM19136 İbn Hənbəl, IV, 329.

etmişdi. Belə ki, Bədr müharibəsində həzrət Peyğəmbərin qorunması məqsədilə Səd ibn Müazın bir çardaq hazırlanması təklifinə məmnuniyyətlə razı olmuş,[39] Xəndək müharibəsindən əvvəl Salmanın xəndək qazılması haqqındakı təklifini dərhal tətbiq etmişdi.[40] Həm yaşlandığı, həm də müsəlmanların sayının çoxalmasına bağlı olaraq Təmimi-Darinin minbərə çıxma təklifini rədd etməmiş,[41] yaxın dövlətlərin başçılarına dəvət məktubu göndərmək istəyəndə qeyri-ərəblərin möhürsüz məktubu qəbul etmədiklərinə dair səhabələrin sözlərini diqqətə alaraq bir möhür düzəltdirmişdi.[42]

Həzrət Peyğəmbərin bəzi tələbləri ilə qarşılaşan bir səhabə bunun bir vəhy olub olmadığını soruşa bilirdi. Mənbələrimizdə İbn Abbasdan rəvayət edildiyinə görə həzrət Aişə cariyəsi Bərirəni azad edəndə o, kölə olan əri Müğisdən boşanmaq istəmişdi. Həyat yoldaşını çox sevən Müğis boşanmamaq üçün Mədinənin küçələrində ağlaya-ağlaya onun arxasınca düşmüşdü. Nəhayət Müğis həzrət Peyğəmbərin yanına gəlib: "Ey Allahın Rəsulu, nə olar həyat yoldaşımla aramızın düzəlməsinə kömək et", – deyə xahiş edir. Həzrət Peyğəmbər də: "*Bərirə! Allahdan qorx, o sənin həm həyat yoldaşın həm də övladının atasıdır, onunla barışsan nə olar sanki?*" deyərək onu əri ilə evlilik həyatını davam etdirməyə təşviq etmişdi. Rəsulullahın (s.ə.s.) sözlərinə qulaq asan Bərirə:

39 HS3/168 İbn Hişam, Sirət, III, 168.
40 VM2/444 Vaqidi, Məğazi, II, 445.
41 D1081 Əbu Davud, Səlat, 214, 215; B3584 Buxari, Mənaqib, 25.
42 B65 Buxari, Elm, 7; T2718 Tirmizi, İstizan, 25; M5480 Müslim, Libas və zinət, 56.

"Ey Allahın Rəsulu! Əmr edirsən?" – deyə soruşmuş, həzrət Peyğəmbər: *"Mən sadəcə olaraq sizin aranızı düzəltməyə çalışıram"* – deyə cavab verəndə: "Mənim ona ehtiyacım yoxdur!" – demişdi. Həzrət Peyğəmbər onun bu qəti fikrini görəndə əmisi Abbasa: *"Ey Abbas! Müğisin Bərirəyə olan bu sevgisi ilə Bərirənin ona olan bu nifrətinə sən də təəccüblənmirsən?!"* – deyərək heyrətini ifadə etmişdi.[43]

Həzrət Peyğəmbərə çox bağlı olmalarına baxmayaraq səhabələr bəzən onun bəzi qərarlarını tənqid edərdilər. Ənəs ibn Malikin rəvayət etdiyinə görə həzrət Peyğəmbər Həvazin qəbiləsindən ələ keçirilən çox miqdarda qənimətdən bəzi qüreyşlilərə dəvələri yüz-yüz verəndə cihadda iştirak edən ənsardan bəziləri: "Allah Rəsulullahı bağışlasın, qılınclarımızdan hələ Qüreyşin qanı damlayarkən bizi qoyub onlara verir!" – demişdilər. Bunu eşidən həzrət Peyğəmbər ənsarı yığıb *"Mən bunları yalnız küfr dövründən tam xilas ola bilməyən bəzi insanların qəlbini (İslama) isinişdirmək üçün verdim. Yoxsa o insanlar evlərinə malları ilə gedərkən siz evinizə Allahın Rəsulu ilə qayıtmağa razı deyilsiniz? Vallah, sizin götürdüyünüz onların götürdüyündən daha xeyirlidir"* deyəndə onlar: "Bəli, ey Allahın Rəsulu, biz razı olduq", – deyə cavab vermişdilər.[44]

Yenə həzrət Peyğəmbərin Məkkənin fəthindən sonra Qüreyşdən intiqam almayıb onları bağışlaması, Əbu Süfyanın evinə sığınanlarla evlərinə girib

[43] B5283 Buxari, Təlaq, 16; D2231 Əbu Davud, Təlaq, 18, 19.
[44] B3778 Buxari, Mənaqibul-ənsar, 1; M2436 Müslim, Zəkat, 132-134.

qapılarını bağlayanların əmin-amanlıqda olacağını elan etməsi ənsarda həzrət Peyğəmbərin ana vətəni Məkkədə məskunlaşacağı haqqında bir narahatlıq yaratmış və bəziləri: "Onu şəhərinə qarşı bir sevgi, qəbiləsinə qarşı mərhəmət hissi bürüdü!" – demişdilər. Bunu eşidən Rəsulullah (s.ə.s.): "*Ey ənsar camaatı!*" – deyərək sözə başlamış: "*Mən Allahın bəndəsi və Rəsuluyam, Allaha və sizə hicrət etdim. Həyatım və ölümüm sizin yanınızda olacaq!*" – buyurararq onların nigarançılığına son vermişdi.[45]

Bəzən səhabələr həzrət Peyğəmbərin bəzi işlərinə etiraz da etmişdilər. Hicrətin altıncı ilində həzrət Peyğəmbər və səhabə ilk dəfə Kəbəni ziyarət etmək üçün yola düşəndə məkkəli müşriklər Hüdeybiyədə onların qarşısını kəsdilər və onlarla bir müqavilə bağlamalı oldular. Həzrət Ömər həzrət Peyğəmbərin yanına gələrək zahirən şərtləri çox ağır və müsəlmanların əleyhində kimi görünən bu müqaviləyə etiraz etdi və: "Sən Allahın haqq Peyğəmbəri deyilsən? Biz doğru yolda, düşmənimiz isə batil yolda deyilmi? Nə üçün dinimizin vaciblərini yerinə yetirməkdən çəkinməliyik ?" – dedi. Onun bu sözləri qarşısında həzrət Peyğəmbər: "*Mən Allahın Rəsuluyam və Ona üsyan edəsi də deyiləm və O, mənə kömək edəcəkdir*" – buyurdu. Həzrət Ömər yalnız həzrət Peyğəmbərin fəth müjdəsini verən Fətih surəsini təbliğ etməsindən sonra təskinlik tapmışdı.[46]

[45] M4622 Müslim, Cihad və siyər, 84; HM10961 İbn Hənbəl, II, 538; BS18782 Beyhəqi, əs-Sünənul-kübra, IX, 193.

[46] B2731 Buxari, Şürut, 15; MA9720 Əbdürrəzzaq, əl-Müsənnəf, V, 330.

Rəsulullah (s.ə.s.) bir gün: "*Get, Allahdan başqa ilah olmadığına səmimi qəlbdən inanıb şəhadət gətirənləri cənnətlə müjdələ!*" – deyərək Əbu Hüreyrəni xalqın içərisinə göndərmişdi. Ancaq bu sözü yolda ilk qarşılaşdığı şəxsə, həzrət Ömərə deyəndə o, buna qətiyyətlə etiraz etmişdi. Bunun şəxsən həzrət Peyğəmbərin əmri olduğunu öyrəndikdən sonra isə Əbu Hüreyrəyə: "Gəl, sən bunu insanlara söyləmə, çünki insanların buna arxayın olaraq rahatlaşacaqlarından qorxuram. Qoy, onlar əməl etsinlər" – demişdi. Bunu eşidən həzrət Peyğəmbər: "*Elə isə qoy onlar (əməl) etsinlər*" – buyurmuşdu.[47] Yenə həzrət Ömər Peyğəmbərimizin münafiqlərin liderlərindən olan Abdullah ibn Übey ibn Səlulun cənazə namazını qıldırmasına da sərt bir şəkildə etiraz etmişdi.[48]

Bu nümunələrdən başa düşüldüyü üzrə səhabələr həzrət Peyğəmbərin davranışlarının əsl məqsədini dərk edə bilmədikləri, yaxud da ictimai mənfəətə uyğun görmədikləri vaxt çox səmimi şəkildə ona etiraz edə biliblər. Həzrət Peyğəmbəri çox yaxşı tanıdıqları üçün səhabələr belə vaxtlarda heç çəkinmədən, çox açıq şəkildə onunla danışmış, Rəsulullah da onların iman, ixlas və niyyətləri ilə yanaşı xarakter və duyğularını da nəzərə alaraq bəzilərinin etirazlarının məntiqli olduğunu qəbul etmiş, bəzilərini isə qəbul etməsə də anlayışla qarşılamışdır.

Səhabələrlə həzrət Peyğəmbər arasındakı münasibət və ünsiyyətdə hər hansı bir məsafə yox idi.

[47] M147 Müslim, İman, 52.
[48] B1366 Buxari, Cənaiz, 84; B4671 Buxari, Təfsir, (Tövbə) 12.

Canlarından çox sevdikləri Peyğəmbərlərinə qarşı sonsuz bir etimad, səmimiyyət, sevgi və ehtiram bəsləyirdilər. Allah Rəsulu səhabələrinə nə qədər bağlı idisə, səhabə də ona o qədər ürəkdən bağlı idi. Belə bir ünsiyyət İslam cəmiyyətinin ilk nümunəvi nəslini, "əsri səadət" nəslini meydana gətirmişdi. Səhabə ilə Rəhmət Elçisi arasındakı bu səmimi münasibət əslində müsəlmanlar arasındakı bəşəri münasibətlər baxımından da mükəmməl bir nümunə təşkil edir. Əslində bu gün bu səmimi münasibətlər mühitinə olan ehtiyac həmişəkindən daha çoxdur.

# UŞAQLARA VƏ GƏNCLƏRƏ DOST PEYĞƏMBƏR

Əqrə ibn Habis Təmim qəbiləsinin rəislərindən idi və ərəblər arasında mühüm bir mövqeyə sahib idi. Cahiliyyə dövründə meydana çıxan problemlərin həll edilməsində hakimlik edər və əlindən gəldiyi qədər ədalətlə hökm verərdi. Məkkənin fəth edilməsindən əvvəl müsəlman olan Əqrə[1] əlindən gəldiyi qədər İslamı öyrənməyə çalışırdı. Peyğəmbərimizə (s.ə.s.) dediyi bir söz onun uşaqlara qarşı sevgi ilə davranma və kiçiklərə mərhəmət göstərmə məsələlərindəki əskikliklərinin olduğunu göstərirdi. Əqra bir gün Rəsulullahın öz nəvəsi Həsəni öpdüyünü görmüş: "Mənim on övladım var. Onlardan heç birini öpmədim" – demişdi. Rəhmət Peyğəmbəri bunu eşidəndə: *"Mərhəmət etməyənə mərhəmət edilməz"* – buyurmuş[2] və onun öz səhvini düzəltməsini istəmişdi. Çünki Allah

[1] Hİ1/101 İbn Həcər, İsabə, I, 101-102.
[2] M6028 Müslim, Fəzail, 65; B5997 Buxari, Ədəb, 18.

Rəsulunun (s.ə.s.) mənimsədiyi ən mühüm prinsiplərdən biri kiçiklərə sevgi və şəfqət göstərmək idi.[3]

Həzrət Peyğəmbər uşaqları çox sevərdi. Çünki o, aləmlərə rəhmət olaraq göndərilmişdi[4] və uşaq sevgisi Allahın insana bəxş etdiyi mərhəmət hissinin göstəricisi idi. Bir bədəvi həzrət Peyğəmbərin yanına gəlib ona "Siz uşaqları öpürsünüz? Biz onları (heç) öpmürük" demişdi. Nəbi (s.ə.s.) ona belə mənalı bir cavab vermişdi: *"Allah sənin qəlbindən mərhəməti çıxardıbsa mən nə edə bilərəm?"*[5]

Peyğəmbərimiz (s.ə.s.) uşaqlara olan sevgisini bəzən onlara dua edərək,[6] bəzən onları qucaqlayıb öpərək,[7] bəzən qucağına götürərək göstərirdi.[8] Belə ki, Üsamə ibn Zeyd Rəsulullahın (s.ə.s.) onu bir dizinə, Həsəni də o biri dizinə oturdub onları bağrına basdığını və onlar üçün belə dua etdiyini nəql etmişdir: *"Allahım, bu ikisinə mərhəmət et! Mən də onlara mərhəmət edirəm!"*[9] Bəzən də uşaqları tərkinə alıb[10], çiyinlərinə mindirərək[11], yanaqlarını sığallayaraq[12] hətta onlarla zarafatlaşaraq[13] onlara qayğı göstərirdi.

3 D4943 Əbu Davud, Ədəb, 58.
4 əl-Ənbiya, 21/107.
5 B5998 Buxari, Ədəb,18; M6027 Müslim, Fəzail, 64.
6 B5884 Buxari, Libas, 60; M6256 Müslim, Fəzailus-səhabə, 56.
7 B2122 Buxari, Büyu', 49.
8 B223 Buxari, Vüzu, 59; M5616 Müslim, Adab, 25.
9 B6003 Buxari, Ədəb, 22.
10 B5965 Buxari, Libas, 99.
11 M6259 Müslim, Fəzailus-səhabə, 59; B5996 Buxari, Ədəb, 18.
12 M6052 Müslim, Fəzail, 80.
13 T1992 Tirmizi, Birr, 57; D5002 Əbu Davud, Ədəb, 84.

Mədinəli xanım səhabələr arasında dindarlığı, zəkası və cəsarəti ilə məşhur olan Ümmü Süleym şəxsən iştirak etdiyi Hüneyn müharibəsindən sonra Mədinəyə geri qayıtmış, orada bir oğlan dünyaya gətirmişdi.[14] Körpəni digər oğlu Ənəsin qucağına verib həzrət Peyğəmbərin yanına göndərmişdi. Allah Rəsulu (s.ə.s.) xurma istəmiş və onu çeynəyib yumşaldaraq körpənin ağzına qoymuşdu. Körpə xurmanın dadını alıb dilini, dodaqlarını hərəkət etdirəndə: *"Ənsarın xurmanı sevməyinə baxın!"* – buyurmuş və körpəyə Abdullah adını vermişdi.[15] Məkkə fəth ediləndə də məkkəlilər övladlarını kütləvi şəkildə Rəsulullahın yanına gətirməyə başlamışdılar. Rəsulullah gətirilən uşaqlara həm həyatlarının bərəkətli olması üçün dualar edir, həm də başlarını sığallayaraq[16] uşaqlara olan sevgisini göstərirdi.

Rəhmət Peyğəmbəri uşaqları bəzən tərkinə alaraq sevindirirdi. Abdullah ibn Cəfər[17], Üsamə ibn Zeyd[18] və Fazl ibn Abbas[19] onun tərkinə alıb gəzdirdiyi uşaqlar və gənclərdən bir neçəsi idi. Rəsulullahın bu davranışı uşaqların o qədər xoşuna gəlirdi ki, onun səfərdən qayıtmasını dörd gözlə gözləyirdilər və onu qarşılamaq üçün yarışırdılar. Rəsulullah da uşaqların birini qarşı tərəfinə, digərini arxa tərəfinə mindirərək könüllərini alardı.[20]

[14] "Abdullah b. Ebû Təlhə", DİA, I, 97; ST8/425 İbn Səd, Təbəqat; VIII, 425.
[15] M6322 Müslim, Fəzailus-səhabə, 107; B5470 Buxari, Əqiqə, 1.
[16] D4181 Əbu Davud, Tərəccül, 8.
[17] M6268 Müslim, Fəzailus-sahəbə, 66.
[18] B5964 Buxari, Libas, 98; M2950 Müslim, Həcc, 147.
[19] M3088 Müslim, Həcc, 267; B1685 Buxari, Həcc, 101.
[20] D2566 Əbu Davud, Cihad, 54; B5965 Buxari, Libas, 99.

Allahın elçisi bəzən də uşaqların yanaqlarını sığallayaraq sevgisini biruzə verirdi. Onun bir toxunuşu uşaqlar üçün iftixar səbəbi olub, unudulmaz bir qiymətə sahib idi. Hətta sonrakı illərdə bu xatirələrini başqaları ilə bölüşürdülər. Abdullah ibn Saləbə[21] və Cabir ibn Səmurə də belə xoşbəxt uşaqlardan idi. Cabir başına gələn o xoşbəxt xatirəni belə nəql etmişdi: "Rəsulullah ilə birlikdə ilk namazı (zöhr namazını) qıldım. Sonra O, ailəsinin yanına getmək üçün məsciddən çıxdı, mən də onunla birlikdə çıxdım. O, yolda uşaqlarla qarşılaşdı. Ayaq saxlayıb onların hər birinin yanaqlarını bir-bir sığallamağa başladı. Mənim də yanağımı sığalladı. Əlində elə bir sərinlik və xoş bir qoxu hiss etdim ki, sanki əlini əttarın/ətirçinin (ətir satanın) səbətindən çıxarmışdı".[22]

Peyğəmbərimizin uşaqların arasına girib[23] onlarla uşaq kimi oynadığı, zarafatlaşdığı və oyun oynadığı vaxtlar da olurdu. Məsələn, Mədinənin Xəzrəc qəbiləsinə mənsub bir ailənin uşağı olan Mahmud ibn Rəbi beş yaşında ikən Rəsulullahın onlara aid olan quyudan ağzına aldığı suyu onun üzünə püskürtdüyü haqqında bir xatirəsini nəql edir.[24]

Rəsulullahın uşaqları sevməsinə və bu sevgisini göstərməsinə heç bir şey mane olmurdu. İslamın ən mühüm ibadətlərindən biri olan namazda belə uşaqlara olan sevgisini və diqqətini əsirgəməyən Peyğəmbərimiz bəzən qızı həzrət Zeynəb ilə Əbul-Asın

[21] B4300 Buxari, Məğazi, 54.
[22] M6052 Müslim, Fəzail, 80; ŞN15/85 Nəvəvi, Şərhu Səhihi Müslim, XV, 85.
[23] B6129 Buxari, Ədəb, 81.
[24] B77 Buxari, Elm, 18; M876 Müslim, Səlat, 36.

nikahından olan qız nəvəsi Ümaməni,[25] bəzən də digər qızı həzrət Fatimə və həzrət Əlinin nikahından olan nəvələri Həsən yaxud Hüseyni[26] çiynində, kürəyində yaxud qucağında tutaraq namaz qılardı. Səcdəyə gedəndə nəvəsini yerə qoyar, qalxanda isə təkrar qucağına alardı.

Namaz qılarkən uşaqlar onun qarşısından keçəndə namazını qılmağa davam edər, hətta bəzən dizlərindən tutan uşaqlar olur, ancaq Rəsuli-Əkrəm namazını pozmadan tamamlayardı.[27] Namaz qıldıranda camaatın içərisində ağlayan bir uşaq səsi eşitdikdə dözə bilməyib, namazın qiraət hissəsini qısaldaraq namazı tez bir şəkildə tamamlayardı.[28] Ona mövsümün ilk meyvəsi təqdim edilərkən əvvəlcə bərəkət duası oxuyar, sonra isə onu əvvəlcə orada olan ən kiçik uşaqdan başlayaraq hər kəsə bölüşdürərdi.[29]

Şübhəsiz Rəhmət Elçisinin uşaqlarla olan münasibəti məhəbbət, şəfqət və mərhəmət əsasında qurulmuşdu. O: *"Kiçiyimizə mərhəmət, böyüyümüzə hörmət etməyən, yaxşılığı əmr edib pislikdən uzaqlaşdırmayan bizdən deyildir"*[30] – buyuraraq bu məqama diqqət çəkmişdi. Peyğəmbərimiz (s.ə.s.) nə səbəblə olursa olsun uşaqların incidilməsinə göz yummazdı. Belə ki, onun əmisinin xanımı və nəvəsi Həsənin də süd anası olan Ummul-Fazl bir gün ziyarətə gələrkən yanında Həsəni də gətirmiş və onu Rəsulullahın

[25] M1212 Müslim, Məsacid, 41; B516 Buxari, Səlat, 106.
[26] N1142 Nəsai, Tətbiq, 82; HM28199 İbn Hənbəl, VI, 466.
[27] N755 Nəsai, Qiblə, 7; HM3167 İbn Hənbəl, I, 341.
[28] B709 Buxari, Azan,65; M1055 Müslim, Səlat, 191.
[29] M3335 Müslim, Həcc, 474.
[30] T1921 Tirmizi, Birr, 15; D4943 Əbu Davud, Ədəb, 58.

qucağına vermişdi. Elə o əsnada Həsən babasının qucağını islatmışdı. Bunu görən süd anası "Sən nə etdin!" deyərək uşağın çiyninə vurmuşdu. Rəhmət Peyğəmbəri dözə bilməmiş və: *"Oğlumu incitdin! Allah sənin xeyirini versin!"* – buyurmuşdu.[31]

Uşaqlar dəcəllik edəndə və ya səhv bir iş görəndə Rəsulullah onları danlamaz, qınamaz, döyməz, yalnızca xəbərdarlıq edər səhvlərini düzəltmək üçün onlara yol göstərərdi. Rafi ibn Amr[32] uşaq vaxtı bir gün ənsarın xurmalarını daşlayarkən tutulub Allah Rəsulunun hüzuruna gətirilmişdi. Rəsulullah onu dərhal cəzalandırmaq əvəzinə əvvəlcə: *"Oğlum, xurmalara nə üçün daş atırsan?"* – deyərək soruşmuş, o da "Yemək üçün" deyərək cavab vermişdi. Bunu eşidən Peyğəmbərimiz: *"Xurmalara daş atma onun altına düşənlərdən ye"* – buyuraraq ona düzgün hərəkət etməyi öyrətmiş, başını sığallamış və: *"Allahım, onun qarnını doyur"* – deyərək dua etmişdi.[33]

Kiçik yaşlardan etibarən Rəsulullaha xidmət edən həzrət Ənəsin bu ifadəsi Allah Rəsulunun uşaqlarla olan münasibətini çox gözəl xülasə edir: "Rəsulullaha on il xidmət etdim. Vallah, mənə bir dəfə də: "Of!" – demədi. Hər hansı bir işə görə də "Nə üçün belə etdin?" demədiyi kimi "Kaş ki, belə etsəydin!" də deməmişdi.[34]

Həzrət Peyğəmbər (s.ə.s.) uşaqların şəxsiyyətlərinə hörmət edir və onlara iltifat edərdi. Bu məqsədlə

[31] İM3923 İbn Macə, Təbirur-ruya, 10; HM27416 İbn Hənbəl, VI, 340.
[32] İM2299 İbn Macə, Ticarət, 67.
[33] D2622 Əbu Davud, Cihad, 85.
[34] M6011 Müslim, Fəzail, 51; D4773 Əbu Davud, Ədəb, 1.

bəzən oyun oynayan uşaqlara salam verər[35], bəzən onların paltarlarını mədh edər[36], bəzən də xəstələnəndə onlara baş çəkərdi.[37]

Uşaqların vəfat etməsi də Allah Rəsulunu bir başqa cür kədərləndirirdi. Qızı həzrət Zeynəbin balaca oğlu ölmək üzrə ikən qucağına veriləndə Rəhmət Peyğəmbərinin gözlərindən yaşlar süzülürdü. Səd ibn Übadə: "Ey Rəsulullah ! Bu nə haldır?" – deyəndə Peyğəmbərimiz: *"Bu, Allahın bəndələrinin qəlbinə qoyduğu mərhəmətdir. Allah qullarından ancaq mərhəmətli olanlara mərhəmət edər"* – buyurmuşdu.[38] Bunun kimi kiçik yaşda ölən oğlu İbrahim üçün də kədərlənən Rəsulullah onu bağrına basaraq səssizcə göz yaşı tökmüş və: *"Göz yaşarır, qəlb kədərlənir,..."* – buyurmuşdu.[39]

Peyğəmbərimizin (s.ə.s.) uşaqlarla sevgi, şəfqət və iltifata əsaslanan münasibəti yaşının hər mərhələsində gələcəyin yetişkinlərinə hiss edilən hörməti nümayiş etdirirdi. Onun gənclərlə münasibəti isə daha dərin və təsiredici idi. Özlərinə xas bir əhval-ruhiyyə içərisində olan gənclər istək, arzu, həyəcan, qürur, şiddət kimi hissləri dərin şəkildə hiss edib yaşamalarına baxmayaraq həm də təcrübəsizdilər. Bunu bilən Rəhmət Peyğəmbəri gənclərlə onları qürurlandıran,

[35] M6378 Müslim, Fəzailus-səhabə, 145; D5202, D5203 Əbu Davud, Ədəb, 135, 136.
[36] B3071 Buxari, Cihad, 188.
[37] B5657 Buxari, Mərza, 11.
[38] B1284 Buxari, Cənaiz, 32; M2135 Müslim, Cənaiz, 11; AU8/105 Eyni, Ümdətul-qari, VIII, 105.
[39] M6025 Müslim, Fəzail, 62; B1303Buxari, Cənaiz, 43.

etimad verən, cəsarətləndirən, məntiqli və yumşaq rəftar edirdi.

Rəsulullah gənclərə bir iş tapşıranda təcrübəsizlikdən meydana çıxan ürkəkliyi yox etmək üçün həmsöhbətinə etimad göstərir və onu cəsarətləndirirdi. Həzrət Əli gənc yaşda Yəmənə qazi təyin ediləndə gənc və təcrübəsiz olmasını səbəb göstərərək əvvəlcə utancaqlıq göstərmişdi. Bunu görən Allah Rəsulu mübarək əlini onun köksünə vurmuş və: *"Allahım bunun qəlbinə hidayət, dilinə səbat ver!"* – duası ilə onu cəsarətləndirmiş və ona hər hansı bir məsələdə necə hökm verəcəyini başa salmışdı. Həzrət Əli: "Bundan sonra iki nəfər arasında hökm verərkən heç vaxt tərəddüd etmədim" – demişdi.[40]

Rəsulullah yalnız gənclərin etimad əskikliklərini həll etməklə kifayətlənməmiş, həm də cəmiyyətin gənclərə olan etimadsızlığını da aradan qaldırmağa çalışmışdı. Bir vaxtlar azad etdiyi köləsi olan Zeyd ibn Harisəni gənc olmasına baxmayaraq aralarında daha yaşlı səhabələrin olduğu bir qrupun başına sərkərdə təyin etmişdi. Ancaq səhabələrdən bəziləri onun sərkərdəlik vəzifəsini layiqincə icra edib etməməsindən tərəddüd etmişdilər. Zaman keçdikcə Peyğəmbərimiz (s.ə.s.) dayəsi Ümmü Əymən ilə Zeydin nikahından dünyaya gələn Üsaməni Rumlar üzərinə göndərilən bir orduya sərkərdə təyin etmiş və yenə tərəddüdlər yaranmışdı. Bunu görən Rəsuli-Əkrəm: *"Siz indi Üsamənin sərkərdəliyinə etiraz edirsiniz. Bundan əvvəl atasının sərkərdəliyinə də etiraz*

[40] İM2310 İbn Macə, Əhkam, 1; D3582 Əbu Davud, Qəza (Əqziyə), 6.

*etmişdiniz. Allaha and olsun ki, Zeyd bu vəzifəyə necə layiq və insanların mənə ən sevimlilərindən biri idisə, şübhəsiz ki, Üsamə də atasından sonra mənə insanların ən sevimlilərindən biridir"*[41] – buyuraraq həm etirazların qarşısını almış, həm də gənc Üsaməni cəsarətləndirmişdi.

Gənclərin həssas və duyğularının qarışıq olduğunu bilən Rəsulullah onlarla münasibətlərində bunu nəzərə alır, onlara qarşı çox əsaslı və ədalətli davranırdı. Onun nə dərəcədə zərif ruhlu və həssas olduğunu görən gənclərin Allah Rəsuluna sevgiləri bir qat daha çoxalırdı. Malik ibn Hüveyris və onun yoldaşlarından ibarət bir qrup gənc İslamı qəbul etdikdən sonra öz ölkələrindən çıxıb Mədinəyə həzrət Peyğəmbəri ziyarət etməyə gəlmişdilər. Təxminən iyirmi gün onun yanında qalmış və bu müddət ərzində ailələrindən ötrü darıxmağa başlamışdılar. Rəsulullah (s.ə.s.) bunu hiss etmiş, onların bu halını başa düşmüşdür. Onlar dərdlərini dilə gətirməmiş Rəsulullah (s.ə.s.) onlara: *"Ölkənizə qayıdıb oradakılara (burada öyrəndiklərinizi) öyrədin"* – deyərək ailələrinin yanına qayıtmalarına icazə vermişdi.[42]

Gənc olmağın bəlkə də ən çətin cəhətlərindən birinin qarşı cinsə hiss edilən maraq və arzu olduğunu bilən Peyğəmbərimiz gənclərə düzgün hərəkət etməyi və səbirli olmağı tövsiyə edərdi. Abdullah ibn Məsudun nəql etdiyinə görə o, ətrafındakı gənclərə belə buyurmuşdu: *"Gənclər! Evlənmə imkanı olanınız*

[41] B4469 Buxari, Məğazi, 88; M6254 Müslim, Fəzailus-səhabə, 55.
[42] B685 Buxari, Azan,49; M1535 Müslim, Məsacid, 292.

*mütləq evlənsin. Çünki evlənmək gözü haramdan çevirmək və iffəti qorumaq üçün ən yaxşı yoldur. Evlənməyə imkanı olmayanlar da oruc tutsun. Çünki orucun insanın şəhvətinin qarşısını almaq kimi bir xüsusiyyəti var"*.[43]

Əmisinin oğlu Fazl ibn Abbas evlənmək yaşına gələndə Rəsuli-Əkrəm Mahmiyə adlı zəkat məmuru olan bir səhabəyə: *"Qızını bu cavan oğlanla nikahla"* – buyuraraq vasitəçilik etmişdi.[44] Vida həccində tərkinə aldığı Fazlın yolda gördüyü xanımlara baxdığını görəndə mübarək əli ilə onun üzünü digər tərəfə çevirən də Peyğəmbərimiz idi.[45]

Həzrət Peyğəmbər gənclik həvəsinə bağlı olan cavanların həddi aşmasının qarşısını alarkən onların qəlbinə dəyməz, incitməz, alçaltmaz və səhvini başa düşməsinə kömək edərdi. Bir dəfə nəfsinə hakim ola bilməyib zina etmək istədiyini bildirən bir gənc Peyğəmbərimizin yanına gələrək İslamın haram buyurduğu bir əməli işləmək üçün ondan icazə istəmişdi. Səhabələr dərhal onu susdurmağa çalışmışdılar. Lakin Rəsulullah səhabələri sakitləşdirərək, gənc oğlanı yanına oturdub bir-bir ondan anasıyla, qızıyla, bacısıyla, bibisilə və xalasıyla kiminsə zina etməsinə razı olub-olmayacağını soruşmuşdu. Gənc hər dəfəsində "Xeyr" cavabını vermiş və Rəsulullah da hər dəfəsində digər insanların da buna razı olmayacağını sakit şəkildə başa salmışdı. Sonra: *"Allahım, bu cavanın günahını bağışla, qəlbini təmizlə, namusunu*

[43] B5066 Buxari, Nikah, 3; T1081 Tirmizi, Nikah, 1.
[44] M2481 Müslim, Zəkat, 167.
[45] M2950 Müslim, Həcc, 147; D1905 Əbu Davud, Mənasiq, 56.

*qoru!"* – deyərək dua etmiş və cavan bu niyyətindən dönmüşdü.[46]

Güc, həyəcan və qüvvənin zirvədə olduğu bir dövrdə təcrübəsizlik gəncləri təhlükəli girdablarin içinə ata bilərdi. Rəsulullah (s.ə.s.) güclü iradəsi ilə bu burulğana qarşı özünü qoruyan gənci Allahın öz (ərşinin) kölgəsindən başqa bir kölgənin (himayənin) olmadığı qiyamət günündə kölgələndirəcəyi (himayə edəcəyi) yeddi nəfər arasında sadalamışdır.[47]

Nəbi (s.ə.s.) namusunu qoruyan, Allah qarşısındakı məsuliyyətinin şüurunda olan və doğru yolda addımlayan cavanları ilahi əzabın qarşısındakı maneələrdən biri olaraq təqdim etmiş və: *"...Xuşu hiss edən gənclər, (namaz qılaraq) rüku edən yaşlılar, südəmər körpələr və otlayan heyvanlar olmasaydı mütləq başınıza əzab yağardı"* – buyurmuşdur.[48]

Həzrət Peyğəmbər gənclərin tərbiyəsi ilə şəxsən maraqlanmış, məscidinin yaxınlığındakı Süffə adlı çardaqda Əbu Hüreyrə kimi neçə-neçə cavana dini öyrətmişdi. Gənclik illərini Rəsulullahın yanında keçirən Abdullah ibn Ömər, Abdullah ibn Məsud, Abdullah ibn Abbas, Müaz ibn Cəbəl və Ənəs ibn Malik kimi böyük səhabələrin İslam adət-ənənələrinin inşa edilməsindəki rolları və yerləri danılmazdır. Hər fürsətdə gənclərə xüsusi tövsiyələr edən Allah Rəsulunun Abdullah ibn Abbasa verdiyi nəsihətlərdən biri belədir: *"Cavan oğlan! Sənə bir-iki söz öyrədəcəm: Allahın haqqını qoru ki, Allah da səni qorusun. Allahın*

46 HM22564 İbn Hənbəl, V, 257.
47 B660 Buxari, Azan,36; M2380 Müslim, Zəkat, 91.
48 YM6402 Əbu Yala, Müsnəd, XI, 287.

*haqqına riayət et ki, Onu həmişə yanında hiss edəsən. Bir şey istəyəndə Allahdan istə. Kömək istəyəndə Allahdan kömək istə. Bunu da bilməlisən ki, bütün insanlar (varlıq aləmi) bir mövzuda sənin xeyrinə bir iş görmək üçün bir yerə toplansa, yalnız Allah o xeyir işi sənin üçün yazmışsa sənə kömək edə bilərlər. Yenə bütün insanlar sənə zərər vermək üçün bir yerə yığışsa, yalnız Allah o zərəri sənə yazmışsa sənə zərər verə bilərlər. Çünki qələmlər yazıb bitirmiş, səhifələr də qurumuşdur".*[49]

Nəticə olaraq deyə bilərik ki, Allah Rəsulu peyğəmbərlik vəzifəsini yerinə yetirərkən cinsiyyət və yaş fərqi qoymadan cəmiyyətin hər fərdi ilə yaxından maraqlanmış, bu mənada uşaqlarla sevgi, gənclərlə səmimiyyət dolu bir münasibət qurmuşdur. Bir uşağın əslində gələcəyin gənci, bir gəncin isə vəhyin ən yeni müxətabı olduğunu düşünəndə onların nə qədər dəyərli olduqları başa düşüləcəkdir. Peyğəmbərimiz uşaq və gənclərin gələcəyin məsuliyyətini daşımağa qabiliyyətli şəkildə yetişməsinə xüsusi diqqət yetirmişdir. Mərhəmət və məhəbbətlə böyümüş bir uşaq, yer üzünün xəlifəsi olduğunu şüurlu şəkildə dərk etmiş bir gənc, xülasə məxluqatın əşrəfi (əşrəf-i məxluqat) olan bir "insan" böyütmək üçün çalışmışdır.

[49] T2516 Tirmizi, Sifatul-qiyamə, 59; HM2669 İbn Hənbəl, I, 293.

# QADINLARIN HÜQUQLARI VƏ ŞƏRƏFİ PEYĞƏMBƏRİMİZİN ZƏMANƏTİNDƏ

Mədinənin küçələrində orta yaşlı, kasıb bir qadın, əynində qonşusundan borc aldığı paltarı ilə həzrət Peyğəmbərin evinə doğru sürətlə gedirdi. Ürəyi sıxılır, nə edəcəyini bilmirdi. Göz yaşlarına boğulur, özünü ələ ala bilmirdi. Bir sığınacaq, bir çarə tapmaq ümidi olmasa, bircə addım da atacaq halı qalmamışdı. Təlaşla Allahın Elçisinin yanına gəldi. Boğazında sanki bir şey düyünlənmişdi Xövlə bint Malik ibn Sələbənin.[1] Səsini eşitdirməkdə çətinlik çəkirdi. Allah Rəsulunun qarşısında oturdu. "Ey Allahın Elçisi! Ərim mənə arxasını çevirdi!", – deyə sözə başladı. "Arxasını çevirmə", yəni "zihar" bir cahiliyyə adəti idi və qadını boşamaq mənasına gəlirdi. Kişi zövcəsini öz anasına bənzədərək özünə haram elan edir,

[1] Hİ7/618 İbn Həcər, İsabə, VII, 618-620.

beləliklə, boşanma baş verirdi.[2] Əslində Xövlə uzun illər sürən və övladlarını yetişdirdiyi ailə yuvasını xilas etməyə çalışırdı. Halbuki ənənəyə görə belə bir boşanmanın geri dönüşü yox idi. Amma Xövlə Allahın və Rəsulunun rəhmət və mərhəmətinə güvənir, bir həll yolu tapılacağına inanırdı. Sözlərinə belə davam etdi: "Ey Allahın Elçisi! Mən öz cavanlığımı ərimə verdim. Onun üçün övladlar dünyaya gətirdim. Yaşlanıb doğmaqdan kəsiləndə mənə, sanki öz anası imişəm gözü ilə baxıb arxasını çevirdi!"

Xövlənin çırpınışları Rəsulullaha da dərindən təsir etmişdi. Lakin öz yuvasını xilas etməyə çalışan bu gözüyaşlı qadının vəziyyətilə əlaqəli Allahın ona bildirdiyi bir hökm yox idi. Geniş yayılmış adət nə idisə verəcəyi qərar da o olacaq idi. Buna görə artıq Xövlə boşanmış sayılacaqdı. Təsəlli etmək üçün Xövləyə üz tutdu və "*Əminin oğlu (Övs) artıq çox yaşlı bir adamdır. Onun haqqında Allahdan qorx!*" – buyurdu.[3] Xövlə bu vəziyyəti qəbul edə bilmir, Allahın onu belə vəziyyətdə qoymayacağına inanırdı. Demək olar ki, bütün həyatını onunla birlikdə keçirmişdi. Bundan belə tək başına nə edərdi? Mütləq bu məsələnin bir həlli olmalı idi. Dodağının altından belə mızıldandı: "Allahım, şikayətimi sənə bildirirəm!"

Allah-Təala məruz qaldığı bu haqsızlığa sinə gərmək və yuvasını xilas etmək üçün

[2] BS15653 Beyhəqi, əs-Sünənul-kübra, VII, 608.
[3] HM27862 İbn Hənbəl, VI, 410.

mübarizə aparan bu qadının yalvarışına cavab vermiş və "mücadilə edən qadın" mənasındakı Mücadilə surəsini nazil etmişdi.[4]

Surə "*(Ey Peyğəmbər!) Əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin danışığınızı eşidir. Həqiqətən, Allah (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir!*"[5] ayəsi ilə başlayır. İlahi rəhmət qadınların qürurunu qıran, onları dərindən yaralayıb zərərçəkənə çevirən bu mənfur adəti rədd edirdi: "*Sizdən öz qadınları ilə zihar edən kimsələrin zövcələri (əslində) onların anaları deyillər. Onların anaları ancaq özlərini doğan qadınlardır...*"[6]

Bu cahiliyyə adətinin ortadan qalxmasında Xövlənin mücadiləsinin təsiri olmuşdur. Ancaq bu məsələdə daha da əhəmiyyətli nöqtə Xövləyə mücadilə edə bilmə gücü verən İslamın qadına verdiyi dəyəri dərk etməsi idi. Qadınlarla əlaqəli cahiliyyədən qalma çox sayda mənfur təsəvvür və davranış İslamla dəyişdirilmişdi. Buna görə Xövlə Allaha sığınmış, nəticədə qadını əzən bir adətin sona çatmasına vəsilə olmuşdu.

Həzrət Peyğəmbərin içində yaşadığı, boya-başa çatdığı İslamdan əvvəlki Məkkə cəmiyyətində qadına verilən dəyər bir qız övladı doğulduğu zaman hiss edilənlər və baş verənlərlə anlaşıla bilərdi: "*Onlardan birinə qızı olması ilə müjdə verdikdə qəzəblənib üzü qapqara qaralar. Verilən müjdənin pisliyi üzündən*

[4] D2214 Əbu Davud, Təlaq, 16-17; N3490 Nəsai, Təlaq, 33; İM2063 İbn Macə, Təlaq, 25.
[5] əl-Mücadələ, 58/1.
[6] əl-Mücadələ, 58/2.

*tayfasından qaçıb gizlənər. (Allah bilir!) Görəsən, onu (o körpəni) zillət içində saxlayacaq, yoxsa torpağa göməcək?*"[7] Halbuki Allah bu dəyərin "pis bir hökm" olduğunu bildirmiş,[8] Məryəm kimi bir qız övladını məhz "nadidə bir çiçək" kimi yetişdirdiyini bildirmişdi.[9] Allahın Rəsulu isə bir hədisində belə buyurmuşdu: "*Kimin üç qızı və ya üç bacısı olarsa, və yaxud iki qızı və ya iki bacısı olarsa, onlarla birlikdə gözəl şəkildə yaşayar və onlara qarşı məsuliyyətini Allah qarşısında şüurlu şəkildə dərk edərsə, həmin şəxs cənnətlikdir!*"[10] Bu ilahi buyruqlara görə artıq dünyaya gözlərini açan qız övladı xəcalət və qəzəblə deyil, cənnətə apara biləcək bir varlıq olaraq qarşılanmalı idi.

Xüsusilə yetim və sahibsiz qızların hüquqlarının qorunması, yaşama hüquqlarının zəmanət altına alınması İslamın böyük əhəmiyyət verdiyi məsələlərdən biri idi. İslamdan əvvəlki dövrdə bir şəxsin himayəsində və qayğısında böyümüş yetim və kimsəsiz qızlar cəmiyyətdə digər qadınlara verilən mehirdən daha az mehirlə onlara baxan şəxslərlə evlənməyə məcbur edilirdilər. Halbuki mehir nikahdan sonra qadının maddi təminatına zəmanət sayılan bir məbləğ idi. Buna görə Həqq-Təala nikahın pozulması zamanı "qadına yüklü miqdarda mehir" verilmiş olsa da bunun alınmamasını istəmişdi.[11] Mehir evlilik həyatında qadına təmin edilən bir imkan olduğuna görə yetim qızların sahibsiz olmalarından istifadə

7 ən-Nəhl, 16/58-59.
8 ən-Nəhl, 16/59.
9 Ali-İmran, 3/37.
10 T1916 Tirmizi, Birr, 13; HM11404 İbn Hənbəl, III, 43.
11 ən-Nisa, 4/20.

edilərək cüzi bir mehir müqabilində ərə verilmələri qadağan olunmuşdu. Digər tərəfdən cahiliyyədə yetim qızlara baxmaq məsuliyyətini öhdəsinə götürən şəxslər sırf o qızların gözəlliyinə tamah salıb varis olduqları malı da əldən verməmək üçün evlənmələrinə mane olurdular. Ancaq qadınlara qarşı bu təzyiq və zülm nazil olan bu ayə ilə rədd edildi: "*Səndən qadınlar barəsində fitva (əsasında hökm çıxarılan şəri məsləhət) istəyirlər. De ki: "Onlar barəsində fitvanı sizə Allah və Kitabdan (Qur'andan) sizə oxunan (ayələr) verir. Onlar verilməsi vacib olanı (mirası) özlərinə verməyərək evlənmək istədiyiniz yetim qızlar (qadınlar) və aciz uşaqlar haqqında, həmçinin yetimlərlə ədalətlə rəftar etməniz barədə olan ayələrdir". Sizin etdiyiniz bütün xeyirli işləri, şübhəsiz ki, Allah bilir!*"[12]

İslam ilə birlikdə qadınlara qarşı cahiliyyədən qalma mənfur yanaşma və davranışlar, təzyiq və əziyyətlər gün keçdikcə bir-bir ləğv olunurdu. Bir gün Peyğəmbər şəhərində bir adam, sanki intiqam alırmış kimi zövcəsinə qəzəblə belə dedi: "Vallah, nə səni boşayaram, nə də səninlə evli qalaram!" Qadın bunun necə olacağını soruşdu. Həmin şəxs: "Səni boşayaram, iddətinin bitməsinə yaxın yenə qayıdaram. Sonra yenə boşayaram və eyni şeyi edərəm", – deyə cavab verdi. Beləliklə, qadını bəlkə yüz dəfə boşaya bilər, lakin iddət daxilində qayıdaraq başqası ilə evlənməsinə də mane olardı. Qadın həzrət Aişənin yanına gəldi və vəziyyəti anlatdı. Ərinin bu özbaşına qərarı ilə o, nə evli, nə də dul bir qadın olacaqdı.

[12] ən-Nisa, 4/127; B5128 Buxari, Nikah, 37; B5140 Buxari, Nikah, 44.

Sadəcə əsir bir qadın olaraq həyatını davam etdirməli idi. Həzrət Aişə qadına heç bir şey söyləmədi, vəziyyəti Rəsulullaha danışdı. Rəhmət Peyğəmbəri də belə bir vəziyyyət qarşısında susdu. O an Allah-Təala boşanmada qadınların hüquq və şərəfini qoruyacaq möhtəşəm hökmü nazil etdi: "*(Rici) talaq vermə (boşama) iki dəfə mümkündür, ondan sonra yaxşı dolanmaq (qadını yaxşı saxlamaq), ya da xoşluqla ayrılmaq (buraxmaq) gərəkdir.*"[13]

İslamdan əvvəlki dövrdə əri vəfat etmiş dul qadınlar da ciddi çətinliklərlə üzləşirdilər. Ərlərinin ailələri və yaxın qohumları zorla bu qadınlara yiyələnir, ya özləri onlarla evlənir, ya istədikləri insanlara ərə verir, ya da heç vaxt ərə getmələrinə icazə vermirdilər. Dul bir qadının yenidən evlənmə məsələsində özünün əsla hər hansı bir söz hüququ yox idi. Ancaq ərinin ona ödədiyi mehri ərinin ailəsinə qaytardığı təqdirdə evlənməsinə icazə verilərdi. Qadın bir mənada ölən ərinin mirası hesab olunurdu. Qadına öz nikahı ilə əlaqədar söz hüququ verməyən bu ənənə də "*Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir*"[14] ayəsi ilə rədd edildi.[15] Bu ayənin nazil olmasından əvvəl qadınları ərlərinin ailələrindən azyaşlı bir uşaq ilə də nikah bağlayaraq evdə saxlaya bilirdilər. Bir gün bu adət elə bir çirkin nöqtəyə gəlib çatdı ki, mədinəli şair Əbu Qeys ibn Əslət öldüyü zaman oğlu Qeys atasının mirası saydığı ögey anası Kəbşə bint Mən ilə evlənməyə can atdı. Çarəsiz

[13] əl-Bəqərə 2/229; T1192 Tirmizi, Təlaq, 16.
[14] ən-Nisa, 4/19.
[15] B4579 Buxari, Təfsir, (Nisa) 6; D2089 Əbu Davud, Nikah, 21, 22.

qadın dərhal Rəsulullahın yanına gələrək vəziyyəti bildirdi və hadisə ilə əlaqədar bu ayələr nazil oldu: "*Atalarınızın evlənmiş olduğu qadınlarla evlənməyin! Yalnız keçmişdə (Cahiliyyə dövründə) olan bu cür işlər müstəsnadır. Əlbəttə, bu çox çirkin, iyrənc işdir və (Allahın qəzəbinə səbəb olan) pis bir yoldur!*"[16] Həmçinin Rəsulullah (s.ə.s.) nikah yaşına çatmış qızların da ataları tərəfindən zorla ərə verilməsinə yaxşı baxmamış, onlara söz azadlığı verilməsini istəyərək belə buyurmuşdur: "*Öz razılığı alınmadıqca dul qadınla, özündən icazə alınmadığı müddətcə də bakirə qız ilə nikah bağlanmaz.*"[17]

İslam cəmiyyəti Mədinədə hərtərəfli şəkildə təşəkkül etdiyi zaman qadın hüquqlarına dair aparılan bir digər islahat da miras ilə əlaqəli idi. Uhud döyüşündən sonra bu döyüşdə şəhid düşən mədinəli səhabə Səd ibn Rəbinin zövcəsi iki qızını da götürüb həzrət Peyğəmbərin hüzuruna çıxdı: "Ey Allahın Elçisi, bunlar Səd ibn Rəbinin qızlarıdırlar. Ataları Uhud döyüşündə səninlə birlikdə vuruşarkən şəhid oldu. Əmiləri onların bütün var-dövlətinə sahib çıxıb onlara heç bir şey buraxmadı. Var-dövlətləri olmadan ərə getmələri də imkansızdır!" – deyərək məruz qaldıqları haqsızlığı dilə gətirdi. Şübhəsiz ki, belə bir haqsızlığa məruz qalan ilk qadınlar Sədin zövcəsi və qızları deyildi. Çoxdan bəri tətbiq edilən ənənəyə əsasən qadınlar və qız övladları miras almırdılar. Sədin zövcəsi bu haqsız adətə İslamın son verəcəyindən əmin

[16] ən-Nisa, 4/22, NS11095 Nəsai, əs-Sünənul-kübra, VI, 321; BS14236 Beyhəqi, əs-Sünənul-kübra, VII, 253; İBS845 İbn Əbdülbər, İstiab, s. 845.
[17] B5136 Buxari, Nikah, 42.

idi. Həzrət Peyğəmbər (s.ə.s.) ona Allah bu məsələ ilə əlaqəli hökm verənə qədər səbir etməsini söylədi. Bir müddətdən sonra da miras ayələri nazil oldu. Həzrət Peyğəmbər Sədin qardaşını çağıraraq qızlara mirasın üçdə ikisini, analarına səkkizdə birini verməsini, geri qalanını da özünün götürməsini söylədi.[18] Böyük xəlifə həzrət Ömər qadınların İslamın gəlişindən sonra qazandıqları hüquqları bu cümlə ilə ifadə etmişdir: "Vallah, cahiliyyə dövründə biz qadınlara heç qiymət verməzdik. Allah onlarla əlaqəli ayələr nazil edib onlara verdiyi payı verənə qədər bu belə davam etdi."[19]

Səhabə qadınlar İslamın gəlişi ilə birlikdə yalnız cahiliyyə dövründə məruz qaldıqları haqsız davranışlardan xilas olmamış, həm də ictimai həyatda daha aktiv rol oynamağa başlamışdılar. Onların döyüşlərdə öhdələrinə götürdükləri vəzifələr bunun açıq göstəricisidir. Xeybər qəzvəsindən qabaq bir dəstə qadın Rəsulullahın yanına gələrək belə demişdi: "Ey Rəsulullah! Biz yun əyirərək qazandıqlarımızla Allah yolunda cihada çıxırıq. Özümüzlə yaralılar üçün dərmanlar götürmüşük. Biz orada ətrafa dağılmış oxları yığıb əsgərlərə verə bilərik, onlara un şorbası hazırlaya bilərik." Bunu eşidən Rəsulullah: "*Haydı, elə isə qalxın!*" – buyurmuş, Xeybər fəth edildikdən sonra qənimətdən kişilərə verdiyi kimi qadınlara da pay vermişdi.[20]

[18] T2092 Tirmizi, Fəraiz, 3; D2892 Əbu Davud, Fəraiz, 4; İM2720 İbn Macə, Fəraiz, 2.
[19] B4913 Buxari, Təfsir, (Təhrim) 2; M3692 Müslim, Təlaq, 31.
[20] D2729 Əbu Davud, Cihad, 141.

Həzrət Peyğəmbər dövründə qadınlar rahatlıqla ictimai həyatın bir çox sahəsində iştirak edirdilər. Bəzi xanımlar ticarətlə,[21] bəziləri təlim-tərbiyə ilə,[22] bəziləri də səhiyyə xidmətləri ilə[23] məşğul olurdular. Ancaq Peyğəmbər dövründə qadınların cəmiyyətdəki dəyər və əhəmiyyətini göstərən bəlkə də ən mühüm iş Allah Rəsulunun xanımlardan beyət alması idi.[24] Şəhər dövlətinin rəhbəri ilə vətəndaşları arasında bir növ sədaqət anlaşması mənasını verən beyətlərdə səhabə xanımların da iştirak etməsi onlara mühüm ictimai yer və siyasi iştirak hüququ verildiyini göstərir.

Həzrət Peyğəmbər bir tərəfdən xanımlara ailə və cəmiyyət həyatında dəyər qazandırır, digər tərəfdən də onları hər zaman qoruyur, müdafiə edir, hüquqlarının pozulmasına və əziyyətə məruz qalmalarına izn vermirdi. Həzrət Peyğəmbər zorakılıq tərəfdarı kişilərə zövcələri ilə eyni yatağı bölüşdüklərini xatırladaraq qadına qarşı zorakılığı qadağan etmişdir.[25] Həzrət Aişə Allah Rəsulunun heç bir qadına və xidmətçiyə əl qaldırmadığını söyləmişdi.[26] Qadınlara qarşı nəzakətli və anlayışlı rəftar etmək Peyğəmbərimizin həyat prinsiplərindən biri idi. O (s.ə.s.), xanımlara qarşı nəzakətli olmağı nəsihət edərkən özünəməxsus bir üslubla onları zərif büllura oxşatmışdı. Ənəs

21 İM2204 İbn Macə, Ticarət, 29.
22 D3887 Əbu Davud, Tibb, 18; HM27635 İbn Hənbəl, VI, 372.
23 B5679 Buxari, Tibb, 2.
24 əl-Mumtəhinə, 60/12; B1306 Buxari, Cənaiz, 45; M4834 Müslim, İmarə, 88.
25 B4942 Buxari, Təfsir, (Şəms) 1; M7191 Müslim, Cənnət, 49.
26 M6050 Müslim, Fəzail, 79.

ibn Malikdən rəvayət olunduğuna görə Vida həcci üçün yola çıxdıqları zaman Ənəsin anası Ümmü Süleym Peyğəmbərimizin zövcələri ilə birlikdə idi. Əncəşə adlı bir karvan bələdçisi də onların dəvələrini yönləndirirdi. Bu gözəl səsli kölə səfərin həyəcanı ilə yüksək səslə nəğmələr oxuyaraq[27] dəvələri sürətləndirdiyi üçün Rəsulullah ona belə dedi: *"Ey Əncəşə! Büllurları daşıyarkən ehtiyatlı ol!"*[28]

Mərhəmət Elçisi qadının xilqətdən incə və zərif olan yaradılışına diqqət çəkərək kişilərə xəbərdarlıq etmiş, bu həssas yaradılışı görməməzlikdən gələrək ona təzyiq göstərməyin qırılma ilə nəticələnəcəyinə işarə etmişdir.[29] Şübhə yoxdur ki, ümmətin xeyirliləri həzrət Peyğəmbəri nümunə götürənlərdir. Allahın Elçisi həyatın hər sahəsində olduğu kimi qadınlara qarşı yaxşı münasibət göstərməklə də nümunəvi olmuş və belə buyurmuşdur: *"Ən xeyirliniz ailəsinə qarşı ən gözəl rəftar edəninizdir. Sizin aranızda ailəsinə qarşı ən yaxşı rəftar edən mənəm."*[30]

Rəsulullahın qadınlara olan yaxşı münasibəti, təzyiq və şiddətə qarşı mübarizədəki əzmi sayəsində Mədinədəki qadınlar rahat yaşamışdılar. Hətta həzrət Ömər Mədinəyə hicrət etdikdən sonra qadınların, xüsusilə ailədaxili mövqelərinin nə qədər dəyişdiyini belə ifadə etmişdi: "Biz (Qüreyş qəbiləsi olaraq) qadınların üzərində hakimiyyət qurmuş bir cəmiyyət idik. Mədinəyə gəldiyimiz zaman isə qadınların

[27] EÜ1/284 İbnul-Əsir, Üsdul-ğabə, I, 284.
[28] M6039 Müslim, Fəzail, 72; B6149 Buxari, Ədəb, 90.
[29] B5184 Buxari, Nikah, 80; M3650 Müslim, Rəza', 65.
[30] İM1977 İbn Macə, Nikah, 50; T3895 Tirmizi, Mənaqib, 63.

sözünün keçdiyi bir cəmiyyətlə qarşılaşdıq. Bir müddət sonra bizim qadınlarımız da onların qadınlarının bu rəftarını mənimsəməyə başladılar."[31]

Mədinədə qadınların öz tələblərini irəli sürmə, hüquqlarını axtarma və özlərini müdafiə etmə məsələlərində gündən-günə daha rahat davranmağa başlamaları həzrət Ömər kimi məkkəli səhabələrin çox da xoşuna gələn bir hal deyildi. Belə ki, bir gün həzrət Ömər bu barədə fikrini söyləyən zövcəsinə: "Sən kimsən ki, Ömərə ağıl verəsən!" – deyərək qəzəblənmiş, bunun müqabilində zövcəsi: "Sənə cavab verməyimə niyə mane olursan? Vallah, Peyğəmbərin (s.ə.s.) zövcələri də ona cavab verir, hətta bəzən bəziləri axşama qədər ondan küsülü qalır" – demişdi. Bu vəziyyət həzrət Öməri bir xeyli narahat etmiş və birbaşa həzrət Peyğəmbərin zövcələrindən biri olan qızı həzrət Həfsənin yanına gedərək vəziyyətin belə olub-olmadığını araşdırmışdı. Həzrət Həfsənin deyilənləri təsdiq etdiyini eşidəndə həzrət Ömər qızına belə bir nəsihət vermişdi: "Hər kim bunu edibsə, vay onun halına! Ziyana düşən özü olacaq. Rəsulullahın (s.ə.s.) hirsinə görə Allahın sizə qəzəbi tutmayacağından necə arxayın ola bilərsiniz? Sən əsla Rəsulullaha (s.ə.s.) qarşı israr etmə, ona hər hansı bir məsələdə cavab qaytarmağa cəhd etmə və ondan küsmə. Nə istəyəcəksənsə məndən istə, arzunu yerinə yetirim."[32]

[31] M3695 Müslim, Təlaq, 34.
[32] B2468 Buxari, Məzalim, 25; M3695 Müslim, Təlaq, 34.

Həzrət Ömər qadınların həzrət Peyğəmbərlə rahat danışmalarından narahat olsa da, Allah Rəsulu bu məsələdə qadınlara qarşı çox mülayim və nəzakətli idi. Bir gün həzrət Ömər Rəsulullahın hüzuruna girmək üçün icazə istədi. Həmin əsnada Rəsulullahın yanında Qüreyş qəbiləsindən bir qrup qadın var idi, yüksək səslə danışır və Rəsulullahdan bəzi şeylər tələb edirdilər. Həzrət Ömərin içəri girmək üçün icazə istədiyini eşidən kimi dərhal susub bir küncə çəkildilər. Onların bu halını görən Peyğəmbərimiz gülməyə başladı. İçəri girən həzrət Ömər Peyğəmbərimizin niyə güldüyünü soruşanda Rəsulullah (s.ə.s.): "*Yanımdakı qadınların vəziyyəti mənə qəribə gəldi, sənin səsini eşitdikləri zaman dərhal örtülərinə büründülər*" – buyurdu. Həzrət Ömər: "Ey Allahın Elçisi, onların hörmət və ehtiramına sən daha layiqsən" – dedi və üzünü oradakı qadınlara tutub: "Ey nəfslərinin düşmənləri! Rəsulullahdan yox, məndən çəkinirsiz?", – deyə soruşdu. Qadınlar da: "Bəli, çünki sən Rəsulullahdan daha sərt və qəzəblisən", – deyə cavab verdilər.[33]

Qadınların həzrət Peyğəmbərin yanına girib-çıxma, ona sual vermə, problemlərini həll etməsini istəmə və s. kimi məsələlərdə rahat davranmaları Rəhmət Peyğəmbərinin onlara göstərdiyi nəzakət və anlayışdan irəli gəlirdi. Allah-Təala da "*(Ey Rəsulum!) Allahın mərhəməti səbəbinə sən onlarla (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından*

[33] B3294 Buxari, Bədul-xəlq, 11; M6202 Müslim, Fəzailus-səhabə, 22.

*dağılıb gedərdilər..."*[34] ayəsində məhz belə bir mərhəməti və nəzakəti anlatmışdır. Digər tərəfdən həzrət Peyğəmbər: "*Allahım! Mən iki zəifin: yetimin və qadının haqqına əl uzadılmasını qadağan edirəm*"[35] – buyuraraq yetim və qadın hüquqlarına riayət olunması məsələsinə böyük əhəmiyyət verdiyini, bu məsələyə əsla göz yummayacağını söyləmişdi. Bunu bilən xanımlar qarşılaşdıqları çətinlikləri, həll edə bilmədikləri məsələləri rahatlıqla, çəkinib sıxılmadan həzrət Peyğəmbərə danışırdılar. Belə ki, Ümmü Sələmə: "Kişilər döyüşə gedirlər, qadınlar isə döyüşə gedə bilmirlər. Üstəlik bizə mirasdan da yarım hissə verilir!" – deyərək şikayət etdikdə bu ayə nazil olmuşdu: "*Allahın (maddi, yaxud mənəvi cəhətdən) birinizi digərindən üstün tutduğu (birinizə digərinizdən artıq verdiyi) şeyi (özünüzə) arzulamayın. Kişilərin öz qazandıqlarından öz payı, qadınların da öz qazandıqlarından öz payı var. (Dilədiyiniz şeyi) Allahın lütfündən (mərhəmətindən) istəyin! Şübhəsiz ki, Allah hər şeyi (olduğu kimi) biləndir."*[36]

Bir digər səfərində Ümmü Ümarə: "Görürəm ki, Qur'anda hər məsələdə kişilərdən danışılır. Qadınların hər hansı bir şəkildə adının çəkildiyini görmürəm" – demiş, bunun müqabilində aşağıdakı ilahi cavab gəlmişdi: "*Həqiqətən, Allah məhz müsəlman kişilər və qadınlar, mömin kişilər və qadınlar, (Allaha) müti kişilər və qadınlar, doğru danışan kişilər və qadınlar, səbirli kişilər və qadınlar, təvazökar (yalnız Allah*

[34] Ali-İmran, 3/159.
[35] İM3678 İbn Macə, Ədəb, 6; HM9664 İbn Hənbəl, II, 440.
[36] ən-Nisa, 4/32; T3022 Tirmizi, Təfsirul-Qur'an, 4.

*qarşısında kiçilən) kişilər və qadınlar, sədəqə verən, oruc tutan kişilər və qadınlar, ayıb (övrət) yerlərini (zinadan) qoruyub saxlayan kişilər və qadınlar və Allahı çox zikr edən kişilər və qadınlar üçün (axirətdə) məğfirət (bağışlanma) və böyük bir mükafat (Cənnət) hazırlamışdır!"*[37]

Qadın səhabələr Rəsulullaha xüsusi günlərində necə paklanacaqları,[38] saç əlavə etməyin hökmü,[39] onlara qarşı xəsislik edən ərlərinin mallarından gizlicə istifadə edib-etməyəcəkləri[40] kimi bir çox fiqhi məsələ ilə əlaqəli sual vermişdilər. Həzrət Peyğəmbər həm bu cür dini-fiqhi məsələlərdə, həm də özəl həyatları ilə əlaqəli problemlərində daim qadınlara kömək etmişdi. Məsələn, həm Müaviyə, həm də Əbu Cəhm adlı səhabə Fatimə bint Qeysə evlənmə təklif etdiyi zaman Rəsulullah Müaviyənin kasıb, Əbu Cəhmin isə əli dəyənəkli olduğunu deyərək Fatiməyə xəbərdarlıq etmiş, Üsamə ibn Zeyd ilə evlənməsini tövsiyə etmişdi.[41]

Səhabə qadınların Peyğəmbərə yaxın olmağa çalışmalarının və ona suallar verməleri Qur'anı və sünnəni ən doğru şəkildə öyrənmə və yaşama arzusundan irəli gəlirdi. Onlar Qur'anı və sünnəni öyrənmə məsələsində kişi səhabələrdən geri qalmaq istəmirdilər. Gözəl nitqi ilə tanınan və buna görə "Qadınların xətibi" adlandırılan mədinəli xanım səhabə Əsma bint Yezid[42] bəzi xanımların nümayəndəsi kimi Allah

37 əl-Əhzab, 33/35; T3211 Tirmizi, Təfsirul-Qur'an, 33.
38 B314 Buxari, Heyz, 13; M750 Müslim, Heyz, 61.
39 B5941 Buxari, Libas, 85.
40 B2211 Buxari, Büyu', 95; M4477 Müslim, Əqziyə, 7.
41 M3697 Müslim, Təlaq, 36; T1134 Tirmizi, Nikah, 38.
42 Hİ7/498 İbn Həcər, İsabə, VII, 498.

Rəsulunun yanına gələrək kişilərin daim məlumatlandırıldığını bildirmiş, xanımlara da bir gün ayrılmasını tələb etmişdi. Əziz Peyğəmbərimiz (s.ə.s.) bu təklifə müsbət baxmış, xanımların Qur'an və sünnə mövzusunda maarifləndirilməsi üçün xüsusi bir gün ayırmışdı.[43] Bu xüsusi gündən başqa da xanımlar Məscidi-Nəbəviyə gələrək sübh namazı daxil olmaqla[44] gündəlik namazlarda iştirak edir, həzrət Peyğəmbərin xütbə və söhbətlərinə qulaq asırdılar.[45] "*Allahın qadın bəndələrinin Allahın məscidlərinə gəlmələrinə mane olmayın*"[46] – buyuran Peyğəmbərimiz qadınlar ilə məscid arasında divar hörülməsinə şəxsən müdaxilə etmişdir.

Rəsulullah dövründə xanımlar Peyğəmbəri nəyəsə qonaq etmək, ona pay vermək üçün həzrət Peyğəmbərin məscidinə və yaxud evinə gəlirdilər.[47] Məsələn, Abdullah ibn Abbasın xalası Ümmü Hüfeyd həzrət Peyğəmbərə kərə yağı, suyu süzülərək qurudulmuş qurut kimi qidalardan pay gətirmişdi.[48] Həzrət Aişənin xidmətçisi Bərirə isə ona verilən ətə Rəsulullahı da qonaq etmişdi.[49]

Qadınlar həzrət Peyğəmbərin yanına uşaqlarla gəlməkdən çəkinməzdilər. Məkkəli ilk müsəlmanlardan və mühacir qadınlardan olan Ümmü Qeys

[43] B7310 Buxari, İtisam, 9; M6699 Müslim, Birr, 152; AU25/73 Eyni, Ümdətul-qari, XXV, 73.
[44] B578 Buxari, Məvaqitus-səlat, 27.
[45] B98 Buxari, İlm, 32; M2045 Müslim, İdeyn, 2.
[46] B900 Buxari, Cümə, 13; M990 Müslim, Səlat, 136.
[47] T2037 Tirmizi, Tibb, 1.
[48] B2575 Buxari, Hibə, 7.
[49] B2577 Buxari, Hibə, 7; M2485 Müslim, Zəkat, 170.

bint Mihsən[50] körpəsi ilə birlikdə həzrət Peyğəmbərin yanına gəlmiş, Rəsulullah körpəni qucağında oturtmuşdu.[51] Bəzən Ümmü Züfər kimi düçar olduqları bir xəstəlikdən xilas olmaq üçün həzrət Peyğəmbərdən dua istəmək,[52] bəzən də şəhid anası Ümmü Harisə bint Süraqə kimi övladlarının axirət hallarını soruşmaq üçün[53] Rəsulullahın yanına gələn xanımlar var idi. Əziz Peyğəmbərimizin vəfatına səbəb olan xəstəliyi əsnasında da xanım səhabələr hər zaman üzlərinə açıq olan səadət evinin (xanəyi-səadət) qapısından bu dəfə də xəstə yatan Allah Rəsulunu ziyarət məqsədilə girmişdilər. Rəsulullahın onlardan ayrılmasına könülləri razı olmurdu. Buna görə həzrət Peyğəmbərə: "Ey Allahın Elçisi, bəlkə Allaha dua edəsən sənə şəfa verə!" – demişdilər.[54] Bütün bunlar Rəsulullahın dövründə xanımların müxtəlif vəsilələrlə həyatda aktiv şəkildə iştirak etdiklərini göstərən nümunələrdən yalnız bir neçəsidir.

Həm nazil olan Qur'an ayələri, həm də Allah Rəsulunun təyin etdiyi qayda-qanun sayəsində əsri-səadətdə xanımlar sanki vəhy çətiri altında qorunurdular. Abdullah ibn Ömərin bu etirafı vəziyyəti aydın şəkildə izah edir: "Peyğəmbər (s.ə.s.) dövründə haqqımızda vəhy nazil olar qorxusu ilə zövcələrimizə qarşı söz söyləməkdən və istədiyimiz kimi rəftar etməkdən çəkinirdik. Yalnız Peyğəmbər (s.ə.s.)

[50] Hİ8/280 İbn Həcər, İsabə, VIII, 280.
[51] B223 Buxari, Vüzu, 59; MU141 Müvəttə, Təharət, 30.
[52] B5652 Buxari, Mərza, 6; M6571 Müslim, Birr, 54.
[53] B2809 Buxari, Cihad, 14.
[54] HM27619 İbn Hənbəl, VI, 368.

vəfat etdikdən sonra istədiyimizi söyləməyə və rahat davranmağa başladıq."[55]

Qadınlar bəlkə də tarixin heç bir dövründə həzrət Peyğəmbər dövründə sahib olduqları dinclik və güvəni əldə edə bilmədilər. Yer üzünün xəlifəsi olmaqla daşıdıqları dəyəri bəşəriyyətə göstərmə, qabiliyyət, bilik və təcrübə potensialını cəmiyyətə təqdim etmə imkanları daim çətinliklə üzləşdi. Bununla əlaqədar olaraq illər və əsrlər keçdikcə qadının mövqeyinin mənfiyə doğru dəyişməsi və yuxarıda qeyd olunan ilahi mühafizəni itirən qadınların məruz qaldıqları çətinliklər həqiqətən də çox düşündürücüdür.

Qadın-kişi fərqi qoymadan ilahi vəhyin, eləcə də bu vəhyi onlara öyrədən həzrət Peyğəmbərin hər bir kəsi, xüsusilə də qadınları necə də mərhəmətlə qoruyub mühafizə etdiyini bu ümmət şüurlu şəkildə dərk edir. Həzrət Peyğəmbərin varlığı ümmət üçün bir rəhmətdir. Məhz buna görə də Rəsulullah vəfat edərkən arxasınca ağlayan Ümmü Eymənə: "Niyə ağlayırsan? Allah qatındakılar Rəsulullah (s.ə.s.) üçün daha çox xeyirlidir" – deyildiyi zaman o: "mən Allah qatındakıların Rəsulu (s.ə.s.) üçün daha xeyirli olduğunu bilmədiyim üçün ağlamıram. Mən əslində göydən enən vəhyin kəsilməsinə ağlayıram" – demişdi.[56]

İslamın gəlişi ilə birlikdə qadınlar cahiliyyə dövründə məhrum qaldıqları çox sayda ictimai və iqtisadi hüquqlara qovuşmuş, dəyər görmüş, hörmətə

[55] B5187 Buxari, Nikah, 81.
[56] M6318 Müslim, Fəzailus-səhabə, 103; İM1635 İbn Macə, Cənaiz, 65.

çatmışdılar. Xüsusilə İslam cəmiyyətinin formalaşdığı Mədinədəki qadınlar üçün həzrət Peyğəmbərin mövcudiyyəti, sanki ictimai bir zəmanət olmuşdu. Buna görə hər hansı bir haqsızlığa məruz qaldıqları zaman dərhal Rəhmət Peyğəmbərinin yanına getmələri də bir təsadüf deyildir. Onlar problemlərini dilə gətirdikləri müddətcə ilahi vəhy onların lehində həll yolu gətirir, zərərçəkən vəziyyətinə düşmələrinə icazə vermirdi. Beləliklə, əsrlər boyu cahiliyyə dövrü ərəb cəmiyyətində çox sayda əsas hüquqlardan məhrum edilən və özgələşdirilən qadınlar İslam sayəsində layiq olduqları etibarı qazanmışdılar.

# XANEYİ SƏADƏT: XOŞBƏXTLİK DOLU BİR YUVA

Allah Rəsulu hələ anadan olmamış atasını, altı yaşında isə anasını itirmişdi. Onu əvvəlcə babası, babasının vəfatından sonra isə əmisi himayəsinə almış, ailəsinin yoxluğunu hiss etdirməməyə çalışmışdılar. Əmisi və əmisinin xanımı onu öz övladlarından ayırmamış, onu daim şəfqət və mərhəmətlə himayə etmişdilər. Həzrət Peyğəmbərin əmisinin xanımı Fatimə bint Əsəddən “anamdan sonrakı anam” deyə söhbət açması[1] əmisinin və əmisinin xanımının onu həqiqi bir ailə mühitində böyütməyə çalışdıqlarını göstərirdi. Onların bu xoş niyyətli münasibətləri ana-ata sevgisi və qayğısından məhrum, yetim olaraq böyüyən həzrət Peyğəmbərin sonralar quracağı öz ailəsi üçün bir nümunə olacaqdı.

[1] MK21457 Təbərani, əl-Mü’cəmul-kəbir, XXIV, 351.

İyirmi beş yaşına gələndə ticarət karvanında işlədiyi Məkkənin zəngin iş qadınlarından olan Xədicə əxlaqı və dürüstlüyünə heyran olub ona evlənmək təklif etmişdi. Bu təklifi qəbul edən həzrət Muhamməd Xədicə ilə on beş il peyğəmbərlikdən əvvəl, on il də sonra olmaqla cəmi iyirmi beş illik xoşbəxt və firavan bir evlilik yaşamışdı.[2] İffətli bir xanımla şəfqətli bir yuva quran və bu xanımından övladları olan həzrət Peyğəmbər uşaqlığında məhrum qaldığı ailə mühitinə qovuşmuşdu. Həzrət Xədicə üçün sevimli bir həyat yoldaşı, övladları üçün isə şəfqətli bir ata idi o.

Ailə həyatında axtardığı rahatlığa qovuşan Peyğəmbərimiz bu dəfə mənəvi bir axtarış içərisinə girmişdi. Bu axtarış müddətində Məkkənin hər cür pis mühitindən uzaqlaşmaq üçün digər bəzi həniflər kimi inzivaya çəkilmiş, Hira mağarasına sığınmışdı. Vəfalı xanımı onu tək qoymamış, uzaq məsafədə olmasına baxmayaraq bəzən təfəkkür etməyə getdiyi bu mağaraya yoldaşı üçün hazırladığı tədarükü öz əlləri ilə aparmışdı. Bununla da kifayətlənməyərək vəhy təcrübəsində həyat yoldaşını ilk dəfə təsəlli edən də, ona ilk inanan da məhz həzrət Xədicə olmuşdu.

610-cu ilin Ramazan ayı idi. Muhamməd (s.ə.s.) "Allahın Rəsulu" olma şərəfinə layiq görülürdü. Hira mağarasında ilk vəhy gəlmişdi ona. Vəhy və Cəbrail

2 HS2/5 İbn Hişam, Sirət, II, 5.

ilə ilk qarşılaşmağın həyəcanı içərisində qalan Muhamməd (s.ə.s.) nə olduğunu başa düşməmiş və təlaşla xanımı həzrət Xədicənin yanına gəlmişdi. *"Ey Xədicə, mənə nə olub?"* – dedikdən sonra başına gələnləri danışaraq buna görə narahat olduğunu bildirdi. Həzrət Xədicə: "Xeyr! Vallah, Allah səni heç bir vaxt utandırmaz. Çünki sən qohumluq əlaqələrini möhkəm tutur, düz danışır, yardıma möhtac olan insanlara kömək edir, imkanı olmayana yardım edır, qonağını yaxşı qarşılayır və haqsızlığa məruz qalanları himayə edirsən" – sözləri ilə onu təsəlli etmişdi. Qorxuya düşən və təəccüb içərisində qalan Allah Rəsulu xanımının sevgi və qayğı dolu bu sözləri ilə bir az da olsa rahatlamışdı.[3]

Həzrət Peyğəmbərin belə narahat olduğu bir anda xanımının yanına üz tutması, bu halı onunla bölüşməsi, həzrət Xədicənin isə həyat yoldaşına verdiyi bu dəstək və təsəlli Peyğəmbərin (s.ə.s.) qurduğu ailə həyatının təbiətini təxəyyülümüzdə canlandırır əslində. Sevgi, hörmət, etibar və dəstək... Ailəni mövcudiyyətini qoruyub saxlayan ən əsas amillər. Rəsulullahın həzrət Xədicə ilə olan ailə həyatında bunların hamısı mövcud idi.

Əlbəttə aləmlərə rəhmət olaraq göndərilən və möminlər üçün ən gözəl nümunə olaraq təqdim edilən Allah Rəsulunun ailə həyatı da tərtəmiz olmalı idi. Bunu o özü məxluqatın ən xeyirli ailələrindən birinə mənsub olması şəklində ifadə etmişdi.[4]

[3] B3 Buxari, Bədul-vəhy, 1; M403 Müslim, İman, 252.
[4] T3607 Tirmizi, Mənaqib, 1.

*"Nikah mənim sünnəmdəndir. Kim mənim sünnəmə münasib hərəkət etməzsə məndən deyildir. Evlənin! Çünki mən (qiyamət günü digər) ümmətlərin yanında sizin çoxluğunuzla iftixar edəcəyəm..."*[5] – buyuraraq insanları evlənməyə, ailə qurmağa təşviq edən Allah Rəsulu ailə həyatı ilə də möminlərə nümunə olmuş, ailə həyatının bədən, ağıl və ruh sağlığı baxımından ər-arvad üçün bir varlıq məkanı, şəxsiyyətin tərəqqisi, inanc və dəyərlər, ədəb və yaxşı vərdişlər baxımından da uşaqlar üçün bir məktəb olduğu həqiqətini göstərmişdi.

Allah Rəsulu ailə fərdləri ilə səmimi rəftar edən, onlara dəyər verdiyini hiss etdirən, sevincləri ilə sevinən, kədərləri ilə kədərlənən bir ailə rəisi idi. Onlarla münasibətlərində sevgi, hörmət və nəzakətə əsaslanan səmimi və ahəngli bir metodu mənimsəmişdi. Belə ki, Allah Rəsulu: *"Sizin ən xeyirliniz, ailəsinə qarşı ən yaxşı rəftar edəninizdir. Mən də ailəmə qarşı ən yaxşı rəftar edəninizəm!..."* – buyuraraq möminlərə ailə həyatında xoşbəxtliyi tapa biləcəkləri yolu göstərirdi.

Sevgi, hörmət, şəfqət və mərhəmətin hökm sürdüyü bir ailə mühiti istəyən həzrət Peyğəmbər xanımlarının və övladlarının məntiqli istəklərinə laqeyd yanaşmazdı. Onlara dəyər verdiyini hiss etdirirdi. Belə ki, bir bayram günü həzrət Aişə həbəşlilər tərəfindən oynanan qalxan və mizraq oyununa baxmaq istəmiş Allah Rəsulu da onun xətrinə dəyməmişdi. Onun səmimi şəkildə istədiyi qədər bu oyuna

[5] İM1846 İbn Macə, Nikah, 1; B5063 Buxari, Nikah, 1.

baxmağına kömək etmişdi.[6] Bir yerə getmək istədikdə xanımından icazə alması,[7] ona verdiyi dəyəri göstərməsi baxımından diqqət çəkicidir.

Bəzən Allah Rəsulu xanımının fikrini almaq və məsələləri məsləhətləşmək yolu ilə xanımına verdiyi dəyəri göstərirdi. İlk vəhyin qorxu və həyəcanından xanımı həzrət Xədicənin köməyi ilə xilas olan Allah Rəsulu Hüdeybiyyə müqaviləsindən sonra yaşadığı bir problemi isə həyat yoldaşı Ümmü Sələmənin nəsihəti ilə həll etmişdi. Yalnız ümrə niyyəti ilə yola çıxan müsəlmanlarla onların ümrə etməsinə icazə verməyərək onları Məkkəyə girməyə icazə verməyən müşriklər arasında imzalanan Hüdeybiyyə müqaviləsinin ağır şərtləri səhabəyə o qədər mənfi təsir etmişdi ki, müqavilədən sonra qurbanlarını kəsib təraş olmalarını əmr edən Peyğəmbərlərin əmrinə heç kimsə əməl edə bilməmişdi. Bu hadisəyə çox kədərlənən Allah Rəsulu xanımı Ümmü Sələmənin yanına gedib baş verənləri danışaraq onların bu halını xanımı ilə məsləhətləşmişdi. Ümmü Sələmə: “Ey Allahın Rəsulu sən bunu həqiqətən də etmək istəyirsənmi? Elə isə çıx qurbanını kəsənə qədər və bərbərini çağırıb təraş olana qədər onlardan heç kiminlə tək bir kəlmə danışma” – deyərək ona çıxış yolu göstərmişdi. Zövcəsinin bu fikrinə uyğun hərəkət edən Peyğəmbərimiz (s.ə.s.) səhabələrinə nümunə olmuş, səhabə də onun etdiklərini yerinə yetirdikdən sonra[8] bu çətin və böhranlı anlar sovuşub getmişdi. Beləcə,

[6] B950 Buxari, İdeyn, 2.
[7] M3682 Müslim, Təlaq, 23.
[8] B2731 Buxari, Şürut, 15.

Rəsulullah xanımının dəstəyi ilə bu məsələni həll etmişdi.

Ailəsi ilə münasibətlərində sədaqətli idi Allah Rəsulu. İlk xanımı həzrət Xədicənin vəfatından sonra da onu tez-tez xeyirlə yad edərdi. Bir qoyun kəsdikdə onu mərhum xanımının sevdiyi insanlara hədiyyə edərək ona olan vəfasını ifadə edərdi.[9] Onun bu davranışı bəzən həzrət Aişənin həzrət Xədicəni qısqanmasına da səbəb olmuşdu. Belə ki, həzrət Aişə onu heç bir vaxt görməsə də Allahın cənnətdə köşk hazırladığı həzrət Xədicəni çox qısqandığını ifadə etmişdi.[10] Ondan tez-tez söhbət açan həzrət Peyğəmbərə bir dəfə: "Qüreyşin yaşlı xanımlarından çənəsinin içi (dişləri qalmadığına görə) qıpqırmızı, vəfat etmiş yaşlı bir qadını niyə bu qədər çox xatırlayırsan?! Halbuki, Allah sənə ondan daha yaxşısını bəxş etmişdir!" deyərək naz etmişdi.[11] Onun bu qısqanclığını anlayışla qarşılayan Allah Rəsulu ona belə demişdi: *"Uca Allah mənə Xədicədən daha xeyirli bir xanım bəxş etməmişdir. Bütün insanlar mənə inanmayanda o mənə inandı. Hamı məni inkar edəndə o təsdiq etdi. İnsanlar (köməklərini) məndən əsirgəyəndə o mənə malı ilə kömək etdi. Uca Allah mənə başqa qadınlardan deyil, ondan övlad nəsib etdi"*.[12]

Allah Rəsulu xanımların bir-birini qısqanmalarını anlayışla qarşılayırdı və meydana çıxan bəzi mənfi halları da bir şəkildə xoşluqla həll edirdi. Bir dəfə

[9] B6004 Buxari, Ədəb, 23.
[10] B5229 Buxari, Nikah, 109; M6277 Müslim, Fəzailus-səhabə, 74.
[11] B3821 Buxari, Mənaqibul-ənsar, 20; M6282 Müslim, Fəzailus-səhabə, 78.
[12] HM25376 İbn Hənbəl, VI, 118.

öz evində ikən Rəsulullaha xanımlarından birinin yemək göndərməsini qısqanan həzrət Aişə boşqabı gətirən xidmətçinin əlinə vurmuş, boşqab yerə düşərək qırılmış və yemək yerə dağılmışdı. Həzrət Peyğəmbər həmişəki sakit və kamil davranışı ilə yerə dağılanları yığmış və: *"Ananız qısqandı!"* – deyərək aranı yumşaltmışdı.[13] Həzrət Aişə isə etdiyinə peşman olmuş və Rəsulullaha: "Bu etdiyimin cəzası nədir?" – deyərək soruşmuş, Allah Rəsulu da: *"Boşqabın eynisindən və yeməyin eynisindən"* – cavabını vermişdi.[14]

Həzrət Peyğəmbərin digər xanımları arasında da bu cür hadisələr baş vermişdir. Həzrət Peyğəmbər xanımlarının bu səhv hərəkətlərinə kobud deyil, mülayim şəkildə cavab vermişdi. Məsələn, həzrət Peyğəmbərin çox sevdiyini bildikləri üçün səhabələri ona hədiyyə vermək istəyəndə həzrət Aişənin otağında ikən verərdi. Bu məsələ Rəsulullahın digər xanımlarını narahat etmişdi. Buna görə də Ümmü Sələmədən Rəsulullahın səhabəni bu barədə xəbərdar etməsini xahiş etdilər. Ümmü Sələmə hər dəfə Rəsulullahla bu barədə danışanda o (s.ə.s.), susmağı tərcih edərdi. Lakin bir gün nəhayət: *"Aişə haqqında (gileylənib) mənə əziyyət verməyin. Aişədən başqa heç bir qadının yatağındaykən mənə vəhy gəlmədi"*[15] – buyurdu.

Həcc səfəri əsnasında həzrət Peyğəmbərin xanımlarından Safiyyə bint Hüyeyin dəvəsi xəstələnmişdi.

[13] B5225 Buxari, Nikah, 108.
[14] D3568 Əbu Davud, Büyu ( İcarə), 89.
[15] B2581 Buxari, Hibə, 8.

Həzrət Zeynəbin yanında da artıq bir dəvəsi var idi. Rəsulullah həzrət Zeynəbdən artıq dəvəsini həzrət Safiyyəyə verməsini istədi. Lakin həzrət Zeynəb "Bu dəvəni o yəhudiyə verəcəm?", – deyə etiraz etmişdi. Onun sözünə qəzəblənən Rəsulullah (s.ə.s.) həzrət Zeynəbdən bir müddət küsdü.[16] Peyğəmbərimiz (s.ə.s.) həzrət Safiyyəni "yəhudi qızı" deyərək alçaldan həzrət Həfsəyə də Allahdan qorxmasını söyləmişdi. Ona deyilən bu sözlərdən narahat olduğunu dilə gətirən həzrət Safiyyəyə isə: *"Sən bir peyğəmbərin qızı mövqeyindəsən, əmin də peyğəmbər idi və hal-hazırda isə bir peyğəmbərin nikahındasan. Sənə qarşı hansı xüsusiyyətlərinə görə öyünürlər?"* – buyuraraq ona təsəlli vermişdi.[17]

Ailənin xoşbəxtlik və səadəti ərlə arvadın bir-birinə qarşı anlayışlı, səmimi olub orta yolda getmələri ilə mümkündür. Həyatın hər mərhələsində kədərli və xoşbəxt zamanlarında, sevinc və kədərli günlərində eyni hiss və həyəcanı yaşayaraq cütlərin bir-birinə dəstək olmaları və xüsusi bir vaxt ayıraraq üz-üzə söhbət etmələri, sonsuz bir xoşbəxtlik mənbəyidir. Buna görə də həzrət Peyğəmbər ailə fərdlərinin müxtəlif ruh hallarını, həssaslıqlarını, əxlaq və xarakterlərini nəzərə alır və lazım olduqda susaraq problemlərin öhdəsindən gəlirdi.

Ailəsinin onun üzərində haqqı olduğunu bilən Allah Rəsulu onlara vaxt ayırırdı. Buna görə də özünü daima ibadətə verərək ailəsinə qarşı etinasız və

[16] D4602 Əbu Davud, Sünnə, 3; HM25516 İbn Hənbəl, VI, 132.
[17] T3894 Tirmizi, Mənaqib, 63; HM12419 İbn Hənbəl, III, 136.

laqeyd davrananların onun sünnəsindən üz çevirmiş olacağını ifadə etmişdi.[18] Allah Rəsulu bəzən evinin işlərini görür və xanımına kömək də edirdi.[19] Rəsuli-Əkrəmin evindəki rəftarı haqqında həzrət Aişədən soruşulanda o, bunları demişdi: "O, normal bir insan idi. Libasını tikər, qoyununu sağardı".[20]

Rəsuli-Əkrəmi ən gözəl nümunə olaraq aləmlərə göndərən ilahi iradə cütlərarası münasibətlərdə bu mühüm tövsiyəni vermişdi: *"...Onlarla (xanımlarınızla) yaxşı rəftar edin. Əgər onlardan xoşunuz gəlməzsə (bilin ki) Allahın sizin haqqınızda çox xeyirli qılacağı bir şeydən də xoşunuz gəlməmiş ola bilər"*.[21] Bu ayədən ilham alan Rəsuli-Əkrəm də bu hikmət dolu sözlərlə insanlara səslənmişdir: *"Mömin insan möminə xanımına nifrət etməsin, (çünki) onun hər hansi bir xasiyyətini bəyənməsə də xoşuna gələn başqa bir xasiyyəti mütləq vardır"*.[22] Həmçinin Allah Rəsulu kişilərdən xanımlarına xoşgörülü rəftar etmələrini və onlar haqqında bir-birlərinə xeyri tövsiyə etmələrini istəmişdir.[23]

Allah Rəsulu dini, insani və sosial-siyasi bəzi səbəblərə bağlı olaraq bir neçə xanımla ailə qurmuşdur. Xanımları ilə münasibətlərində həmişə ədaləti qorumağa çalışırdı. Səfərə çıxmağa hazırlaşanda xanımları arasında püşk ataraq özü ilə hansını götürəcəyini təyin edərdi.[24] Digər vaxtlarda isə hər xanımı-

[18] D1369 Əbu Davud, Tətəvvü', 27; DM2200 Darimi, Nikah, 3.
[19] B5363 Buxari, Nəfaqat, 8.
[20] EM541 Buxari, əl-Ədəbul-müfrəd, 190.
[21] ən-Nisa, 4/19.
[22] M3645 Müslim, Rada, 61.
[23] B5186 Buxari, Nikah, 81.
[24] B2593 Buxari, Hibə, 15.

na aid təyin olunmuş bir gün və gecələrini ayıraraq onunların qayğısına qalırdı. Həzrət Aişə onun bu həssaslığını və nəzakətli davranışını belə nəql edir: "Rəsulullah yanımızda qalma müddətinə görə aramızda heç bir fərq qoymazdı".[25] Həzrət Peyğəmbərin bu nəzakətini dərk edən seçilmiş xanımları da onu razı etmək üçün yarışırdılar. Belə ki, bir az yaşlı olan[26] həzrət Sevda Rəsulullahın həzrət Aişəyə olan sevgisini bildiyi üçün onun razılığını əldə etmək məqsədilə öz növbəsini həzrət Aişəyə vermişdi.[27]

Rəsulullah haqqında həzrət Aişədən rəvayət edilən "Xanımlarından birini öpdü və dəstəmaz almadan namaza çıxdı"[28] tərzindəki ifadələr hər nə qədər hədis kitablarımızda dəstəmazla əlaqədar olaraq rəvayət edilmişdirsə də əslində bu Rəsulullahın evində xanımlarına qarşı isti münasibətini və sevgisini göstərən mühüm bir təfərrüatdır.

Allah Rəsulu xanımlarını qoruyur, onlara da özünə də pislik gəlməsindən çəkinirdi. Bir gecə itiqafda ikən həzrət Safiyyə onun yanına baş çəkməyə gəlmişdi. Onun yanından çıxarkən Allah Rəsulu onu otağına qədər ötürmək üçün ayağa durdu. Məscidin qapısına yaxınlaşanda ənsardan iki nəfər onlara salam verib sürətlə oradan uzaqlaşdılar. Həzrət Peyğəmbər onlara yavaş getmələrini söyləyərək onların səhv başa düşmələri ehtimalına qarşı: *"Tələsməyin! Bu (yanımdakı həyat yoldaşım) Safiyyə bint*

[25] D2135 Əbu Davud, Nikah, 37-38.
[26] M3629 Müslim, Rada, 47.
[27] B2593 Buxari, Hibə, 15.
[28] D179 Əbu Davud Təharət, 68.

*Hüyeydir"* – deyə izahat vermişdi. Səhabələr belə bir izahata ehtiyac olmadığını söyləməsinə baxmayaraq Allah Rəsulu şeytanın onları şübhəyə salmasından narahat olduğunu bildirmişdir.[29] Bu hadisə Rəsulullahın ailə şərəfi məsələsindəki həssaslığının gözəl bir nümunəsidir.

Həzrət Peyğəmbər ailə fərdlərinə heç bir vaxt təzyiq göstərməz və onlara güc tətbiq etməzdi. Alçaldıcı və can sıxıcı sözlər, tənqid etmək və döymək kimi qüruru zədələyən yollara əl atmazdı. Həzrət Aişənin rəvayət etdiyinə görə "Rəsulullah (s.ə.s.) Allah yolunda cihad etmək xaric heç kimi əli ilə vurmamışdır. Nə bir qadını, nə də bir xidmətçisini!..."[30] Əksinə, bəzən şərəfləndirmək üçün onlarla nəzakətlə rəftar edirdi. Onu yeməyə dəvət edən qonşusunun dəvətini ancaq həyat yoldaşını da çağırarsa qəbul etməsi,[31] onun bu nəzakətli və düşüncəli rəftarlarından biridir. Həzrət Peyğəmbər səhabələrindən də ailələri ilə münasibətlərində eyni həssaslığı göstərmələrini istəmişdir. Belə ki, Səid ibn Həkimin rəvayət etdiyinə görə babası Müaviyə əl-Qüşeyrinin: "Xanımlarımız haqqında bizə nə məsləhət görürsünüz?" – sualına Allah Rəsulu belə buyurmuşdur: *"Yediklərinizdən onlara da yedirin, geyindiklərinizdən onlara da geydirin, onları döyməyin və alçaltmayın"*.[32]

Həzrət Peyğəmbərin ailə həyatındakı məişət xərcləri də çox sadə idi. O, əlində olanı daima biri ilə

[29] B6219 Buxari, Ədəb, 121.
[30] M6050 Müslim, Fəzail, 79.
[31] M5312 Müslim, Əşribə, 139.
[32] D2144 Əbu Davud, Nikah, 40-41.

bölüşdürməyə çalışır, səhabələrinə və ailə fərdlərinə fani dünyanın müvəqqəti oluşunu və axirət həyatının əbədiliyini başa salır, lazımsız xərcləmələrdən və göstərişdən uzaq sadə bir həyat tərzi yaşamağı tövsiyə edirdi. Özünün və ailəsinin dolanışığı ilə əlaqədar olaraq: *"Allahım! Muhamməd ailəsinin ruzisini keçinəcək qədər elə"* – deyərək dua edərdi.[33] Mədinəyə hicrət etdiyi gündən vəfatına qədər həzrət Peyğəmbər və ailəsinin üç gün müntəzəm olaraq buğda çörəyi yemədiklərini[34] və bir ay boyunca yemək bişirmək üçün heç ocaq yandırmadıqlarını, azuqələrinin yalnız quru xurma və sudan ibarət olduğunu bildirən həzrət Aişə[35] Rəsulullah vəfat etdikdə otaqlarında bir parça arpadan başqa azuqə olmadığını xəbər vermişdir.[36]

Yuxarıda da qeyd etdiyimiz kimi hər ailədə olduğu kimi Rəsulullahın evində də bəzən mübahisələr, yaxud xanımlarının mənfi davranışlarından meydana çıxan problemlər meydana çıxırdı. Rəsulullah belə vəziyyətlərdə həmişə səbrlə davranırdı. Hər şeydən əvvəl onun sevgi mehi əsən evində meydana gələn ailə içi problemlər danışılaraq həll edilirdi. Bəzən isə vəhyin birbaşa müdaxiləsi hadisəni həll edirdi. Məsələn, Allah Rəsulunun xanımlarından bəziləri onun seçdiyi bu təvazökar həyatla razılaşmayaraq həzrət Peyğəmbərə daha yaxşı şərtlər altında yaşamaq istədiklərini bildirmişdilər. Onların

[33] M7440 Müslim, Zöhd, 18; B6460 Buxari, Riqaq, 17.
[34] B6454 Buxari, Riqaq, 17; M7443 Müslim, Zöhd, 20.
[35] M7449 Müslim, Zöhd, 26.
[36] B6451 Buxari, Riqaq, 16; M7451 Müslim, Zöhd, 27.

bu hərəkətləri Allah Rəsulunu o qədər kədərləndirmişdir ki, bir ay xanımlarından uzaq qalmışdı. Çox keçməmiş bu problemi həll edən və Rəsulullahın xanımlarına dünya ilə axirət arasında seçim sərbəstliyini verən ayə nazil oldu: *"Ey Peyğəmbər! (Artıq xərclik və pal-paltar istəyən) zövcələrinə belə de: "Əgər siz dünya həyatını və onun dəbdəbəsini istəyirsinizsə, gəlin sizə talaq haqqınızı verim və (sonra da) gözəl bir tərzdə (Allahın buyurduğu qayda üzrə) boşayım! Yox, əgər Allahı, Onun Rəsulunu və axirət yurdunu istəyirsinizsə, (bilin ki) Allah içərinizdən yaxşı işlər görənlər üçün böyük bir mükafat (Cənnət) hazırlamışdır".*[37] Allah Rəsulu başda həzrət Aişə olmaqla bütün xanımlarına Allahın bu əmrini bildirdi və seçim eləmələrini istədi. Əməllərinin səhv olduğunu başa düşən xanımların hər biri dünya malı istəklərindən əl çəkib Allahı, Rəsulunu və axirət yurdunu tərcih etdiklərini söylədilər.[38]

Sevgi dolu bir həyat yoldaşı olan Allah Rəsulu bir ata olaraq da çox şəfqətli və mərhəmətli idi. Uşaqları sevindirməyi çox sevərdi. Qızı həzrət Fatimə yanına gələndə onun üçün ayağa durar, əlindən tutar, onu öpər və öz yerində oturdardı. Həzrət Peyğəmbər də Fatimənin evinə gedəndə Fatimə dərhal ayağa durar atasının əlindən tutar, onu öpər və öz yerində oturdardı.[39] Övladlarını çox istəyən Allah Rəsulu gözlərinin qarşısında oğlu İbrahimin can verməyə başladığını gördükdə gözləri dolmuş və belə demişdi: "Göz

[37] əl-Əhzab, 33/28-29.
[38] B4786 Buxari, Təfsir, (Əhzab) 5; M3681 Müslim, Təlaq, 22; TT20/251 Təbəri, Cami'ul-bəyan, XX, 251.
[39] D5217 Əbu Davud, Ədəb, 143, 144; T3872 Tirmizi, Mənaqib, 60.

yaşarar, qəlb kədərlənir. (Lakin) Biz Rəbbimizin razı olacağı şeylərdən başqasını söyləmərik. Vallah, ey İbrahim, biz sənin üçün həqiqətən kədərlənirik”.[40]

Uşaqların tərbiyəsinə xüsusilə nəzarət edən Rəsulullah onları incitməməyə diqqət edər, onlara qarşı şəfqətlə rəftar edər, xəbərdarlıqlarını belə mülayim şəkildə edərdi. Bir gün həzrət Peyğəmbər xanımı Ümmü Sələmənin əvvəlki həyat yoldaşı Əbu Sələmədən olan oğlu Ömərin yemək yeyərkən əlini boşqabın hər tərəfinə uzatdığını gördükdə “Cavan oğlan, bismillah de, sağ əlinlə ye və öz qarşından ye!”[41] buyuraraq xəbərdarlıq etmişdi. Ənəs ibn Malikə də belə bir məsləhət vermişdi: “Oğlum, ailənin yanına gedəndə salam ver. Bu sənin və ev xalqın üçün bərəkət olar”.[42] Allah Rəsulu ailə fərdlərin ibadətlərini tez-tez xatırladaraq həm təbliğ vəzifəsini yerinə yetirir, həm də onların ibadətlərini yerinə yetirməkdə ehmalkar davranmamasını istəyirdi. Çünki Qur’an həzrət Peyğəmbərə dünya həyatının dəbdəbə və cazibəsinə bağlanmamasının zəruriliyini, ona bəxş edilən nemətin xeyirli və daimi olduğunu bəyan etdikdən sonra[43] belə əmr etmişdir: *“Əhlinə (əhli-beytə və ümmətinə) namaz qılmağı əmr et, özün də ona (namaza) səbrlə davam et (yaxud məişət çətinliklərinə döz). Biz səndən ruzi istəmirik, (əksinə) sənə ruzi verən Bizik. (Gözəl) aqibət təqva sahiblərinindir (müttəqilərindir)!”*[44] Həzrət Peyğəmbər ailə fərdlərinə bu mövzularda da

[40] M6025 Müslim, Fəzail, 62.
[41] B5376 Buxari, Ətimə, 2.
[42] T2698 Tirmizi, İstizan, 10.
[43] Taha, 20/131.
[44] Taha, 20/132.

təzyiq göstərmirdi. Bütün bunları münasib bir üslubla xəbər verirdi. Belə ki, Ənəs ibn Malik onun ailə fərdlərini namaza dəvət edişini belə nəql edir: "Rəsulullah (s.ə.s.) altı ay boyu sabah namazına çıxanda Fatimənin qapısına gedib: *'Haydı, namaza, ey ev əhli!'* – dedi və: *'Ey Peyğəmbərin ev əhli! Allah sizdən yalnız günah kirini təmizləmək və sizi tərtəmiz etmək istəyir'*[45] – ayəsini oxudu".[46]

Rəsuli-Əkrəm övladlarının və nəvələrinin danlanmasını və alçaldılmasını heç bir vaxt istəməz, səbir göstərərək onların tərbiyələndirilməsini gözləyərdi. Bir dəfə həzrət Peyğəmbərin qucağına nəvəsini verən Ümmul-Fəzl Rəsulullahın üstünü islatdığını gördükdə uşağın çiyninə vurmuşdur. Rəhmət və Mərhəmət Peyğəmbəri (s.ə.s.): *"Oğlumun canını incitdin, Allah xeyirini versin!"* – buyurmuşdu.[47]

Hər mövzuda müsəlmanlara və bütün bəşəriyyətə nümunə olan Allah Rəsulu istər həyat yoldaşı, istər ata, istərsə də baba olaraq ailə həyatının necə olacağını yaşayaraq göstərmiş, öyrətmiş: *"Mən ailəmə qarşı ən xeyirli olanınızam"* – sözünü[48] həyat tərzi ilə təsdiqləmişdir. Onun ailə həyatına şahid olan səhabələrinin nəql etdikləri də bu həqiqəti təsdiqləyir. Neçə il Rəsulullahın qulluğunda duran və onun həyat tərzini yaxından müşahidə etmə imkanına sahib olan Ənəs ibn Malikin: *"Ailəsinə qarşı Rəsulullahdan (s.ə.s.)*

[45] əl-Əhzab, 33/33.
[46] T3206 Tirmizi, Təfsirul-Qur'an, 33; HM14086 İbn Hənbəl, III, 285.
[47] İM3923 İbn Macə, Təbirur-rüya, 10; HM27416 İbn Hənbəl, VI, 340.
[48] T3895 Tirmizi, Mənaqib, 63; İM1977 İbn Macə, Nikah, 50.

*daha şəfqətli olan kimsə görmədim"*[49] – ifadəsi bunlardan yalnız biridir. Yüksək əxlaqa malik olan və ailə fərdlərinə qarşı mülayim rəftar edənləri "möminlərin iman baxımından ən mükəmməl olanı"[50] adlandıran Allah Rəsulu məsələnin iman yönünə də diqqət çəkmək istəmişdir. Çünki mömin ən yaxını olan ailəsinə mərhəmət, şəfqət, və anlayışla yanaşar, onların haqq və hüquqlarına riayət edərsə imanının nəticəsi olan gözəl əxlaqla bəzənmiş olacaqdır. Bunun nəticəsində də cəmiyyətdə sağlam münasibətlər inkişaf edəcək, xoşbəxt ailələrdən təmiz nəsillər yetişəcəkdir.

[49] ST1/136 İbn Səd, Təbəqat, I, 136.
[50] HM25184 İbn Hənbəl, VI, 100.

## YEGANƏ NARAHATLIĞI ÜMMƏTİYDİ

Rəsulullah (s.ə.s.) Mədinəyə getmək üçün Məkkədən yola çıxmışdı. Yanındakı məşhur səhabələrdən Səd ibn Əbu Vəqqas səyahət əsnasında yaşadığı bir xatirəsini belə nəql edir: "Azvərəyə yaxınlaşanda Rəsulullah minik heyvanından endi. Əllərini qaldırıb Allaha bir müddət dua etdikdən sonra səcdəyə qapandı və uzun müddət səcdədə qaldı. Sonra ayağa qalxdı, əllərini qaldırıb bir müddət yenə dua etdi və sonra yenə səcdəyə gedib uzun müddət səcdədə qaldı. Sonra yenə qalxdı, əllərini qaldırıb yenə bir müddət Allaha dua etdikdən sonra yenə səcdəyə qapandı. Daha sonra isə Rəsuli-Əkrəm belə buyurdu: "*Mən Rəbbimə dua etdim və ümmətim üçün şəfaət etmək istədim. Mənə ümmətimin üçdə birini bağışladı. Buna görə Rəbbimə şükür etmək üçün səcdə etdim. Sonra başımı qaldırıb ümmətim üçün (yenə) Rəbbimə dua etdim. Mənə ümmətimin üçdə birini də*

*bağışladı. Sonra Rəbbimə şükür etmək üçün (ikinci dəfə) səcdə etdim. Sonra başımı qaldırıb ümmətim üçün Rəbbimə (üçüncü dəfə) dua etdim. Buna görə mənə ümmətimin son üçdə birini də bağışladı. Rəbbimə şükür etmək üçün (üçüncü dəfə) səcdə etdim.*'"[1]

Belə bir davranışın sahibi ancaq bütün həyatını ümmətinin yaxşılığına həsr edən bir peyğəmbər ola bilərdi. Ümmətindən heç bir insanın mərhəmətdən uzaq qalmasına könlü razı deyildi və isti qumlara üzünü qoyarkən bütün istəyi onları alovdan uzaq tutmaq idi. Elə bu istək nəticəsində Uca Allah həzrət Peyğəmbərə ümmət olan, tövhidə inanan, müxtəlif günahlar işləmiş olsa da şirk qoşmayan möminlərdən istədiyini bağışlayacaqdı.[2]

Allah Rəsulu ümmətinə olan misilsiz sevgi və mərhəməti nəticəsində dünya və axirət səadəti üçün onlara tövsiyə edirdi. Bəzən verdiyi xəbərin vacibliyindən asılı olaraq həyəcanlanır, gözləri qızarır, səsi yüksəlir, sanki bir orduya düşmənin təhlükəsini xəbər vermiş kimi coşardı.[3] Bir dəfə özü ilə ümmətinin münasibətini belə izah etmişdi: "*Mənimlə ümmətimin arasındakı bağlılıq (gecə vaxtı) ocaq qalayan bir insanın halına oxşayır. Böcəklər və kəpənəklər o ocağa düşməyə başlayar. Mən isə siz ocağa düşərkən*

[1] D2775 Əbu Davud, Cihad, 162.
[2] ən-Nisa, 4/116.
[3] M2005 Müslim, Cümə, 43.

*belinizdən tutub çıxarmağa çalışıram.*"[4] Rəhmət Elçisinin ümmətinə olan bağlılığını Uca Rəbbimiz belə ifadə etmişdir: "*And olsun sizə öz aranızdan elə bir Peyğəmbər gəlmişdir ki, sizin dara düşməyiniz onu çox narahat edər. O, sizə çox bağlı, möminlərə qarşı rauf (çox şəfqətli) və rəhim (çox mərhəmətli)dir*".[5] Allah ümmətinə olan bu şəfqətinə görə onu öz adlarından "rauf və "rəhim" adlandırdı.

Allah, Elçisinin mərhəmətinə öz mərhəməti kimi bir məna verdi. Mərhəmətini mərhəmətinə qatdı, mərhəmətilə birlikdə xatırladı: "*(Ey Rəsulum!) Allahın mərhəməti səbəbinə sən onlarla (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) yumşaq rəftar etdin.*"[6] Allah Rəsulunun ümmətinə olan bağlılığı əslində risalətin ayrılmaz bir hissəsidir, başqa cür ola da bilməz. "*Sənə tabe olan möminləri qanadının altına al! (Onlarla yumşaq davran, nəzakətlə rəftar et, köməklərinə çat!)*"[7] şəklindəki ilahi əmr nübüvvət vəzifəsinə şəfqət qarışdırmaq tələbini göstərməklə yanaşı Allah Rəsulunun möminlərə qarşı qəyyumluq vəzifəsini də vurğulayır. Himayə edən, ancaq bununla yanaşı təvazökar və mərhəmətli bir ünsiyyətdir bu. Bu şəfqətə heç bir dünyəvi mənfəət və qayğı qarışmamışdır. "*... Möminlərə qarşı təvazökar ol!*"[8] şəklindəki əmr cümləsi əslində Rəsulullahın ümməti ilə olan münasibətini tərif edir.

4 M5955 Müslim, Fəzail, 17.
5 ət-Tovbə, 9/128.
6 Ali-İmran, 3/159.
7 əş-Şuara, 26/215.
8 əl-Hicr, 15/88.

Rəsuli-Əkrəmin ümmətinə bağlılığı onların Allaha yaxınlıqlarına görə idi. Çünki burada təyinedici olan və münasibətlərə şəkil verən peyğəmbərlik vəzifəsi idi. Şəxsi sevgisi ilə peyğəmbərlik vəzifəsi sanki birləşmişdi. Bir həqiqət olaraq peyğəmbərliyi Allahın insanlara bir rəhməti idi və insanlara olan şəfqətinin də meyarı idi. "*Müşriklərin cəhənnəmlik olduqları (müsəlmanlara) bəlli olduqdan sonra onlarla qohum olsalar belə, Peyğəmbərə və iman gətirənlərə onlar üçün bağışlanma diləmək yaraşmaz!*"[9] ayəsi bağışlanma və mərhəmət ilə iman arasındakı münasibəti çox güclü şəkildə vurğulayır. Bunun əksinə, inananlar üçün Rəbbindən məğfirət diləmək nəbəvi bir zərurətdir. "*(Ey Rəsulum!) Bil ki, Allahdan başqa heç bir tanrı yoxdur. (Ondan) həm öz günahlarının, həm də mömin kişilərin və qadınların bağışlanmasını dilə...*"[10] Belə ki, məğfirət diləyərkən möminləri özündən ayırmayan Allah Rəsulu axirətdə: "*Ya Rəbb! Ümmətim, ümmətim!*" – deyərək ümmətinin bağışlanmasını istəyəcəkdir.[11]

Əbu Hüreyrənin rəvayət etdiyinə görə həzrət Peyğəmbər (s.ə.s.) bir gün məzarlığa getmişdi. Orada yatanlara: "*Salam sizə ey möminlər diyarının sakinləri! Biz də İnşallah sizin aranıza qatılacağıq*", – deyərək salam verdikdən sonra sözlərinə belə davam etdi: "*Qardaşlarımızı (dünyada) görməyi çox istəyərdim*". Səhabələr: "Məgər biz sənin qardaşların deyilik, ey Allahın Rəsulu?", – deyə soruşdular. "*Siz mənim*

[9] ət-Tövbə, 9/113.
[10] Muhamməd, 47/19.
[11] B7510 Buxari, Tövhid, 36; M479 Müslim, İman, 326.

*səhabələrimsiniz*" cavabını verdi və belə davam etdi: "*Qardaşlarım isə hələ dünyaya gəlməyənlərdir.*" Səhabələr: "Sənin ümmətindən olub hələ dünyaya gəlməyənləri necə tanıyacaqsan, ey Rəsulullah?", – deyə soruşdular. Peyğəmbərimiz bu suala "*Sizcə bir adamın qara bir at sürüsü içərisində alınlarında və ayaqlarında ağ yerləri olan atları olsa öz atlarını tanımazmı?*" deyə suala cavab verdi. Səhabələr "Bəli (tanıyar), ey Allahın Rəsulu" dedilər. Rəsuli-Əkrəm (s.ə.s.) "*Onlar da (qiyamət günü) dəstəmaz aldıqlarına görə alınları və ayaqları nurlu halda gələcəklər. Mən hovuza onlardan əvvəl çatacağam...*" buyurdu.[12]

O, Rəhmət Peyğəmbəri idi və öldürmək üçün deyil, diriltmək üçün var idi. Məqsədi həyat verən təbliğini canlara toxundurmaq idi. Artıq canlar ona yaxın, o canlara daha yaxın olacaqdı. Belə ki, möminlərə canlarından daha yaxın idi. "*Peyğəmbər möminlərə öz canlarından daha yaxındır. Xanımları onların analarıdır...*"[13] ayəsi Rəsulullahın ümməti ilə arasındakı ünsiyyətə ilahi bir nizam gətirirdi. Buna görə həzrət Peyğəmbərin ümmətinə olan sevgisi mücərrəd bir emosionallıqdan ibarət olmadığı kimi uxrəvi nicatla da məhdud deyildi. Çünki O (s.ə.s.), onları həm maddi, həm mənəvi baxımdan dəstəkləyirdi. Müqəddəs Elçi insanların qəlblərinə imanı pıçıldamış, kök salan iman möhkəm qalalara çevrilmişdi onsuz da. Həzrət Peyğəmbərin (s.ə.s.) varlığı elə tək başına bir etibar mənbəyi idi və duası uxrəvi nigarançılıqlarını ortadan qaldırırdı. "...*Onlardan ötrü*

[12] M584 Müslim, Təharət, 39.
[13] əl-Əhzab, 33/6.

*dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır (rahatlıqdır). Allah (hər şeyi) eşidəndir, biləndir."*[14]

Əlbəttə, onun duası da möminlər üçün bir rəhmət idi və ümmətini duasının bərəkətindən məhrum qoymamaq üçün əlindən gələni edərdi. Aləmlərə rəhmət olan Allah Rəsulu[15] ümməti üçün rəhmət mənbəyi olan duasını onlardan əsirgəmir və həm dünya, həm də axirət üçün etdiyi dualarında onlara yer verirdi.[16] Bir gün Rəsulullah (s.ə.s.) səhabələri ilə yolda gedərkən yeni bir məzar gördü. Məzarın kimə aid olduğunu soruşdu. Onlar da: "Filan oğullarının azadlısı filan qadınındır" – dedilər. Rəsulullah (s.ə.s.) qadını tanımışdı. "Günorta vaxtı vəfat etmişdi. Siz günorta yuxusunda idiniz, biz də onun üçün səni oyatmaq istəmədik" – dedilər. Bunu eşidən Rəsulullah (s.ə.s.) oradakıların arxasında cərgəyə düzülmələrini istədi və dörd təkbir alaraq qadına cənazə namazı qıldırdı. Sonra da belə buyurdu: "*Nə qədər ki mən həyatdayam kimsə vəfat edəndə mütləq mənə xəbər verin. Mənim o insana cənazə namazı qıldırmağım onun üçün rəhmətdir."*[17] Bir dəfə də səhabədən Cərir ibn Abdullah at üstündə otura bilməməyindən şikayət etmişdi. Allah Rəsulu onun sinəsinə yavaşca vurmuş və: "*Allahım bunu sabit elə. Onu həm doğru yolu göstərən həm də doğru yolda olan bir insan elə!*", – deyə dua etmişdi.[18]

[14] ət-Tovbə, 9/103.
[15] əl-Ənbiya, 21/107.
[16] B1006 Buxari, İstisqa, 2; M4675 Müslim, Cihad və siyər, 129; D2606 Əbu Davud, Cihad, 78.
[17] N2024 Nəsai, Cənaiz, 94; İM1528 İbn Macə, Cənaiz, 32.
[18] M6366 Müslim, Fəzailus-səhabə, 137; B3020 Buxari, Cihad, 154.

Ümmətilə münasibətində sosial səviyyənin hər hansı bir dəyəri və etibarı yox idi. Bir qəbilə rəisi yaxud bir kölə... İstiğfar kimi mənəvi bir addımda möminləri öz canından ayırmayan həzrət Peyğəmbər (s.ə.s.) qurban kəsərkən də ümmətini unutmamış və buynuzlu bir qoçu qurban etdikdən sonra belə buyurmuşdu: "*Bu qurban məndən və ümmətimdən qurban kəsə bilməyənlərin adındandır.*"[19]

Peyğəmbərimizin "*Uca Allahın Kitabında (da xəbər verildiyi üzrə) mən möminlərin birinci dərəcəli vəlisiyəm...*"[20] sözünə qulaq asarkən insan Müzər qəbiləsindən gələnlərin pərişan olduqlarını görəndə onun necə təsirləndiyini xatırlayır. Onların bu yazıq, ac, möhtac və yoxsul hallarını görəndə üzünün rəngi necə də dəyişmişdi. Sadə əbalarını başlarına çəkib ayaqyalın çıxıb gələn bu kasıb insanlar üçün səhabələrini dərhal səfərbər etmişdi. Yardımlar toplanmağa başlayanda sevinci dərhal üzündən oxunmuşdu. Cəririn ifadəsilə qızıl suyuna çəkilmiş kimi işıq saçmışdı üzü.[21]

Həzrət Peyğəmbər "*Mən dünyada və axirətdə hər möminin birinci dərəcəli vəlisiyəm. İstəyirsinizsə 'Peyğəmbər möminlərə öz canlarından daha yaxındır' ayəsini oxuyun. Vəfatından sonra mal-dövlət qoyub gedən hər möminə (ata tərəfindən) qohumları mirasçı olsun. Əgər borcu, yaxud himayəyə möhtac uşaqları olarsa, mənim yanıma gəlsin. Çünki onun vəlisi mənəm*"[22]

[19] HM11066 İbn Hənbəl, III, 8.
[20] M4160 Müslim, Fəraiz, 16.
[21] M2351 Müslim, Zəkat, 69.
[22] B4781 Buxari, Təfsir, (Əhzab) 1.

sözü ilə cəmiyyətinin həqiqi qəyyumu olduğunu sərgiləmişdi. Allah Rəsulu beləcə, möminlərə onları nə qədər çox sevdiyini, onlara necə sahib çıxdığını, onların təkcə peyğəmbəri deyil, həm də vəlisi olduğunu bildirirdi. Elə bir vəli ki, məsuliyyətləri özü öhdəsinə götürərkən, haqları sahiblərinə verirdi. Bir dəfə borc mübahisəsinə şahid olmuşdu da borcunu ödəməkdə çətinlik çəkən Abdullah ibn Əbu Hədrədə yazığı gəldiyi üçün borc sahibi Kəb ibn Malikə borcunun yalnızca yarısını alması üçün əli ilə işarə etmişdi.[23] Bu davranışı möminlərə olan sevgisinin onların şəxsi və ictimai problemləri üçün də məsuliyyət və nüfuzundan istifadə etmə xüsusiyyətinə sahib olduğunu göstərir.

İnsanların böyük-kiçik bütün dərdlərini bölüşə biləcəkləri bir peyğəmbər var idi yanlarında. O, sosial mövqeyindən, azad-kölə, varlı-kasıblığından asılı olmayaraq hamı ilə maraqlanmış və dəvət edənin dəvətini qəbul etmişdi.[24] Xüsusən kasıblara, yetim və kimsəsizlərə laqeyd qalmamış, hətta bəzən İslamın ilk tələbələri olan kasıb Süffə əhlinin ehtiyaclarını öz övladlarınınkından əvvəl həll etmişdi.[25] Bəzən səhabələrindən gözünə dəyməyənlərin harada olduğunu soruşmuş[26], onların dərdlərinə qulaq asaraq həll etməyə çalışmışdı. Belə ki, Əbu Süfyanın xanımı bir gün Rəsulullahın yanına gəlib həyat yoldaşının xəsisliyindən şikayət etmiş və ondan icazə almadan

[23] B2706 Buxari, Sülh, 10; M3986 Müslim, Müsaqat, 21.
[24] M5316 Müslim, Əşribə, 142.
[25] HM838 İbn Hənbəl, I, 107.
[26] M2215 Müslim, Cənaiz, 71; B458 Buxari, Səlat, 72.

özü və uşaqları üçün onun pulundan xərcləməsinin hökmü haqqında soruşmuşdi. Peyğəmbərimiz (s.ə.s.) ona ənənəyə uyğun bir şəkildə ailəsi üçün xərclik götürməsində heç bir günah olmadığını söyləyərək problemini həll etmişdi.[27]

Allah Rəsulu ümmətinin şikayətləri ilə şəxsən maraqlanırdı. Xəstə olanlar da dərdlərini Sevimli Peyğəmbərimizlə bölüşür, o da qarşılığında onlara maddi və mənəvi müalicə üsulları təklif edirdi.[28] Xəstələrə baş çəkər və onlara Uca Allahdan şəfa diləyərdi.[29] Xəstə yatağındakı Səd ibn Übadəni görəndə göz yaşlarına hakim ola bilməmiş və ağlamışdı bir dəfə.[30] Sədə ağlayan müşfiq Peyğəmbər Biri-Məunə şəhidlərinin qətlinə necə dözsün? Ətraf qəbilələrdən müsəlman olduqlarını söyləyən və Əziz Peyğəmbərimizin istəklərini rədd etməyəcəyini təxmin edən bəzi şəxslər gəlmiş və ondan müəllim istəmişdilər. Allah Rəsulu da ənsardan yetmiş nəfər adamı onlarla birlikdə göndərmişdi. Lakin onlar yolda xəyanət edib həmin səhabələri vəhşicəsinə şəhid etmişdilər.[31] Həzrət Peyğəmbər (s.ə.s.) bu hadisəyə o qədər kədərlənmiş və qəzəblənmişdi ki, otuz gün sübh vaxtı həmin qəbilələrə bəddua etmişdi.[32] Hətta Allah Rəsuluna on il xidmət edən gənc səhabə Ənəs ibn Malik: "Mən Rəsulullahın (s.ə.s.) Biri-Məunə günü öldürülən yetmiş səhabəyə kədərləndiyi qədər

27 M4479 Müslim, Əqziyə 8.
28 B5684 Buxari, Tibb, 4; T2080 Tirmizi, Tibb, 29.
29 M5709 Müslim, Salam, 47.
30 B1304 Buxari, Cənaiz, 44; M2137 Müslim, Cənaiz, 12.
31 B3064 Buxari, Cihad, 184.
32 M1545 Müslim, Məsacid, 297; B4095 Buxari, Məğazi, 29.

heç bir hərbi dəstəyə kədərləndiyini görmədim" – demişdi.[33]

Ümmətinə qarşı həmişə anlayışlı idi və heç vaxt sərt rəftar etmirdi. Kobud və daş ürəkli deyildi.[34] Dinlərini öyrənmək üçün yaşadığı kənddən gələrək Mədinədə qonaq qalan bir qrupdakı Malik ibn Hüveyrisin bu xatirəsi həzrət Peyğəmbərin ürəyindəki şəfqəti açıq-aydın göstərir: "Rəsulullahın (s.ə.s.) yanına gəlmişdik. Təxminən eyni yaşda gənclər idik. İyirmi gecə onun yanında qaldıq. Rəsulullah (s.ə.s.) çox mərhəmətli və həlim xasiyyətli idi. Bizim ailələrimiz üçün darıxdığımızı hiss etdi və kimləri qoyub gəldiyimizi soruşdu. Biz də söylədik. Bunu eşidən kimi '*Ailələrinizin yanına qayıdın, onlarla birlikdə yaşayın (burada öyrəndiklərinizi) onlara da öyrədin və tətbiq etdirin. Namaz vaxtı girəndə biriniz azan oxusun, ən böyüyünüz də sizə imam olsun*' buyurdu".[35]

Həzrət Peyğəmbər (s.ə.s.) ümmətini çətinliyə salacaq hərəkətlərdən uzaq durardı. Dini həyatda belə onları bezdirməyəcək qədər həssas idi. Belə ki, bir dəfə belə buyurmuşdu: "*Bəzən uzun (bir qiraət ilə) qıldırmaq üçün namaza dururam. Tam o əsnada bir uşağın ağladığını eşidəndə anasına əziyyət olmaması üçün namazımı qısa qıldırıram*".[36] İşa namazını daha gec qılmalarını istədiyi halda sırf ümmətinə çətin gələcəyini düşündüyü üçün bunu əmr etməmişdi.[37] Həz-

[33] M1550 Müslim, Məsacid, 302; B6394 Buxari, Də'əvat, 58.
[34] Ali-İmran, 3/159.
[35] M1535 Müslim, Məsacid, 292; B631 Buxari, Azan,18.
[36] B707 Buxari, Azan, 65.
[37] B7239 Buxari, Təmənni, 9; M1445 Müslim, Məsacid, 219.

rət Aişə onun bəzi ibadətləri insanlar davamlı edərsə onlara fərz olacağından qorxduğu üçün imtina etdiyini söyləmişdi.[38] Belə ki, təravih namazını məsciddə camaatla qıldırmaqdan imtina etməsinin səbəbi də bu idi.[39] Onun bu fikirləri asanlaşdıran davranışlarına nə qədər də münasibdir!

Rəsulullah ümmətinin bütün işlərində dərdlərini bölüşmüş, onları azaltmağa, yüngülləşdirməyə çalışmışdı. Bu, peyğəmbərə xas bir mövqeydən qaynaqlanırdı. Asanlaşdıran olaraq göndərildiyini ifadə edərkən[40] bunu nəzərdə tutmuşdu, yəqin ki. O (s.ə.s.), eyni şəhərdə yaşadığı səhabələri üçün deyil, özündən sonra gələn ümməti üçün də narahat idi.[41] Zaman və məkan məhdudiyyəti tanımayan xəbərdarlıqları ümməti üçün daim yol göstərici oldu və olmağa da davam edəcək. "*Hər peyğəmbərin ümməti üçün etdiyi bir dua var. Mən duamı qiyamət günü ümmətimə şəfaət etmək üçün saxladım*"[42] cümləsi ümmətinin əmin-amanlığı üçün gələcəyə uzanan əbədi arzusunun axirətə ötürülməsi idi. Bu, onun hesab günü ümmətinin xilası üçün saxladığı, Allahın bağışlanma və məğfirətinə vəsilə olmasını dilədiyi duası idi. Əvvəlki hər peyğəmbərin yalnız öz qövmlərinə, özünün isə bütün bəşəriyyətə göndərildiyini söyləyəndə bununla yanaşı şəfaət haqqını da əlavə etmişdi.[43] Sanki bununla bütün bəşəriyyəti qucaqlamaq istəyirdi.

[38] B1128 Buxari, Təhəccüd, 5; M1662 Müslim, Müsafirin, 77.
[39] M1783 Müslim, Müsafirin, 177; B7290 Buxari, İtisam, 3.
[40] M3690 Müslim, Təlaq, 29.
[41] B7068 Buxari, Fitən, 6; B3792 Buxari, Mənaqibul-ənsar, 8.
[42] M494 Müslim, İman, 341.
[43] B438 Buxari, Səlat, 56; M1163 Müslim, Məsacid, 3.

Alnını yandıran qumların istiliyi ümmətinin bağışlanması müjdəsi ilə onun qəlbində cənnət sularının sərinliyinə çevrilirdi.